# QEYRİ-FORMAL MƏNTİQ

## Qeyri-formal Məntiqi Xətalar

Elmar Hussein

Bakı-2025

**Elmar Hüseynov** (Hussein) 1999-2003-cü illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində fəlsəfə ixtisası üzrə bakalavr təhsili alaraq onu fərqlənmə diplomu ilə tamamlamışdır. 2005-ci ildə BDU-da sosial fəlsəfə ixtisası üzrə magistr təhsilini də fərqlənmə ilə yekunlaşdıraraq 2005-2008-ci illərdə oranın Fəlsəfə kafedrasında tarix fəlsəfəsi üzrə elmi tədqiqat ilə məşğul olmuşdur. 2011-ci ildən etibarən bu kafedranın müəllimidir. 2023-cü ildən Azərbaycan Memarlıq və İnşaat Universiteti "Sabah" Mərkəzində də pedaqoji fəaliyyətlə məşğuldur. Müxtəlif vaxtlarda həmçinin Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Asiya Universiteti, Xəzər Universiteti və Bakı Avrasiya Universitetində müəllim kimi çalışıb. "Fəlsəfi yazılar" (2019), "Məntiq" (2020), "Fəlsəfənin əsasları" (2020), "Fəlsəfi yazılar II kitab: Mahiyyət, şüur və xalis xoşbəxtlik" (2021), "Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq" (2021), "Tarix fəlsəfəsi. Universal tarixi şüurun inkişaf dinamikası" (2022), "Aydınlanmaya aparan yol: teologiya, fəlsəfə, elm" (2023), "Tarix fəlsəfəsi II kitab: Universal tarixi proseslərə dair for-

masiya və sivilizasiya konsepsiyalarının müqayisəli analizi" (2023), "Elm fəlsəfəsi. Əxlaqi məsuliyyət və alternativ imkanlar. Frankfurta cavab" (2024) kitablarının, eləcə də Azərbaycan və Ukraynada nəşr edilmiş 12 elmi məqalənin, beynəlxalq və ölkə miqyaslı 9 konfrans materialının, 5 elmi-publisistik məqalənin müəllifidir. Özü tərəfindən yaradılmış "Elmar: Logos & Life" adlı YouTube kanalı vasitəsilə mütəmadi olaraq məntiq və fəlsəfəyə dair müxtəlif onlayn mühazirə və müzakirələr təqdim edir.

# MÜNDƏRİCAT


| | |
|---|---|
| **Ön söz** | **9** |
| **Fəsil 1. Qeyri-formal məntiq nədir?** | **15** |
| **Mövzu 1. Qeyri-formal məntiq və formal məntiq** | **15** |
| **Mövzu 2. Qeyri-formal məntiqi xəta** | **19** |
| **Fəsil 2. Uyğunluq xətaları** | **26** |
| **Mövzu 3. Qorxuya (və ya zorakılığa) müraciət (*Argumentum ad Baculum)*** | **27** |
| **Mövzu 4. Mərhəmətə müraciət (*Argumentum ad Misericordiam)*** | **41** |
| **Mövzu 5. Kütləyə müraciət (*Argumentum ad Populum*)** | **47** |
| **Mövzu 6. Şəxsin əleyhinə yönəlmə (*Argumentum ad Hominem)*** | **60** |

| | |
|---|---|
| **Mövzu 7. Təsadüf (*secundum quid)*** | **74** |
| **Mövzu 8. Saman adam** | **77** |
| **Mövzu 9. Mühüm olanı nəzərdən qaçırma (*Ignoratio Elenchi)*** | **81** |
| **Mövzu 10: Qırmızı siyənək** | **84** |
| **Mövzu 11. Adi biliyə müraciət** | **93** |
| **Mövzu 12. Genetik xəta** | **96** |
| **Mövzu 13. Ənənəyə müraciət** | **99** |
| **Mövzu 14. İki yanlış olan bir düzgün olanı doğurur** | **101** |
| **Mövzu 15. Pul kisəsinə müraciət (*Argumentum ad Crumenam)*** | **103** |
| **Mövzu 16. Əlverişsiz nəticələr** | **105** |
| **Mövzu 17. Şəxsi etimadsızlığa müraciət** | **110** |
| **Mövzu 18. İstehzaya müraciət** | **113** |

| | |
|---|---|
| **Mövzu 19. Xətadan irəli gələn arqument (*Argumentum ad logicam)*** | **116** |
| **Mövzu 20. Asanlıqla əldə edilə bilmə xətası** | **121** |
| **Mövzu 21. Baza norması** | **124** |
| **Mövzu 22. Sübutun yükü** | **132** |
| **Mövzu 23. Saysız saxtakarlıq etmə** | **137** |
| **Mövzu 24. Azaldılmış məsuliyyət** | **140** |
| **Mövzu 25. Mahiyyətləşdirmə** | **144** |
| **Mövzu 26. Qaliley qambit** | **148** |
| **Mövzu 27. Qumarbaz xətası** | **153** |
| **Mövzu 28. Tarixçinin xətası** | **159** |
| **Mövzu 29. Homunkul (*Homunculus*) xətası** | **168** |
| **Mövzu 30. Çaydan məntiqi** | **171** |

| | |
|---|---|
| **Mövzu 31. Xətt çəkmə** | **179** |
| **Mövzu 32. Yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlama** | **185** |
| **Mövzu 33. Qapi dirəklərinin yerini dəyişdirmə** | **194** |
| **Mövzu 34. Sirli, ona görə də sehirli** | **198** |
| **Mövzu 35. Naturalist xəta** | **204** |
| **Mövzu 36. Su quyusunu zəhərləmə** | **209** |
| **Mövzu 37. Həddindən artıq çox şeyi sübutetmə** | **213** |
| **Mövzu 38. Psixoloqun xətası** | **226** |
| **Mövzu 39. Hitlerə müraciət (Reductio ad Hitlerum)** | **235** |
| **Mövzu 40. Təkrarçılıqla qurulan arqument** | **238** |
| **Mövzu 41. Xüsusi tərəfkeşlik** | **243** |

| | |
|---|---|
| **Mövzu 42. Batmış xərc** | **247** |
| **Fəsil 3. Zəif induksiya xətaları** | **250** |
| **Mövzu 43. Avtoritetə istinad (*Argumentum ad Verecundiam*)** | **253** |
| **Mövzu 44. Zəif analogiya** | **256** |
| **Mövzu 45. Məlumatsızlığa istinad (*Argumentum ad İgnorantiam)*** | **268** |
| **Mövzu 46. Tələsik ümumiləşdirmə (Converse Accident)** | **275** |
| **Mövzu 47. Yalan səbəb** | **280** |
| **Mövzu 48. Sürüşkən yamac** | **293** |
| **Mövzu 49. Nəticələrə müraciət** | **298** |
| **Fəsil 4. Prezumpsiya xətalar** | **301** |
| **Mövzu 50. Başlanğıc nöqtəsinin fərz edilməsi** | **303** |

| | |
|---|---|
| **Mövzu 51. Mürəkkəb sual** | **312** |
| **Mövzu 52. Yalan dixotomiya** | **318** |
| **Mövzu 53. Qarşısı alınmış sübut** | **323** |
| **Mövzu 54. Yalan dilemma** | **339** |
| **Mövzu 55. Antropomorfizm** | **342** |
| **Mövzu 56. Xronoloji snobizm** | **350** |
| **Mövzu 57. Təstiqləməyə meyl** | **357** |
| **Mövzu 58. Konyunksiya xətası** | **361** |
| **Mövzu 59. Qavrayışın konstruktiv təbiəti** | **373** |
| **Mövzu 60. Ekzistensional xəta** | **384** |
| **İstifadə edilmiş ədəbiyyat** | **392** |

# Ön söz

Oxuculara təqdim edilən bu kitab bizim məntiqə dair yazdığımız ikinci kitabdır. 2021-ci ildə nəşr edilmiş “Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq” adlı kitabımız formal məntiqin bir bölməsi olan mülahizələr məntiqinə *(propozisional məntiqə)* həsr edilmişdir. Orada məntiqin tərifi, arqumentin izahı, düzgün arqumentin şərtləri, təbii dildən süni dilə çevrilmə (arqumentin “kodlaşdırılması”) və formal məntiqə dair bu qəbildən olan bir çox vacib məntiqi problemlər ətraflı şəkildə analiz edilmişdir. Bu kitab bir növ həmin problemlərin izahının davamı kimi düşünülmüşdür. Belə ki, arqumentin düzgün qurulması üçün zəruri olan şərtlərdən biri pozularsa və ya arqumentin “kodlaşdırılmasında” yanlışlığa yol verilərsə, mütləq şəkildə müvafiq məntiqi xətalar meydana çıxar. Amma formal məntiqin qaydalarının pozulması məntiqi xətaların yalnız az bir hissəsinin yaranmasını şərtləndirir. Belə ki, məntiqdə ümumilikdə ən mühüm məntiqi xətaların 100 növü (amma onların sayı daha çoxdur) fərqləndirilir ki, onlardan yalnız 10-a yaxını formal məntiqi xətalar qrupuna daxildir. Bu kitabda qeyri-formal məntiqi xətaların təqribən 65 növü analiz edilmişdir. Bəzən bu xətaların bir qismi digərlərinin altqrupu kimi çıxış etdiyindən onların bir neçəsi ümumi qrupda toplanılıb izah edilmişdir, ona görə də kitabda yalnız 60 mövzu öz əksini tapmışdır. Birinci iki mövzuda formal

məntiq ilə qeyri-formal məntiq müqayisəli şəkildə analiz edilmiş, beləliklə, həm də formal məntiqdən qeyri-formal məntiqə keçidin yolları göstərilmişdir.

Məlum olduğu kimi, Qərbdə məntiqin təqribən 2500 illik inkişaf tarixi vardır. Yəqin ki, Şərqdə məntiqin formalaşması tarixi daha qədimdir. Amma istənilən halda müasir formal və qeyri-formal məntiqin kökləri onun məhz Qərbdə inkişafı ilə bağlıdır ki, bu da tarixi baxımdan antik fəlsəfəyə gedib çıxır. Belə ki, antik fəlsəfədə erkən dövrdə bəzi yunan sofistlərinin, məsələn, Protaqorun (e.ə. 485-415), eləcə də Platonun (e.ə. 428-348) bu və ya digər şəkildə məntiqlə bağlı fikirlərinin məlum olmasına baxmayaraq, tarixdə ilk məşhur məntiqçi Aristotel (e.ə. 384-322) hesab edilir. Tarixdə ilk dəfə qeyri-formal məntiqi xətaların təsnifatı da məhz Aristotel tərəfindən həyata keçirilmişdir. O, bu qəbildən olan 13 məntiqi xətanı müəyyənləşdirmiş və onları iki qrupa bölmüşdür. Sonrakı dövrlərdə məntiqçilər onlarla yeni qeyri-formal məntiqi xəta növünü bura əlavə etdiyindən onların təsnifatı mürəkkəbləşmişdir. Müasir dövrdə bütün qeyri-formal məntiqi xətalar adətən beş qrupa ayrılır: uyğunluq xətaları, zəif induksiya xətaları, prezumpsiya xətaları, qeyri-müəyyənlik xətaları və qrammatik analogiya xətaları. Bu kitabda onlardan yalnız birinci üç qrupa daxil olan xətalardan bəhs edilir.

Kitabın yazılması zamanı ortaya çıxan əsas çətinliklərdən biri bir sıra xarici dillərdə (xüsusilə ingilis dilində) geniş istifadə edilən məntiqi terminlərin Azərbaycan dilində müvafiq qarşılığının

tapılması ilə bağlıdır. Təəssüf ki, Azərbaycanda məntiqin inkişaf tarixi o qədər də zəngin deyildir. Əgər qeyri-səlis məntiqə dair bizim dildə yazılmış bir neçə məqaləni nəzərə almasaq, burada aparılan tədqiqatlar əsasən Aristotel məntiqi ilə yekunlaşır. Ona görə də məntiqə dair yeni istiqamətdə tədqiqatlara başlayarkən fikirlərin ifadəsi üçün öncə yeni terminoloji bazanın formalaşdırılması zərurəti yaranır. Bu mənada burada istifadə edilən bəzi mühüm terminlərin ətraflı izahı bizim öncə yazdığımız birinci məntiq kitabında ətraflı izah edilmişdir və o, bizim indiki araşdırmalarımız üçün bir növ terminoloji baza rolunu oynamışdır. Amma bu kitab tamamilə yeni mövzudan - qeyri-formal məntiqdən bəhs etdiyinə görə burada onlarla yeni terminin bizim dildə yazılması zərurəti yaranmışdır.

Bütün bu qeyd edilənlər kontekstində deyə bilərik ki, kitabı yazarkən qarşılaşdığımız ilk çətinlik ingiliscə "*fallacy*" sözünün Azərbaycan dilində müvafiq qarşılığının tapılması idi. Bu sözün bizim dildə, eləcə də türk dilində ən geniş şəkildə istifadə edilən qarşılığı "*səfsətə*" sözüdür. Azərbaycan dilinə ərəb dilindən keçmiş və klassik məntiq, fəlsəfə və dini ədəbiyyatlarda geniş istifadə edilən bu söz ərəbcədən "*sufsata*" və ya "*sıfsata*" sözündən götürülmüşdür, tərcümədə "məntiqsiz, batil, saxta və ya aldadıcı mübahisə və iddia" mənasını verir. Ərəb dilinə isə bu söz yunanca **"σοφιστής"** *(sophistēs)* sözündən keçmişdir ki, qədim Yunanıstanda o, əvvəlcə müdrik insanı, sonralar isə sözlə *manipulyasiya* edən, həqiqəti ifadə etməyə deyil, opponenti

hər vəchlə inandırmağa çalışaraq saxta yollarla mübahisə edən şəxsi bildirmək üçün istifadə edilmişdir. Beləliklə, bu sözdən zahiri məntiqə və ritorikaya əsaslanan, *bilərəkdən* insanları çaşdıran arqument təqdimetmə ilə bağlı "*sofistika*" və "*sofist*" kimi neqativ məna yüklü terminlər yaranmışdır. Bu konteksktdə əsas diqqət yetirməli olduğumuz məqam arqumentdə məntiqi cəhətdən yolverilməz sayılan manipulyasiyalar, bilərəkdən yol verilmiş səhvlərdir. Halbuki müasir qeyri-formal məntiqdə *fallacy* bütün bu qəbildən olan amillər ilə sıx bağlı olsa da, yalnız onlarla məhdudlaşmır. Belə ki, bəziləri statistik mühakimə, induktiv ümumiləşdirmə, ehtimal nəzəriyyəsi, predikatlar məntiqi və s. sahələrdə olan bilik azlığından və ya bu istiqamətdə təbii şəkildə tez-tez təkrarlanan diqqətsizlikdən yaranır və onları klassik anlamda *sofistika* ilə əlaqələndirmək düzgün deyildir. Digər tərəfdən isə *fallacy* kimi nəzərdən keçirilən səhvlər yalnız qeyri-formal məntiq ilə tamamlanmayıb qeyd etdiyimiz kimi, formal məntiqdə də öyrənilir və onları da yuxarıda qeyd edilən səbəblərdən *sofistikaya* bağlamaq olmaz. Ona görə də kitabda *(logical) fallacy* sözünün qarşılığı olaraq *məntiqi xəta* sözündən istifadə etməyi qərara almışıq. Həm də nəzərə almaq lazımdır ki, ingilis dilində *fallacy* sözü ilə bağlı olan digər sözlər *fallible* və *infallible* müvafiq olaraq səhv və ya xəta edə bilər və edə bilməz mənasını özündə əks etdirirlər. Sonuncu kontekstlərdə xəta bilməyərəkdən və ya qeyri-ixtiyari olaraq edilən səhvləri bildirir.

Son olaraq kitabda analiz edilən mövzularla bağlı xüsusi olaraq qeyd etmək istədiyimiz vacib məqam vardır: kitabın mövzusu qeyri-formal məntiq olduğundan orada məntiqlə dinin, psixologiyanın, politologiyanın, iqtisadiyyatın, hüququn, tarixin və s. kəsişmə sahəsində olduqca vacib mövzular öz əksini tapmışdır. Bu mövzular dini, siyasi, tarixi və s. cəhətdən neytral mövqedən tədqiq edilmişdir, bu məqsədlə istifadə edilən nümunələr sırf məntiq müstəvisində analiz edilmişdir.

# Fəsil 1. Qeyri-formal məntiq nədir?

## Mövzu 1. Qeyri-formal məntiq və formal məntiq

Məntiq elminə müxtəlif şəkildə tərif vermək və onun məzmununu müxtəlif şəkildə aydınlaşdırmaq mümkündür.[1] Bu tariflərin hər biri məntiq elminin məzmununa dair müəyyən həqiqəti özündə ifadə edir, amma müasir məntiq daha geniş məzmuna malik olub yalnız belə təriflər ilə təyin oluna bilməz. Amma istənilən halda məntiq elminin praktik əhəmiyyəti haqqında insanlarda 25 əsr[2] ərzində artıq formalaşmış olan aşağıdakı ümumi təsəvvürü qeyd edə bilərik: məntiq elmini öyrənməklə müxtəlif real həyat situasiyalarında (məsələn,

---

[1] Məntiq elminə verilən təriflər, müasir dövrdə məntiq elmin tətbiq sahələri və bu kontekstdə məntiq elminin əsasında dayanan əsas anlayışlar sistemi barəsində nisbətən ətraflı məlumat almaq üçün bizim nəşr edilmiş digər kitabımıza baxın: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq*. Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2021, s. 15-16.

[2] Qərbdə məntiqin tarixi antik fəlsəfəyə gedib çıxır. Məntiq tarixində ilk məşhur məntiqçi Aristotel (e.ə. 384-322) hesab olunsa da, daha erkən dövrdə bəzi yunan sofistlərinin, məsələn, Protaqorun (e.ə. 485-415), eləcə də Platonun (e.ə. 428-348) da bu və ya digər şəkildə məntiq ilə bağlı fikirləri məlumdur.

ictimai şəkildə müzakirə və mübahisə edərkən, digər elmləri öyrənərkən, şəxsi münasibətlər qurarkən və s. ) mühakimələr irəli sürmək, eləcə də onları əsaslandırmaq qabiliyyətini formalaşdırmaq və inkişaf etdirmək mümkündür. Qeyri-formal məntiq ilk növbədə məhz belə məqsədlərin gerçəkləşməsinə xidmət edən məntiqi sistemin qurulması cəhdidir.

Qeyri-formal və formal məntiq arasındakı qarşılıqlı münasibəti birmənalı şəkildə müəyyənləşdirmək çətin olsa da, bu münasibəti aşağıdakı şəkildə ümumiləşdirmək olar: qeyri-formal məntiq ilə formal məntiqi klassik məntiqin[1] ayrı-ayrı qolları olaraq qiymətləndirmək mümkündür, çünki onların hər ikisində eyni arqument[2] formasından (müqəddimələr ilə nəticə arasındakı əlaqə sistemindən) istifadə edilir. Həm qeyri-formal məntiqdə, həm də formal məntiqdə istifadə edilən bir çox nəzəri anlayışlar sistemi və *düzgün qurulmuş arqumentin* qaydaları oxşardır. Belə ki, bu məntiqi sistemlərin hər ikisində düzgün qurulmuş arqument həm *etibarlı arqument*, həm də *tutarlı arqument* kimi çıxış edir. Etibarlı arqument o deməkdir ki, arqumentdə iştirak edən müqəddimələrin hamısı doğru

---

[1] Klassik və qeyri-klassik məntiq anlayışları haqqında nisbətən ətraflı məlumat almaq üçün bizim nəşr edilmiş digər kitabımıza baxın: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2021, s. 128-129.

[2] Məntiqdə istifadə edilən arqument və onun struktur elementləri olan müqəddimə və nəticə haqqında da bizim nəşr edilmiş digər kitabımızdan məlumat əldə etmək mümkündür: s. 81-82.

olarsa, onda nəticə heç bir zaman yalan ola bilməz.[1] Hər bir tutarlı arqument həm də etibarlı arqumentdir, amma hər bir etibarlı arqument tutarlı arqument deyildir. Arqument əgər və yalnız əgər həm etibarlı arqument olarsa, həm də arqumentin bütün müqəddimələri doğru olarsa tutarlı arqumentdir.[2] Arqumentin məqsədi adətən digər insanları arqumentin nəticəsi olaraq irəli sürülmüş mülahizəyə inandırmaq olduğundan biz arqumenti yalnız onun etibarlı və tutarlı olmasına görə deyil, həm də arqumentin *potensial cəhətdən inandırıcı* olmasına görə qiymətləndiririk. Arqumentin potensial cəhətdən inandırıcı olması insanları arqumentin nəticəsinin doğru olmasına dair fikrə nə dərəcədə inandırmağın mümkün olub olmaması ilə qiymətləndirilir. Bu qiymətləndirmə yalnız məntiqi deyil, həm də psixoloji amilləri özündə ehtiva edir. Potensial cəhətdən inandırıcı arqumentin məntiqi cəhətdən düzgün olmasına ehtiyac yoxdur. Əslində *yanlış arqumentlər* vasitəsilə insanları asanlıqla inandırmaq mümkündür. Belə inandırma prosesində psixoloji və linqvistin manipulyasiyalar da mühüm rol oynayır. Bu qəbildən olan məntiqi xətalar qeyri-formal məntiq tərəfindən öyrənilir.[3]

---

[1] Etibarlı arqument haqqında da yuxarıda qeyd edilən mənbədən daha ətraflı məlumat əldə etmək mümkündür.

[2] Tutarlı arqument haqqında da daha ətraflı məlumat almaq üçün bizim nəşr edilmiş digər kitabımıza baxın: s. 101-103.

[3] Potensial cəhətdən inandırıcı arqument haqqında bizim nəşr edilmiş digər kitabımızdan daha ətraflı məlumat əldə etmək mümkündür: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: "Parlaq İmzalar"

"*Qeyri-formal məntiq*" adında "*qeyri-formal*" anlayışı nəyi ifadə edir? Əgər qeyri-formal məntiqin formal məntiq ilə müqayisəsi kontekstində bu sualı cavablandırmağa çalışsaq, onda aşağıdakı fikirləri qeyd edə bilərik: formal məntiq məsələn, mülahizələr məntiqi, predikatlar məntiqi, modal məntiq və s. kimi müxtəlif məntiqi sistemlərdə istifadə edilən formal (süni) dildə düzgün qurulmuş arqumentin qaydalarını tədqiq edir[1], qeyri-formal məntiq isə təbii dil vasitəsilə ifadə edilmiş potensial cəhətdən inandırıcı arqumentdən real həyat situasiyalarında necə məharətlə istifadə etməyin yollarını öyrənir. Amma bu qeyri-formal məntiqin formal analiz metodlarından tamamilə istifadə etməməsi və düzgün qurulmuş arqument qaydalarının diqqətdən kənarda qalması demək deyildir.

nəşriyyatı, 2021, s. 104-105.

[1] Mülahizələr məntiqində istifadə edilən formal dil haqqında da bizim nəşr edilmiş digər kitabımızdan ətraflı məlumat əldə etmək mümkündür: s. 37-47; Modal məntiq haqqında isə müəyyən təsəvvür yaratmaq üçün isə baxın: s. 186

# Mövzu 2. Qeyri-formal məntiqi xəta

Məntiqi xəta istifadə edilən arqumentdə yalnız yalan müqəddimələrin mövcudluğu ilə izah edilməsi qeyri-mümkün olan qüsurun mövcudluğunu nəzərdə tutur. Belə ki, hətta doğru müqəddimələrdən təşkil edilmiş arqumentdə məntiqi xətaya yol verilərkən həmin müqəddimələrdən çıxan nəticə yalan olur.

Məntiqi xətalar adətən iki yerə ayrılır: formal məntiqi xəta və qeyri-formal məntiqi xəta. **Formal məntiqi xəta** elə məntiqi xətadır ki, sadəcə olaraq arqumentin formasını və ya strukturunu nəzərdən keçirməklə onu təyin etmək mümkündür. Bu qəbildən olan məntiqi xətalar deduktiv arqumentlər, məsələn, qəti sillogizmlər, dizyunktiv (təqsimi) sillogizmlər, hipotetik sillogizmlər[1] və s. ilə bağlıdır. Məsələn,

---

[1] Məntiqdə arqumentlər adətən iki qrupa ayrılır: deduktiv və induktiv. Deduktiv arqumentdə müqəddimələr ilə onlardan çıxarılan nəticə arasındakı əlaqə belə ifadə edə bilərik: müqəddimələrin doğru və nəticənin yalan olması *qeyri-mümkündür*. Bu arqumentdə müqəddimələrdən *zəruri* şəkildə arqumentin nəticəsi doğur. Məsələn,

$M_{1.}$ Əgər Həmid psixi cəhətdən xəstədirsə, onda o, öz davranışına görə məsuliyyət daşımır.

$M_{2.}$ Həmid psixi cəhətdən xəstədir.

$N$. Həmid öz davranışına görə məsuliyyət daşımır.

Bu arqumentdə həm $M_1$, həm də $M_2$ -in doğru, amma $N$ -in yalan olması qeyri-mümkündür.

aşağıdakı qəti sillogizm özündə formal məntiqi xətanı ehtiva edir:

$M_1$. Bütün insanlar bioloji varlıqlardır.

$M_2$. Bütün bitkilər bioloji varlıqlardır.

$N$. Bütün insanlar bitkilərdir.[1]

Aşağıdakı hipotetik sillogizm də özündə formal məntiqi xətanı ehtiva edir:

---

Deduktiv arqument və onun adları qeyd olunan formaları barəsində ətraflı məlumat üçün baxın: Rauf İmranoğlu. *Məntiq*. Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2018, s. 199-225; Elmar Hussein. *Logic*. Baku: "Ecoprint" Publishing House, 2020, pp. 167-202.

[1] Bu arqument sadə qəti sillogizmin ikinci fiquruna aiddir:

$M_{1.}$ Bütün A B-dir.

$M_{2..}$ Bütün C B-dir.

N. ?

Bizim nümunə olaraq nəzərdən keçirdiyimiz arqument də A, B və C dəyişənlərini müvafiq anlayışlar ilə əvəz etsək, onda yaza bilərik ki,

$M_{1.}$ Bütün A (insanlar) B-dir (bioloji varlıqlardır).

$M_{2.}$ Bütün C (bitkilər) B-dir (bioloji varlıqlardır).

$N$. Bütün A (insanlar) C-dir (bitkilərdir).

Sadə qəti sillogizmin xüsusi qaydalarına əsasən ikinci fiqurda müqəddimələrdən biri ($M_1$və ya $M_2$) inkarda olmalıdır. Amma bizim nümunəmizdə hər iki müqəddimədə iştirak edən mülahizələr ("*Bütün insanlar bioloji varlıqlardır*" və *"Bütün bitkilər bioloji varlıqlardır*") təstiqdə olduğundan qeyd edilən qayda pozulmuşdur və nəticədə arqument özündə formal məntiqi xətanı ehtiva etmişdir. Sadə qəti sillogizmin fiqurları və onların xüsusi qaydaları haqqında baxın: Elmar Hussein. *Logic*. Baku: "Ecoprint" Publishing House, 2020, pp. 177-178.

$M_{1.}$ Əgər süni intellekt özünütənzimləyən mürəkkəb proqram sistemidirsə, onda süni intellektə malik olan maşınlar insanların davranışını təqlid edir.

$M_2$. Süni intellektə malik olan maşınlar insanların davranışını təqlid edir.

$N$. Süni intellekt özünütənzimləyən mürəkkəb proqram sistemidir.[1]

---

[1] Bu arqument hipotetik-qəti sillogizmə aiddir. Hipotetik-qəti sillogizm aşağıdakı iki formadan birinə malik ola bilər:

1. ***Modus ponens***:
   $M_1$. Əgər A-dırsa, onda B-dir.
   $M_2$. A-dır.
   $N$. B-dir.
2. ***Modus tollens:***
   $M_1$. Əgər A-dırsa, onda B-dir.
   $M_{2.}$ B deyil.
   $N$. A deyil.

Qalan hallarda hipotetik-qəti sillogizmdən doğru nəticə çıxarmaq mümkün deyil. Ətraflı məlumat üçün baxın: Elmar Hussein. Logic. Bakı: "Ecoprint" Publishing House, 2020, pp. 193-194.

Bizim nümunə olaraq nəzərdən keçirdiyimiz arqument forma etibarilə nə modus ponensə, nə də modus tollensə aiddir:

$M_{1.}$ Əgər A-dırsa (süni intellekt özünütənzimləyən mürəkkəb proqram sistemidirsə), onda B-dir (süni intellektə malik olan maşınlar insanların davranışını təqlid edir).

$M_{2.}$ B-dir (süni intellektə malik olan maşınlar insanların davranışını təqlid edir).

$N$. A-dır (süni intellekt özünütənzimləyən mürəkkəb proqram sistemidir).

Qeyri-formal məntiqi xətalardan fərqli olaraq formal məntiqi xətalar yalnız deduktiv arqumentlərdə baş verir. Əgər nəzərdən keçirən arqument induktiv[2] arqumentdirsə, o, heç bir zaman formal məntiqi xəta ehtiva edə bilməz. Amma deduktiv arqumentdə müşahidə edilən yalnız bəzi məntiqi xətalar qeyri-formal məntiqi xətalardır. Belə ki, bir qədər əvvəl nəzərdən keçirdiyimiz deduktiv arqument formalarında – qəti sillogizmdə və hipotetik sillogizmdə sillogizmin qaydalarının pozulması nəticəsində formal məntiqi xətaların yaranması mümkündür. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

$M_{1.}$ Bütün fəlsəfi sistemlər məktəblərdir.

$M_{2.}$ Bütün məktəblər tədris müəssisələridir.

$N$. Bəzi tədris müəssisələri fəlsəfi sistemdir.

Nəzərdən keçirdiyimiz bu arqument forma etibarilə aşağıdakı struktura malikdir:

---

[2] Induktiv arqumentdə müqəddimələr ilə onlardan çıxarılan nəticə arasındakı əlaqə belə ifadə edə bilərik: müqəddimələrin doğru və nəticənin yalan olması *ehtimalı azdır*. Başqa sözlə, əgər induktiv arqumentin müqəddimələri doğrudursa, onda bu müqəddimələrədən çıxan nəticənin də doğru olması *ehtimalı* çoxdur. Başqa sözlə, induktiv arqumentdə müqəddimə(lər)dən ehtimala əsaslanmış şəkildə arqumentin nəticəsi doğur. Məsələn,

$M$.İndiyə kimi tapılan bütün zümrüd daşları yaşıldır.

$N$. Güman ki, tapılacaq növbəti zümrüd daşı da yaşıl olacaq.

Əlavə məlumat üçün baxın: Elmar Hussein. *Logic*. “Ecoprint” Publishing House, 2020, pp. 202-231.

$M_{1.}$ Bütün A (fəlsəfi sistemlər) B-dir (məktəblərdir).

$M_{2.}$ Bütün B (məktəblər) C-dir (tədris müəssisələridir).

$N$. Bəzi C (tədris müəssisələri) A-dir (fəlsəfi sistemlərdir).

Bu arqument sadə qəti sillogizmin 4-cü fiqruna aiddir və həm sadə qəti sillogizmin ümumi qaydaları, həm də sadə qəti sillogizmin 4-cü fiqurunun qaydaları[1] pozulmadığından arqument forma etibarilə etibarlıdır. Amma arqumentin forma etibarilə etibarlı olması əsasında arqumentin bütövlükdə etibarlı olması haqqında nəticə çıxarmaq olmaz. Nəzərdən keçirdiyimiz bu arqument əslində etibarlı deyil, onun müqəddimələri doğru, amma nəticəsi yalandır. Amma arqumentin niyə etibarlı olmadığını izah etmək üçün onun formasını deyil, məzmununu – arqumentdə istifadə edilən sözlərin mənasını analiz etmək lazımdır. Belə ki, "məktəblər" sözü arqumentdə iki müxtəlif mənada işlənilib: $M_1$-də bu söz müəyyən bir ideya və istiqamət üzrə yaradıcılığı oxşar olan filosoflardan, rəssamlardan, şairlərdən, yazıçılardan və s. barət qrup nəzərdə tutulur, məsələn, Milet məktəbi (ilk yunan fəlsəfi məktəbi), İmpressionist rəssamlıq məktəbi və s.; $M_2$ – də isə bu söz ilkin, əsas və tam orta təhsil üçün tədris ocağını nəzərdə

[1] Sadə qəti sillogizmin qaydaları haqqında oxumaq üçün baxın: Rauf İmranoğlu. *Məntiq*. Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2018, s. 199-213; Elmar Hussein. *Logic*. Baku: "Ecoprint" Publishing House, 2020, pp. 167-186.

tutur. Beləliklə, "məktəblər" sözünün nəzərdən keçirdiyimiz arqumentdə işlənən bu iki müxtəlif mənasını nəzərə alsaq, onda əslində arqumentin aşağıdakı formaya malik olduğunu müəyyən edə bilərik:

$M_1$. Bütün A B-dir.

$M_2$. Bütün C D-dir.

$N$. Bəzi D A-dir.

Sadə qəti sillogizmin bu nümunəsində onun ümumi qaydalarından biri[1] pozularaq "*terminlərin dördləşməsi*" adlı məntiqi xəta yaradır və nəticə etibarilə, arqument etibarsız qiymətləndirilir.

Qeyri-formal məntiqi xətanı təyin etmək üçün yalnız arqumentin formasını və ya strukturunu deyil, həm də məzmununu və kontekstini analiz etməklə müəyyənləşdirmək mümkündür. Formal məntiqi xətalardan fərqli olaraq qeyri-formal məntiqi xətalara adətən bilərəkdən yol verilir: əsas məqsəd oxucuları və ya dinləyiciləri istənilən vasitə ilə arqumentin nəticəsinə inandırmaqdır. Müxtəlif qeyri-formal xətalar müxtəlif vasitələr ilə bu məqsədə nail olmağa çalışır və bu səbəbdən bütün qeyri-formal xətaları hər hansı ad altında

---

[1] Sadə qəti sillogizmin bu qaydası haqqında oxumaq üçün baxın: Elmar Hussein. *Logic*. Baku: "Ecoprint" Publishing House, 2020, p. 170.

sistemləşdirmək bir qədər çətindir. Bəzi qeyri-formal məntiqi xətalar oxucularda və ya dinləyicilərdə müəyyən emosiyalar, məsələn, qorxu, mərhəmət və s. oyandırmaqla onları arqumentin nəticəsinə inandırmaq məqsədini özündə daşıyır. Bu qəbildən olan digər məntiqi xətalar vasitəsilə əks arqumentə olan etibarı onun müəllifinə qarşı nifrət və ya antipatiya yaratmaqla yox etməyə çalışırlar. Növbəti qeyri-formal məntiqi xətalarda eyni məqsədlər üçün oxucuların və ya dinləyicilərin xurafata inamından və ya psixi cəhətdən analiz etməyə olan tənbəlliyindən istifadə edilir və s.

# Fəsil 2. Uyğunluq xətaları[1]

Müxtəlif növ uyğunluq xətalarının müşahidə edildiyi bütün arqumentlərdə onun nəticəsinə *məntiqi* cəhətdən uyğun olmayan müqəddimələr mövcud olur. Amma bu qəbildən olan arqumentlərin müqəddimələri *psixoloji* cəhətdən arqumentin nəticəsinə uyğun olduğundan arqumentin müqəddimələrindən *sanki* belə nəticə çıxarılmış kimi görünür. Əslində isə məntiqi cəhətdən bu müqəddimələrdən belə nəticənin çxarılması qeyri-mümkündür. Beləliklə, uyğunluq xətasına yol vermiş arqumentlərdə müqəddimələr ilə nəticə arasında məntiqi deyil, emosional əlaqə mövcuddur.

[1] Bu qəbildən olan məntiqi xətalar arqumenti irəli sürən insan tərəfindən arqumentin nəticəsinə uyğun olmayan "sübut" vasitəsilə arqumentasiya prosesinin gedişinə müdaxilə edərək həmin nəticəni əsaslandırmaq istəyini nəzərdə tutduğundan məntiq kitablarında onlar bəzən "*müdaxilədən irəli gələn xətalar*" kimi də adlanr.

# Mövzu 3. Qorxuya (və ya zorakılığa) müraciət (*Argumentum ad Baculum*[1])

Qorxuya müraciət məntiqi xətası necə yaranır? Əgər arqumenti irəli sürən insan qarşı tərəfi arqumentin nəticəsi ilə tanış etdikdən sonra onu açıq və ya gizli şəkildə bu nəticəni qəbul etmədiyi təqdirdə hər hansı bir təhlükənin baş verəcəyi ilə təhdid edirsə, onda *qorxuya müraciət* xətası meydana çıxır. Beləliklə, bu məntiqi xəta özündə həmişə arqumenti irəli sürən insan tərəfindən oxucunu və ya dinləyicini fiziki və ya psixoloji cəhətdən qorxutma cəhdini özündə ehtiva edir. Burada oxucu və ya dinləyici qismində yalnız bir insan və ya insanlar qrupu ola bilər. Aydın məsələdir ki, belə təhdid ilə arqumentasiya prosesi arasında məntiqi cəhətdən heç bir uyğunluq mövcud deyildir.

*Argumentum ad Baculum* xətasına uşaqlar və yeniyetmələr tərəfindən öz həmyaşıdlarına qarşı irəli sürülən arqumentlərdə tez-tez rast gəlmək mümkündür:

**Nümunə 1.** *Yeniyetmə öz həmyaşıdına belə deyir*: "Sənin

[1] Latın dilindən hərfi tərcümədə "*çubuğa müraciət*" deməkdir. Qədim Romada hər bir siyasi lider və ya ictimai xadim əlində onun cəmiyyətdəki gücünü və ya nüfuzunu simvolizə edən *baculum* adlanan kiçik nazik çubuq gəzdirərdi. *Argumentum ad Baculum* xətasında isə "çubuq" anlayışı qarşı tərəfə qarşı istifadə edilən zorakılıq nəticəsində onda yaranan qorxunu simvolizə etdiyindən bu məntiqi xəta məntiq kitablarında "qorxuya müraciət" və ya "zorakılığa müraciət" şəklində ifadə edilir.

etdiyin hərəkət yanlışdır və əgər sən mənimlə razı deyilsənsə, onda mən öz idmançı dostumu çağıracam və o, səni döyəcək.”

*Argumentum ad Baculum* xətası adətən aşağıdakı struktura malikdir:

$M$. Arqumenti irəli sürən insan özünün qarşı tərəfi təhdid etmə və ya qorxutma taktikasını ehtiva edən mövqeyini təqdim edir.

$N$. Ya arqumenti irəli sürən insanın mövqeyi ciddi qəbul edilməlidir, ya da qarşı tərəf (və ya üçüncü tərəf) zərər çəkə bilər.




Amma bu məntiqi xəta daha böyük yaş kateqoriyasına mənsub olan insanlar arasında da baş verir:

**Nümunə 2.** *TV-də canlı yayımda siyasi mövzuda keçirilən debat zamanı opponentlərdən biri digərinə belə deyir*: “Sizin təkzib etdiyiniz fikir siyasi elita haqqında kitab yazmış müəllifə məxsusdur və onun siyasi elita ilə sıx əlaqələri mövcuddur.”

Nəzərdən keçirdiyimiz birinci nümunədə fiziki , ikinci nümunədə isə psixoloji təhdid öz əksini tapır. Təhdidlərdən heç biri arqumentdən çıxarılan nəticənin doğru olmasına dair doğru sübut təqdim etmir, amma onların hər ikisi qarşı tərəfin zərər çəkə biləcəyinə dair “sübut” təqdim edir. Əgər bu iki qəbildən olan sübut bir-biri ilə dəyişik salınarsa, onda həm arqumenti irəli sürən tərəf, həm də bu arqumentin ünvanlandığı tərəf yanlış olaraq arqumentdən çıxan nəticənin sübut vasitəsilə əsaslandırıldığını düşünə bilər. Amma əslində burada heç bir əsaslandırma mövcud deyildir.

Qorxuya müraciət xətası adətən psixoloji tərəfdən oxucunu və ya dinləyicini arqumentdə çatışmayan müqəddimənin olduğunu başa düşməyə mane olur. Halbuki, məhz bu çatışmayan müqəddimə yalan və ya ən azından mübahisəlidir və ona görə də arqumentdən doğru nəticə çıxarmaq mümkün deyildir. Nəzərdən keçirdiyimiz hər iki nümunədə gizli qalan yalan müqəddimələri şərti olaraq aşağıdakı kimi ifadə edə bilərik:

*Nümunə 1*: Əgər idmançı dostum sənin yanlış hərəkət etdiyini qəbul etməyin üçün sənə qarşı zorakılıq tətbiq edərsə, onda sən həqiqətən yalnış hərəkət etmisən.
*Nümunə 2. Əgər mən sizi qorxutmağa müvəffəq oldumsa*, onda sizin təkzib etməyə çalışdığınız fikri əslində təkzib etmək qeyri-mümkündür.

Birinci nümunədə nəzərdən keçirilən arqumentdən çıxan "nəticə" belədir ki, arqumentin ünvanlandığı yeniyetmə yanlış hərəkət edib. Amma fiziki təzyiq nəticəsində onun belə fikir irəli sürməyə məcbur edilməsi onun yanlış hərəkət etmiş olduğuna dair nəticə çıxarmağa imkan vermir. İkinci nümunədə nəzərdən keçirdiyimiz arqumentdən çıxan "nəticə"yə əsasən arqumentin onun ünvanlandığı siyasi opponent tərəfindən təkzib edilməsi qeyri-mümkündür. Amma bu qənaətin qorxu altında meydana çıxması bu fikrin təkzib edilməsinin qeyri-mümkün olmasına dair nəticə çıxarmağa imkan vermir.

Qorxuya müraciət xətası çox güclü və effektiv arqumentasiya formasıdır və bu səbəbdən siyasətçilər, jurnalistlər, dindarlar və s. auditoriyanı arqumentin nəticəsinə inandırmaq üçün ondan tez-tez istifadə edirlər:

**Nümunə 3**. *Radioda tanınmış ictimai xadim geniş dinləyici auditoriyasına müraciət edir:* "Terrorizm 21-ci əsrin bəlasıdır.

Belə ki, yalnız 2019-cu ildə dünyada 28 mindən çox insan müxtəlif terror aktlarının qurbanına çevrilib. Əgər biz terrorizmə qarşı mübarizə aparmasaq, bizim övladlarımız və nəvələrimiz daim terror hücumuna məruz qalma qorxusu altında yaşayacaqlar."

**Nümunə 4.** *TV-də sosial xarakterli proqramın canlı yayımında aparıcı geniş izləyici auditoriyasına müraciət edir*: "Covid-19 pandemiyası sürətlə irəliləyir. Belə ki, o, hər gün ölkəmizdə yüzlərlə yoluxma və onlarla ölümə səbəb olur. Bu virusdan necə qorunmağınızdan asılı olmayaraq siz heç bir zaman ona yoluxmaq təhlükəsindən xilas ola bilməzsiniz. Bu səbəbdən hamı Covid-19-a qarşı vaksin olunmalıdır."

**Nümunə 5**. *Fəlsəfə mühazirəsində dindar tələbə aqnostik müəllimə belə deyir*: "Sizin irəli sürdüyünüz fikir yalandır, çünki o, insanın qəlbinə şübhə toxumu səpir və insanı Tanrıya olan inancından döndərməyə çalışır. Bu isə bizim müqəddəs kitabda yazılanlara görə Şeytan əməlidir."

Qorxuya müraciət xətasından cəmiyyətin iqtisadi sistemində işçilərə qarşı münasibətdə rast gəlinən istismar faktorunun gizlədilməsində də tez-tez istifadə edilir. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 6.** *İşçilərin maaşını azaltmaq haqqında qərar qəbul edən şirkət rəhbərliyi işçilərə belə deyir*: "Əgər siz maaşların 30% azaldılmasına razı olmasanız, onda şirkət tezliklə müflis olub bağlana bilər. İşsizlik səviyyəsinin yüksək olduğu indiki zamanda sizin yeni iş yeri tapmağınız daha çətin ola bilər. Ona görə də siz maaşlarınızın 30% azaldılmasına razı olmalısınız."

***Vacib qeyd 1:***

Qeyd etdiyimiz kimi, formal məntiq formal (süni) dildə düzgün qurulmuş arqumentin qaydalarını tədqiq edir. Bu səbəbdən formal məntiqdə arqumentin qurulması zamanı irəli sürülmüş bütün mülahizələr təbii dildən süni dilə tərcümə edilir. Məsələn, formal məntiqdə qurulan aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 7.** *"Əxlaqi məsuliyyət" mövzusunda çıxış edən fəlsəfə müəllimi aşağıdakı mülahizələri irəli sürür*: "İnsanın davranışının bütün səbəbləri sosial və ya bioloji-genetik amillərin təsiri ilə izah oluna bilər. Bu isə o deməkdir ki, insan davranışına görə əxlaqi məsuliyyət daşımır. Belə ki, əgər insanın davranışının bütün səbəbləri ya sosial, ya da bioloji-genetik amillərin təsiri ilə izah oluna bilərsə, onda insanın davranışı onun nəzarəti altında deyil. Əgər insanın davranışı onun nəzarəti altında deyilsə, onda insanın davranışı avtomatik prosesdir. Əgər insanın davranışı avtomatik

prosesdirsə, onda insan davranışına görə əxlaqi məsuliyyət daşımır."

*Birinci addım:*

$M_1$. Əgər insanın davranışının bütün səbəbləri ya sosial, ya da bioloji-genetik amillərin təsiri ilə izah oluna bilərsə, onda insanın davranışı onun nəzarəti altında deyil.
$M_2$. Əgər insanın davranışı onun nəzarəti altında deyilsə, onda insanın davranışı avtomatik prosesdir.
$M_3$. Əgər insanın davranışı avtomatik prosesdirsə, onda insan davranışına görə əxlaqi məsuliyyət daşımır.
$M_4$. İnsanın davranışının bütün səbəbləri ya sosial, ya da bioloji-genetik amillərin təsiri ilə izah oluna bilər.
$N$. İnsan davranışına görə əxlaqi məsuliyyət daşımır.

*İkinci addım:*

p = İnsanın davranışının bütün səbəbləri sosial amillərin təsiri ilə izah oluna bilər.
q = İnsanın davranışının bütün səbəbləri bioloji-genetik amillərin təsiri ilə izah oluna bilər.
r = İnsanın davranışı onun nəzarəti altındadır.
x = İnsanın davranışı avtomatik prosesdir.
y = İnsan davranışına görə əxlaqi məsuliyyət daşıyır.

*Üçüncü addım:*

Əgər insanın davranışının bütün səbəbləri ya sosial, ya da bioloji-genetik amillərin təsiri ilə izah oluna bilərsə, onda insanın davranışı onun nəzarəti altında deyil.
*Əgər ya q-dürsə, ya da p-dirsə, onda r deyil.*
$(p \vee q) \rightarrow \sim r$

Əgər insanın davranışı onun nəzarəti altında deyilsə, onda insanın davranışı avtomatik prosesdir.
*Əgər r deyilsə, onda x-dır.*
$\sim r \rightarrow x$

Əgər insanın davranışı avtomatik prosesdirsə, onda insan davranışına görə əxlaqi məsuliyyət daşımır.
*Əgər x-dırsa, onda y deyil.*
$x \rightarrow \sim y$

İnsanın davranışının bütün səbəbləri ya sosial, ya da bioloji-genetik amillərin təsiri ilə izah oluna bilər.
*p-dir və q-dür.*
$p \vee q$

İnsan davranışına görə əxlaqi məsuliyyət daşımır.
*y deyil.*
$\sim y$

*Dördüncü addım:*[1]

| |
|---|
| $M_1$. (p ∨ q) → ~ r |
| $M_2$. ~r → x |
| $M_3$. x→ ~y |
| $M_4$. p ∨ q |
| *N*. ~y |

Formal məntiqdən fərqli olaraq qeyri-formal məntiq real həyat situasiyalarında təbii dildə ifadə edilmiş arqumentlərdən məharətlə istifadə etməyin yollarını öyrəndiyindən bu arqumentin struktunu analiz edərkən arqumentin qurulması zamanı irəli sürülmüş bütün mülahizələr forma etibarilə olduğu kimi nəzərdən keçirilməyə və məzmun etibarilə bu kontekstdə onunla eyniyyət təşkil edən digər mülahizələr ilə əvəzlənə bilər. Məsələn, yuxarıda 6-cı nümunədə nəzərdən keçirdiyimiz arqumentin niyə uyğunluq xətasına yol verdiyini belə analiz edə bilərik:

[1] Formal məntiqin tərkibinə daxil olan mülahizələr məntiqində arqumentlərin təbii dildən süni dilə tərcümə edilməsi haqqında bizim nəşr edilmiş digər kitabımızdan daha ətraflı məlumat əldə etmək mümkündür: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2021, s. 87-101.

İşçilərin maaşını azaltmaq haqqında qərar qəbul etmiş şirkət rəhbərliyi tərəfindən irəli sürülmüş arqumentin konkret olaraq nəticəsi nədir? Bu nəticəni belə ifadə edə bilərik: "*İşçilər maaşlarının 30% azaldılmasına razı olmalıdır.*" Arqumentin nəticəsi necə əsaslandırılır? Əgər işçilər maaşlarının 30% azaldılmasına razı olmasalar, onda onlar daha ağır iqtisadi şərait ilə üzləşə bilərlər. Şirkət rəhbərliyinin işçilərə qarşı psixoloji qorxu vasitəsi olaraq irəli sürdüyü "*Şirkət tezliklə müflis olub bağlana bilər və işsizlik səviyyəsinin yüksək olduğu indiki zamanda işçilərin yeni iş yeri tapmağı daha çətin ola bilər*" mülahizəsi arqumentin irəli sürüldüyü kontekstdə məzmun etibarilə "*İşçilər daha ağır iqtisadi şərait ilə üzləşə bilərlər*" mülahizəsi ilə əvəzlənə bilər. Amma şirkət rəhbərliyi tərəfindən nəticəni əsaslandırmaq üçün irəli sürülən mülahizə ilə nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcud deyil, yəni işçilərin maaşlarının 30% azaldılmasının məsələn, əsaslandırılmış iqtisadi səbəbləri mövcud olmalıdır; işçilərin daha ağır iqtisadi şərait ilə üzləşə bilməsi məntiqi cəhətdən onların maaşlarının 30% azaldılmasının əsası kimi çıxış edə bilməz.

Birinci vacib qeyd adı altında ümumiləşdirərək qeyd etdiklərimiz yalnız indi nəzərdən keçirdiyimiz *Argumentum ad Baculum* xətasına deyil, növbəti mövzularda nəzərdən keçirəcəyimiz bütün qeyri-formal məntiqi xətalara da aiddir.

***Vacib qeyd 2:***

Bəzən qarşı tərəfdə (və ya üçüncü tərəfdə) qorxu yaradan və ya onu təhdid edən arqument qorxuya müraciət xətasına malik olmaya bilər. Başqa sözlə, tərkibində qorxu və ya təhdid elementləri olan arqument ilə *Argumentum ad Baculum* xətası eyniyyət təşkil etmir. Belə ki, qorxuya müraciət xətasında birbaşa məqsəd qarşı tərəfi (və ya üçüncü tərəfi) qorxudaraq və ya təhdid edərək onu arqumentin nəticəsini qəbul etməyə vadar etməkdir. Tərkibində qorxu və ya təhdid elementləri olan arqumentlərin əksəriyyəti bu qəbildəndir. Amma tərkibində qorxu və ya təhdid elementi olan, amma qorxuya müraciət xətasına yol verməyən arqumentlərdə birbaşa məqsəd qarşı tərəfi (və ya üçüncü tərəfi) qorxudaraq və ya təhdid edərək arqumentin nəticəsini qəbul etməyə vadar etmək deyil. Bu qəbildən olan arqumentlərdə sadəcə olaraq nəticə və nəticənin əsaslandırılması üçün istifadə edilən sübutlar dolayı şəkildə qarşı tərəfdə (və ya üçüncü tərəfdə) qorxu hissi formalaşdırır və ya onları təhdid edir, eləcə də nəticə ilə onun əsaslandırılması üçün istifadə olunan sübutlar arasında *məntiqi cəhətdən* uyğunluq mövcud olur. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 8.** *TV-də canlı yayım zamanı tanınmış virusoloq auditoriyaya belə müraciət edir*: "Qlobal istiləşmə bəşəriyyətin sağlamlığını böyük risk altına qoyur. Belə ki, hər il planetdə orta temperaturun artması ilə müşahidə olunan

qlobal istiləşmə planetdə buzlaqların tədricən əriməsi ilə müşayiət olunur. Buzlaqların əriməsi nəticəsindən minillər ərzində orada donmuş vəziyyətdə olan müxtəlif virusların planetə yayılma ehtimalı çoxalır. İnsan orqanizmi belə viruslara qarşı dayanıqlı olmadığından onlar insan üçün yüksək dərəcədə öldürücü ola bilər.

Qorxuya müraciət məntiqi xətasına yol *verməyən* və qorxu (və ya təhdid) elementlərini özündə ehtiva edən arqumentdən asanlıqla belə məntiqi xətaya yol verən arqumentə keçid almaq mümkündür. Məsələn, nəzərdən keçirdiyimiz sonuncu nümunə kontekstində əgər virusoloq əlavə olaraq məsələn, "*Biz qlobal istiləşməyə qarşı X adlı proyekti qəbul etməliyik"* mülahizəsini irəli sürsəydi, onda bu arqument dərhal qorxuya müraciət məntiqi xətasına yol vermiş olardı. Belə ki, bizim nəzərdən keçirdiyimiz nümunə arqumentin nəticəsi qismində "*Qlobal istiləşmə bəşəriyyətin sağlamlığını böyük risk altına qoyur*" mülahizəsi çıxış edir, digər mülahizələr sadəcə olaraq bu nəticənin əsaslandırılmasına xidmət edir və nəticə ilə digər mülahizələr arasında məntiqi cəhətdən uyğunluq mövcuddur. Amma bu arqument qismən dəyişdirilərək ora "*Biz qlobal istiləşməyə qarşı X adlı proyekti qəbul etməliyik"* mülahizəsi əlavə olunarkən əlavə olunan bu mülahizə bütövlükdə arqumentin nəticəsi olaraq təqdim olunur, yəni arqumenti irəli sürən insanın məqsədi qarşı tərəfin məhz bu nəticəni qəbul

etməsinə çalışır. Bu səbəbdən oxucu və ya dinləyici özündə qorxu (və ya təhdid) elementlərini ehtiva edən arqumentin qorxuya müraciət məntiqi xətasına yol verib vermədiyini analiz edərkən çox diqqətli olmalıdır: forma etibarilə oxşar olan arqumentlərin birində belə məntiqi xəta ehtiva edilmədiyi halda digəri belə məntiqi xətaya yol verə bilər.

***Vacib qeyd 3:***

Formal məntiqdən fərqli olaraq qeyri-formal məntiq real həyat situasiyalarında təbii dildə ifadə edilmiş arqumentlərdən məharətlə istifadə etməyin yollarını öyrəndiyindən belə situasiyalarda qarşı tərəfə və ya üçüncü tərəfə yönəlmiş tələblər də *gizli* qeyri-formal məntiqi arqumentlər kimi analiz edilərək orada qeyri-formal məntiqi xətaların olub olmadığını təyin etmək mümkündür. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək.

**Nümunə 9.** Təhsilin doktorantura pilləsində təhsil alan tələbənin elmi rəhbəri tələbənin elmi tədqiqat işinə müsbət rəy vermək üçün tələbədən onunla seksual münasibətlərdə olmağı tələb edir.

Tələbəyə qarşı irəli sürülmüş birbaşa tələb ilk baxışda arqument kimi qəbul edilməyə bilər. Amma onun hər hansı bir məntiqi xətaya yol verib vermədiyini analiz etmək üçün mövcud bu vəziyyət kontekstində gizli arqument qurmaq mümkündür. Bu arqumentin "nəticə"sini şərti olaraq *"Sən mənimlə seksual*

*münasibətlərdə olmalısan*" və ya "*Biz seksual münasibətlərdə olmalıyıq"* şəklində ifadə edə bilərik. Bu qəbildən olan nəticələr yalnız digər kontekstlərdə qurulmuş dialoqlar, məsələn, qarşılıqlı romantik münasibətlər yaşayan iki insan arasındakı dialoqlar üçün məntiqi cəhətdən uyğundur. Halbuki, bizim nəzərdən keçirdiyimiz nümunə təhsil müstəvisində tələbə-elmi rəhbər münasibətləri kontekstində qurulduğundan arqumentin şərti olaraq ifadə etdiyimiz yuxarıdakı nəticəsi ilə nəzərdən keçirilən kontekst arasında dərhal məntiqi cəhətdən *uyğunluq xətası* yaranır. Elmi rəhbərin tələbədən seksual münasibətlərdə olmağı *tələb etməyi* isə artıq şəxsi münasibətlər müstəvisində qeyri-bərabər güc amilinin mövcud olmasını ifadə edir. Beləliklə, elmi rəhbər öz xeyrinə olan qeyri-bərabər güc amilindən istifadə edərək tələbəni arqumentin nəticəsini qəbul etməyə vadar etmək üçün onu psixoloji cəhətdən qorxutmağa çalışır. Halbuki onun tərəfindən arqumentin nəticəsini əsaslandırmaq üçün istifadə edilən "*Əgər sən elmi tədqiqat işinə müsbət rəy almaq istəyirsənsə, onda mənimlə seksual münasibətlərdə olmalısan"* sübutu ilə arqumentin nəticəsi arasında məntiqi cəhətdən uyğunluq mövcud deyildir və arqumentin qurulması zamanı qorxuya müraciət məntiqi xətasına yol verilmişdir.

# Mövzu 4. Mərhəmətə müraciət (*Argumentum ad Misericordiam)*

Mərhəmətə müraciət məntiqi xətası nə zaman yaranır? Əgər arqumenti irəli sürən insan qarşı tərəfdə mərhəmət hissini oyandırmaqla arqumentin nəticəsini əsaslandırmağa cəhd edirsə, onda *mərhəmətə müraciət* xətası meydana çıxır. Bu mərhəmət hissi arqumenti irəli sürən insanın özünə və ya hər hansı üçüncü tərəfə yönələ bilər. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 1.** *Vergidən yayınmada təqsirli bilinən şəxsə qarşı keçirilən məhkəmə prosesində vəkil hakimə belə deyir*: "Cənab hakim, hüquqlarını müdafiə etdiyim bu şəxs vergidən yayındığını etiraf edir. Amma onun himayəsində iki azyaşlı uşaq var. Onun həyat yoldaşı isə ağır xəstədir və təcili şəkildə xaricdə əməliyyat olunmalıdır. Əgər siz bu şəxsi cinayət məcəlləsinin vergidən yayınmaya dair müvafiq maddələri üzrə günahkar hesab etsəniz, onda o, həmin maddələrdə nəzərdə tutulan müddətdə azadlıqdan məhrum ediləcək. Bu isə onun himayəsində olan uşaqların ac qalması və həyat yoldaşının isə xaricdə təcili əməliyyat üçün lazım olan yüksək maliyyə vəsaitini tapa bilməməsi deməkdir. Belə olduğu təqdirdə qadın çox güman ki, dünyasını dəyişəcək və

beləliklə, uşaqlar nəinki ata himayəsindən, həm də ana himayəsindən məhrum olacaqlar. Bütün bunları nəzərə alsaq, onda vergidən yayınmaqda təqsirli bilinən bu şəxs günahkar deyil.”

*Argumentum ad Misericordiam* xətası adətən aşağıdakı struktura malik olur:

$M$. Arqumenti irəli sürən insan özünün qarşı tərəfdə özünə və ya üçüncü tərəfə qarşı mərhəmət hissi oyatma taktikasını ehtiva edən mövqeyini təqdim edir.

$N$. Ya arqumenti irəli sürən insanın mövqeyi ciddi qəbul edilməlidir, ya da həmin insanın özü (və ya üçüncü tərəf) zərər çəkə bilər.



Bu nümunədə nəzərdən keçirdiyimiz arqumentin "nəticə"si belədir: *"Vergidən yayınmaqda təqsirli bilinən şəxs günahkar deyil"*. Amma aydın məsələdir ki, arqumentin nəticəsi ilə onu sübut etmək üçün irəli sürülən mülahizələr arasında *məntiqi* deyil, *psixoloji* uyğunluq mövcuddur. Əgər arqumenti irəli sürən insan bu yolla qarşı tərəfdə mərhəmət hissini oyandıra bilsə, onda o, bu arqument vasitəsilə əldə etmək istədiyinə nail ola bilər. Əgər bu baş verərsə, onda oxucu və ya dinləyici psixoloji tələyə düşərək heç bir sübut olmadan arqumentin nəticəsini qəbul etmiş olacaq. Gündəlik praktikada mərhəmətə müraciət xətası geniş yayılıb, belə ki, o, bir çox hallarda tələbələr tərəfindən öz müəllimlərinə, eləcə də məhkəmə prosesində vəkillər tərəfindən hüquqlarını müdafiə etdikləri şəxsin xeyrinə hakim qarşısında istifadə edilir.

**Nümunə 2.** *Yazılı seminar tapşırıqlarının yoxlanılmasından sonra tələbə müəllimə belə deyir:* "Siz mənim seminarda yazdığım tapşırıqların cavabını düzgün yoxlamamısız. Mən seminara ciddi hazırlaşmışdım, hətta seminardan bir gün əvvəl bütün gecəni yatmadan yalnız sizin seminara hazırlaşmaq üçün göndərdiyiniz mühazirə mətnlərini oxumuşam, çünki mən yekun nəticədə bu fəndən mütləq şəkildə yaxşı qiymət almalıyam. Ona görə mən hər seminarda da yaxşı qiymət almalıyam. Mən indiyə kimi bütün digər fənlərdən yalnız yaxşı qiymət almışam və gələcək karyeram məhz belə yaxşı təhsil göstəriciləri nəticəsində fərqlənmə

diplomu ilə təhsilimi tamamlaya bilməyimdən asılıdır. Amma siz mənə seminarda çox zəif bal yazmısınız və bu mənim gələcək karyeramın üzərindən xətt çəkmək deməkdir.

Bu nümunədə nəzərdən keçirdiyimiz arqumentin nəticəsini şərti olaraq "*Müəllim tələbənin seminarda yazdığı tapşırıqların nəticəsini düzgün yoxlamamışdır*" şəklində ifadə edə bilərik. Amma arqumentdən çıxan bu nəticənin əsaslandırılması üçün tələbə tərəfindən irəli sürülən sübutları də şərti olaraq belə ifadə edə bilərik: "*Tələbə seminara ciddi hazırlaşmışdır*", "*Tələbə seminara hazırlaşmaq üçün çox zaman və əmək sərf etmişdir*" və "*Yaxşı seminar balı tələbənin gələcək karyerasının qurulmasını təmin edir*". Amma tələbə tərəfindən irəli sürülən bu sübutlardan heç biri ilə arqumentdən çıxan nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcud deyildir. Aydın məsələdir ki, seminar tapşırıqlarının yoxlanılması zamanı əsas meyar tələbənin bu tapşırıları cavablandırarkən nümayiş etdirdiyi bilik və bacarıqlar çıxış edir. Ona görə də tələbə yalnız daha yaxşı bilik və bacarıq nümayiş etdirərək daha yaxşı seminar qiyməti ala bilər. Başqa sözlə, tələbənin bilik və bacarıqlarından başqa heç bir amil onun seminar qiymətlərinin təyin olunmasına təsir göstərmək üçün məntiqi cəhətdən əsas yarada bilməz. Beləliklə, tələbə tərəfindən irəli sürülən sübutlar arqumentin nəticəsini məntiqi cəhətdən əsaslandırmır, sadəcə olaraq onlar

vasitəsitəsilə qarşı tərəfdə mərhəmət oyadaraq bu nəticəni ona qəbul etdirmək məqsədini daşıyır.

***Vacib qeyd:***

Əlbəttə ki, oxucuda və ya dinləyicidə simpatiya duyğuları yaratmağa çalışan bəzi arqumentlər özündə məntiqi xətanı ehtiva etmir. Məntiqdə belə arqumentlər *"şəfqətdən irəli gələn arqumentlər"* adlanır. Mərhəmətə müraciət xətasından fərqli olaraq bu qəbildən arqumentlər bəzi insanların xeyrinə qarşı tərəfdə sadəcə olaraq şəfqət hissi oyatmır, həm də bu insanların hansı səbəbdən köməyə və ya xüsusi yanaşmaya layiq olduqları haqqında informasiya verir. Bütün mümkün hallarda şəfqətdən irəli gələn arqumentlər vasitəsilə sözü gedən insanların niyə şəraitin qurbanı olduğunu və düşdüyü təhlükəli situasiya üçün məsuliyyət daşımadığını, təklif edilən köməyin və ya xüsusi yanaşmanın qanunsuz və uyğunsuz olmadığını və bunun həqiqətən sözü gedən insanlara kömək edəcəyini əsaslandırmalıdır. Şəfqətdən irəli gələn arqumentlərin əksinə olaraq mərhəmətə müraciət xətası belə əsaslandırma tələbini nəzərə almır və sadəcə olaraq qarşı tərəfdə mərhəmət hissi oyatmaqla arqumentdən çıxan nəticəni əsaslandırmağa çalışır.

Mərhəmətə müraciət xətası çox effektiv arqumentasiya forması olduğundan gündəlik sosial həyatın müxtəlif sahələrində tez-tez

istifadə edilir. Məsələn, aşağıdakı arqumenti nəzərədən keçirək:

**Nümunə 3.** *Kişi (qadın) ondan ayrılıb ailə münasibətlərinə son vermək istəyən həyat yoldaşına belə deyir*: "Sən məndən ayrılıb bizm ailə münasibətlərimizə son verməməlisən. Sən uzun illər mənim həyatımda ən vacib yeri tutmusan və mən sənsiz yaşaya bilmərəm. Əgər sən məndən ayrılıb ailə münasibətlərimizə son versən, onda mənim bütün həyatım məhv olar."

Bu nümunədə kişi (qadın) öz həyat yoldaşında mərhəmət hissi oyandırmaqla onun ayrılıb birlikdə yaşadıqları ailə münasibətlərinə son verməsinin qarşısını almağa çalışır. Amma bu nümunədə istifadə edilən arqument qarşı tərəfin ayrılıb ailə münasibətlərinə son verməməsi üçün məntiqi əsas ola bilməz. Qarşı tərəfə yazığı gəlmək onun fikri ilə razılaşmaq üçün məntiqi əsas deyildir.

# Mövzu 5. Kütləyə müraciət (*Argumentum ad Populum*[1])

Demək olar ki, hər bir insan başqaları tərəfindən sevilmək, qiymətləndirilmək və daim onların diqqət mərkəzində olmaq istəyir. Arqumenti irəli sürən insan *kütləyə müraciət* məntiqi xətası vasitəsilə insanların bu istəyindən istifadə edərək oxucu və ya dinləyiciyə arqumentin nəticəsini qəbul etdirməyə çalışır. Burada "kütlə" anlayışınnı məzmununu siyasi fəlsəfədə və sosiologiyada cəmiyyətin elit və kütlə təbəqələrinə bölünməsi kontekstində qəbul etmək məqsədəuyğun deyil. Belə ki, belə bölgünü qəbul edən nəzəriyyələrə əsasən cəmiyyət öz əlində əsasən iqtisadi-siyasi gücü cəmləşdirən və ya mədəni-intellektual sferada əsas söz sahibinə çevrilən azlığa və yerdə qalan bütün cəmiyyət üzvlərini ifadə edən çoxluğa bölünür. Amma qeyri-formal məntiqdə *Argumentum ad Populum* məntiqi xətası yalnız cəmiyyətin elit təbəqəsindən kənarda olan çoxluqda (kütlədə) populyar olan ideyaya deyil, həm də elit təbəqənin öz daxilində populyar olan ideyaya müraciət

---

[1] Latın dilindən hərfi tərcümədə "*insanlara müraciət*" deməkdir. Amma burada "insanlar" anlayışı hər hansı bir sosial sistemə (cəmiyyətə) mənsub olan insanların əksəriyyətini nəzərdə tutduğundan *Argumentum ad Populum* xətası məntiq kitablarında müxtəlif adlar altında da ifadə edilir: kütləyə müraciət, populyarlığa/populyar ideyaya müraciət, demokratik xəta və s.

əsasında meydana çıxan məntiqi xətanı nəzərdə tutur. Belə məntiqi xəta kontekstində “kütlə” anlayışı hər cür individuallıqdan uzaq amorf (sabit olmayan) sosial materiyanı nəzərdə tutur. Həm də nəzərə almaq lazımdır ki, *Argumentum ad Populum* nisbətən azsaylı sosial qruplara, məsələn, individual dini təriqətlərə və ya missioner təşkilatlara (məsələn, bəhailik, Yehovanın Şahidləri və s.) və ya ayrı-ayrı siyasi-ideoloji cərəyanlara (məsələn, liberalizm, sosializm, feminizm və s.) mənsub olan insanlara ünvanlana bilər. Belə ki, *Argumentum ad Populum* adətən nəzərdən keçirilən sosial qrupa mənsub olan individual insanın qrupda mütləq əksəriyyət kimi düşünməli və ya davranmalı olduğunu iddia edir. Məsələn, aşağıdakı arqumentləri nəzərdən keçirək:

**Nümunə 1**. *Yehova Şahidləri missioner təşkilatının lokal icma rəhbəri icma üzvlərinə belə deyir*: “Yehova Şahidləri inanır ki, indiki dünya nizamı Şeytanın nəzarəti altındadır və Yehovanın (Tanrının) birbaşa müdaxiləsi nəticəsində bu nizam pozulacaq. Yehova yer üzündə özünün ilahi səltənətini qurmaq üçün İesus Xristosun köməyi ilə indi mövcud olan və insanlar tərəfindən yaradılmış olan hökumətləri yıxacaq. Ona görə də siz bütün bu dediklərimə inanmalısınız.

**Nümunə 2.** *Valideyn öz övladına belə deyir*: “Bizim ailəmiz həmişə muğamı sevib və onu yüksək qiymətləndirib. Sən də bizim ailəmizin bir parçası olduğundan hamı kimi muğamı

sevməli və onu yüksək qiymətləndirməlisən.”

Kütləyə müraciət məntiqi xətası iki (*birbaşa* və *dolayı*) yolla həyata keçirilir.

Birbaşa olaraq həyata keçirilən *Argumentum ad Populum* xətası vasitəsilə arqumenti irəli sürən insan arqumentin ünvanlandığı kütlənin emosiyaları coşdurmaqla və onlarda entuziazm yaratmaqla arqumentin nəticəsini qəbul etdirməyə çalışır. Burada əsas məqsəd *sürü zəkasını* formalaşdırmaqdır. Sürü zəkası individual insanın kütlə daxilində digər insanların təsiri altında rasional qiymətləndirmədən necə kənarlaşaraq və emosial qiymətləndirməyə meyl edərək müəyyən davranış nümunələrini mənimsədiyini təsvr edir. Sürü zəkasının təsirinə məruz qalarkən insan individual şəkildə qəbul edə biləcəyi qərarlardan tamamilə fərqli olan qərarlar qəbul edə bilər. Bu səbəbdən birbaşa olaraq həyata keçirilən *Argumentum ad Populum* xətası demək olar ki, bütün siyasi-ideoloji təbliğatların və demaqoqiyanın ayrılmaz tərkib hissəsidir. Qlobal tarixdə məsələn, 1933-1945-ci illərdə Faşıst Partiyasının lideri kimi Almaniyaya rəhbərlik etmiş Adolf Hitler (1889-1945) bu məntiqi xətadan böyük məharətlə istifadə edən siyasi xadim kimi qəbul edilir. Amma hətta demokratik Qərb ölkələrində də birbaşa kütləyə müraciət məntiqi xətasından geniş istifadə edilir, məsələn, dalğalanan bayraqlar və arxa fonda səslənən musiqilər ümumi şəkildə bu xətanın tətbiq effektini artırmış

olur, çünki belə emosional şəraitdə eyni auditoriyaya toplanmış insanlar orada yaranan həmrəylik, eyforiya və həyacanı paylaşmaq üçün siyasi ideoloq və demaqoq tərəfindən irəli sürülən bütün arqumentlərin məntiqi cəhətdən qüsurlu nəticələrini demək olar ki, tərəddüdsüz qəbul etmiş olurlar.

Birbaşa olaraq həyata keçirilən *Argumentum ad Populum* xətası yalnız şifahi arqumentasiya ilə məhdudlaşmır. Bu məntiqi xətadan yazılı şəkildə qurulan arqumentlərdə də istifadə etmək mümkündür. Belə ki, "demokratiya uğrunda mübarizə aparan insanlar", "Allah yolunda canından keçən şəhidlər", "xalq uğrunda canını fəda etmiş qəhrəmanlar", "xalqın xilaskarı" və bu qəbildən olan digər emosional frazeoloji birləşmələrdən istifadə edilərək yazılan mətnlər, məsələn, qəzet materialları, oçerklər, şeirlər və s. vasitəsilə də sosial sistemdə sürü zəkasını formalaşdırmaq mümkündür.[1]

Dolayı olaraq həyata keçirilən *Argumentum ad Populum* xətası vasitəsilə arqumenti irəli sürən insan arqumenti bütövlükdə kütləyə deyil, ayrıca seçilmiş bir və ya bir neçə insana ünvanlayır, amma bu zaman bu insanın və ya insanların kütlə ilə qarşılıqlı münasibətlərinin bəzi aspektlərini diqqət mərkəzində saxlayır. Bu qəbildən olan məntiqi xətalarının özü də üç yerə

---

[1] Bu kontekstdə iki məqamı fərqləndirmək lazımdır: X adlı insanın müəyyən dəyərlər və ya ideallar uğrunda mübarizə etməsi, həyatını bu mübarizəyə sərf etməsi faktı və X adlı insanın belə fədakar mübarizəsi üzərində qurulan siyasi-ideoloji təbliğat, demaqoqiya məzmun etibarilə eyni şey deyildir.

ayrılır: orkestr arabası arqumenti, şöhrətpərəstliyə müraciət və snobizmə[1] müraciət.

***Orkest arabası arqumenti:***

*Orkestr arabası effekti* insanların müəyyən davranış və yanaşmaları sadəcə olaraq digər insanların belə etdiklərinə görə qəbul etməsi tendensiyasını ifadə edir. Məsələn, siyasi sistemdə insanlar cəmiyyətdə əksəriyyət tərəfindən qəbul edilən və cəmiyyətdə mövcud olan dominant siyasi ideyanı təmsil edən siyasi yanaşmanı qəbul etməyə meyllidir. *Əks orkestr arabası effekti* isə insanların müəyyən davranış və yanaşmalardan sadəcə olaraq digər insanların onlardan imtina etdiklərinə görə imtina etməsi tendensiyasını bildirir. Məsələn, əgər hər hansı bir insan ətrafda ünsiyyətdə olduğu və ya tanıdığı çox sayda insanın dəbdəbəli geyimdən imtina etdiyini müşahidə etdikdən sonra belə geyimdən imtina etmək qərarına gəlirsə, onda əks orkestr arabası effekti onun verdiyi bu qərara təsir göstərmiş olur.

"*Orkestr arabası*" anlayışı Qərb ölkələrində parad, sirk və ya digər əyləncəli tədbirin gedişatında musiqi ansamblını daşıyan arabanı ifadə edir. ABŞ-da 1848-ci il prezident seçkisi ərəfəsində o zamanlar ölkədə çox məşhur olan sirk artisti və kloun Den

---

[1] *Snobizm* kübar mədəniyyətə, aristokratik həyat tərzinə, yüksək sosial mövqeyə və var-dövlətə qarşı hərislik, özünün cəmiyyətdə üstün sosial təbəqəyə mənsub olduğunu güman etmək və cəmiyyətin aşağı hesab etdiyi sosiali təbəqəsinə qarşı saymamazlıq göstərmək deməkdir.

Rays (1823-1900) prezident seçkisinə qatılan namizəd Zakari Teylora (1784-!850) öz təbliğat kompaniyasını ölkədə yaymaq üçün onun orkestr arabasına qoşulmağa dəvət edir. Nəticədə Z.Teylor rəqibləri ilə müqayisədə daha çox tanınarkən və daha uğurlu təbliğat kompaniyası apararıb ABŞ-ın 12-ci prezidenti seçilərkən insanlar onun bu uğurunu məhz orkestr arabasına qoşulması ilə əlaqələndirməyə başladılar. Belə ki, Z.Teylorun orkestr arabasında hərəkət etməsi səbəbindən kütlədə onun tərəfindən təbliğat zamanı irəli sürülən siyasi doktrinanın artıq cəmiyyətdə çox məşhur olan D.Rays və onun musiqi ansamblı tərəfindən də dəstəklənməsi təəssüratı yaranmışdı. Əgər çoxluq tərəfindən sevilən, qiymətləndirilən və daim onların diqqət mərkəzində olan nüfuzlu bir qrup insan hər hansı bir ideyanı dəstəkləyirsə, onda bu kütlənin sosial qavrayışında *uğur effekti* yaradır: bu ideyanı qəbul etməklə cəmiyyətdə uğur qazanmaq mümkündür. Belə koqnitiv və sosial-psixoloji səbəblər əsasında kütlə sadəcə olaraq uğurun yanında olmağa can atır, uğura aparan yolun əslində nədən ibarət olması onlar üçün elə də əhəmiyyət kəsb etmir. Beləliklə, cəmiyyətdə hər hansı bir ideya tədricən daha çox populyarlıq qazandıqca kütlə tərəfindən bu ideya özünə daha çox güclü dəstək qazanmağa başlayır. Beləliklə, orkest arabası effektinin aşağıdakı koqnitv və sosial-psixoloji səbəblərini fərqləndirmək olar:

1. *Normativ sosial təsir* - kütlə içərisində özünü lazımlı hiss etmək və onun rəğbətini qazanmaq istəyindən irəli

gələrək individual insanın ətrafdakı insanlar ilə uyğunlaşma tendensiyasını ifadə edir.

2. *Sosial-İnformasiya təsiri* – başqalarının onun bilmədiyi nəyisə bilə bilməsi və ya situasiyanı ondan daha yaxşı başa düşə bilməsi ehtimalını nəzərə alaraq və hər ehtimala qarşı özünün də düzgün olduğunu təminat altına almaq istəyindən irəli gələrək individual insanın ətrafdakı insanlar ilə uyğunlaşma tendensiyasını ifadə edir.

Orkestr arabası effekti yaradan orkestr arabası arqumentindən siyasətdə, tibbdə, iqtisadiyyatda və s. insanların seçiminə və davranışına təsir göstərmək məqsədi ilə tez-tez istifadə edilir. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 3**. *Canlı yayımda "Fidan" konfetlərini reklam edən aparıcı auditoriyaya belə müraciət edir:* "Şübhəsiz ki, siz "Fidan" konfetlərini almaq istəyirsiniz. Niyə? Ona görə ki, tərkibində zərərli kimyəvi birləşmələr və donuz piyi olmadığından ölkəmizdə insanların əksəriyyəti artıq "Günay" konfetlərini seçir."

Bu nümunədə əsas ideya arqument vasitəsilə insanların diqqətini onlara təklif edilən məhsulun tərkibinə cəlb edərək onların bu məhsuldan istifadə etməsinə nail olmaq deyil. Burada əsas ideya arqument vasitəsilə insanları bu

məhsulundan istifadə etmədikləri təqdirdə cəmiyyətdə çoxluq təşkil edən qrupdan kənarda qalacaqlarına inandıraraq onların bu məhsuldan istifadə etməsinə nail olmaqdır.

Filosoflar da irəli sürdükləri fəlsəfi mülahizələri populyar ideyalar ilə əsaslandırmaq və onların oxucular tərəfindən qəbul edilməsinə nail olmaq üçün fəlsəfi traktatların, esseylərin yazılışında bəzən orkest arabası arqumentinə müraciət edirlər. Məsələn, ingilis filosofu Con Stüart Mill (1806-1873) tərəfindən istifadə edilmiş arqumenti[1] nəzərdən keçirək:

| |
|---|
| **Nümunə 4**. *C.S.Mill aşağıdakı fəlsəfi mülahizələri irəli sürür*: "Ədalətsizliyə dair müxtəlif rəylər arasında biz ədalətsiz qanunların mövcud olmasına və bu qanunun nəticə etibarilə ədalət meyarı olmamasına dair fikrin hamı tərəfindən qəbul edilməsinin şahidi oluruq." |

C.S.Mill tərəfindən yuxarıda irəli sürülmüş birinci mülahizəni formal məntiqi arqument şəklində aşağıdakı kimi ifadə etmək mümkündür:

$M$. Ədalətsiz qanunların mövcud olması hamı tərəfindən qəbul edilir.

$N$. Ədalətsiz qanunlar mövcuddur.

[1] John Stuart Mill. *Ultimate Collection: Works on Philosophy, Politics and Economy.* Randolph: "Madison and Adams" Press, 2017, p. 269.

Beləliklə, bu arqumentin nəticəsinin əsaslandırılması sadəcə olaraq kütlə arasında populyar olan ideya əsasən həyata keçirilir və nəticə etibarilə özündə *Argumentum ad Populum* xətasını ehtiva edir.

**Vacib qeyd:**

Əgər ilk baxışda *Argumentum ad Populum* xətasını ehtiva edən arqument təsirini bağışlayan arqumentin ünvanlandığı sosial qrup nəzərdən keçirilən məsələ üzrə mötəbər insanlardan və ya mütəxəsislərdən təşkil edilibsə, onda əslində bu arqument qeyd edilən məntiqi xətanı özündə əks etdirmir və məntiqi arqumentasiya prosesində irəli sürülən fikrin əsaslandırılması üçün bu tip arqumentlərdən istifadə etmək olar. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 5**. *Vegetarian həyat tərzi keçirən insan auditoriyaya belə müraciət edir*: "Uzun zaman düzgün təşkil edilmiş vegetarian həyat tərzi yaşayaraq ət və digər heyvan məhsulları ilə qidalanmaq imtina edən insanlar köklükdən, yüksək təzyiqdən, diabetdən və bu kimi xəstəliklərdən necə azad olduqlarını, fiziki və mənəvi cəhətdən özlərini necə gümrah hiss etdiklərini yaxşı bilirlər. Qeyd edilən xəstəliklərdən xilas olmağın və ya sığortalanmağın, eləcə də fiziki və mənəvi cəhətdən sağlam həyat yaşamağın ən etibarlı yolu vegetarian həyat tərzinə keçməkdir."

Nəzərdən keçirdiyimiz bu arqumentdə vegetarian həyat tərzinə keçidin zəruri olması fikrinin əsaslandırılması zamanı sübut kimi vegetarian həyat tərzi keçirən insanlar qrupuna müraciət edilməsi ilk baxışda orada *Argumentum ad Populum* xətasının yaranması təəssüratını oyadır. Amma əslində burada müraciət edilən adı qeyd edilən qrupun özü deyil, onu təşkil edən insanların təcrübəsidir və həmin insanları bu təcrübəni yaşayaraq qeyd edilən nəticəni əldə etməyin mümkünlüyü kontekstində mütəxəsis kimi qiymətləndirmək olar.

***Şöhrətpərəsliyə müraciət arqumenti:***

Şöhrətpərəsliyə müraciət arqumenti adətən təklif edilən məhsul ilə insanların rəğbət bəslədiyi və ya təqlid etdiyi məşhur insan arasında pixoloji cəhətdən əlaqə yaradaraq insanları bu məhsuldan istifadə edəcəkləri təqdirdə onların da başqaları tərəfindən rəğbətlə qarşılanacağına və ya təqlid ediləcəyinə inandırmaqdır. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 5.** *Reklam lövhəsində "Pepsi" içki markasının loqotipinin altında əlində futbol topu ilə təsvir edilmiş argentinalı futbol ulduzu Lionel Messi təsvir edilib və aşağıda belə yazılıb*: "Onu sev, onunla yaşa."

Burada əsas ideya reklam vasitəsilə insanları onlara təklif olunan məhsulundan istifadə etdikləri təqdirdə L.Messi kimi

cəmiyyətdə rəğbət oyadan və ya cəmiyyət tərəfindən təqlid olunan insana çevriləcəyinə inandıraraq onların bu məhsuldan istifadə etməsinə nail olmaqdır.

***Snobizmə[1] müraciət arqumenti:***

Snobizmə müraciət arqumentinin də insanların altşüuruna təsir mexanizmi nəzərdən keçirdiyimiz sonuncu arqumentin təsir mexanizmi ilə oxşardır. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

| |
|---|
| **Nümunə 6.** *Canlı yayımda "Estetik gözəllik" klinikasını reklam edən aparıcı auditoriyaya belə müraciət edir:* "Estetik gözəllik" klinikasının həyata keçirdiyi plastik əməliyyatlar və cavanlaşma prosedurları hər kəs üçün deyil – bu xidmətlərdən yalnız cəmiyyətin elitar təbəqəsi yararlana bilər. Əgər siz də belə seçilmiş azsaylı insanlardan birisinizsə, onda sizi hər zaman öz klinikamızda görməyə şad olarıq. Amma bizim təklif etdiyimiz çox yüksək səviyyədə olan xidmətlərdən yararlanmaq üçün yerlər məhduddur və bu səbəbdən yalnız öncədən qeydiyyatdan keçməklə bu xidmətlərdən istifadə etmək olar." |

Kütləyə müraciət məntiqi xətasından yalnız siyasətdə, iqtisadiyyatda və s. deyil, həm də gündəlik həyatda tez-tez

[1] *Snob* aristokrat olmayıb onu yamsılayan və social cəhətdən aşağı təbəqəyə xor baxan adamdır.

istifadə edilir. Məsələn, aşağıdakı arqumentləri nəzərdən keçirək:

**Nümunə 7**. *Ana yemək yeməkdən imtina edən azyaşlı oğluna belə deyir*: "Sən böyüyüb Hörümçək-adam kimi güclü olmaq istəmirsənmi? Əgər sən də belə olmaq istəyirsənsə, onda gəl yeməyini ye."

**Nümunə 8**. *Müəllim dərsə hazırlaşmayan şagirdə belə deyir:* "Sən gələcəkdə bütün savadlı gənclər kimi tələbə adını qazanıb hamının hörmət etdiyi və sevdiyi insan olmaq istəmirsənmi? Əgər sən də belə olmaq istəyirsənsə, onda dərslərinə ciddi hazırlaş."

Bütün hallarda *Argumentum ad Populum* xətası adətən aşağıdakı struktura malikdir:

$M$. Arqumenti irəli sürən insan özünün qarşı tərəfin başqaları tərəfindən sevilmək, qiymətləndirilmək və daim onların diqqət mərkəzində olmaq istəyi üzərində qurulmuş taktikanı ehtiva edən mövqeyini təqdim edir.

$N$. Əgər qarşı tərəf başqaları tərəfindən sevilmək, qiymətləndirilmək və daim onların diqqət mərkəzində olmaq istəyirsə, onda o, arqumenti irəli sürən insanın mövqeyini qəbul etməlidir.




Beləliklə, həm birbaşa, həm də dolayı şəkildə qurulan *Argumentum ad Populum* xətası eyni struktura malik olub eyni məqsədi daşıyır. Birbaşa olaraq qurulan kütləyə müraciət xətası bilavasitə hər bir insanda kütləyə mənsub olma duyğusunu oyandıraraq cəmiyyətdə kütlə zehinini formalaşdırır. Beləliklə, kütlə zehininin daşıyıcısına çevrilən hər bir insan özünü kütlənin daxilində daha güclü və təhlükəsiz hiss edir. Kütlənin qəbul etdiyi nəticənin doğruluğunu şübhə altına qoyan və ya onu qəbul etməkdən imtina edən hər bir insan avtomatik olaraq özünün kütlə ilə bağlarını qoparmaqla öz gücünü, təhlükəsizliyinə olan təminatı və başqaları tərəfindən qəbul edilmək imkanını itirmək riski ilə qarşılaşır. Bütün bu qeyd edilənlər dolayı şəkildə qurulan kütləyə müraciət xətası üçün də doğrudur, amma burada istifadə edilən məzmun və vasitələr ilə daha kəskin və "gizli" şəkildə sürü zehini formalaşdırılır.

# Mövzu 6. Şəxsin əleyhinə yönəlmə (*Argumentum ad Hominem)*

*Argumentum ad Hominem* xətasının yarandığı arqument həmişə iki insan arasında baş verir. Onlardan biri birbaşa və ya dolayı yolla hər hansı bir arqument irəli sürür və digər insan diqqətini birinci insan tərəfindən irəli sürülmüş arqumentə deyil, birinci insanın *özünə* yönəldərək cavab verir. Bu zaman ikinci insan *şəxsin əleyhinə yönəlmə* xətasına yol vermiş olur.

Şəxsin əleyhinə yönəlmə xətası üç yolla həyata keçirilir: təhqiredici *ad hominem*, kənar şərtlərdən doğan *ad hominem* və *tu quoque*[1].

## Təhqiredici *ad hominem*

Təhqiredici *ad hominem* xətasında birinci insan tərəfindən arqumentin ünvanlandığı ikinci insan verbal şəkildə birinci insanı təhqir edərək onun arqumentinə cavab verir. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 1.** *Pornoqrafiyanın leqallaşdırılması fikrini arqumentləşdirməyə çalışan insana onun opponenti belə cavab verir:* "Sən pornoqrafiyanı cəmiyyətdə leqallaşdırmaq istəyirsən, amma sənin bu fikri müdafiə etmək üçün irəli

[1] *Tu quoque* latın dilindən tərcümədə "*sən də həmçinin*" deməkdir.

sürdüyün bütün arqumentlər əhəmiyyətsiz zir-zibildir. Sənin belə fikri müdafiə etməyə nə ixtiyarın var? Sən özün kimsən? Narkoman və fahişə!

Şəxsin əleyhinə yönəlmə xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Təhqiredici *ad hominem* xətasına yol vermiş olan arqument aşağıdakı formaya malikdir:

$A_1$: Özünün X arqumentini və ya mövqeyini irəli sürür.

$A_2$: X arqumetini və ya mövqeyini X-a qarşı əks-arqument irəli sürməklə deyil, $A_1$-in şəxsinə verbal cəhətdən hücum etməklə, onu təhqir etməklə təkzib etməyə çalışır.

$A_2$: $A_1$-in X arqumentinin və ya mövqeyinin təkzib edilmiş olmasına dair nəticə çıxarır.

Təhqiredici *ad hominem* xətasında bəzən birbaşa olaraq təhqiredici sözlərdən istifadə edilməsə də, dolayı olaraq qarşı tərəfin şəxsiyyətinin alçaldılması və ya özünə olan inam hissinin aradan qaldırılması ilə onun irəli sürdüyü arqumentlərin cavablandırılması cəhdini özündə əks etdirə bilər. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 2.** *Universitet auditoriyasında tələbənin professorun dedikləri ilə mötəbər elmi nəşrlərdə yazılanlar arasında ziddiyyətin olduğunu özündə əks etdirən arqumentinə professor belə cavab verir*: "Fikir bildirdiyiniz üçün təşəkkür edirəm. Amma mənim üçün burada heç bir ziddiyyət yoxdur. Bilirəm ki, siz bu mövzunu çox zəif hazırlaşmısınız və bu sahədə elementar biliyiniz belə yoxdur. Sizin niyə belə düşündüyünüzü anlayıram. Mövzunu bir daha araşdırın."

Nəzərdən keçirdiyimiz bu arqumentdə ilk baxışda açıq şəkildə təhqiredici sözlərdən istifadə edilməsə də professorun tələbə tərəfindən irəli sürülmüş arqumentə qarşı "Mənim üçün burada heç bir ziddiyyət yoxdur" mülahizəsinin irəli sürülməsi məntiqi cəəhətdən əks arqument kimi qiymətləndirilə bilməz. Arqumentasiyada yaranan bu boşluğu tələbəyə qarşı "Siz bu

mövzunu zəif hazırlaşmısınız" şəklində ümumi iddia irəli sürməklə və bu şəkildə onun özünə olan inam hissini aradan qaldırmaqla doldurmaq cəhdi məntiqi cəhətdən yolverilməzdir, çünki o, dolayı şəkildə təhqiredici *ad hominem* xətasını özündə ehtiva edir.

**Kənar şərtlərdən doğan *ad hominem***

Kənar şərtlərdən doğan *ad hominem* xətasının məzmunu da təhqiredici ad hominem xətasının məzmununa çox oxşardır – burada sadəcə olaraq birinci insan tərəfindən arqumentin ünvanlandığı ikinci insan verbal şəkildə birinci insanı təhqir edərək deyil, mövcud olan müəyyən şərtlərin onun fikirlərinə təsir göstərdiyinə eyham vuraraq onun arqumentini təkzib etməyə çalışır. Beləliklə, birinci insan tərəfindən arqumentin ünvanlandığı ikinci insan mövcud şərtlər altında birinci insanın bu və ya digər şəkildə düşünməyə meylli olduğunu izah etməklə əslində onun arqumentlərinin ciddi qəbul edilməsinə zərurətin olmadığını nümayiş etdirməyə çalışır. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 3.** *Tibetin Çinin tərkibinə daxil etməsinin tarixi və hüquqi cəhətdən yolverilməz olması fikrini müdafiə edən Dalay Lamanın arqumentlərinə opponenti belə cavab verir*: "Dalay Lama sadəcə olaraq Tibetin rəhbəri olaraq ora qayıda bilmək üçün Çinin oranı tərk etməyini istəyir. Təbii ki, o, bu fikri sübut etmək istəyir. Bu səbəbdən biz onun

| |
|---|
| arqumentlərini rədd edirik.” |

Nəzərdən keçirdiyimiz bu arqumentdə opponent Dalay Lama tərəfindən irəli sürülən arqumentlərdən diqqəti yayındırır və mövcud olan müəyyən şəraitin – Dalay Lamanın Tibetin rəhbəri olaraq ora qayıtmaq istəyinin onun fikirlərinə təsir göstərdiyinə diqqət çəkərək bu arqumentləri təkzib etməyə cəhd edir. Amma mövcud şəraitin Dalay Lamanın fikirlərinə təsiri ilə onun qurduğu arqumentdə çıxarılan nəticənin müqəddimələr tərəfindən təstiq edilib edilməməsi arasında məntiqi cəhətdən heç bir uyğunluq yoxdur.

Kənar şərtlərdən doğan *ad hominem* xətasına yol vermiş olan arqument aşağıdakı formaya malik olur:

$A_1$: Özünün X arqumentini və ya mövqeyini irəli sürür.

$A_2$: X arqumetini və ya mövqeyini X-a qarşı əks-arqument irəli sürməklə deyil, X arqumenti və ya mövqeyi ilə məntiqi cəhətdən uyğun olmayan Y şəraitinin X arqumentinin və ya mövqeyinin formalaşmasına təsir göstərməsi səbəbindən $A_1$ tərəfindən bu arqumentin və ya mövqeyin əsaslandırılma istəyinin təbii olmasını izah etməklə təkzib etməyə çalışır.

$A_2$: X arqumentinin və ya mövqeyinin doğruluğunu şübhə altına qoymaq üçün bu arqumentin və ya mövqeyin formalaşmasına

təsir göstərən Y şəraitini nəzərdən keçirilməli olduğunu əsaslandırmağa çalışır.

$A_2$: $A_1$-in X arqumentinin və ya mövqeyinin təkzib edilmiş olmasına dair nəticə çıxarır.

Bu qəbildən olan arqumentlərə tez-tez məsələn, məhkəmə proseslərində rast gəlmək mümkündür:

**Nümunə 4**: *Rəsmən boşandıqdan sonra uşağın himayəsinin ona verilməsi ilə bağlı məhkəmə qarşısında iddia qaldırmış atanın arqumentlərinə ananın vəkili belə cavab verir*: "Əlbəttə ki, ata uşağın himayəsinin ona verilməsini sübut etmək istəyəcək, çünki o, bu şəkildə uşağa verməli olduğu alimentdən yayınmaq istəyir."

### *Tu quoque*

*Tu quoque* ("sən də həmçinin") məntiqi xətasında yol vermiş arqumentdə nəzərdən keçirdiyimiz digər *ad hominem* xətasına yol vermiş arqumentlər kimi oxşar strategiyadan istifadə edilir. Burada sadəcə olaraq birinci insan tərəfindən arqumentin ünvanlandığı ikinci insan verbal şəkildə birinci insanı təhqir edərək və ya mövcud olan müəyyən şərtlərin onun fikirlərinə təsir göstərdiyinə eyham vuraraq deyil, onun riyakarlıq etdiyini göstərərək arqumenti təkzib etməyə çalışır. Bu məqsədlə ikinci insan adətən birinci insanın həyatında mövcud olan və ya

davranışında müşahidə edilən və onun indiki arqumentindən çıxan nəticə ilə ziddiyyət təşkil edən müəyyən məqamlara istinad edir. Beləliklə, ikinci insan birinci insan tərəfindən irəli sürülmüş arqumenti əslində belə təkzib edir:

> *"Sən mənim Y kimi davranmamalı olduğumu deməyə necə cəsarət edirsən; sən özün də Y kimi davranırsan (və ya davranmısan)."*

Beləliklə, *tu quoque* xətasına yol vermiş olan arqument aşağıdakı formaya malik olur:

$A_1$: Y davranışına və düşüncəsinə qarşı özünün X arqumentini və ya mövqeyini irəli sürür.

$A_2$: X arqumetini və ya mövqeyini X-a qarşı əks-arqument irəli sürməklə deyil, $A_1$-ın da Y kimi davrandığını və düşündüyünü göstərməklə təkzib etməyə çalışır.

$A_2$: $A_1$-in X arqumentinin və ya mövqeyinin təkzib edilmiş olmasına dair nəticə çıxarır.

Məsələn, aşağıdakı arqumentləri nəzərdən keçirək:

> **Nümunə 5.** *Siqaret çəkdiyinə görə oğlunu danlayan ataya oğul belə cavab verir*: "Mənim bir daha siqaret çəkməməli olduğuma dair sənin gətirdiyin arqument düzgün deyil, ona görə ki, sən də mənim yaşımda olarkən siqaret çəkmisən."

**Nümunə 6**. *Hakimiyyətdə olan siyasi partiyanın rəhbərliyində təmsil olunan partiya üzvlərinin övladlarının da könüllülük proqramlarında aktiv iştirak etməli olduğuna dair müxalifət partiyasının nümayəndəsinin arqumentinə həmin partiyanın üzvü belə cavab verir*: "Bizim siyasi partiyanın rəhbərliyində təmsil olunan partiya üzvlərinin övladlarının da könüllülük proqramlarında aktiv iştirak etməli olduğuna dair sizin irəli sürdüyüdüz arqument düzgün deyil. Sizin bir müxalifət partiyası olaraq bunu iddia etməyə mənəvi haqqınız yoxdur. Sizin siyasi partiyanın rəhbərliyində təmsil olunan partiya üzvlərinin heç birinin, o cümlədən sizin övladınız heç bir könüllülük proqramında iştirak etməyib."

Amma aydın məsələdir ki, nəzərdən keçirdiyimin beşinci nümunədə atanın əvvəllər siqaret çəkmiş olması faktı ilə onun oğlunun siqaret çəkməməli olmasına dair qurduğu arqumentin nəticəsi arasında  məntiqi cəhətdən heç bir uyğunluq mövcud deyil; ata hətta siqaret çəkmiş olsa belə oğula nəzərən potensial cəhətdən bu davranışın əksinin zəruri olmasını sübut edən arqument qura bilər. Bütün bu qeyd edilənlər nəzərdən keçirdiyimiz altıncı arqumentə də aiddir. Belə ki, müxalifətdə olan siyasi partiyanın rəhbərliyində təmsil olunan partiya üzvlərinin övladlarının könüllülük proqramında iştirak etməməsi ilə müxalifət nümayəndəsi tərəfindən iqtidarda olan

siyasi partiyanın rəhbərliyində təmsil olunan partiya üzvlərinin övladlarının bu proqramlarda iştirak etməli olduğuna dair irəli sürülən arqumentin nəticəsi arasında məntiqi cəhətdən heç bir uyğunluq mövcud deyil; hətta müxalifətdə olan siyasi partiyanın rəhbərliyində təmsil olunan partiya üzvlərinin övladları könüllülük proqramlarında iştirak etməsə də, potensial cəhətdən müxalifət nümayəndəsi tərəfindən iqtidarda olan siyasi partiyanın rəhbərliyində təmsil olunan partiya üzvlərinin övladlarının bu proqramlarda iştirak etməli olduğuna dair arqument irəli sürülə bilər.

Bütün hallarda *Argumentum ad Hominem* xətasına yol vermiş arqumentdə əsas məqsəd digər insanın arqumentini bu arqumenti irəli sürən insanın şəxsinə verbal yolla hücum edərək təkzib etməkdir. Bu səbəbdən hətta arqumentasiya prosesində iştirak edən tərəflərdən biri “gizli” qalsa da burada hər zaman zəruri şəkildə iki tərəf iştirak etmiş olur.

**Vacib qeyd:**

Əgər insan verbal cəhətdən hücum etdiyi insan arqumentasiya prosesinə daxil deyilsə və ya bu prosesdə opponent qismində iştirak etmirsə, onda həmin insan tərəfindən irəli sürülən fikirlər ilə arqumentdən çıxan nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcud ola bilər. Ümumiyyətlə, şəxsi müşahidələr ilə insanın necə insan olmasına (yaxşı, pis, humanist, eqoist və s.) və necə davranmasına dair nəticənin çıxarılması arasında

məntiqi cəhətdən uyğunluq mövcuddur. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 7**. *Xocalı faciəsi ilə bağlı keçirilən beynəlxalq müzakirə zamanı belə arqument irəli sürülür*: "1992-ci il 26 fevral tarixində Xocalı şəhərinə edilən hücum zamanı kütləvi şəkildə dinc əhali amansızlıqla qətlə yetirilmişdir. Bu hücumun təşkilatçılarından və rəhbərlərindən biri 2008-2018-ci illərdə Ermənistan Respublikasının prezidenti olmuş Serj Sarkisyandır. Bu səbəbdən o, əli çoxlu sayda günahsız insanların qanına batmış qatil və cinayətkardır."

Nəzərdən keçirdiyimiz bu arqumentdən çıxan nəticə Serj Sarkisyan tərəfindən irəli sürülən arqumentin məntiqi cəhətdən özündə məntiqi xətanı ehtiva etməsini deyil, məhz Sej Sarkisyanın özünün insan olaraq həyata keçirmiş olduğu davranışında insanlığa qarşı ağır cinayət elementlərini ehtiva etməsini nəzərdə tutur. Bu səbəbdən irəli sürülən sübutlar ilə arqumentdən çıxan nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcuddur və arqument özündə heç bir məntiqi xətanı ehtiva etmir. Bu qəbildən olan daha bir arqumenti nəzərdən keçirək:

**Nümunə 8.** *Azərbaycan Respublikasının xalq yazıçısı Çingiz Abdullayevin yaradıcılığını qiymətləndirən tənqidçi belə deyir: "*Çingiz Abdullayev yaradıcılığa 1983-cü ildə kiçik həcmli hekayələr yazmaqla başlayıb, amma 2016-cı ilə kimi

194 roman yazıb. Bədii yaradıcılıq ilə yanaşı bu zaman aralığında həm də elmi tədqiqat ilə məşğul olub. Belə ki, 1988-ci ildə hüquq elmləri üzrə fəlsəfə doktoru, 1991-ci ildə hüquq elmləri doktoru alim dərəcələri alıb. Əgər onun çox aktiv ictimai fəaliyyətini də nəzərə alsaq, onda onun həm bu qədər məhsuldar bədii yaradıcılıq, həm də belə dərin elmi yaradıcılıq ilə məşğul olmasına şübhə etmək olar. O, çox böyük ehtimalla onun adı ilə təqdim edilən bədii və ya elmi əsərlərin hamısını özü yazmayıb.

Nəzərdən keçirdiyimiz bu arqumentdən çıxan nəticə də Çingiz Abdullayev tərəfindən irəli sürülən arqumentin məntiqi cəhətdən özündə məntiqi xətanı ehtiva etməsini deyil, məhz bəzi bədii və ya elmi əsərlərin onun tərəfindən yazılmamasını nəzərdə tutur. Bu səbəbdən irəli sürülən sübutlar ilə arqumentdən çıxan nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcuddur və arqument özündə *ad hominem* xətasını ehtiva etmir. Ola bilər ki, arqumentdə istifadə edilən bəzi statistik məlumatların yalan olması və ya əks arqument vasitəsilə 33 il müddətində insanın həm bu qədər məhsuldar bədii yaradıcılıq, həm də belə dərin elmi yaradıcılıq ilə məşğul ola bilməsi fikrinin sübut edilməsi nəticəsində arqumentdən çıxan nəticə yalandır, amma istənilən halda arqumentin qurulmasına *ad hominem* xətasına yol verilməyib.

Hər hansı bir insanın xarakter və ya yaşadığı təcrübə etibarilə necə bir insan olmağı bu insana inanmağın məntiqi cəhətdən uyğun olub olmamasını müəyyənləşdirir. Bu səbəbdən insanın sübut vasitəsilə təstiq olunmayan fikir və iddialarına inanmağın nə dərəcədə məntiqli olub olmadığını müəyyənləşdirmək üçün tez-tez şəxsi təcrübə, analiz və ya interpretasiyaya müraciət edilir, amma bu, hər zaman arqumentin qurulmasında məntiqi xətaya yol açmır. Bu şəkildə məntiqi xətaya yol vermədən məsələn, müxtəlif subyektlər tərəfindən verilən vədlərin reallaşma ehtimalına və ya hadisə şahidlərinin dediklərinin doğru ola bilmə dərəcəsinə dair qənaət formalaşdırmaq mümkündür:

**Nümunə 9.** *Məhkəmə prosesində cinayətdə ittiham olunan şəxsin vəkili cinayət şahidinin dediklərinə belə cavab verir*: "Səadətin dediyinə görə o, Bənövşənin öz qayınanasına soyuq silahla necə ölümcül zərbə endirərək qətlə yetirdiyini görüb. Amma həm Səadət, həm də Bənövşə mərhumun gəlinləridir, onların hər ikisi mərhum ilə birlikdə eyni mənzildə yaşayıblar. Beləliklə, Səadət Bənövşənin həbs olunmasında maraqlıdır, çünki birlikdə yaşadıqları mənzil yalnız onun istifadəsində qalır və gələcəkdə varis kimi həmin mənzildən daha çox pay götürmək imkanına malik olur. Bu səbəbdən biz Səadətin şahid ifadələrinə inanmamalıyıq."

Nəzərdən keçirdiyimiz bu arqument özündə *ad hominem* xətasını ehtiva etmir. Nəticə Səadətin arqumentinin rədd edilməsini deyil, onun şahid ifadələrinin rədd edilməsi özündə əks etdirir. Əgər eyni səbəb, yəni Səadətin Bənövşənin həbsində maraqlı olması fikri əsas götürülərək Səadətin cinayətin Bənövşə tərəfindən törədilməsinə dair arqumenti rədd edilsəydi, onda bu əks arqument *ad hominem* xətasına yol vermiş olardı. Amma şahid ifadəsi arqument deyildir. Bu səbəbdən şahidin yalançı olması və onun tərəfindən verilən şahid ifadələrinin həqiqəti əks etdirməməsi faktı ilə bizim onun dediklərinə inanıb inanmağa dair çıxaracağımız nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcuddur. Həmçinin nəzərdən keçirdiyimiz bu kontekstdə diqqət yetirməli olduğumuz daha bir vacib məqam isə belədir: nəzərdən keçirdiyimiz yuxarıdakı arqumentdən çıxan nəticə Səadətin zəruri şəkildə yalan danışmasını deyil, sadəcə olaraq bizim ona *inanmamaq* üçün məntiqi əsasımızın olmasını özündə ehtiva edir. Ola bilər ki, Səadət Bənövşəni həqiqətən cinayət verən an orada görüb və hətta ona elə gəlib ki, cinayət məhz Bənövşə tərəfindən törədilib. Amma Səadətin Bənövşənin həbs olunmasında maraqlı olması faktı sadəcə olaraq onun şahid ifadələri əsasında Bənövşənin qatil olması fikrinin məntiqi cəhətdən əsaslandırılması üçün kifayət deyil. Belə ki, şəxsi faktorlarla nəyinsə doğru və ya yalan olması arasında birbaşa məntiqi cəhətdən uyğunluq mövcud deyil, amma bu qəbildən olan

faktorlarla bizim nəyə inanıb inanmamağımıza dair nəticənin çıxarılması arasında məntiqi cəhətdən uyğunluq mövcuddur.

İstənilən halda arqumentin doğru olması ilə onun inandırıcı olması arasında sıx əlaqə mövcud olduğundan *ad hominem* xətasına yol verən arqument gündəlik praktikada effektiv rol oynayır. Bildiyimiz kimi, arqumentin qiymətləndirilməsi zamanı iki məqama diqqət yetirilir: mühakimənin keyfiyyəti (arqumentin qurulması zamanı formal məntiqi qanunlara əməl olunması) və müqəddimələrin doğru olması. Qeyd etdiyimiz kimi, bu iki məqam ilə arqumenti irəli sürən insanın şəxsi keyfiyyətləri arasında məntiqi cəhətdən uyğunluq mövcud deyil. Amma bizim müqəddimələri doğru *qəbul etməyimiz* bu arqumenti irəli sürən insana nə dərəcədə inanıb inanmamağımızdan asılı ola bilər. Bu insanın qərəzli olduğunu və ya yalan danışmaq üçün motivlərinin olduğunu bilmək onun tərəfindən irəli sürülmüş müqəddimələrə inanmamaq üçün səbəb rolunda çıxış edə bilər. *Ad hominem* xətasının gündəlik praktikada efektiv olmasının digər bir səbəbi isə bu məntiqi xətaya yol vermiş arqumentdə oxucu və ya dinləyicilərin emosiyalarının, arqumenti irəli sürən insan barəsində olan neqativ təəssüratlarının arqumentə daxil edilməsidir.

# Mövzu 7. Təsadüf (*secundum quid)*[1]

Ümumi qayda bu qaydada nəzərdə tutulmayan xüsusi hadisələrə şamil edilərkən *secundum quid*[2] xətası yaranır. Ümumi qayda həmişə birbaşa və ya dolayı şəkildə müqəddimələrdə öz əksini tapır və daha sonra yanlış olaraq nəticədə əks olunan xüsusi hadisəyə tətbiq edilir. Beləliklə, xüsusi hadisə ümumi qaydanın ona tətbiq edilməsinə imkan verməyən hər hansı bir əlamətə və ya ümumi qaydaya nəzərən "təsadüf" kimi qiymətləndirilən keyfiyyətə malik olur. *Secundum quid* xətasının məzmununu daha yaxşı anlamaq üçün aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1**. *Dünyəvi dövlət quruluşunun dəyişdirilməsi üçün açıq şəkildə dini məzmunlu çağırışlar edən dini partiya rəhbərinin məhkəməsi zamanı onun vəkili belə çıxış edir:* "Söz azadlığı hər bir insanın konstitusiya ilə qorunan təbii hüquqlarından biridir. Bu səbəbdən məhkəmədə hüquqlarını müdafiə etdiyim şəxsin dini moizə zamanı səsləndirdiyi və

[1] Bəzən *təsadüf xətası* növbəti mövzuların birində nəzərdən keçirəcəyimiz *prezumpsiya xətalarının* bir növü hesab edilir.

[2] Bu məntiqi xətanın latın dilində tam adı belədir*: A dicto simpliciter ad dictum secundum quid*. Hərfi tərcümədə *"həddindən artıq sadə fikirdən xüsusi şeyə keçid*" mənasını bildirir. Müasir məntiqdə bəzən "qaydanın pozulması" və ya sadəcə olaraq "təsadüf" məntiqi xətası kimi də adlandırılır.

cəmiyyətdə geniş əks-səda doğurduğu nitqinə görə həbs olunması yolverilməzdir.”

**Nümunə 2**. *Yazılı imtahan prosesində qanunsuz vəsaitdən köçürməyə cəhd etdiyi üçün imtahan prosesindən kənarlaşdırılan tələbə imtahan nəzarətçisinə belə deyir*: “Hər bir xüsusi mülkiyyət onun sahibinə məxsusdur. Bu səbəbdən imtahan prosesindən kənarlaşdırılandan sonra siz mənim köçürmək üçün istifadə etdiyim həmin vəsaiti mənə qaytarmalısınız.”

Nəzərdən keçirdiyimiz birinci nümunədə ümumi qayda söz azadlığının hər bir insanın konstitusiya ilə qorunan təbii hüquqlarından biri olması və xüsusi hadisə isə dini partiya rəhbəri tərəfindən dini moizə zamanı səsləndirdiyi fikirlərdir. Amma bu fikirlər dünyəvi dövlət quruluşunun dəyişdirilməsi üçün açıq şəkildə dini məzmunlu çağırışlar etdiyindən ümumi qayda bu xüsusi hadisəyə şamil edilə bilməz. Nəzərdən keçirdiyimiz ikinci nümunədə isə ümumi qayda hər bir xüsusi mülkiyyətin onun sahibinə məxsus olması və xüsusi hadisə isə imtahanda köçürmək üçün nəzərədə tutulmuş qanunsuz vasitənin imtahan prosesindən kənarlaşdırıldıqdan sonra tələbəyə qaytarılmamasıdır. Amma bu qanunsuz vasitə tələbə tərəfindən onun imtahan prosesindən kənarlaşdırılması ilə bağlı verə biləcəyi appelyasiya şikayətində maddi sübut rolunu

oynaya biləcəyindən, eləcə də eyni qanunsuz vəsaitdən növbəti imtahanlarda istifadə edə biləcəyi ehtimalı mövcud olduğundan ümumi qayda bu xüsusi hadisəyə də şamil edilə bilməz.

Təsadüf xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Beləliklə, *secundum quid* xətasına yol vermiş olan arqument aşağıdakı formaya malik olur:

$M_1$. X ümumi qaydası təqdim edilir.

$M_2$. X Y xüsusi hadisəsinə tətbiq edilir.

$M_3$. Y əsasında Z iddiası irəli sürülür.

$N$. Z iddiasının doğruluğunun əsaslandırılmış olmasına dair nəticə çıxarılır.

# Mövzu 8. Saman adam

Saman adam məntiqi xətası nə zaman yaranır? Əgər arqumenti irəli sürən insan tərəfindən asanlıqla tənqid etmək məqsədilə opponentin arqumenti təhrif edilirsə, təhrif edilmiş arqument təkzib edilirsə və opponentin əsl arqumentinin təkzib edilmiş olmasına dair nəticə çıxarılırsa, onda *saman adam* xətası meydana çıxır. Beləliklə, əgər obrazlı şəkildə desək, arqumenti irəli sürən insan *saman adam* düzəldərək onu vurub yıxmaqla gerçək insanı (əks arqumenti) vurub yıxdığına dair nəticə çıxarmış olur. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 1.** *Ümumtəhsil orta məktəblərdə dini dərslərin keçirilməsinə qarşı çıxan X adlı təhsil eksperti onun opponenti tərəfindən belə tənqid edilir*: "X orta məktəblərdə dini dərslərin keçirilməsini düzgün hesab etmir. Onun Allaha inanmadığı aydın məsələdir. Amma gəlin görən ateizm bu cəmiyyətə nə vəd edir? Bildiyimiz kimi, keçmiş SSRİ-də dinə qarşı münasibətdə rəsmi olaraq ateizm mövqeyindən çıxış edilirdi. Bu, dövlətdə şəxsiyyətə pərəstiş, insan həyatının dəyərdən düşməsi, mənəviyyatın korlanması, son nəticədə 30-cu illərin kütləvi repressiyalarına gətirib çıxarmışdır. Biz öz ölkəmizdə bu kimi hadisələrin baş verməyini istəyirikmi? Əlbəttə ki, xeyr. X-ın məktəblərdə dini dərslərin keçirilməsinə qarşı irəli sürdüyü arqumentlər absuddur."

*Argumentum ad Hominem* xətasına yol vermiş arqument kimi saman adam xətasına yol vermiş arqument də həmişə iki insan arasında baş verir. Nəzərdən keçirdiyimiz nümunədə olduğu kimi, X adlı təhsil eksperti ümumtəhsil orta məktəblərdə dini dərslərin keçirilməsinə qarşı arqument irəli sürür. X-ın opponenti isə X tərəfindən dini dərslərin keçirilməsinə qarşı irəli sürmüş olduğu arqumenti ateizmin müdafiəsi üçün irəli sürülmüş arqument ilə eyniləşdirərək sonuncu arqumenti təkzib etməyə çalışır və sonda X-ın arqumentinin absurd olmasına dair nəticə çıxarır. X-ın arqumentinin ateizm mövzusu ilə heç bir əlaqəsi olmadığından onun opponenti tərəfindən irəli sürülən arqumentdə saman adam xətasına yol verilir.

Saman adam xətasına yol verən arqument aşağıdakı struktura malikdir:



Bəzən opponent irəli sürülmüş arqumentdə nəzərdə tutulan məsələləri şişirdərək və əslində olduğundan daha kəskin şəkildə təqdim edərək təhrif edir, beləliklə, irəli sürdüyü əks-arqumentdə saman adam xətasına yol verir. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 2.** *İmtahan prosesinin daha asan şəkildə keçirilməsini tələb edən tələbə birliklərinə universitet rəhbərliyi belə cavab verir*: "Tələbələr nə istəyir? Heç bir şey oxumadan imtahanlardan yüksək qiymət almaq nə dərəcədə məqsədəuyğundur? Bəlkə heç təhsil almadan onlara universitetin müvafiq ixtisas diplomları təqdim edilsin? Belə tələb sadəcə olaraq gülməlidir!"

**Nümunə 3**. *Maddi çətinliklər ilə qarşılaşan gənc ailənin işsizlik probleminin həllində kömək üçün müraciət etdiyi sosial proqramda onlara belə cavab verirlər*: "Çox təəssüf ki, indiki gənclər çox tənbəldir. Əziyyət çəkmək və işləmək istəmirlər. Onlar daimi olaraq onları himayə edəcək, onlara maddi yardım edəcək imkanlı insanların mərhəmətini qazanmaq istəyirlər. Siz gənc və sağlam insanlarsız, amma bu şəkildə maddi çətinlikləri aradan qaldırmaq yolverilməzdir, mənəvi cəhətdən tənəzzüldür. Bu səbəbdən biz sizə kömək edə bilmərik."

Nəzərdən keçirdiyimiz birinci nümunədə tələbələrin tələbi sadəcə olaraq imtahan prosesinin daha asan şəkildə təşkil edilməsidir – bəlkə imtahana daha az mövzuların daxil edilməsi və ya imtahanda sualların cavablandırılması üçün daha çox zamanın ayrılmasıdır. Amma universitet rəhbərliyi tələbələrin bu tələbini şişirdərək onların heç bir şey oxumadan imtahanlardan yüksək qiymət almaq istəyi şəklində təqdim edir, nəticədə bunun yolverilməz olduğunu hesab edərək tələbələrin arqumentinin təkzib edilmiş olmasına dair nəticə çıxarır. İkinci nümunədə də oxşar strategiyadan istifadə edilir. Sosial proqram gənc ailənin işsizlik probleminin həlli üçün istədikləri köməyi onların imkanlı insanların mərhəmətini qazanaraq işləmədən onların hesabına yaşamaq istəyi kimi təhrif edərək rədd edir.

# Mövzu 9. Mühüm olanı nəzərdən qaçırma (*Ignoratio Elenchi)*

*Mühüm olanı nəzərdən qaçırma* məntiqi xətası nə zaman yaranır? Əgər arqumentin müqəddimələri müəyyən düzgün nəticə çıxarmağa imkan verirsə, amma əvəzində bu müqəddimələrdən orada nəzərdə tutulan, amma düzgün nəticə ilə zəif əlaqəsi olan başqa nəticə çıxarılarsa, onda *mühüm olanı nəzərdən qaçırma* xətası yaranır. Opponent tərəfindən irəli sürülmüş arqumentin *Ignoratio Elenchi* xətasını özündə ehtiva etdiyini təyin etmək üçün əvvəlcə arqumentin müqəddimələrinin məntiqi cəhətdən nəzərdə tutduğu düzgün nəticəni müəyyənləşdirmək lazımdır.

**Nümunə 1**. *Cinayətkarlara qarşı ölüm hökmünün tətbiq edilməsini təklif edən millət vəkili öz fikrini belə əsaslandırır*: "Son zamanlar quldurluq və oğurluq artıq geniş hal alıb. Belə amansız cinayətlər törədən cinayətkarlara qarşı görməli olduğumuz cavab tədbiri aydındır: biz təxirə salmadan onlara qarşı ölüm hökmünü bərpa etməliyik."

**Nümunə 2**. *Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramını tənqid edən millət vəkili öz fikrini belə*

*əsaslandırır:* “Son zamanlar yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı çərçivəsində saxta yollarla dövlətdən sosial müavinat alan vətəndaşların sayında kəskin artım müşahidə edilir. Bu dövlət büdcəsinin səmərəsiz şəkildə xərclənməsi və onun israf edilməsi deməkdir. Belə neqativ halın qarşısının alınmasının yeganə yolu haqqında bəhs olunan dövlət proqramının ləğv edilməsidir.”

Nəzərdən keçirdiyimiz birinci nümunədəki arqumentdən ən azı iki düzgün nəticə çıxarmaq mümkündür: “Biz vətəndaşlara və onların əmlakına qarşı törədilmiş quldurluq və oğurluq hallarının xüsusilə geniş yayıldığı inzibati ərazi vahidlərində polis nəzarətini daha da gücləndirməliyik” və ya “Biz bu qəbildən olan cinayətlərin baş verməsini şərtləndirən səbəbləri aradan qaldırmaq üçün xüsusi dövlət proqramları işləyib hazırlamalıyıq”. “Biz bu cinayətkarlara qarşı ölüm hökmünü bərpa etməliyik” mülahizəsi heç bir halda nəzərdən keçirdiyimiz birinci arqumentin nəticəsi kimi çıxış edə bilməz. Nəzərdən keçirdiyimiz ikinci arqumentin düzgün nəticəsi kimi isə “Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramını ləğv etmək lazımdır” mülahizəsi deyil, “Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramından saxta sənədlər əsasında faydalanan və buna şərait yaradan insanları müvafiq qanunla nəzərdə tutulmuş şəkildə cəzalandırmaq lazımdır” mülahizəsi çıxış edir.

Mühüm olanı nəzərdən qaçırma xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




*Ignoratio Elenchi* xətası əslində sübut etmə prosesinin diqqətdən kənarda qalmasına gətirib çıxarır. Belə ki, arqumenti irəli sürən insan bu arqumentin müqəddimələrindən çıxan düzgün nəticəyə diqqət yetirmədən onu nəzərdən qaçırır. Nəticədə arqumentdən çıxarılan nəticə ilə arqumentin müqəddimələri arasında məntiqi əlaqə mövcud olmur.

## Mövzu 10: Qırmızı siyənək[1]

Qırmızı siyənək məntiqi xətası nəzərdən qaçırma (*Ignoratio Elenchi)* xətası ilə bir sıra oxşar cəhətlərə malikdir. Qırmızı siyənək məntiqi xətası nə zaman yaranır? Əgər arqumenti irəli sürən insan mövzunu fərqli, amma qismən onunla bağlı olan digər mövzu ilə əvəzləyərək oxucunun və ya dinləyicinin diqqətini yayındırarsa, onda o, qırmızı siyənək xətasına yol vermiş olur. Daha sonra o, dəyişdirdiyi fərqli mövzuya dair nəticə çıxarmaqla öz arqumentini tamamlaya bilər. Beləliklə, arqumenti irəli sürən insan öz opponenti üzərində qələbə qazandığını güman edir. Qırmızı siyanək xətasını məharətlə icra edib effektiv nəticə ala bilmək üçün mövzunu oxucu və ya

---

[1] Nəzərdən keçirəcəyimiz bu məntiqi xəta öz adını "*qırmızı siyənək balığı*" adından götürsə də, təbiətdə belə adda balıq növü mövcud deyildir. Burada qırmızı siyənək adı əslində güclü şəkildə qızardılarkən rəngi qırmızıya çalan xüsusi balıq yeməyi hazırlama üsulundan götürülüb. Belə ki, adətən siyənək balığından hazırlanan bu yeməkdə yalnız qızardılmış balığın rəngi qırmızıya çalmır, həm də balığın özü kəskin spesifik qoxuya malik olur. Mövcud olan fərziyyələrə əsasən 16-17-ci əsrlərdə ov üçün nəzərdə tutulmuş ov itlərinin təlimi zamanı təlimçi ov heyvanlarının cığırına perpendikulyar istiqamətdə qızardılmış siyənək balığı ilə hərəkət edərmiş. Beləliklə, balığın kəskin qoxusu ov itlərini çaşdırır və onlar öv heyvanlarının qoxusunu çətinliklə müəyyənləşdirə bilirdilər. Tədricən qızardılmış kəskin balıq qoxusu ilə ov heyvanlarının qoxusunu daha asanlıqla fərqləndirməyi bacarmaqla ov itlərinin qoxu duyma bacarıqları inkişaf edərmiş.

dinləyicinin diqqətini cəlb etmədən fərqli mövzuya doğru dəyişdirməyi bacarmaq lazımdır.

**Nümunə 1.** *Nüvə enerjisindən istifadənin mümkün təhlükələrinin müzakirə edildiyi debatda bu enerjidən istifadənin məqbul olduğunu hesab edən ekspert öz fikrini belə əsaslandırır:* "Bəzi ekoloqlar davamlı olaraq nüvə enerjisindən istifadənin yol verilməz olduğunu vurğulayırlar. Amma təəssüf ki, necə əldə edilməsindən asılı olmayaraq elektrik enerjisi hər zaman təhlükəlidir. Hər il yüzlərlə insan təsadüfən elektrik vurması nəticəsində həyatını itirir. Belə bədbəxt hadisələrin əksəriyyətinin ehtiyatsızlıqdan baş verdiyini nəzərə alsaq, biz əslində elektrik enerjisindən istifadəyə dair təhlükəsizlik tədbirlərinin artırılmalı olduğunu vurğulamalıyıq."

**Nümunə 2**. *Geni dəyişdirilmiş meyvə və tərəvəzlərin insan sağlamlığına olan zərərləri haqqında irəli sürülən iddialara dövlət məmuru belə cavab verir*: "Son günlər geni dəyişdirilmiş meyvə və tərəvəzlərin satışına dövlət tərəfindən icazənin verilməsinə dair mətbuatda çoxlu fikirlər irəli sürülür. Amma unutmaq olmaz ki, meyvə və tərəvəzlər insan sağlamlığının qorunmasında çox mühüm rol oynayır. Məsələn, alma B və C vitaminləri ilə zəngin olub ürək-damar sistemi, üzüm C və B vitaminləri ilə zəngin olub ürək-damar sistemindən başqa mədə-bağırsaq, qaraciyər, öd və böyrəyin

sağlamlığı üçün əvəzsiz qidalar sayıla bilər.”

Nəzərdən keçirdiyimiz hər iki arqumentdə qırmızı siyənək xətasına yol verilmişdir. Birinci arqumentdə müzakirə edilən əsas mövzu nüvə enerjisinin nə dərəcədə təhlükəli olmasıdır. Amma arqumenti irəli sürən insan diqqəti bu mövzudan yayındıraraq elektrik enerjisindən istifadənin nə dərəcədə təhlükəli olmasından bəhs etməyə başlayır. Beləliklə, arqumentdə mövzunun əvəzlənməsi prosesi baş verir və arqumentdən çıxan nəticə ilkin deyil, onun əvəzinə diqqət mərkəzinə mərkəzinə gətirilən yeni mövzu əsasında çıxarılır. Yeni mövzu açıq-aydın birinci mözunun özündə daşıdığı təhlükələr, məsələn, nüvə partlayışı və ya nüvə çirklənməsi ilə birbaşa şəkildə bağlı deyil, amma hər iki mövzunun elektrik enerjisi ilə bağlı olmağından istifadə edərək arqumenti irəli sürən insan oxucunun və ya dinləyicinin diqqətini birinci mövzudan yayındırmağa çalışır. Nəzərdən keçirdiyimiz ikinci arqumentdə isə müzakirə edilən əsas mövzu geni dəyişdirilmiş meyvə və tərəvəzlərin insan sağlamlığı üçün nə dərəcədə təhlükəli olmasıdır. Amma arqumenti irəli sürən insan diqqəti bu mövzudan yayındıraraq meyvə və tərəvəzlərin insan sağlamlığı üçün nə dərəcədə faydalı olmasından bəhs etməyə başlayır. Birinci nümunədə olduğu kimi burada da hər iki mövzunun dolayı şəkildə bir-biri ilə bağlı olmasından istifadə edərək arqumenti irəli sürən insan oxucunun və ya dinləyicinin

diqqətini birinci mövzudan yayındırmağa çalışır. Beləliklə, nəzərdən keçirdiyimiz heç bir arqumentdə müzakirə edilən əsas mövzu ilə bağlı məntiqi nəticə çıxarılmır, əvəzində opponentin diqqətini əsas mövzudan yayındıraraq bu mövzu ilə dolayı şəkildə bağlı olan ikinci mövzuya keçid almaqla məntiqi xətaya yol verilir.

Qırmızı siyənək xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Qırmızı siyənək məntiqi xətasından məhkəmədə cinayət işində ittiham edilən müttəhimi müdafiə etmək və ya onun törətdiyi cinayət işi üçün nəzərdə tutulmuş müvafiq cəza növünün daha yüngül cəza növü ilə əvəzlənməsinə nail olmaq üçün müttəhimin hüquqlarını müdafiə edən vəkillər tərəfindən tez-tez istifadə edilir:

**Nümunə 3**. *Məhkəmədə cinayət törətməkdə şübhəli bilinən müttəhimin vəkili aşağıdakı müdafiə niqti ilə çıxış edir*: Cənab hakim! Mən bilirəm ki, mənim məhkəmədə hüquqlarını müdafiə etdiyim şəxs soyğunçuluq məqsədilə daxil olduğu evdə ev sahibini qətlə yetirib. Amma o, qəsdən adam öldürmə cinayəti üçün qanunvericilikdə nəzərdə tutulmuş maksimum müddətə azadlıqdan məhrum edilməməlidir. O, uşaq ikən valideyn himayəsindən məhrum olmuşdur. Daha valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuş dövlət müəssisəsinə yerləşdirilmişdir, amma burada da davamlı olaraq müxtəlif fiziki və mənəvi zorakılıqlara məruz qalmışdır. Nəticədə həmin müəssisədən qaçmış və yeniyetmə yaşlarından cinayətkar dəstələrə qoşulmuş, spirtli içkilərin və narkotikin istifadəçisinə çevrilmişdir. O, artıq həyatda istəmədən bir çox ağır məhrumiyyətlər yaşamalı olmuşdur. İndi isə biz ədalət və humanizm prinsiplərində çıxış edərək törətdiyi cinayət üçün ona qanunvericilikdə nəzərdə tutulmuş ən şiddətli cəzanı verməməliyik.

Nəzərdən keçirdiyimiz bu nümunədə vəkil məhkəmənin diqqətini müzakirə edilən əsas mövzu olan cinayət işindən yayındırmağa çalışır. Bu məqsədlə vəkilin hazırladığı müdafiə nitqi inandırıcı ola bilər, amma istənilən halda vəkil tərəfindən irəli sürülən arqumentlər ilə müzakirə edilən əsas mövzu

arasında məntiqi cəhətdən birbaşa əlaqə mövcud deyildir. Müttəhimin çətin məşəqqətli həyat təcrübəsi onun tərəfindən törədilmiş cinayət faktını dəyişdirmir. Həmçinin qeyd etmək lazımdır ki, nəzərdən keçirdiyimiz bu nümunə qırmızı siyənək xətası ilə yanaşı daha əvvəl nəzərdən keçirdiyimiz mərhəmətə müraciət (*argumentum ad misericordiam)* xətasını da özündə ehtiva etmiş olur.

Qırımızı siyənək xətası romantik münasibətlərdə qarşı tərəfin tənqidlərindən qaçmaq məqsədilə onun diqqətini yayındırmaq üçün tez-tez istifadə edilir. Məsələn, aşağıdakı arqumenti nəzərdən keçirək:

**Nümunə 4.** *Sevdiyi qadının ad gününü təbrik etməyi unudan kişi çətin vəziyyətdən çıxmaq üçün qadının diqqətini belə yayındıra bilər:*
"Qadın: Mənim ad günümü yenidən unutduğuna inana bilmirəm!
Kişi: Mən sənə bu paltarda necə də füsunkar göründüyünü demişəmmi?"

Qırımızı siyənək xətası müxtəlif psixoloji xarakterli dəstəyin göstərilməsi zamanı də qarşı tərəfin diqqətini onu narahat edən problemlərdən yayındırmaq üçün effektiv şəkildə istifadə edilə bilər:

**Nümunə 5**. *Sevdiyi qadından ayrılan insana təskinlik vermək üçün dostu belə deyir*: "Sən Afrikada aclıq çəkən və ya Suriyada yaranan siyasi xaos səbəbindən evlərindən didərgin düşən insanları xatırla! Sənin əzab verən problemlər onların problemlərinin yanında elə əhəmiyyətsiz görünür ki!"

Qırmızı siyənək xətası dialoq zamanı davamlı olaraq suala sualla cavab verərək opponentin diqqətini yayındırmaq cəhdi zamanı da təzahür edə bilər:

**Nümunə 6**. *Övladının oğurluq etməyindən xbərdar olan valideynin iradlarına övlad belə cavab verir*:
Valideyn: Oğurluğun yer üzündə ən alçaq əməllərdən biri olduğunu bilə-bilə sən niyə belə bir iş tutmusan?
Övlad: Niyə oğurluq yer üzündə ən alçaq əməllərdən biridir ki?
Valideyn: Bu hamı tərəfindən qəbul edilən ümumi əxlaq normasıdır.
Övlad: Bu niyə hamı tərəfindən qəbul edilən ümumi əxlaq norması olmalıdır ki?"

Qırmızı siyənək xətası *saman adam* xətası ilə dəyişik salına bilər, çünki hər iki xətada məqsəd oxucunun və ya dinləyicinin diqqətini yayındırmağa xidmət edir. Amma hər iki məntiqi xətanın özünəməxsus yoldan istifadə edərək öz məqsədinə nail

olmasına diqqət yetirərək onları bir-birindən fərqləndirmək mümkündür. Nəzərdən keçirdiyimiz kimi, saman adam xətasında arqumenti irəli sürən insan öz opponentinin daha əvvəl irəli sürmüş olduğu arqumenti təhrif edərək onu təkzib etməyə çalışır. Amma qırmızı siyənək xətasında arqumenti irəli sürən insan öz opponentinin daha əvvəl irəli sürmüş olduğu arqumentin əsasında dayanan başlıca mövzunu məharətlə bu mövzu ilə zəif şəkildə bağlı olan digər mövzu ilə əvəzləməyə çalışır. Beləliklə, onları bir-birindən fərqləndirmək üçün arqumenti irəli sürən insanın öz opponentinin arqumentini təhrif etdiyinə, yoxsa onun opponenti tərəfindən müzakirə edilən mövzunu dəyişdirdiyinə diqqət yetirmək lazımdıır.

Həm qırmızı siyənək xətası, həm də saman adam xətası eyni zamanda nəzərdən keçirdiyimiz digər məntiqi xəta – *mühüm olanı nəzərdən qaçırma* xətası ilə dəyişik salına bilər, çünki onların hər üçü eyni qəbildən olan məntiqi uyğunluq xətalarıdır. Onları dəyişik salmamaq üçün aşağıdakı məqama diqqət yetirmək lazımdır: həm qırmızı siyənək xətasında, həm də saman adam xətasında arqumenti irəli sürən insan tərəfindən onun opponentinin diqqətini yayındırmaq üçün yeni müqəddimələr çoxluğu formalaşdırılır, amma mühüm olanı nəzərdən qaçırma xətasında adından da göründüyü kimi arqumenti irəli sürən insan öz opponentinin diqqətini yayındırmaq üçün arqumentdə mühüm olan məqamı nəzərdən qaçırır. Belə ki, saman adam xətasına yol verilmiş arqumentdə

opponent tərəfindən daha əvvəl irəli sürülmüş arqumentin təhrif edilməsi nəticəsində yeni əldə edilən müqəddimələrdən nəticə çıxarılır; qırmızı siyənək xətasına yol verilmiş arqumentdə daha əvvəl opponent tərəfindən irəli sürülmüş olan arqumentdə müzakirə edilən əsas mövzunun dəyişdirilməsi nəticəsində əldə edilən yeni müqəddimələrdən nəticə çıxarılır. Amma mühüm olanı nəzərdən qaçırma xətasına yol verilmiş arqumentdə heç bir yeni müqəddimələr mövcud olmur və çıxarılan nəticə arqumentdə öz əksini tapan ilkin müqəddimələr əsasında baş verir. Həm də nəzərə almaq lazımdır ki, qırmızı siyənək və saman adam xətalarına yol vermiş arqumentdə müqəddimələr ilə onlardan çıxarılan nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcuddur. Amma mühüm olanı nəzərdən qaçırma xətasına yol vermiş arqumentdə müqəddimələr ilə onlardan çıxarılan nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcud deyildir.

# Mövzu 11. Adi biliyə müraciət

Adi biliyə müraciət məntiqi xətası nə zaman yaranır? Əgər arqumentin qurulması zamanı etibarlı müqəddimələr əvəzinə hamıya yaxşı məlum olan adi biliklərdən istifadə edilərsə, onda o, adi biliyə müraciət xatasına yol verər. Bu məntiqi xəta bəzən "*hər bir uşaq bilir"* xətası da adlanır, çünki bu xətaya yol vermiş arqumentlərdə bir qayda olaraq "hətta uşaq da bunu bilir" və ya "bu elə aydındır ki, hətta uşaq da bunu dərk edə bilər" formasında olan fikirlər öz əksini tapır. Amma bir şeyin çox insan tərəfindən doğru olaraq qiymətləndirilməsi məntiqi cəhətdən həmin şeyin doğru olmasına dair nəticə çıxarmaq üçün kafi deyil. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1**. *Sosial ədalət mövzusunda keçirilən debat zamanı opponentlərdən biri öz fikrini belə əsaslandırır*: "Bütün insanlar bərabər yaradılıb. Hər kəsin bu həqiqəti bilməsi bu fikrin doğru olduğunu təstiq edir."

**Nümunə 2**. *Elm və onun tənqidi mövzusunda keçirilən debat zamanı opponentlərdən biri öz fikrini belə əsaslandırır*: "Elmə görə Yer kürəsinin bir neçə milyon il yaşı var. Biz bunu dəqiq şəkildə necə və haradan bilirik?! Kimə müraciət etsəniz, o, sizə bu sualları verəcək!"

**Nümunə 3.** *Əxlaqi dəyərlər mövzusunda keçirilən debat zamanı opponentlərdən biri öz fikrini belə əsaslandırır*: "Hətta balaca uşaqdan da soruşsanız, o, məhz nəyin əxlaqa uyğun gəldiyini, nəyin isə əxlaqa uyğun gəlmədiyini sizə deyəcək. Bu səbəbdən sizin əxlaqi dəyərlərin nisbi olmasına dair fikirləriniz tamamilə əsassızdır."

**Nümunə 4**. X adlı ölkədə *keçirilən prezident seçkiləri zamanı aparılan təbliğat kompaniyasının gedişində namizədlərdən birinin vəkili seçicilərin niyə həmin namizədə səs verməli olduğunu belə əsaslandırır*: "Siz hələ də kimə səs verəcəyinizi qərara almamısınız?! Burada tərəddüd ediləsi heç bir şey yoxdur! Bizim ölkəmizdə kiçikdən böyüyədək hər kəs məhz indiki prezidentimiz cənab Y-ın yenidən prezident kürsüsünə layiq olduğunu bilir."

Nəzərdən keçirdiyimiz bu nümunələrin hər birində arqumenti irəli sürən insan irəli sürdüyü fikri əsaslandırmaq üçün mötəbər sübutlardan istifadə etmək əvəzinə adi biliyə müraciət etməklə məntiqi xətaya yol vermiş olur.

Adi biliyə müraciət xətasına yol verən arqument aşağıdakı struktura malikdir:


A
Müraciət edir
Ab
Təqdim edir
Nəticə
A = Arqumenti irəli sürən
Ab = Adi bilik

# Mövzu 12. Genetik xəta

Genetik məntiqi xətası nə zaman yaranır? Genetik xətasına yol vermiş arqumentdə irəli sürülən fikir, mövqe və ya ideyanın bu fikir, mövqe və ya ideyanın meydana gəldiyi mənbənin qüsurlu olması səbəbindən qüsurlu olduğunu əsaslandırmağa çalışırlar. Bu qəbildən olan arqumentlərdə adətən opponentin mövqeyini təkzib etmək məqsədilə yalnız bu mövqenin əsasında dayanan ümumi ideya və ya prinsip təkzib edilir. Genetik xətaya yol vermiş olan arqument adətən aşağıdakı struktura malikdir:

$M$. X fikri Y prinsipi əsasında irəli sürülmüşdür.

$N$. X ilə Y arasında oxşarlıq mövcud olmalıdır və buna görə də X ciddi qəbul edilə bilməz.

Genetik məntiqi xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Genetik mntiq xətasına yol vermiş arqumentlərdə X-ın Y-dən irəli gəldiyinə görə X ilə Y arasında oxşarlığın olması nəzərdə tutulur və bu səbəbdən Y-in təkzib edilməsi yolu ilə X-ın da təkzib edilməsi mümkün hesab edilir. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1**. *Universitetdə məntiq professorunun dərslərində iştirak etməkdən imtina edən tələbə öz mövqeyini belə əsaslandırır:* "Mən nə üçün onun dərslərində iştirak etmək istəmirəm? O, ateistdir. Əgər o, Tanrıya inanmırsa, deməli, savadsızdır. Əgər o, savadsızdırsa, mənə necə məntiq öyrədə bilər?!"

**Nümunə 2**. *Elmi mövzuda kişi həmkarı ilə keçiriləcək debatdan imtina edən qadın mövqeyini belə əsaslandırır*:

| |
|---|
| “Mənim debatda iştirak edəcək insan antifeministdir və deməli, qadınlar ilə kişilər arasında gender bərabərliyini qəbul etmir. Özünü məndən üstün hesab edən insan ilə hər hansı mövzuda müzakirə aparmaq yolverilməzdir!” |

Yadda saxlamaq lazımdır ki, irəli sürülən fikir və ya mövqe yalnız onun çıxış etdiyi ümumi prinsip və ya ideyaya görə təkzib edilə bilməz. Hər bir arqument yalnız onun etibarlılığına, tutarlılığına və potensial cəhətdən inandırıcı olmağına görə qiymətləndirilə bilər.[1]

[1] Etibarlı, tutarlı və potensial cəhətdən inandırıcı arqument haqqında ətraflı oxumaq üçün bax: Elmar Hussein. Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq. Bakı: “Parlaq İmzalar” nəşriyyatı”, 2021, s. 81-106.

# Mövzu 13. Ənənəyə müraciət

Ənənəyə müraciət məntiqi xətası nə zaman yaranır? Əgər arqumentin nəticəsinin əsaslandırılması üçün ənənəyə və ya adətlərə müraciət edilirsə, onda burada ənənəyə müraciət xətasına yol verilmiş olur. Adət-ənənələr insanlarla tarix arasında bağlantı qura, ona görə də dəyərli hesab edilərək qoruna bilər. Amma adət-ənənələr heç bir halda müstəqil şəkildə arqumentin müqəddiməsi qismində çıxış edə bilməzlər. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1.** *Övladını muğamları dinləmək üçün inandırmağa çalışan valideyn belə deyir*: “Sən bizim muğamları sevməlisən. Sənin atan, baban və ulu baban muğamların vurğunu və dərin bilicisi olublar. Ona görə sən onlar kimi olmalısan.”

**Nümunə 2.** *Dindar valideyn ateist övladını öz yolundan döndərmək üçün belə deyir*: “Bizim nəslimiz üzü keçmişdən bəri ibadət əhli olub. Ona görə də biz camaat arasında hörmət və etibar qazanmışıq. İndi sən ateist olmağı ağlına necə gətirə bilərsən?”

**Nümunə 3**. *Qapını açaraq nəzakət xatirinə birinci qadına yol verməyə çalışan kişi buna etiraz edən və feminist düşüncələri*

*paylaşan həmin qadına belə deyir:* “Biz qadınları zərif və incə varlıq hesab edərək onları həmişə öz diqqət və qayğımız ilə əhatə etmişik. İndi siz belə diqqət və qayğının göstəricisi olan bu nəzakətli davranış ənənəsinə necə etiraz edə bilərsiniz?”

Nəzərdən keçirdiyimiz bu nümunələrin hər birində irəli sürülən fikri əsaslandırmaq üçün ənənəyə müraciət edilir. Yalnız ənənəyə müraciət edərək fikrin əsaslandırılması cəhdi isə məntiqi cəhətdən qüsurludur, çünki ənənə də epistemik cəhətdən özündə biliyi ehtiva etməyərək məntiqi müstəvidə yalan qiymətləndirilə bilər.

Ənənəyə müraciət xətasına yol verən arqument aşağıdakı struktura malikdir:



## Mövzu 14. İki yanlış olan bir düzgün olanı doğurur

*İki yanlış olan bir düzgün olanı doğurur* məntiqi xətası nə zaman yaranır? Əgər arqument vasitəsilə qeyri-etik davranışın icra edilməsi səbəbindən eyni davranışı təkrar icra edərək əvvəlki qeyri-etik davranışın düzəldilməsi nəzərdə tutulursa, onda bu arqument yuxarıda adı qeyd edilən məntiqi xətaya yol vermiş olur. Sadəcə olaraq yanlış davranış nümunəsinin təkrar edilməsi onu düzgün davranış nümunəsinə çevirə bilməz. *Tu quoque* ("sən də həmçinin") məntiq xətasından olduğu kimi, iki yanlış olan bir düzgün olanı doğurur məntiq xətasından arzuedilməz rəftara bəraət qazandırmaq üçün tez-tez istifadə edilir. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1**. *Qətli icra etməyə hazırlaşan qatil öz davranışının səbəbini belə əsaslandırır*: "Sənin qardaşın mənim bacımın həyatına son qoyub. İndi mən də onun bacısının həyatına son qoyacam!"

**Nümunə 2**. *Həyat yoldaşına başqa kişi ilə xəyanət edərkən yaxalanan qadın öz davranışını belə əsaslandırır*: "Mənim həyat yoldaşım başqa qadınlarla mənə daim xəyanət edir. Mən də ona qarşı onun mənə qarşı davrandığı kimi davranıram."

**Nümunə 3**. *Küçədən başqasına məxsus pul kisəsini tapan insan onu sahibinə qaytarmaqdan imtina etməsini belə əsasalandırır*: "Mən niyə küçədən tapdığım pul kisəsini sahibinə qaytarmalıyam ki?! Məgər başqası küçədən mənə məxsus olan pul kisəsini tapsaydı, onu mənə qaytarardı?!"

Nəzərdən keçirdiyimiz bütün nümunələrin hamısında qeyri-etik davranışı daha əvvəl başqalarının da məhz belə davranmış olması ilə əsaslandırmağa cəhd edirlər.

İki yanlış olan bir düzgün olanı doğurur xətasına yol verən arqument aşağıdakı struktura malikdir:



# Mövzu 15. Pul kisəsinə müraciət (*Argumentum ad Crumenam*[1])

Pul kisəsinə müraciət məntiqi xətası nə zaman yaranır? Əgər irəli sürülən fikrin sübut edilməsi məqsədilə (adətən arqumenti irəli sürən insana məxsus) var-dövlətə, pula və ya xüsusi mülkiyyətə müraciət edilərsə, onda bu zaman qurulan arqument özündə pul kisəsinə müraciət xətasını ehtiva etmiş olacaq. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1.** *Universitetdə təşkil ediləcək gələcək elmi tədqiqatların istiqamətinə dair rektor tərəfindən irəli sürülmüş fikirlər universitetin rəhbərliyi tərəfindən belə əsaslandırılır:* "Cənab rektor bu vəzifəni tutmazdan öncə bacarıqlı sahibkar olub. Bu səbəbdən o, hansı istiqamətdə aparılacaq elmi tədqiqatların praktikaya daha effektiv şəkildə tətbiq edilə biləcəyini çox yaxşı bilir."

**Nümunə 2**. *Covid-19-a qarşı nəzərdə tutulmuş vaksinasiyanın zəruriliyinə dair Bill Qeytsin fikirləri belə əsaslandırılır*: "Bil Qeyts təhsil aldığı universiteti təhsilini tamamlamadan tərk

[1] "*Crumenam*" latın sözü olub hərfi tərcümədə "pul kisəsi", "əl çantası" deməkdir.

edib və indi o, dünyanın ən zəngin insanlarından biridir. O, nə danışdığını bilir."

Nəzərdən keçirdiyimiz hər iki nümunədə insanın malik olduğu zəngin var-dövlət və ya xüsusi mülkiyyət səbəbindən onun mövqeyinin daha düzgün olması nəzərdə tutulur. Amma yalnız qeyd edilən səbəblər həmin insan tərəfindən irəli sürülən fikirlərin doğru olmasını təmin edə bilməz.

*Argumentum ad Crumenam* xətasına yol verən arqument aşağıdakı struktura malikdir:



# Mövzu 16. Əlverişsiz nəticələr

*Əlverişsiz nəticələr* məntiqi xətası nə zaman yaranır? Əgər fikir yalnız orada nəzərdə tutulan nəticənin praktik cəhətdən əlverişsiz (və ya arzuedilməz) olmasına görə təkzib edilirsə, onda bu zaman qurulan arqument özündə əlverişsiz nəticələr xətasını ehtiva edir. Əlverişsiz nəticələr xətasına yol verən arqument aşağıdakı struktura malikdir:

$M$. Əgər M doğru olsaydı, onda arzuedilməz şey(lər) baş vermiş olardı.

$N$. M doğru deyil.



Bir halda ki, M-də nəzərdə tutulan pis (arzuedilməz) nəticə ilə M-in doğru və ya yalan olması arasında heç bir uyğunluq mövcud deyildir, onda arqument uyğunluq məntiq xətasına yol vermiş sayılır. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 1.** *Müxtəlif irqi qruplarda müşahidə edilən orta statistik intellekt göstəriciləri arasında fərqin olduğunu hesab edən elmi tədqiqatın nəticəsi belə təkzib edilir*: "Aparılan bu tədqiqatda hər hansı bir yanlışlığa yol verilmiş olmalıdır, çünki bu tədqiqatın nəticəsi həqiqəti əks etdirərsə, onda cəmiyyətdə baş qaldıracaq rasizm meylləri fanatiklər tərəfindən bu yolla əsaslandırılmış olacaq."

Nəzərdən keçirdiyiniz bu arqumentin nəticəsi doğru ola bilər, amma onun yalnız arqumentin inkarının arzuedilməz nəticələrə yol aça biləcəyini qeyd etməklə əsaslandırılması məntiqi cəhətdən yol verilməzdir.

**Nümunə 2.** *Zehin fəlsəfəsində dualizm və materializm cərəyanlarının müqayisəsi zamanı belə arqumentdən istifadə edilir*: "İnsanlar bioloji orqanizm olaraq yalnız fiziki substansiyadan ibarətdir, yoxsa onlar ölməz ruha malikdir? Psixologiya sahəsində aparılan son elmi tədqiqatların nəticəsi materializm ilə dualizm arasında qədimdən bəri davam edən bu mübahisəyə aydınlıq gətirir. Belə ki, aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, materializmin tərəfdarları ilə

> müqayisədə dualizmin tərəfdarları həyatda baş verə biləcək təhlükələrə qarşı az ehtiyatlıdırlar, daha az hallarda sağlam qidalanır və idman edirlər. Beləliklə, biz dualizmin insan sağlamlığına daha çox neqativ təsir göstərə biləcəyini deyə bilərik.”

Nəzərdən keçirdiyimiz bu qəbildən olan arqumentlərdə nəticə adətən aydın şəkildə ifadə edilmir. Amma ikinci cümləyə əsasən arqumentdə əslində nəzərdə tutulan nəticəyə görə dualizm çox güman ki, yalandır. Hətta dualizmin insan sağlamlığına daha çox neqativ təsir göstərməsi fikri doğru olsa da, bunun dualizmin, yoxsa materializmin doğru olması fikri ilə heç bir bağlılığı yoxdur.

Beləliklə, əlverişsiz nəticələr xətasına yol vermiş arqumentləri “praqmatik” arqument kimi də qiymətləndirmək olar: burada nəyin doğru olması deyil, bizim nə *etməli* olduğumuz mühüm əhəmiyyət kəsb edir. Amma analiz etdiyimiz kimi, belə arqumentlər sonda məntiqi cəhətdən yanlış olan nəticələrin çıxarılması ilə yekunlaşır. Beləliklə, sonuncu nümunədə nəzərdən keçirdiyimiz arqumentin strukturunu aşağıdakı kimi də təyin edə bilərik:

$M$. Əgər insanlar M-ə inansaydılar, onda arzuedilməz şey(lər) baş vermiş olardı.

$N$. Biz M-ə inanmamalıyıq.

***Vacib qeyd:***

Nəzərə almaq lazımdır ki, bir çox praqmatik arqumentlərdə əlverişsiz nəticələr ilə arqumentin nəticəsi arasında məntiqi uyğunluq mövcud olduğundan onlarda heç bir məntiqi xətaya yol verilmir:

| |
|---|
| **Nümunə 3**. *İnsanda öz davranışına görə əxlaqi məsuliyyət daşımaq hissinin mövcud olması vacibliyi belə əsaslandırılır*: "Psixologiya elmində aparılan elmi tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hərəkətlərinə görə əxlaqi məsuliyyət daşıdığını hesab edən tələbələrə nisbətən bunun əksini düşünən tələbələr imtahan prosesində daha çox köçürmə və digər qayda pozuntularına yol verirlər. Tədqiqatı aparan alimlər belə hesab edirlər ki, cəmiyyətdə insanların qanun pozuntularına daha az yol verməsi üçün onlarda öz davranışlarına görə əxlaqi məsuliyyət hissinin formalaşması vacibdir." |

Nəzərdən keçirdiyimiz bu nümunədən çıxan nəticəyə görə cəmiyyətdə insanların qanun pozuntularına daha az yol verməsi üçün onlarda öz davranışlarına görə əxlaqi məsuliyyət *hissinin* formalaşması vacibdir. Burada əlverişsiz nəticələr - əxlaqi məsuliyyət hissindən azad olan tələbələrin daha çox hallarda imtahan qaydalarını pozmağa meylli olması ilə arqumentdən çıxan nəticə arasında məntiqi cəhətdən uyğunluq mövcuddur

və bu səbəbdən arqumentdə məntiqi xətaya yol verilməmişdir. Amma qeyd edilən əlverişsiz nəticələr əsasında arqumentdən cəmiyyətdə insanların qanun pozuntularına daha az yol verməsi üçün onlar öz davranışlarına görə *əxlaqi məsuliyyət* daşımalıdır şəklində nəticə çıxarılsaydı, onda arqument məntiqi xətaya yol vermiş olardı. Belə ki, tədqiqat nəticəsində məlum olan əlverişsiz nəticələr ilə insanlalrın öz davranışına görə əxlaqi məsuliyyət daşıyıb daşımaması arasında məntiqi uyğunluq mövcud deyildir.

## Mövzu 17. Şəxsi etimadsızlığa müraciət

*Şəxsi etimadsızlığa müraciət* məntiqi xətası nə zaman yaranır? Arqument irəli sürülərkən bəzən belə güman edilir ki, yalnız asan şəkildə başa düşülən və ya təsəvvürdə canlandırılan şey doğrudur. Əgər arqumenti irəli sürən insanda belə güman yaranarsa, onda o, şəxsi etimadsızlığa müraciət xətasına yol vermiş olur. Belə xətanı özündə ehtiva edən arqumentdən çıxan nəticəyə əsasən baş düşülməsi çətin və ya mümkünsüz olan şey yalandır. Belə əsaslandırma prosesində diqqətdən qaçan əsas məqam bir çox (və ya əksər) hallarda müzakirə edilən mövzu ilə bağlı ekspert rəyinin zəruri olmasıdır. Şəxsi etimadsızlığa müraciət xətası çox zaman məhz ekspert rəyi ilə sürü psixologiyasında dərin kök salmış müxtəlif inanclar arasında toqquşma yaranarkən meydana çıxır. Bu zaman ekspert rəyinin başa düşülməsinin çətinliyi və ya mümkünsüzlüyü əsas gətirilərək orada əks olunan fikirlər diqqətdən kənarda saxlanılır. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 1**: *Təkamül biologiyasına həsr olunmuş elmi konfransda təkamül nəzəriyyəsinin əleyhinə irəli sürülmüş fikir belə əsaslandırılır*: "Təkamül nəzəriyyəsinə görə bütün bioloji sistemlər öz başlanğıcını eyni bioloji orqanizmdən götürsə də, təbii seçmə prosesinin təsiri altında müxtəlif şəkildəyişmələrinə məruz qalmış nəsillər olaraq meydana

çıxır. Amma olduqca mürəkkəb olan bir çox bioloji sistemlər mövcuddur ki, onların təbii seçmə prosesinin təsiri altında meydana çıxmasını təsəvvür belə etmək qeyri-mümkündür."

**Nümunə 2**. *Kvant sahəsi mövzusunda keçirilən elmi konfransda maddi dünyanın quruluşu ilə bağlı kvant sahəsi nəzəriyyəsi belə təkzib edilir*: "Kvant sahəsinə görə bizim maddi dünyanın quruluşuna dair ənənəvi təsəvvürümüz düzgün deyildir. Biz həmişə belə hesab etmişik ki, maddi obyektlər molekullardan, molekullar atomlardan, atomlar isə daha kiçik elementar hissəciklərdən ibarətdir. Amma kvant sahəsi nəzəriyyəsinə görə ümumiyyətlə, elementar hissəciklər mövcud deyildir, çünki onlar kvant sahəsinin vibrasiyasından başqa bir şey deyildir. Beləliklə, bu nəzəriyyə əsasında maddi dünyanın quruluşuna dair formalaşan mənzərə intuitiv qavrayış ilə o qədər ziddiyyət təşkil edir ki, onun dərk edilməsi çox çətindir."

Nəzərdən keçirdiyimiz nümunələrin hər ikisində irəli sürülən elmi fikirlərin yalnız onların dərk edilməsinin və ya təsəvvürdə canlandırılmasının çətin və ya mümkünsüz olması səbəbindən yalan olması (heç olmazsa, doğru olmasının ciddi şəkildə şübhə altında olması) nəzərdə tutulur. Amma yalnız qeyd olunan səbəblərdən çıxış edərək əldə edilən belə nəticə şəxsi etimadsızlığa müraciət xətasına yol açmış olur. Ümumiyyətlə,

bu qəbildən olan məntiqi xətalar müxtəlif elmi mövzularda keçirilən debatlarda, mübahisələrdə və s. çox tez-tez müşahidə olunur.

Şəxsi etimadsızlığa müraciət xətasına yol verən arqument aşağıdakı struktura malikdir:



# Mövzu 18. İstehzaya müraciət

İstehzaya müraciət məntiqi xətası nə zaman yaranır? Əgər istehza irəli sürülən arqumentin tərkib hissəsinə çevrilərsə, onda bu arqument istehzaya müraciət xətasına yol verir, çünki irəli sürülən fikrə istehza ilə yanaşaraq (onu lağlağıya çevirərək) onun yalan olmasına dair nəticə çıxarmaq mümkün deyildir. Fikrin gülməli səslənməsi hələ onun yalan olması demək deyildir. İstehzaya müraciət *ad hominem* arqumenti ilə sıx bağlıdır, çünki hər ikisi irəli sürülən arqumenti diqqətdən kənarda saxlayaraq arqumenti irəli sürən şəxsin özünə hücum edirlər. *Ad hominem* arqumenti adətən birbaşa olaraq şəxsin əleyhinə yönəlir, məsələn, irəli sürülən arqumentə qarşı əks arqument kimi "Sən axmaqsan!" ifadəsindən istifadə edir. İstehzaya müraciət xətasına yol verən arqument isə insanın nəzər nöqtəsini məsxərəyə qoyaraq dolayı şəkildə ona hücum edir, məsələn, irəli sürülən arqumentə qarşı "Bu mənim son zamanlar tanış olduğum ən axmaq fikirdir!" şəklində əks arqument irəli sürür. İnsanın axmaq adlandırılması ilə onun nəzər nöqtəsinin axmaq adlandırılması arasında çox az fərq mövcuddur. Beləliklə, istehzaya müraciət arqumentinin strukturunu şərti olaraq belə ifadə edə bilərik:

$M_1$. Mənim üçün axmaq təsir bağışlayan istənilən nəzər nöqtəsi yalandır.

$M_2$. Bu nəzər nöqtəsi mənim üçün axmaq təsir bağışlayır.

$N$. Bu nəzər nöqtəsi yalandır.




Amma irəli sürülən fikrin yalnız axmaq təsir bağışlaması hələ onun yalan olması deyildir. Məsələn, kvant fizikasında dalğa-hissəcik dualizmi ilk baxışda "axmaq" təsir bağışlaya bilər, amma o, müasir fizikada aparılan çoxsaylı eksperimentlər nəticəsində təstiq edilib. Belə ki, ölçmə (müşahidə) aparılmayana kimi, elektron (və ya digər elementar hissəcik) dalğa, ölçmə (müşahidə) aparılarkən isə hissəcik kimi davranır.

Istehzaya müraciət məntiq xətasından qaçmaq üçün *Reductio ad absurdum* (absurd olana müncər etmə) arqumentindən istifadə etmək olar. Məsələn, "Ən böyük tam ədəd mövcuddur" fərziyyəsini *Reductio ad absurdum* vasitəsilə belə təkzib edə

bilərik: “Fərz edək ki, ən böyük tam ədəd mövcuddur. Bu tam ədədi N dəyişəni ilə işarə edək. Bir halda ki, N tam ədəddir, onda N+1 də tam ədəddir. Bundan başqa N+1 N-dən daha böyükdür. Amma ən böyük tam ədəddən daha böyük tam ədədin olduğunu düşünmək absurddur. Bu səbəbdən “Ən böyük tam ədəd mövcuddur” fərziyyəsi yalan olmalıdır.”

# Mövzu 19. Xətadan irəli gələn arqument (*Argumentum ad logicam)*

*Xətadan irəli gələn arqument* xətası nə zaman baş verir? Əgər müəyyən nəticənin çıxarılması üçün qurulan arqumentin *xətalı* olması səbəbindən nəticənin də yalan olmasına dair nəticə çıxarılırsa, onda xətadan irəli gələn arqument xətası yaranır. Bu məntiqi xətanın əsasında digər bir məntiqi xətadan çıxarılan yanlış nəticə dayandığından bəzən o, *"xətadan irəli gələn xəta"* və ya *"xətanın xətası"* kimi də adlandırılır. Həqiqət və yalan irəli sürülən fikirlərə xas olan əlamətlərdir. Məntiqi xətalar arqumentin müqəddimə və ya nəticəsinin doğru və ya yalan olması ilə deyil, arqumentasiya prosesində məntiqi qaydaların pozulması nəticəsində meydana çıxan sistemli xətalar ilə bağlıdır. Əgər arqumenti irəli sürən insan məntiqi xətaya yol verirsə, o, arqumentasiya prosesinin özündə xətaya yol verir. Amma buradan onun müqəddimə və ya nəticədə istifadə edilən faktiki məlumatlarda da xətaya yol verməsi nəticəsi doğmur. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

$M_1$. Əgər Bakı Azərbaycanın paytaxtıdırsa, onda o, Xəzər dənizinin sahilində yerləşir.

$M_2$. Bakı Xəzər dənizinin sahilində yerləşir.

$N$. Bakı Azərbaycanın paytaxtıdır.

*Argumentum ad logicam* arqumenti aşağıdakı struktura malikdir:




Yuxarıda nümunə qismində istifadə edilən arqument özündə *konsekvetin təstiq edilməsi* xətasını ehtiva edir və deduktiv arqument olaraq o, etibarlı arqument[1] deyil. Nəticənin doğru olmasına baxmayaraq, qeyd edilən müqəddimələrdən deduktiv yolla bu nəticəni çıxarmaq mümkün deyildir. Hipotetik-qəti sillogizmlərdən yalnız aşağıdakı iki halda deduktiv yolla nəticə çıxarmaq mümkündür:

[1] Etibarlı arqument haqqında ətraflı oxumaq üçün baxın: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: "Parlaq İmzalar" Nəşriyyatı, 2021, s. 81-87.

1. *Modus ponens*[1] (antesedentin təstiq olunması):

$M_1$. Əgər A-dırsa, onda B-dir.

$M_2$. A-dır.

$N$. B-dir.

2. *Modus tollens*[2] (konsekventin inkar edilməsi):

$M_1$. Əgər A-dırsa, onda B-dir.

$M_2$. B deyil.

$N$. A deyil.

Əgər yuxarıda nəzərdən keçirdiyimiz arqumenti hipotetik sillogizmdən deduktiv yolla düzgün nəticəçıxarma formalarına uyğunlaşdırsaq, onda aşağıdakı arqumentləri qeyd edə bilərik:

*Modus ponens:*

$M_1$. Əgər Bakı Azərbaycanın paytaxtıdırsa, onda o, Xəzər dənizinin sahilində yerləşir.

$M_2$. Bakı Azərbaycanın paytaxtıdır.

$N$. Bakı Xəzər dənizinin sahilində yerləşir.

---

[1] *Modus ponendo ponens* kimi də adlandırılır.
[2] *Modus tollendo tollens* kimi də adlandırılır.

*Modus tollens:*

$M_1$. Əgər Bakı Azərbaycanın paytaxtıdırsa, onda o, Xəzər dənizinin sahilində yerləşir.

$M_2$. Bakı Xəzər dənizinin sahilində yerləşmir.

$N$. Bakı Azərbaycanın paytaxtı deyil.

Bu arqumentlərdə:

A = Bakı Azərbaycanın paytaxtıdır.

B = Bakı Xəzər dənizinin sahilində yerləşir.

*Modus tollens*-dən çıxan nəticə aşkar şəkildə yalan olsa da, bu arqumentin etibarlı olmağına təsir göstərmir. *Modus ponens*-dən fərqli olaraq burada arqument etibarlıdır, amma tutarlı deyil, çünki $M_2$ yalandır.

Nəzərdən keçirdiyimiz kimi, hipotetik-qəti sillogizmdən deduktiv yolla düzgün nəticə çıxa bilmək üçün ya antesedent təstiq edilməli, ya da konsekvent[1] inkar edilməlidir. *Argumentum ad logicam*-da isə konsekventin təstiq edilməsi baş verir ki, bu da məntiqi xətaya yol açmış olur. Amma *Argumentum ad logicam-da* nəzərdə tutulan xəta konsekventin

[1] "Antesedent" və "konsekvent" anlayışlarının məzmunu haqqında daha geniş məlumat almaq üçün baxın: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: "Parlaq İmzalar" Nəşriyyatı, 2021, s. 24-32.

təstiq edilməsi deyil. Konsekventin təstiq edilməsi əslində qeyri-formal deyil, formal məntiqi xətadır. *Argumentum ad logicam* isə qeyri-formal məntiqi xəta olub arqumentdə ehtiva edilən xətaya, məsələn, konsekventin təstiq edilməsi xətasına görə nəticənin yalan olmasını nəzərdə tutur. Amma qeyd etdiyimiz kimi, arqumentasiya prosesində yol verilən xətadan nəticədə əks olunan faktiki məlumatların yanlış olması nəticəsi doğmur; arqument xətaya yol vermiş olsa da, onun nəticə hissəsində ehtiva edilən faktiki məlumatlar doğru da ola bilər. Məsələn, yuxarıda nəzərdən keçirdiyimiz birinci arqument buna nümunədir: "Bakı Azərbaycanın paytaxtıdır" faktı doğrudur. Amma nəzərə almaq lazımdır ki, xətaya yol vermiş arqumentin nəticə hissəsində ehtiva edilən faktiki məlumat yalan da ola bilər. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

$M_1$. Əgər Bakı Dövlət Universitetinin əsası orta əsrlərdə qoyulubsa, onda o, Azərbaycanın ilk ali tədris müəssisəsidir.

$M_2$. Bakı Dövlət Universiteti Azərbaycanın ilk tədris müəssisəsidir.

$N$. Bakı Dövlət Universitetinin əsası orta əsrlərdə qoyulub.

Göründüyü kimi, bu arqument də konsekventin təstiq edilməsi xətasına yol verib, amma eyni xətaya yol vermiş olan birinci arqumentdən fərqli olaraq onun nəticəsi yalandır. Belə ki, məlum olduğu kimi, Bakı Dövlət Universitetinin əsası orta əsrlərdə deyil, 1919-cu ildə qoyulub.

# Mövzu 20. Asanlıqla əldə edilə bilmə xətası

*Asanlıqla əldə edilə bilmə* xətası nə zaman yaranır? Əgər arqumentasiya prosesində etibarlı sübut əvəzinə asanlıqla əldə edilə bilən (asan anlaşılan, yadda qalan və ya psixoloji cəhətdən inandırıcı) sübuta diqqət ayrılırsa, onda bu zaman asanlıqla əldə edilə bilmə xətasına yol verilir. Belə xətaya yol verən arqument şərti olaraq aşağıdakı struktura malikdir:




Asanlıqla əldə edilə bilmə xətası insanda hər zaman öz nöqteyi-nəzərini təstiq etməyə olan meylin yaranmasına gətirib çıxarır. Belə ki, insan yalnız özünün doğru hesab etdiyini təstiq edən sübutlara diqqət ayırır, özünün fikirlərini təkzib edən sübutlara

isə əhəmiyyət vermir. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə.** *Təyyarə ilə səyahət etməkdən imtina edən insan öz seçimini belə əsaslandırır*: “Mən heç bir zaman təyyarəyə minmirəm. O, çox təhlükəlidir. Hər ay haradasa təyyarə qəzası baş verir. Mən hər zaman hər yerə şəxsi avtomobil ilə gedirəm.”

Bu nümunədə diqqət mərkəzində olan insan kütləvi informasiya vasitələrindən əldə etdiyi məlumatlar arasında yalnız təyyarə qəzalarına diqqət yetirir və təyyarə ilə səyahət etmək ilə müqayisədə avtomobil ilə səyahət etməyin daha təhlükəli olmasına dair statistik məlumata əhəmiyyət vermir. Əslində isə insanın nəqliyyat qəzasında həyatını itirə bilmək şansı 1/98, amma təyyarə qəzasında həyatını itirə bilmək şansı 1/ 7178-dir. Bəs niyə insanlar təyyarə ilə səyahəti daha təhlükəli hesab edirlər? Təyyarə qəzaları nadir hallarda baş verdiyindən onlara dair məlumatlar dərhal kütləvi informasiya vasitələrində sürətlə yayılır və insan yaddaşında daha uzun müddət qalır. Amma nəqliyyat qəzaları o qədər tez-tez baş verir ki, insan artıq onlar haqqında məlumat almağa vərdiş edir və təyyarə qəzaları ilə müqayisədə onlar barəsində uzun müddət düşünmür. Qeyd edilən bu statistik məlumatları nəzərə alaraq əslində insan avtomobil ilə hərəkət etməkdən daha çox təyyarə ilə səyahət etməyin daha təhlükəsiz olmasına dair nəticə çıxarmalıdır.

Asanlıqla əldə edilə bilmə xətası digər qeyri-formal məntiqi xətaların, məsələn, *tələsik ümumiləşdirmə* xətasının meydana çıxması üçün əlverişli şərait yarada bilər. Belə ki, adı qeyd edilən sonuncu məntiqi xəta zamanı qrupun olduqca kiçik tərkib hissəsinə aid statistik məlumatlar əsasında bütövlükdə qrupa nəzərən ümumiləşdirmə aparılır. Məsələn, əgər müəyyən etnik qrupa məxsus olan bir neçə cinayətkarı müşahidə edərək bütövlükdə bu etnik qrupun bütün üzvlərinin cinayətkar olmağına dair nəticə çıxarılarsa, bu, psixoloji cəhətdən inandırıcı olan sübuta (cinayətkarlar haqqında olan əhvalatlara) diqqət ayrılması və daha etibarlı olsa da, daha az inandırıcı olan sübuta (statistik baxımdan bu qrupda təmsil edilən əksər insanların cinayətkar olmaması faktına) əhəmiyyət verilməməsi demək olacaq.

# Mövzu 21. Baza norması

*Baza norması xətası* nə zaman yaranır? Əgər ümumi xarakterli informasiya (məsələn, bütövlükdə əhaliyə aid olan baza norma) mühakimə prosesində təsadüfən və ya bilərəkdən hesablamaya daxil edilmirsə və diqqət yalnız xüsusi xarakterli informasiyaya (məsələn, nümunə üçün seçilmiş qrupa aid olan informasiyaya) yönəlirsə, onda baza norması adlanan xəta meydana çıxır. Belə xətaya yol vermiş olan arqument aşağıdakı struktura malikdir:




Baza norması xətasına yol verən arqumentin məzmununu izah etmək üçün Filip K. Dik tərəfindən 1987-ci ildə yazılmış və Stiven Spilberq tərəfindən 2002-ci ildə ekranlaşdırılan zaman

müəyyən əlavələr edilmiş “*Azlıqda qalanların məruzəsi*”[1] adlı kiçik həcmli hekayəni nümunə olaraq nəzərdən keçirək: “2050-ci illərdə Nyu Yorkda ağır cinayətlərin baş verə biləcəyini proqnozlaşdıran qrupun fəaliyyəti nəticəsində bu qəbildən olan cinayətlər 99.8%-ə qədər azalıb. Belə ki, bu qrup cinayət baş verməzdən əvvəl onun baş verə biləcəyini müəyyənləşdirə bildiyindən potensial cinayətkarlar cinayəti törətməzdən əvvəl müəyyənləşdirilərək həbs edilir.” Belə yanaşmaya dair yaranan digər sualları bir kənara qoyaraq “99.8%” göstəricisini analiz edək. Gəlin fərz edək ki, cinayət baş verməzdən əvvəl potensial cinayətkar hesab edilən insanların 99.8%-nin hamısı cinayət törətməyə hazırlaşırdı (*doğru pozitiv norma*). Amma burada *yalan pozitiv norma* (məsələn, potensial cinayətkar hesab edilib əslində cinayət törətməyə hazırlaşmayan insanlar) üçün 0.2% ehtimal da mövcuddur, çünki əks halda gələcəkdə cinayət törətməyə hazırlaşan potensial cinayətkarlar 100% əvvəlcədən aşkarlanardı və cinayətkarlıq norması 100% aşağı düşərdi. Deməli,

| |
|---|
| Qeyri-cinayətkarlar (100%) = yalan pozitiv norma (0.2%) + doğru neqativ norma (99.8%);<br>*Yalan pozitiv norma*: potensial cinayətkar hesab edilib əslində cinayət törətməyə *hazırlaşmayan* insanlar;<br>*Doğru neqativ norma*: qeyri-cinayətkar hesab edilən və hər |

[1] Philip Dick. *The Minority Report and Other Classic Stories.* New York: “Kensington” Publishing, 1987.

hansı bir cinayət törətməyə *hazırlaşmayan* insanlar;

Cinayətkarlar (100%) = yalan neqativ norma (0.2%) + doğru pozitiv norma (99.8%);
*Yalan neqativ norma*: qeyri-cinayətkar hesab edilib əslində cinayət törətməyə *hazırlaşan* insanlar;
*Doğru pozitiv norma*: cinayətkar hesab edilən və cinayət törətməyə *hazırlaşan* insanlar.

Beləliklə, qeyri-cinayətkar hesab edilənlərin 99.8%-nin hamısı qeyri-cinayətkardır (*doğru neqativ norma*). Amma burada *yalan neqativ norma* (məsələn, qeyri-cinayətkar hesab edilib əslində cinayətkar olan insanlar) üçün 0.2% ehtimal mövcuddur, çünki qeyd etdiyimiz kimi, əks halda gələcəkdə cinayət törətməyə hazırlaşan potensial cinayətkarlar 100% əvvəlcədən aşkarlanardı və cinayətkarlıq norması 100% aşağı düşərdi.[1]

Bu ehtimallar nəzərə alınmaqla, əgər siz gələcəkdə cinayət törətməyə hazırlaşan potensial cinayətkar kimi aşkar edilsəniz, sizin günahsız olma şansınız nə qədərdir?

[1] Qeyd etdiyimiz kimi, bu yanaşmanın özü bir çox suallar yaradır və o, formal məntiq müstəvisində düzgün deyil. Sadəcə olaraq nə Filip K. Dik, nə də Stiven Spilberq tərəfindən müvafiq olaraq hekayənin və ssenarinin yazılışı zamanı onlara diqqət ayrılmadığından biz də onları nəzərə almırıq.

Əgər yuxarıdakı ədədləri (99.8% və 0.2%) müqayisə etsək, onda sistem tərəfindən aşkar edildiyi təqdirdə gələcəkdə törətməyə hazırlaşdığınız cinayətə görə sizin günahkar olma ehtimalı çox böyükdür. Amma bu aldadıcı mənzərədir, çünki biz cinayət fəaliyyətinin baza normasını bilmirik. Əgər statistik məlumatlara müraciət etsək, məsələn, 2014-cü ildə Nyu Yorkda hər 100 min nəfərə 639.3 ağır cinayətkarın olduğunu müəyyənləşdirə bilərik. Başqa sözlə, qeyd edilən ildə orada ağır cinayətkarlığın norması təqribən 0.64% və ya 0.0064 olub. Əgər 2014-cü ildə Nyu York əhalisinin sayı 23 milyon 462 min nəfər olduğunu nəzərə alsaq, onda həmin ildə orada təqribən 150 min 156 insan tərəfindən törədilmiş cinayət faktlarının qeydə alındığını hesablaya bilərik. Əgər cinayət törətmiş bütün cinayətkarların Nyu York sakinləri olduğunu fərz etsək, onda qeyri-cinayətkar olan sakinlərin sayı belə olacaq: 23462000-150156=23311844

Beləliklə, yuxarıda nəzərdən keçirdiyimiz hekayədə öz əksini tapan 99.8% göstəricisinin analizini və baza normaya dair informasiyanı (törədilən cinayətlərin sayını) nəzərə alaraq aşağıdakı cədvəli qura bilərik:

| **Nəticə** | **Ehtimal** | **Say** |
|---|---|---|
| *Doğru pozitiv:* cinayətkar hesab edilən və cinayət törətməyə | 0.998 | 150156*0.998=149856 |

| | | |
|---|---|---|
| *hazırlaşan* insanlar | | |
| *Doğru neqativ:* qeyri-cinayətkar hesab edilən və hər hansı bir cinayət törətməyə *hazırlaşmayan* insanlar | 0.998 | 23311844*0.998=23265220 |
| *Yalan pozitiv:* potensial cinayətkar hesab edilib əslində cinayət törətməyə *hazırlaşmayan* insanlar | 0.002 | 23311844*0.02=46624 |
| *Yalan neqativ:* qeyri-cinayətkar hesab edilib əslində cinayət törətməyə *hazırlaşan* insanlar | 0.002 | 150156*0.002=300 |

Cədvəldən əldə edilən saylara baxaraq daha mürəkkəb analizlərə keçid almadan da, 149 min 856 doğru pozitiv və 46 min 624 yalan pozitiv nəticəni müqayisə edərək doğru pozitiv ilə yalan pozitiv arasındakı nisbətin 3-ün 1-ə bərabər olduğunu

təyin edə bilərik. “Azlıqda qalanların məruzəsi” hekayəsində və filmində Nyu Yorkda ağır cinayətlərin baş verə biləcəyini proqnozlaşdıran qrup tərəfindən bu cinayətlər çox böyük etimalla (99.8%) proqnozlaşdırıldığına baxmayaraq nəzərdən keçirdiyimiz pozitiv nəticələrə əsasən siz bu qrup tərəfindən cinayətkar hesab edildiyiniz 3 haldan 2-də əslində cinayəti törətməyə hazırlaşmış olacaqsınız.

Nəzərdən keçirdiyimiz nümunənin elmi fantastika janrında olan hekayə və film ssenarisinə aid olmasına baxmayaraq, müxtəlif real həyat situasiyalarında da baza norması xətasına yol verə bilən arqumentlərə rast gələ bilərik. Məsələn, aşağıdakı nümunələrə nəzər salaq:

**Nümunə 1.** Fərz edək ki, yalnız 2%-nin yoluxucu xəstəliyə tutulmuş olduğu 1000 nəfərdən ibarət əhali qrupunda test keçirilir. Testdə yalan pozitiv normanın 5% (0.05) və yalan neqativ normanın 0% olduğu məlumdur. Bu qrupa məxsus insanın pozitiv test nəticəsinin doğru ola bilmə ehtimalı nə qədərdir?

*Doğru pozitiv norma* (testin nəticəsinə görə xəstə hesab edilən və xəstə olanlar):

1000*0.02=20

*Yalan pozitiv norma* (testin nəticəsinə görə xəstə hesab edilən, amma sağlam olanlar):

(1000-20)*0.05= 49

*Doğru neqativ norma* (testin nəticələrinə görə sağlam hesab

edilən və sağlam olanlar):
1000-(20+49)=931
Beləliklə, qrupda test nəticələri pozitiv çıxan 69 nəfərdən yalnız 20-i əslində xəstəliyə yoluxub. Testin nəticəsinə görə xəstə hesab edilən hər bir insanın gerçəkdən xəstə ola bilmə ehtimalı belədir:

$$\frac{20}{20+49} = \frac{20}{69} = 29\%$$

Beləliklə, nəzərdən keçirdiyimiz nümunədə insanın pozitiv test nəticəsinin doğru ola bilmə ehtimalı 29%-dir. Amma baza norması nəzərə alınmadan eyni adlı xətaya yol verərək aparılan hesablamanın nəticəsinə əsasən bu ehtimal 100%-5%=95% olardı.

**Nümunə 2**. Fərz edək ki, sərxoş sürücüləri müəyyənləşdirmək üçün polis qrupu tərəfindən istifadə edilən alkotestin yalan pozitiv norması (ayıq insanı səhvən sərxoş insan olaraq təyin etmə norması) 5%-dir. Amma bu alkotestin yalan neqativ norması 0%-dir, yəni sərxoş insanı heç bir zaman ayıq insan kimi təyin etmir. Fərz edək ki, 1000 sürücüdən şəxsiyyəti naməlum olan bir sürücünün sərxoş olmağı məlumdur. Polislər onun şəxsiyyətini müəyyən etmək üçün sürücülər arasında reyd keçirən zaman alkotest vasitəsilə onlardan məhz hansının sərxoş olmasını təyin etmək istəyir. Bu zaman

hər bir sürücünün sərxoş olma ehtimalı nə qədərdir?
Doğru pozitiv norma (testin nəticəsinə əsasən sərxoş hesab edilən və sərxoş olanlar):
*1 nəfər*, çünki şərtə əsasən bir sürücünün sərxoş olması məlumdur.
Yalan pozitiv norma (testin nəticəsinə əsasən sərxoş hesab edilən, amma sərxoş olmayanlar):
(1000-1)*0.05=50 (təqribən)
Doğru neqativ norma (testin nəticəsinə əsasən sərxoş hesab edilməyənlər və sərxoş olmayanlar):
1000-(1+50)=949
Beləliklə, alkotest nəticələri pozitiv çıxan 51 nəfərdən yalnız 1-nin əslində sərxoş olması məlumdur. Amma bu sərxoş insanın şəxsiyyəti məlum olmadığından testin nəticəsinə görə sərxoş hesab edilən hər bir sürücünün gerçəkdən sərxoş ola bilmə ehtimalı belədir:

$$\frac{1}{1+50} = \frac{1}{51} = 2\%$$

Beləliklə, nəzərdən keçirdiyimiz nümunədə sürücünün pozitiv test nəticəsinin doğru ola bilmə ehtimalı 2%-dir. Amma baza norması nəzərə alınmadan eyni adlı xətaya yol verərək aparılan hesablamanın nəticəsinə əsasən bu ehtimal 100%-5%=95% olardı.

# Mövzu 22. Sübutun yükü

*Sübutun yükü xətası* nə zaman yaranır? Əgər arqumentasiya prosesində irəli sürülən mülahizənin doğru və ya yalan olmasına qarşı tərəfi inandırmaq üçün sübutun təsir dərəcəsi ("sübutun yükü") düzgün təyin edilməzsə və ya ümumiyyətlə, müəyyən edilməzsə, onda bu zaman sübutun yükü xətası meydana çıxır. Bəzən arqumentasiya prosesinə cəlb olunmuş tərəflərdən biri sübutun yükündən xilas olmaq üçün onu sadəcə inkar edə və ya dəyişdirə bilər. Məsələn, siyasətçidən onun təbliğ etdiyi siyasi ideologiyanı necə əsaslandıra biləcəyini soruşarkən o, bunu etmək məcburiyyətində olmadığını və ya niyə bunu etməməli olduğunun məhz başqası tərəfindən əsaslandırılmalı olduğunu deyərək sübutun yükü xətasına müraciət edə bilər. Sübutun yükü xətası aşağıdakı bir neçə əsas yolla həyata keçirilə bilər:

1. İrəli sürülən mülahizənin doğru olmasını sübut etməyin zəruriliyini inkar etməklə;
2. İrəli sürülən mülahizənin doğru olmasını əslində sübut etmədiyi halda onu artıq sübut etmiş olduğunu iddia etməklə;
3. Mülahizənin məhz başqaları tərəfindən təkzib edilməli olduğunu iddia edərək sübutun yükünü başqalarının üzərinə keçirməklə;

4. Başqalarının öz mövqeyini sübut etməli olduğunu iddia edərək sübutun yükünü başqalarının üzərinə keçirməklə və bu yolla sübutun yükündən xilas olmaqla.

Beləliklə, belə məntiqi xətaya yol verən arqumentlər aşağıdakı strukturlardan birinə malikdir:

*Birinci struktur:*

$A_1$. X-dır.

$A_2$. X olduğunu sübut edin.

$A_1$. X olmadığını sübut edin. Əgər X olmadığını sübut edə bilməsəniz, onda X-dır.

İkinci struktur:

$A_1$. X-dır.

$A_2$. Niyə?

$A_1$. Niyə də yox?




Sübutun yükü məntiqi xətasına yol verən arqumentin məzmununu izah etmək üçün aşağıdakı nümunələrə nəzər salaq:

**Nümunə 1.** *Tanrının mövcud olub olmaması mövzusunda teist ilə ateist arasında keçirilən debatda teist öz mövqeyini belə əsaslandırır*: "Tanrı mövcuddur. Əgər ateistlər bununla razı deyilsə, onda Tanrının mövcud olmamasını sübut etməlidirlər."

**Nümunə 2**. *Sağlam şəkildə arıqlamaq üçün nəzərdə tutulmuş dərmanın reklamı zamanı bu dərman həblərinin insan orqanizmi üçün zərərli olub olmamasına dair sual belə cavablandılır:* "Bu dərman insan orqanizmi üçün tamamilə zərərsizdir. Bunun əksini iddia etmək üçün sizin əlinizdə

| |
|---|
| sübut varmı?” |

Real həyat situasiyasında oxşar məzmuna malik olan və sübutun yükü xətasına yol vermiş olan arqumentlər bir qədər fərqli formalar da kəsb edə bilər:

*Birinci forma:*

$A_1$. X vaksinləri sağlamlıq üçün zərərli deyil.

$A_2$. Həqiqətən? Bu necə sübut edilib?

$A_1$. Mən bunu internetdən oxumuşam.

Burada $A_1$ sübutun yükündən yayınaraq mülahizəni ikinci dərəcəli mənbə ilə əlaqələndirir, amma əslində heç bir tutarlı sübut təqdim etmir.

*İkinci forma:*

$A_1$. X vaksinləri sağlamlıq üçün zərərli deyil.

$A_2$. Həqiqətən? Bu necə sübut edilib?

$A_1$. Deyirlər ki, X vaksinləri sağlamlıq üçün zərərli deyil.

Burada $A_1$-in sübutun yükündən yayınmaq cəhdi qeyri-müəyyən ifadə ilə müşayiət olunur, amma əslində anonim və qeyri-aydın mənbəyə müraciət etmiş olur.

*Üçüncü forma:*

$A_1$. X vaksinləri sağlamlıq üçün zərərli deyil.

$A_2$. Həqiqətən? Bu necə sübut edilib?

$A_1$. Mən sadəcə olaraq $A_3$-ün mənə dediklərini təkrar edirəm.

Burada $A_1$-in sübutun yükündən yayınmaq üçün müraciət etdiyi mənbə anonim və qeyri-aydın olmasa da, $A_3$ tərəfindən irəli sürülən sübutlar ilə tanış olmadıqca əslində tutarlı sübut olaraq qəbul edilə bilməz.

*Dördüncü forma:*

$A_1$. Biz fakültənin dekanını seçərkən X adlı namizədə səs verməliyik.

$A_2$. Niyə?

$A_1$. Hər kəsin öz seçim hüququ var və mən niyə məhz X namizədini seçdiyimi əsaslandırmaq məcburiyyətində deyiləm.

Burada isə $A_1$ sadəcə olaraq irəli sürdüyü mülahizəni əsaslandırmaqdan imtina edərək birbaşa şəkildə sübutun yükündən yayınmış olur.

# Mövzu 23. Saysız saxtakarlıq etmə

*Saysız saxtakarlıq etmə xətası* nə zaman yaranır? Əgər arqumentasiya prosesində nəticəni əsaslandırmaq üçün təqdim edilən həddindən artıq çoxlu saxta sübutun olması faktından çıxış edərək bu nəticəni təstiq edən heç olmazsa bir etibarlı sübutun olması qənaətinə gəlinərsə, onda saysız saxtakarlıq etmə xətası meydana çıxar. Belə xətaya yol verən arqument aşağıdakı struktura malikdir:




Saysız saxtakarlıq etmə xətasına yol verən arqumentdən çıxan nəticəyə görə hədsiz dərəcədə çoxlu saxta sübut nümunələri belə sübutlardan bəzisinin ağlabatan olduğunu düşünməyə əsas verir: məsələn, ruh gördüklərini iddia edən insanların əksər

hissəsinin bu qəbildən olan təcrübəsinin hətta saxta və ya hallusiyasiya ilə əlaqəli olması məlum olsa da, bu qədər çox faktın qeydə alınması onlardan bəzisinin gerçəkdən ruh görüdüklərini düşünməyə əsas verə bilər.

Saysız saxtakarlıq etmə xətasına yol verən arqumentlərdən psevdoelmlərdə müxtəlif paranormal fenomenlər, məsələn, ruhlar, cinlər, "uçan boşqab"lar, alternativ tibb, konspirologiya və s. Ilə bağlı olan inamı əsaslandırmaq üçün tez-tez istifadə edilir. Belə fenomenlərdən hər hansı birinin, məsələn, "uçan boşqab"ların mövcud olmasına inanan insan onlarla bağlı olan bütün nümunələrin, hekayələrin, şəkillərin və s. hamısının saxta ola bilməyəcəyini iddia edə bilər. Belə nümunələrin sayı o qədər çoxdur ki, onlardan konkret olaraq nəzərdən keçirilən biri saxta ola bilər, hətta bir neçəsi saxta ola bilər, amma onlardan heç olmazsa biri mütləq doğru olmalıdır. Əgər onlardan heç olmazsa biri doğrudursa, onda bu, yadplanetlilərə məxsus hava gəmisinin gerçəkdən planetimizə səfər etmiş olması deməkdir. Amma bu yolla istənilən bir şeyin, hətta ən "absurd" şeyin mövcudluğunu əsaslandırmaq praktiki cəhətdən mümkün olduğundan məntiqi baxımından bu istiqamətdə qurulan bütün arqumentlərin qüsurlu olması qəbul edilir. Digər tərəfdən hədsiz dərəcədə çoxlu etibarsız sübutların mövcud olması son nəticədə heç olmazsa bir etibarlı sübutun mövcud olması zərurətini yaratmır. Bu sübutların niyə də hamısı etibarsız olmasın ki?! Saysız saxtakalıq etmə xətasına yol verilərkən

nəzərdə tutulan əsas ritorik sual – “Onların hamısı saxta ola bilməz ki?”, yəni təqdim edilən bu sübutların hamısının saxta olması ehtimalı mövcud deyildir fikri məntiqi cəhətdən əsassızdır: onların hamısı saxta ola bilər və bu tamamilə mümkündür.

## Mövzu 24. Azaldılmış məsuliyyət

*Azaldılmış məsuliyyət xətası* nə zaman yaranır? Bu, daha əvvəl nəzərdən keçirdiyimiz "əks təsadüf xətası"nın (*secundum quid)* digər variantı kimi çıxış etsə də, bir çox hallarda müstəqil qeyri-formal məntiqi xəta kimi nəzərdən keçirilir. Qeyd etdiyimiz kimi, ümumi qayda bu qaydada nəzərdə tutulmayan xüsusi hadisələrə şamil edilərkən *secundum quid* xətası yaranır. Oxşar vəziyyət azaldılmış məsuliyyət xətasında da müşahidə edilir. Belə ki, hüquq müstəvisində, məsələn məhkəmə prosesində pozitiv müdafiə kimi tətbiq edilə bilən hər hansı prinsip bu prinsipin əhatə dairəsindən kənara çıxan situasiyalara da tətbiq edilərkən azaldılmış məsuliyyət xətası yaranır. Belə xətaya yol verən arqument aşağıdakı struktura malikdir:



Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 1**: *Bəşəriyyətə qarşı törədilmiş ağır cinayətdə ittiham olunan müttəhim beynəlxalq məhkəmədə özünü belə müdafiə edir*: "Məhkəmənin ədalətli qərar çıxarması üçün o, bu cinayətə görə birbaşa məsuliyyət daşıyan siyasi liderlər ilə onların əlində vasitəyə çevrilməyə məcbur olmuş mənim kimi adi insanlar arasında fərq qoymalıdır."

Nəzərdən keçirdiyimiz nümunədə müttəhimin özünümüdafiə məqsədilə irəli sürdüyü arqumentdə nəzərdə tutulmuş nəticə müharibə cinayətlərini müəyyənləşdirmək üçün Birləşmiş Millət Təşkilatı Beynəlxalq Hüquq Komissiyası tərəfindən qəbul edilmiş Nürnberq Prinsipləri, xüsusilə onun 4-cü prinsipi ilə ziddiyyət təşkil edir. Belə ki, qeyd edilən prinsipə görə hər bir insanın əxlaqi seçim imkanı olduğundan onun hökumətin və ya özündən vəzifə etibarilə daha üstün olan digər insanın əmrinə uyğun davranması onu beynəlxalq hüquq qarşısında məsuliyyətdən azad etmir. Başqa sözlə, insana X şəklində davranmasının əmr edilməsi zamanı (X-ın nəticəsindən asılı olmayaraq) insanın bu əmrdə nəzərdə tutulandan imtina etmək imkanı olduğu üçün insan ondan imtina etmədiyi müddət ərzində X şəklində davranarkən yaranan əxlaqi məsuliyyətdən azad olmur.

***Vacib qeyd:***

Arqumentdə azaldılmış məsuliyyət xətasına yol verilib verilməməsi azaldılmış məsuliyyət iddiasının irəli sürüldüyü kontekstdən asılıdır. Əgər insanın əxlaqi məsuliyyətinin azaldılmasını nəzərdə tutan faktor həmin insanın azad seçiminin nəticəsində meydana çıxırsa, onda bu, nəzərdən keçirdiyimiz məntiqi xətaya yol açır. Əgər bu faktor baş vermiş olanların insanın nəzarəti xaricində həyata keçmiş olduğunu nəzərdə tutursa, onda burada azaldılmış məsuliyyət xətasının meydana çıxması ehtimalı azalır. Məsələn aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 2**: “Sürücü avtomobili idarə edərkən infarkt keçirir, idarəetməni itirir və digər avtomobillər ilə toqquşaraq zəncirvari ağır qəza şəraitinin yaranmasına səbəb olur.”

Burada sürücü ağır qəza şəratinin yaranmasına və çox güman ki, bir neçə insanın həyatını və ya sağlamlığını itirməsinə səbəb olmasına baxmayaraq, o, buna görə əxlaqi məsuliyyət daşımır, çünki bütün baş verənlər onun nəzarəti xaricində olub və o, istəsəydi belə başqa cür edə bilməzdi. Beləliklə, seçim azadlığının olmaması insanın öz davranışı üzərində əxlaqi məsuliyyət yükünü azaldır və ya tamamilə aradan qaldırır. Amma hətta belə situasiyada da növbəti sual meydana çıxır: bu qəbildən olan situsiyalarda məntiqi xətaya yol vermədən əxlaqi

məsuliyyətin azaldılması imkanı nə qədər geniş əhatə çərçivəsində məqbul sayıla bilər? Ola bilsin ki, sükan arxasında infarkt keçirən sürücünün səhhətində baş vermiş olan bu ciddi tibbi xəstəlik hadisəsi qəfildən təzahür etməyib: səhhətində yaranmış ciddi qüsurlar səbəbindən həkim tərəfindən adət edilmiş həyat tərzinin dəyişdirilməsinə, məsələn, bir daha avtomobil idarə etməməyə dair ona dəfələrlə ciddi xəbərdarlıq edilib, amma o, hər dəfə həkimin belə göstərişlərinə əməl etməyib və nəticədə, bir gün ağır qəza şəraitinin yaranmasına səbəb olub. Belə şəraitdə qəza *anında* baş verənlər sürücünün nəzarəti xaricində olsa da, ona görə də baş verənlər onun tərəfindən icra edilmiş iradi (azad) akt olmasa da, biz bu qeyd edilənləri qəza anından *əvvəl* baş verənlərə şamil edə bilmərik. Belə ki, qəza anından əvvəl onun həkimin göstərişlərinə əməl edərək bir daha avtomobil idarə etməmək və dolayısı ilə gələcəkdə ağır qəza şəraitinin yaranmasına səbəb olmamaq imkanı mövcud ola bilərdi. Beləliklə, əgər insanın qarşısında azad seçim etmək üçün alternativ imkanlar mövcud olubsa, onda o, icra etdiyi davranışa görə əxlaqi məsuliyyət daşıyır və əksinə, əgər insan icra etdiyi davranışa görə əxlaqi məsuliyyət daşıyırsa, onda onun qarşısında azad seçim etmək üçün alternativ imkanlar mövcud olub.[1]

---

[1] Fəlsəfə müstəvisində "azad iradə" və "alternativ imkanlar" anlayışlarının məzmunu və qarşılıqlı əlaqəsi haqqında oxumaq üçün baxın: Robert Kane. Introduction: The Contours of Contemporary Free Will Debates (Part 2). In *The Oxford Handbook of Free Will,* edited by Roberd Kane. Oxford: Oxford

# Mövzu 25. Mahiyyətləşdirmə

*Mahiyyətləşdirmə xətası* nə zaman yaranır? Əgər arqumentdə obyektin keçmişdə müəyyən mahiyyət kəsb etməsi səbəbindən onun hər zaman bu mahiyyəti özündə daşıyacağına dair nəticə çıxarılırsa, onda arqumentdə mahiyyətləşdirmə adlanan xətaya yol verilir. Belə xətanın əsasında aşağıdakı fikir dayanır: "Obyektin mahiyyəti dəyişilməzdir və o, hər zaman eyni olaraq qalacaq." Məsələn, "Qozbeli qəbir düzəldər" atalar sözü əslində bu fikri ifadə edir. Belə xətaya yol verən arqument aşağıdakı struktura malikdir:




University Press, 2011; Elmar Hussein. *Elm fəlsəfəsi. Əxlaqi məsuliyyət və alternativ imkanlar. Frankfurta cavab*. Bakı: "Füyuzat" nəşriyyatı, 2024, s. 180 – 203.

Məsələn, aşağıdakı nümunəyə nəzər salaq:

| |
|---|
| **Nümunə:** *Oğurluqda ittiham olunan insanın məhkəmə prosesində şahid belə ifadə verir*: "Mən onun bu oğurluğu etdiyinə qətiyyən şübhə etmirəm. Mən onunla bir məktəbdə təhsil almışam. O, hər zaman öz sinif yoldaşlarının qələmini və bu kimi xırda şeyləri oğurlayardı. Atalar yaxşı deyib: "Qozbeli qəbir düzəldər". O, xarakter etibarilə oğrudur." |

Burada heç bir faktiki məlumata və tutarlı məntiqi arqumentə istinad edilmir. Mahiyyətləşdirmə xətası adətən insanlarda artıq formalaşmış olan müəyyən stereotiplərin, (adətən neqativ) emosional yükün, qərəzli fikirlərin arqumentasiya prosesinə təsiri nəticəsində meydana çıxır. Bu xətadan çıxış edərək məsələn, cinayətkara işlətdiyi cinayətin ağırlıq dərəcəsindən asılı olmayaraq ömürlük həbs cəzasının verilməsini istəmək və ya onun gələcəkdə həbsxana mühitində islah olunaraq yenidən cəmiyyətə inteqrasiya oluna biləcəyini rədd etmək mümkündür, çünki bu arqument yanlış olaraq "Cinayətkarı qəbir düzəldər" fikri üzərində qurulmuş olur.

Stereotiplər və bu qəbildən olan digər şeylər üzərində qurulmuş hipotezlər insanı bu hipotezi təstiq etmək üçün qeyri-elmi şəkildə axtarışlar etmək üçün sövq edə bilər. Bu axtarışın şüurlu şəkildə edilməməsi ehtimalı mümkündür, amma istənilən halda insanın qeyri-şüuri olaraq psixoloji cəhətdən daim belə

axtarışlarda ola bilməsi ehtimalı mövcuddur. Məsələn, insanda X etnik qrupuna mənsub olanların Y etnik qrupuna mənsub olanlara nisbətən daha intellektual olduğuna dair stereotip formalaşa bilər. Məsələn, o, indiyədək elm və iqtisadiyyat sahəsində Nobel mükafatı alanların etnik mənşəyinə nəzər salaraq, daha çox hansı etnik qrupa və ya yaxın etnik qrupa mənsub olanların qeyd edilən sahələr üzrə Nobel mükafatı aldığını müəyyənləşdirə bilər. Amma sadəcə olaraq bu faktiki məlumat əsasında insanın yuxarıda qeyd edilən hipotezin təstiq olunduğunu hesab etməsi artıq məntiqi xətaya yol açır. Belə ki, bu hipotezi təstiqləmək üçün X-a və Y-ə mənsub olanların intellektual göstəricilərini müqayisəli şəkildə araşdıran elmi tədqiqatların nəticələrinə, bununla bağlı müxtəlif sahələrdə, məsələn, nüfuzlu beynəlxalq jurnallarda nəşr edilən məqalələrin müəlliflərinin, beynəlxalq fənn olimpiadlarının qaliblərinin və s. arasında hansı etnik qrupa mənsub olanların üstünlük təşkil etməsinə dair statistik məlumatlara və s. istinad etmək lazımdır. Amma real həyat situasiyalarında insanlar nadir hallarda öz hipotezlərini təstiqləmək üçün elmi şəkildə məlumat toplamağa, onları statistik cəhətdən ümumiləşdirərək nəticə çıxarmağa və s. meylli olurlar. Belə hallarda insanlar daha çox onlar tərəfindən irəli sürülmüş olan hipotezləri təstiq edən faktlara üstünlük verirlər, amma bu hipotezləri təkzib edən faktların ola bilmə ehtimalını nəzərə almırlar. Bu isə öz növbəsində onlar tərəfindən qurulmuş arqumentlərin son nəticədə məntiqi cəhətdən xətalı olmasına gətirib çıxarır.

Məsələn, Nobel mükafatçıları arasında Y ilə müqayisədə X-a mənsub insanların çoxluq təşkil etməsi hələ yekun ümumiləşdirmədə X-a mənsub olanların Y-ə mənsub olanlara nisbətən daha intellektual olması nəticəsini doğurmur. Beləliklə, bu qəbildən olan nümunələrdə indi analiz etdiyimiz mahiyyətləşdirmə xətasından başqa *tələsik ümumiləşdirmə* adlanan digər xətanın da müəyyən xüsusiyyətləri müşahidə oluna bilər.

***Vacib qeyd:***

Bəzi situasiyalalrda mahiyyətləşdirmə dəqiq proqnozların verilməsində yardımçı ola bilər. Məsələn, qarşımıza çıxan maddənin zəhər olduğunu bilərək ona xas olan mühüm keyfiyyət əlamətləri əsasında onun insan həyatı üçün nə dərəcədə təhlükəli olduğunu dəqiq təyin edə bilərik. Bu kontekstdə zəhərin bizim üçün maraqlı olan mühüm keyfiyyət əlaməti onun insan sağlamlığı üçün təhlükəli olan kimyəvi birləşməni özündə ehtiva etməsi ilə əlaqəlidir. Beləliklə, bir qədər əvvəl analiz etdiyimiz situasiyalardan fərqli olaraq burada "obyektin mahiyyəti dəyişilməzdir və o, hər zaman eyni olaraq qalacaq" fikri bizim üçün praktiki əhəmiyyət kəsb etdiyindən bu qəbildən olan real həyat situasiyalarında ondan istifadə etmək məqbuldur.

# Mövzu 26. Qaliley qambit[1]

*Qaliley qambit xətası* adətən əsas elmi paradiqma və ya fundamental elmi nəzəriyyə ilə ziddiyyət təşkil edən yeni elmi nəzəriyyələrin əsaslandırılması zamanı müşahidə edilir. Bu qəbildən olan yeni elmi nəzəriyyələr adətən elmi ictimaiyyət tərəfindən qeyri-ciddi qəbul edilir, bəzən isə açıq şəkildə məsxərəyə qoyulur. Amma irəli sürülmüş olan bu nəzəriyyələrə qarşı belə reaksiya bəzən onların müəllifləri üçün onların əslində doğru olmasının məntiqi əsası kimi çıxış edir. Bu zaman isə Qaliley qambit adlanan məntiqi xəta meydana çıxır. Belə ki, bu məntiqi xətaya yol verən insanların istifadə etdikləri arqumentin məzmununu şərti olaraq belə ifadə edə bilərik: "17-ci əsrdə Qaliley ilk dəfə Günəşin günəş sisteminin mərkəzində olduğunu deyərkən demək olar ki, hamı ona gülürdü. Bu fikir o zamanlar insanların ənənəvi dünyagörüşü ilə ziddiyyət təşkil etsə də, sonralar onun düzgün olması məlum oldu. Beləliklə, bütün bu qeyd edilənləri nəzərə alaraq deyə bilərik ki, mənim irəli sürmüş olduğum nəzəriyyənin də düzgün ola bilmə ehtimalı var." Amma irəli sürülmüş olan və elmi ictimaiyyət tərəfindən qeyri-ciddi qəbul edilən nəzəriyyənin yalnız onun qeyri-ciddi qəbul edilməsi səbəbindən doğru olması nəticəsinin çıxarılması

---

[1] Şahmat oyununda sonrakı gedişlərdə üstünlük qazanmaq məqsədilə ilk gedişdə şahmat fiqurunun (çox zaman piyadanın) qurban verilməsi qambit adlanır.

məntiqi cəhətdən yol verilməzdir. Beləliklə, Qaliley qambit xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




İndi nəzərdən keçirdiyimiz xətanın Qalileyin adı ilə adlandırılması tarixi baxımdan o qədər də düzgün deyil, çünki Qaliliey tərəfindən müdafiə edilən heliosentrik model elmi ictimaiyyət deyil, kilsə xadimləri tərəfindən müdafiə edilən geosentik model ilə ziddiyyət təşkil edirdi və məhz sonuncular tərəfindən qətiyyətlə rədd edilirdi. Amma elm tarixində əsas elmi paradiqma və ya fundamental elmi nəzəriyyə ilə ziddiyyət təşkil etsə də, son nəticədə elmi şəkildə əsaslandırılan və təstiq edilən bəzi nəzəriyyələr də mövcuddur[1]. Məsələn, qeyri-

[1] Ümumi elm fəlsəfəsində yeni elmi nəzəriyyələrin necə formalaşmasına dair bir neçə konsepsiya mövcuddur: induktivizm, deduktivizm, paradiqma və s.

müəyyənlik fenomeni elmi ictimaiyyət tərəfindən hər zaman qəbul edilməyib.[1] Klassik elmdə qeyri-dəqiqlik özündə arzuedilməz vəziyyəti əks etdirdiyindən burada belə vəziyyəti bütün mümkün vasitələrlə aradan qaldırmağa cəhd ediblər, ona görə ki bu yanaşmaya əsasən problem nə qədər qeyri-müəyyən olarsa, biz onu dərk edərkən bir o qədər az dəqiq ola bilərik. Amma real həyat situasiyalarında, eləcədə müasir fəlsəfədə və elmdə dəqiqlik ilə qeyri-müəyyənliyin arasında balansın yaradılması zərurəti mövcuddur. Tədqiq edilən sistem nə qədər çox mürəkkəbdirsə, bu sistemi xarakterizə etməli olarkən istifadə edilən informasiya da bir o çox qədər qeyri-dəqiqdir. Bu səbəbdən qeyri-dəqiqlikdən tamamilə yayınmaq praktik cəhətdən qeyri-mümkündür. Biz yalnız qeyri-dəqiqliyin müəyyən dərəcəsini məqbul hesab edərək real həyat situasiyalarında, eləcə də müasir fəlsəfə və elmdə ondan istifadə etməliyik. Lütfi Zadə (1921-2017) tərəfindən əsası qoyulmuş qeyri-səlis məntiqinin yaradılmasında əsas məqsədlərdən biri, bəlkə də birincisi, qarşılaşdığımız müxtəlif mürəkkəb sistemləri qeyri-dəqiqliyin məqbul hesab edilən dərəcələri çərçivəsində izah edə bilmək və bu zaman qarşıya çıxan problemləri effektiv şəkildə həll edə bilməkdir. Amma bu,

---

Bu istiqamətdə nisbətən daha ətraflı oxumaq üçün bizim daha əvvəl nəşr edilmiş digər kitabımıza nəzər salın: Elmar Hussein. *Elm fəlsəfəsi. Əxlaqi məsuliyyət və alternativ imkanlar. Frankfurta cavab*. Baki: “Füyuzat” nəşriyyatı, 2024, s. 104-124.

[1] George J. Klir & Bo Yuan. *Fuzzy Sets and Fuzzy Logic: Theory and Applications.* NJ: Pearson College Div , 1995.

istənilən halda əsas elmi paradiqma və ya fundamental elmi nəzəriyyə ilə ziddiyyət təşkil edən bütün yeni elmi nəzəriyyə və konseptlərin daha sonra düzgün hesab edilərək qəbul edilməsi nəticəsini doğurmur, çünki belə nəzəriyyə və konseptlərin həmişə yanlış hesab edilərək təkzib edilməsi ehtimalı hər zaman mövcuddur. Statistik cəhətdən sonuncu ehtimal hətta daha yüksəkdir.

Qaliley qambit xətasının məzmununu *qüsurlu analogiya* və ya *zəif analogiya* adlanan digər qeyri-formal məntiqi xətanın vasitəsilə də izah etmək mümkündür. Belə ki, iki şeyin bir ümumi əlamətə malik olmasından onların ikinci ümumi əlamətə də malik olması zərurəti doğmur. Əgər bu əlamətlər bir-biri ilə bağlı olarsa, bu fikrin doğru, amma əgər bağlı deyilsə, yalan olması ehtimalı daha yüksəkdir. Bir vacib məqamı nəzərə almaq lazımdır ki, analogiya əsasında çıxarılan nəticələr hər bir halda probabilistik xarakter daşıdığından onun yalan ola bilməsi ehtimalı hər zaman vardır. Məsələn, insanların və siçanların ağciyərə malik olması siçanların da insanlar kimi nəfəs alması nəticəsinin çıxarılmasını əsaslandırır. Burada insanlar ilə siçanlar arasında *uyğun* oxşarlıq mövcuddur, çünki ağciyərə malik olmaq ilə nəfəs almaq bir-biri ilə bağlıdır. Amma məsələn, insanların və siçanların ağciyərə malik olmasından siçanların insanlar kimi məntiqi arqument qura bilər nəticəsi çıxmır. Burada insanlarla siçanlar arasında *uyğunsuz* oxşarlıq mövcuddur, çünki ağciyərə malik olmaq ilə məntiqi arqument

qurmaq bir-biri ilə bağlı deyildir. Qaliley qambit xətasının da məzmununda belə uyğunsuz oxşarlıq öz əksini tapır: Qalileyin nəzəriyyəsinin və X nəzəriyyəsinin tənqid edilmiş olmasından X nəzəriyyəsinin də Qalileyin nəzəriyyəsi kimi doğru olması nəticəsi çıxmır. Qalileyin irəli sürmüş nəzəriyyə ilə X arasında daha güclü analogiya qura bilmək üçün onlar arasında müşahidə edilən oxşar əlamətlərin sayı daha çox olmalıdır, bu oxşar əlamətlər mühüm əlamətlər olmalıdır və s.

# Mövzu 27. Qumarbaz xətası

Qumarbaz xətasına təsadüfi (bir-biri ilə bağlantısı olmayan) hadisələr konteksində rast gəlmək mümkündür. Əgər verilmiş zaman kəsiyində müşahidə edilən hadisənin yekun nəticəsi qismində X təsadüfən tez-tez təkrarlanarsa və ona görə də gələcəkdə ümumi sayda "bərabərliyin" yaranması üçün X-ın əksi olan Y-in baş vermə ehtimalının çox olması güman edilərsə, onda bu yolla qurulmuş arqument özündə qubarbaz xətasını ehtiva edər. Beləliklə, qumarbaz xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə**. *Müşahidəçi ilə qubarbaz arasında belə dialoq baş verir:*
"*Müşahidəçi*: Bu oğlan sikkəni düz 10 dəfə havaya atıb və hər dəfə də sikkənin X üzü yerə düşüb.
*Qumarbaz*: Gəl mərc gələk ki, gələn dəfə sikkənin Y üzü yerə düşəcək."

Əksər digər qeyri-formal məntiqi xətalar kimi qubarbaz xətası da ilk baxışda diqqəti cəlb etmir və bu səbəbdən belə xətaya yol verən arqument düzgün qurulmuş arqument təsiri bağışlayır. Doğurdan da, çox uzun zaman kəsiyində müşahidə edilən müəyyən hadisənin yekun nəticəsində əks vəziyyətlər arasında "bərabərliyin" yaranması ehtimalı artır. Məsələn, nəzərdən keçirdiyimiz nümunədə əgər müşahidəçi tərəf oğlanın milyard dəfə sikkəni havaya atdığını müşahidə edərsə, onda sikkənin təxminən eyni sayda X və Y üzlərinin yerə düşəcəyi ehtimalı çoxdur. Bunu milyard dəfə təsadüfən baş verən hadisənin təsadüfən əks vəziyyətləri "tarazlaşdıran" nəticəni meydana gətirməsi ilə izah etmək olar. Lakin burada məsələn, sikkənin neçə dəfə X üzünün yerə düşməsindən sonra onun Y üzünün yerə düşəcəyini tənzimləyəcək və ya müəyyən zaman kəsiyində bu üzlər arasında balansın yaranıb yaranmadığını "izləyəcək" mexanizm mövcud deyildir. Bunu daha yaxşı izah etmək üçün müşahidəçi ilə qumarbaz arasında bir qədər əvvəl nəzərdən keçirdiyimiz dialoqu aşağıdakı şəkildə genişləndirə bilərik:

“Fərz edək ki, müşahidəçi sikkəni 20 dəfə göyə atıb onun hansı üzünün yerə düşəcəyini müşahidə etmək istəyir. Qumarbaz isə sikkənin məsələn, X üzünün neçə dəfə yerə düşəcəyindən mərc gəlməyi təklif edir. Müşahidəçi qubarmazın bu təklifini qəbul edir. Müşahidə edilən müəyyən hadisənin yekun nəticəsindəki əks vəziyyətlər arasında “bərabərliyin” yaranması ehtimalının çox olduğunu nəzərə alan qumarbaz sikkəni 20 dəfə havaya atarkən 50% halda sikkənin X üzünün yerə düşəcəyini güman edir. Beləliklə, sikkənin X üzünün 10 dəfə yerə düşəcəyindən mərc gəlinir. Fərz edək ki, müşahidəçi sikkəni 6 dəfə havaya atandan sonra ardıcıl olaraq hər dəfə sikkənin X üzü yerə düşür. Müşahidəçi qumarbaza öz mərcinin şərtlərini dəyişə biləcəyini təklif edir. Yenə də müşahidə edilən müəyyən hadisənin yekun nəticəsindəki əks vəziyyətlər arasında “bərabərliyin” yaranması ehtimalının çox olduğunu nəzərə alan qumarbaz sikkənin növbəti 14 dəfə havaya atılması zamanı (təqribən) 50% halda onun X üzünün yerə düşəcəyini güman edir. Beləliklə, yekun nəticədə sikkənin X üzünün 13 dəfə yerə düşəcəyindən mərc gəlinir. Başqa sözlə, əgər sikkə daha əvvəl 6 dəfə havaya atılarkən hər dəfə onun X üzünün yerə düşməsi, eləcə də indi əlavə olaraq 14 dəfə təkrar ediləcək bu hadisənin sonunda sikkənin məhz X üzünün daha 7 dəfə yerə düşməsi gümanı nəzərə alınarsa, onda mərc gəlinən yekun nəticə 13-ə barabərdir: 6 + 7 = 13. Əgər indiki nəticəni mərc gəlinən yekun nəticə ilə müqayisə etsək, onda bu yekun nəticədə sikkənin X üzünün yerə düşmə ehtimalının 100%-dən 65%-ə enməsi

deməkdir. Belə ki, indiki halda sikkənin X üzünün yerə düşmə faizi 100-ə bərabərdir, çünki sikkə 6 dəfə havaya atılıb və hər dəfə onun X üzü yerə düşüb. Qumarbazın gümanına görə bu yekun nəticədə 20 hadisədən 13-də baş verəcək: $\frac{13}{20}$ x 100% = 65%. Amma bu sikkəni növbəti dəfə havaya atarkən onun Y üzünün yerə düşmə ehtimalının 50%-dən çox olmasını düşünməyə əsas vermir. Məsələn, əgər müşahidəçi sikkəni 100 dəfə havaya atmış olsaydı, onda müşahidə edilən müəyyən hadisənin yekun nəticəsindəki əks vəziyyətlər arasında "bərabərliyin" yaranması ehtimalının çox olduğunu nəzərə alan qumarbaz 53 dəfə sikkənin X üzünün yerə düşəcəyindən mərc girməli idi:

6 + (94 x 50%) = 6 + 47 = 53

Beləliklə, əgər müşahidəçi sikkəni 100 dəfə havaya atsaydı, onda sikkənin X üzünün yerə düşəcəyinə dair gözlənilən yekun nəticə 53%-ə bərabər olardı. Əgər müşahidəçi milyard dəfə sikkəni havaya atmış olsaydı, onda gözlənilən yekun nəticə 500000003-ə ($\approx 50\%$ ) bərabər olardı:

6 + (999999994 x 50%) = 6 + 499999997 = 500000003

Beləliklə, müşahidəçi sikkəni nə qədər çox havaya atarsa, sikkənin yekun nəticədə X üzünün yerə düşmə ehtimalı 50%-ə bir o qədər yaxınlaşmış olar. Amma hətta hadisənin milyard dəfə təkrarlanmasında belə əlavə təkrarlarda ilk əvvəl ardıcıl

olaraq 6 dəfə sikkənin X üzünün yerə düşməyini ideal şəkildə "balanslaşdırmağın" (50% X + 50% Y) mümkün olacağını məntiqi cəhətdən əsaslandırmaq qeyri-mümkündür."

Qumarbaz xətasının tam əksi *isti əl*[1] adlanan məntiqi xətaya yol açır. Sonuncu məntiqi xətaya yol vermiş arqumentdə əvvəlki məntiqi xətaya yol vermiş arqumentdə müşahidə edilənlərin tam əksi baş verir: əgər verilmiş zaman kəsiyində müşahidə edilən hadisənin yekun nəticəsi qismində X təsadüfən tez-tez təkrarlanarsa və ona görə də növbəti müşahidələr zamanı bu təkrarlanmanın davam edəcəyi güman edilirsə, onda bu yolla qurulmuş arqument özündə isti əl xətasını ehtiva edər. Məsələn, bir qədər əvvəl nəzərdən keçirdiyimiz nümunədə əgər qumarbaz ardıcıl 6 dəfə sikkənin X üzünün yerə düşməyini əsas götürərək növbəti dəfə də məhz bu üzün yerə düşəcəyini güman edərsə, onda o, isti əl xətasına yol vermiş olar. Amma qumarbaz xətası ilə müqayisə edərkən isti əl xətasının əslində "xətalı" olmağı ehtimalı daha azdır, çünki ola bilər ki, sikkənin ardıcıl altı dəfə X üzünün yerə düşməyi əslində təsadüfi xarakter daşımır. Belə ki, sikkənin bir üzünün digərinə nisbətən daha

[1] İsti əl məntiqi xətası öz adını 1985-ci ildə T. Qiloviç, A. Tverski və R. Vallone tərəfindən nəşr edilmiş "Basketbolda isti əl" ("*Hot Hand in Basketball*") adlı elmi məqalədən götürüb. Bu məqalədə basketbolçularda "isti əl" adlandırılan fenomenin müşahidə edilməsinə dair nəzəriyyənin doğru olub olmaması araşdırılır. Bu nəzəriyyəyə görə əgər basketbolçunun səbətə əvvəlki atışı uğurlu olarsa, bu onun səbətə növbətə atışının da uğurlu olması ehtimalını artırmış olar.

artıq çəkiyə malik olması ehtimalı da mümkündür ki, bu da öz növbəsində havaya atılarkən sikkənin məhz hansı üzünün yerə düşməyini şərtləndirir.

***Vacib qeyd:***

Qumarbaz xətasının yalnız şans ilə bağlı olan situasiyalardakı nəticələrdə müşahidə edilməsi mümkündür, çünki iştirakçıların məharətindən asılı olan oyunlarda məsələn, bir iştirakçının və ya komandanın ardıcıl olaraq qələbə çalması onun öz rəqibləri üzərindəki üstünlüyünün göstəricisi ola bilər və onun növbəti oyunda da qələbə çalmasını güman etməyin məntiqi əsası kimi çıxış edə bilər. Eyni şəkildə, bir iştirakçının və ya komandanın ardıcıl olaraq qələbə çalması onun rəqiblərinin istifadə edilən qələbə strategiyasına uyğunlaşaraq növbəti oyunda onu məğlub edə biləcəklərini güman etməyin məntiqi əsası kimi çıxış edə bilər.

## Mövzu 28. Tarixçinin xətası

*Tarixçinin xətası* adlanan məntiqi xəta tarixin yazılması zamanı müəllifin keçmişi qərəzli şəkildə qiymətləndirməsinin nəticəsində meydana çıxan təhrifetmə ilə bağlıdır. Bu zaman tarixçi tarixdə baş vermiş olan tarixi hadisə haqqında məlumat verməkdən daha çox onu proqnozlaşdırılması (əvvəlcədən təxmin edilməsi) mümkün olan hadisə kimi təqdim edir. Belə xətaya yol verən tarixçi hadisəyə məxsus təfərrüratları elə təqdim edir ki, yalnız hadisə baş verəndən sonra meydana çıxması mümkün olan bəzi xüsusiyyətlər hadisənin özünün məzmununa daxil edilərək nəticə etibarilə qavrayışda hadisənin özünün mahiyyətinin təhrif olunmasına səbəb olur. Aydın məsələdir ki, hadisə baş verməzdən əvvəl və ya baş verən zaman bu xüsusiyyətlər hələ meydana çıxa bilməzdi və ona görə də heç bir sübut və ya əlamət həmin hadisənin baş verəcəyini əvvəlcədən tam dəqiqliklə təxmin etməyə imkan verməzdi. Yalnız hadisə baş verdikdən, bütün tarixi məlumatlar nəzərdən keçirildikdən sonra *retrospektiv* qiymətləndirmə zamanı “Bu hadisə əvvəlcədən necə təxmin edilməyib?” nəticəsi çıxarılır ki, bu da öz növbəsində tarixçinin xətası adlanan məntiqi xətanın yaranmasına yol açır. Amma retrospektiv qiymətləndirmədə hadisənin baş verməsinə gətirib çıxaran əlamətlər aydın şəkildə diqqəti cəlb etməsinə baxmayaraq, potensial şəkildə hadisənin başqa istiqamətlərdə də cərəyan etməsinə gətirib çıxara biləcək

digər əlamətlər diqqətdən kənarda qalır. Beləliklə, tarixçinin xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunələrə nəzər salaq:

**Nümunə 1.** *İkinci dünya müharibəsində ABŞ-ın roluna həsr edilmiş konfransda həmin dövr ABŞ siyasi hakimiyyətini tənqid edən tarixçi öz fikirlərini belə əsaslandırır*: "Axı ABŞ-ın siyasi hakimiyyətində təmsil olunanlar Pörl-Harbora olan hücumu[1] necə əvvəlcədən təxmin edə bilmədilər? Bunun baş verəcəyini təstiqləyən bütün əlamətlər açıq-aşkar göz önündə idi!"

[1] Pörl-Harbora hücum və ya yapon mənbələrində Havay əməliyyatı — Yaponiya İmperiyası silahlı qüvvələrinin Havay adaları qrupuna daxil olan Oahu adasında yerləşən ABŞ Sakit Okean Donanmasının Pörl-Harbor hərbi-dəniz bazasına 7 dekabr 1941-ci il tarixli gözlənilməz hücumu.

**Nümunə 2.** *İkinci dünya müharibəsi ərəfəsində alman xalqının seçki yolu ilə Hitleri siyasi hakimiyyətə gətirməsini*[1] *tənqid edən tarixçi öz fikirlərini belə əsaslandırır*: "Alman xalqı Adolf Hitlerin siyasi hakimiyyətə gəldiyi təqdirdə nə edəcəyini əvvəlcədən təxmin etməli idi."

Nəzərdən keçirdiyimiz nümunələrin hər ikisində irəli sürülmüş olan fikirlərin əsaslandırılması zamanı tarixçinin xətasına yol verilmişdir. Belə ki, birinci nümunədə haqqında bəhs edilən tarixi situasiyada ABŞ-ın hərbi radio kəşfiyyatı və donanma kəşfiyyat idarələrinin OP-20-G radio kəşfiyyat bölməsi yapon diplomatik trafikinə daxil olmuş və Yaponiyanın bir çox strateji və taktiki qeyri-hərbi məlumat kodlarını ələ keçirmişdir. Amma əldə edilən kəşfiyyat məlumatları olduqca nizamsız və çaşdırıcı olduğundan onlar əsasında gözlənilən hər hansı bir yapon hərbi hərəkəti haqqında sistemli və etibarlı məlumat əldə etmək mümkün olmamışdır. Beləliklə, Yaponiya tərəfindən gözlənilən hücumları işarə edən bəzi məlumatların olmasına baxmayaraq, xüsusi olaraq Pörl-Harbora hücum təhlükəsi ilə bağlı heç bir

[1] Hitlerin rəhbərlik etdiyi "Nasional Sosialist Alman Fəhlə Partiyası" 1930-cu il seçkilərində 18,3% səs toplayaraq 107 yerə, 5 mart 1933-cü ildə keçirilmiş seçkilərdə isə səslərin 43,9%-ni toplayaraq 288 yerə sahib olmuş və Reyxstaqda hakim partiyaya çevrilmişdir.

məlumat burada öz əksini tapmamışdır. Düzdür, tarixi keçmişdə baş verənləri bir deyil, alternativ olaraq bir neçə şəkildə interpretasiya etmək mümkündür və bu daha çox tarix fəlsəfəsi müstəvisində cavablandırıla biləcək suallardan asılıdır. Amma tarixşünaslıqda əsas üstünlük təşkil edən fikirlərə əsasən Pörl-Harbora hücum aktı reallaşmayana kimi Yaponiyanın məhz ora hücüm edəcəyini əvvəlcədən təxmin etmək mümkün deyildir. Bunun əksini hesab edən yanaşmalar əsasən hücum aktı icra edildikdən sonra situasiyanın retrospektiv qiymətləndirilməsi zamanı yaranan fikirlərə əsaslanır və məntiq müstəvisində tarixçinin xətası adlanan məntiqi xətaya yol açır.

Qeyd edilən bütün bu fikirlər yuxarıda nəzərdən keçirdiyimiz ikinci nümunəyə nəzərən də doğru hesab edilə bilər. Belə ki, rəhbərlik etdiyi siyasi partiyanın 1933-cü ildə keçirilən seçkilərdə səs üstüünlüyü qazanaraq  Reyxstaqda hakim partiyaya çevrilməsindən sonra partiya rəhbəri kimi siyasi hakimiyyətə gələn Hitler həmin zaman Birinci dünya müharibəsində məğlub olmuş, müharibənin ağır sosial, iqtisadi və psixoloji fəsadları ilə üzləşmiş olan alman xalqının xilas və ümid simvolu idi. Onun ümumbəşəri cinayətlərə imza ataraq bütövlükdə bəşəriyyəti, eləcə də alman xalqını fəlakətə sürükləməsi yalnız onun siyasi hakimiyyətinin sonlarında tam şəkildə məlum olduğundan həmin zamana nəzərən alman xalqını Hitleri seçki yolu ilə siyasi hakimiyyətə gətirməkdə günahlandırmaq (və ya tənqid etmək) tarixi situasiyanın

retrospektiv qiymətləndirilməsindən qaynaqlanır və məntiq müstəvisində tarixçinin xətası adlanan məntiqi xətaya yol açır.

***Vacib qeyd 1:***

*Tarixçinin xətasını* tarixçilərin müasir dövrdə tarixi keçmişi qiymətləndirən zaman istifadə etdikləri *prezentizm* metodu ilə qarışdırmaq olmaz. Bu metoda əsasən tarixi keçmiş müasir dövrə məxsus olan ideyalar (məsələn, əxlaqi dəyərlər) əsasında analiz edilir. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 3**. *Orta əsrlərdə Mərkəzi Asiyada əsası qoyulmuş Teymurilər dövlətinin banisi Əmir Teymurun tarixi roluna həsr edilmiş konfransda tarixçi onun tarixi şəxsiyyətini belə təsvir edir:* "Teymur 1383-cü ildə Xorasanda özünü müstəqil elan etmiş Sərbedarlar dövlətinin paytaxtında ona qarşı qalxan qiyamı yatıran zaman iki min nəfər dinc şəhər sakinini diri-diri divara hördürməklə, 90 min insan kəlləsindən ibarət iki qüllə tikdirməklə insanlıq əleyhinə amansız cinayətə imza atmışdır."

Burada Teymur tərəfindən həyata keçirilən kütləvi insan qətlləri faktdır, amma bu faktda heç bir əxlaqi mühakimə ehtiva edilməyib. Hərbi strateji baxımdan bunu gələcəkdə lazımsız az itgi ilə effektiv şəkildə düşmənlərinə qalib gəlmək və ya ona qarşı baş verə biləcək qiyamların qarşısını almaq üçün nəzərdə tutulmuş hərb üsülu kimi də qiymətləndirmək olar. Belə ki, bəzi

tarixi mənbələrin verdiyi məlumata əsasən Teymur hansı bir şəhəri mühasirəyə alanda birinci gün düşərgənin qarşısında yerə ağ bayraq sancardı. Bu əgər həmin gün şəhər təslim olarsa, hamıya aman veriləcək və qırğın olmayacaq demək idi. Əgər şəhər təslim olmaqdan imtina edərdisə və müqavimət göstərərdisə, ertəsi gün həmin yerə qırmızı bayraq sancılardı. Bu əgər həmin gün şəhər təslim olarsa, əhaliyə aman veriləcək, amma şəhər rəhbərliyi cəzalandırılacaq demək idi. Amma şəhər yenə də müqavimət göstərməyi seçərdisə, üçüncü gün qara bayraq asardılar. Bu artıq şəhərdə heç kimə aman verilməyəcək demək idi. Beləliklə, inadlı müqavimət göstərən şəhərdə kütləvi qətllər törətməkdə Teymurun əsas məqsədi ola bilsin ki, hücum edəcəyi növbəti şəhərləri müqavimətsiz təslim etməyə vadar etmək idi. Belə hərbi strategiyadan istifadə etdiyinə görə onun insanlıq əleyhinə amansız cinayətə imza atan tarixi şəxsiyyət kimi qiymətləndirilməsi artıq tarixi keçmişin müasir dövrə məxsus ideyalar, əxlaqi dəyərlər əsasında dəyərləndirilməsidir. Belə ki, "İnsanlıq əleyhinə cinayətlər" anlayışı yalnız İkinci Dünya Müharibəsindən sonrakı dövrdə Nürnberq Tribunalı Nizamnaməsinin 6-cı maddəsində öz əksini tapmışdır. Nizamnamənin 6-cı maddəsinə görə, insanlıq əleyhinə cinayətlərə müharibəyə qədər və ya müharibə dövründə mülki əhaliyə qarşı törədilmiş adam öldürmə, əhalini məhvetmə, kölə vəziyyətinə salma, deportasiya, zorlama, işgəncələr, siyasi, irqi

və ya dini səbəblərə görə təqibetmələr aiddir.[1] "İnsanlıq əleyhinə cinayətlər" anlayışının məzmununda nəzərdə tutulanların məsələn, qədim dövrdə və ya orta əsrlərdə baş verən tarixi hadisələrin də qiymətləndirilməsinə şamil edilməsinin nə dərəcədə məqbul olub olmaması tarix fəlsəfəsi müstəvisində müzakirə edilə bilər. Məsələn, elmi idrakın metodoloji prinsiplərindən biri olan *konkretlik* prinsipinə görə elmi idrak nəticəsində əldə edilən biliyi heç bir zaman konkret zaman, məkan və şərait göstəricilərindən kənarda qiymətləndirmək olmaz[2]. Bu prinsip xüsusilə tarixin müxtəlif dövrlərində baş vermiş hadisələri və bu dövrdə yaşamış tarixi şəxsiyyətlərin tarixdə oynadığı rolu qiymətləndirmək üçün zəruridir. Ümumdünya tarixi şəxsiyyətlərinin xidmətlərinin onların bu günlə müqayisədə nə etdikləri ilə yox, öz dövrləri ilə müqayisədə nə etməli olduqları ilə müəyyənləşdirilməsi daha məqbuldur.

***Vacib qeyd 2:***

*Tarixçinin xətası* adlanan məntiqi xətanı *tarixi* xəta adlanan digər qeyri-formal məntiqi xəta ilə qarışdırmaq olmaz. Həm də *psixoloji xəta* adlandırılan tarixi xəta ilk dəfə məşhur amerikan

---

[1] Əlövsət Allahverdiyev. *Belnəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər.* Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2017, s. 14-15.

[2] Ətraflı məlumat əldə etmək üçün bizim daha əvvəl nəşr edilmiş olan digər kitabımıza nəzər sala bilərsiniz: Elmar Hussein. *Tarix fəlsəfəsi. Universal tarixi şüurun inkişaf dinamikası*. Bakı: "Füyuzat" nəşriyyatı, 2022, səh. 55-58.

filosofu Con Dyui (1859-11852) tərəfindən 1896-cı ildə təsvir edilmişdir. Əgər hər hansı prosesin nəticəsində meydana çıxan nəticələri prosesin məzmunu kimi düşünülərsə, onda tarixi xəta yaranmış olar. Burada məsələn, yalnız tamamlanmış prosesin nəticəsində doğru kimi qiymətləndirilən fikirlər bu nəticənin meydana çıxmasını şərtləndirən hadisənin məzmunu olaraq düşünülür. Nəticəni xarakterizə edən şeylər bu nəticəni doğuran hadisələrin doğru təsviri kimi qəbul edilir, halbuki əgər bu nəticə artıq mövcud olmuş olsaydı, onda prosesin özünün baş verməsinə olan zərurət olmamış olardı.[1] Məsələn, fərz edək ki, pul kisəsini itirən insan onu itirə biləcəyi bir neçə yerin mövcud olduğunu düşünür. Bu düşüncədən çıxış edərək növbə ilə həmin yerlərin hamısında axtarış etmək qərarına gəlir. Təsadüfən axtarışa başladığı birinci yerdə itimiş olduğu pul kisəsini tapır. Əgər bu şərtlər altında insan əslində bütün zaman ərzində pul kisəsinin harada olduğunu bildiyinə dair nəticə çıxararsa, onda o, tarixi xəta adlanan qeyri-formal məntiqi xətaya yol vermiş olar. Belə ki, əgər o, pul kisəsinin harada olduğunu bilirdisə, deməli, onu itirməmişdir. Əgər o, onu itirməmişdisə, deməli, onu tapmaq üçün axtarışa başlamamışdır. Halbuki, nəzərdən keçirdiyimiz nümunədə o, məhz axtarış nəticəsində onun harada olduğunu bilmişdir. Axtarışdan daha əvvəl insanın

---

[1] John Dewey. “The Reflex Arc Concept in Psychology”. *Psychological Review* 3, 1896, pp. 357–370.

öz pul kisəsinin haralarda ola biləcəyinə dair sadəcə gümanı var idi, amma onun məhz harada olduğunu bilmirdi.

# Mövzu 29. Homunkul (*Homunculus*) xətası

*Homunculus* latıncadan hərfi tərcümədə “kiçik ölçülü insan”, “liliput” deməkdir. Orta əsrlərdə Aropada əlkimyaçılar laboratoriyada süni şəkildə kiçik ölçülü insan yaratmağa çalışırdılar. Termin kimi ilk dəfə əlkimyaçı Parasels (1493-1541) tərəfindən istifadə edildiyi güman edilir. Zehin fəlsəfəsində, eləcə də zehini tədqiq edən elm sahələrində bu anlayış bir qədər fərqli və əsasən neqativ mənada istifadə edilir: *Homunculus* adətən elə bir absurd izahatı bildirir ki, burada insanın seçim və davranışlarını “icra edən” daxili icraedici vasitəçi başa düşülür. Məsələn, belə vasitəçi kimi insanın iradəsini, şüurunu və ya şəxsiyyətini qəbul etsək, növbəti dəfə onlar tərəfindən icra edilən seçim və davranışlara nəyin təsir göstərməyinə dair sual meydana çıxacaq. Bu sanki *Homunculus* kimi qəbul edilən fenomenin daxilində daha bir eyni qəbildən olan fenomenin axtarışına bənzəyəcək. Bu istiqamətdə sonsuz *Homunculus* fenomenlərinin axtarışı son nəticədə absurd bir vəziyyət yaradacaq.[1]

[1] Ətraflı məlumat almaq üçün baxın: Daniel M. Wegner. Who is the Controller of Controlled Processes? In the *New Unconscious*, ed. by Ran R. Hassin, James S. Uleman, John A. Bargh. Oxford: Oxford University Press: 2011.

Məntiq müstəvisində isə qeyd edə bilərik ki, əgər izah edilməsi nəzərdə tutulan fenomen və ya hadisəni bu fenomen və ya hadisənin özünün nöqteyi-nəzərindən izah etməyə cəhd edilərsə, onda Homunkul xətasına yol verilir. Bu isə bir qədər əvvəl qeyd etdiyimiz kimi, sanki *Homunculus* kimi qəbul edilən fenomenin daxilində daha bir eyni qəbildən olan fenomenin axtarışına bənzəyəcək. Beləliklə, Homunkul xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə**. *Həyatın mənşəyi barəsində iki insan aşağıdakı şəkildə fikir mübadiləsi edir*:
"$A_1$. Həyatın ilk dəfə necə yaranması haqqında nə düşünürsən?
$A_2$. Mən belə belə düşünürəm ki, bir neçə milyon il bundan əvvəl uzaq qalaktikadan gələn yadplanetlilər bizim planetdə bitki toxumları əkiblər. Beləliklə, burada canlı həyat yaranıb.
$A_1$. Çox yaxşı. Bəs yadplanetlilərin gəldiyi həmin uzaq qalaktikada həyat necə yaranıb?
$A_2$. Məncə, bir neçə milyard il əvvəl digər daha uzaq qalaktikadan gələn yadplanetlilər həmin qalaktikada bitki toxumları əkiblər. Beləliklə, orada canlı həyat yaranıb."

Arqumentlərdə Homunkul xətasını həmişə asanlıqla aradan qaldırmaq mümkün deyil, çünki hadisənin izahı üçün lazım olan informasiya natamam ola və ya heç mövcud olmaya bilər. Məsələn, bir qədər əvvəl nəzərdən keçirdiyimiz nümunədə bir neçə milyon il bundan əvvəl uzaq qalaktikadan gələn yadplanetlilərin bizim planetdə bikti toxumları əkərək canlı həyatın yaranmasına başlanğıc verməsi fikri doğru ola bilər, heç olmazsa potensial cəhətdən bu mümkün ola bilər, biz sadəcə olaraq bu gün bu fikri əsaslandırmaq üçün sübutlara malik deyilik. Amma yuxarıida qurulan arqument vasitəsilə heç bir zaman həyatın ilk dəfə necə yaranması sualına cavab vermək mümkün deyil, çünki orada nisbətən daha erkən zamanda

nisbətən daha uzaq qalaktikadan gələn yadplanetlilər tərəfindən yeni qalaktikada həyatın yaradılması fikri hər dəfə təkrarlanacaq və bu, davamlı olaraq sonsuz keçmişə doğru istiqamətlənəcək.

# Mövzu 30. Çaydan məntiqi

*Çaydan məntiqi* adlanan məntiqi xəta nə zaman yaranır? Əgər arqumentdə irəli sürülən nəzər nöqtəsini əsaslandırmaq üçün bir-biri ilə ziddiyyət təşkil edən müqəddimələr təqdim edilirsə, onda arqument çaydan məntiqi xətasına yol verir. Beləliklə, bu məntiqi xətaya yol verən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 1**. *Təklif edilən restorana getməkdən imtina edən insan öz fikrini belə əsaslandırır*: “Artıq heç kim ora getmir.

| |
|---|
| Orada həddindən artıq çox insan olur.” |

Formal cəhətdən çaydan məntiqi xətasına yol verən arqument etibarlı arqument[1] sayılır, çünki bir-biri ilə ziddiyyət təşkil edən müqəddimələrin doğru, amma nəticənin yalan olması mümkün deyil. Burada əsas problem müxtəlif məntiq sistemlərində *partlayış prinsipi* və ya *psevdo-skot*[2] *prinsipi* adlandırılan prinsipdir. Bu prinsipə əsasən ziddiyyət vasitəsilə istənilən fikri sübut etmək olar. Hələ antik fəlsəfədə bəzi mühakimələrin yanlış olduğunu əsaslandırmaq üçün onun daxilində olan ziddiyyəti aşkar edirdilər. Amma antik fəlsəfədə “Niyə məntiqi mühakimədə ziddiyyət qəbul edilmir?” sualı arqumentativ formada cavablandırılmamışdır. İlk dəfə 12-ci əsrdə fransız məntiqçisi *Uilyam Suasson* ziddiyyət vasitəsilə istənilən iddianın doğru olmağına dair nəticənin çıxarılmasını sübut etmişdir.[3] Məsələn, aşağıdakı arqumentə nəzər salaq:

$M_1$. Yağış yağır.

$M_2$. Yağış yağmır.

---

[1] Etibarlı arqument haqqında ətraflı oxumaq üçün baxın: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: “Parlaq İmzalar” Nəşriyyatı, 2021, s. 81-87.

[2] Bu ad İohann Duns Skot (1265 – 1308) adlı orta əsr məşhur şotlandiyalı teoloq və filosof ilə bağlıdır.

[3] Graham Priest. What's so bad about contradictions? In *The Law of Non-Contradiction* by Graham Priest, JC. Beall & Bradley Armour-Garb. Oxford: Clarendon Press, 2011.

$N$. Ayda ağac mövcuddur.

Əgər bu arqumentin müqəddimələri və nəticəsi qismində iştirak edən mülahizələri məntiqin simvolik dilinə tərcümə etsək, onda arqumenti simvolik şəkildə aşağıdakı kimi ifadə edə bilərik:

P = Yağış yağır.

~P = Yağış yağmır.

E = Ayda ağac mövcuddur.

(P ∧ ~P) → E

***Vacib qeyd:***

"Ayda ağac mövcuddur" mülahizəsini əvəzinə istənilən digər mülahizəni də yazmaq mümkündür. Bütün hallarda ziddiyyət vasitəsilə istənilən iddianın doğru olmağına dair nəticənin çıxarılması mümkündür.

Amerikan filosofu *Klarens İrvinq Lyuis* (1883-1964) Uilyam Suasson tərəfindən təqdim edilmiş sübutu müasir simvolik məntiq dilində aşağıdakı kimi ifadə edir[1]:

$M_1$. (P ∧ ~P) → P

$M_2$. P → (P ∨ E)

---

[1] Christopher J. Martin. "William's Machine". *Journal of Philosophy* 83, 1986, pp. 564 – 572.

$M_3$. (P ∧ ~P) → (P ∨ E)

$M_4$. (P ∧ ~P) → ~P

$M_5$. (P ∧ ~P) → ((P ∨ E) ∧ ~P)

$M_6$. ((P ∨ E) ∧ ~P) → E

$N$. (P ∧ ~P) → E

Arqumentin 1-ci müqəddiməsində ((P ∧ ~P) → P) implikasiyası klassik məntiqdə məntiqi cəhətdən etibarlıdır[1], çünki (P ∧ ~P) özündə ziddiyyəti əks etdirdiyinə görə yalandır; klassik məntiqdə ziddiyyətsizlik qanununa əsasən hər hansı bir mülahizə eyni zamanda həm doğru, həm də yalan ola bilməz. Digər tərəfdən isə klassik məntiqdə implikasiyanın qaydasına əsasən (A → B) implikasiyası A – nın doğru və B-nin yalan olması istisna olmaqla hər zaman doğrudur. Deməli, (A = (P ∧ ~P)) və (B = P) olduğunu nəzərə alsaq, ((P ∧ ~P) → P) doğrudur, çünki (P ∧ ~P) yalandır. Eyni şəkildə, arqumentin 2-ci müqəddiməsində (P → (P ∨ E)) implikasiyası klassik məntiqdə məntiqi cəhətdən etibarlıdır, çünki əgər P doğrudursa, onda (P ∨ E) da doğrudur (dizyunksiyada mülahizənin doğru olması üçün dizyunktlardan (P və ya E) birinin doğru olması kifayətdir); əgər P yalandırsa, onda (P → (P ∨ E)) implikasiyası yenə də doğrudur, çünki yuxarıda qeyd etdiyimiz kimi, əgər (A → B)

[1] Amma bu, qeyd edilən müqəddimənin məna kəsb etməsi demək deyildir, ümumiyyətlə isə bu müqəddimənin özü hər zaman yalandır.

implikasiyasında A yalandırsa, bütün hallarda bu implikasiya doğrudur. Arqumentin 1-ci müqəddiməsinin izahını onun 4-cü və 5-ci müqəddimələrinə də tətbiq edərək müvafiq şəkildə $((P \wedge \sim P) \rightarrow \sim P)$ və $(P \wedge \sim P) \rightarrow ((P \vee E) \wedge \sim P)$ implikasiyalarının da klassik məntiqdə məntiqi cəhətdən etibarlı olmasını əsaslandıra bilərik. Beləliklə, $(P \wedge \sim P)$ ziddiyyəti vasitəsilə istənilən iddianın doğru olmağına dair nəticə çıxarmaq mümkündür.

Formal cəhətdən çaydan məntiqi xətasına yol verən arqument etibarlı arqument olmasına baxmayaraq, o, tutarlı arqument[1] deyildir, çünki bütün müqəddimələrinin doğru olması qeyri-mümkündür (heç olmazsa özündə ziddiyyəti əks etdirən müqəddimə yalandır). Beləliklə, istənilən halda bu xətaya yol verən arqument formal məntiqi baxımdan düzgün qurulmuş arqument deyildir.

Çaydan məntiqi xətası öz adını məşhur psixoanalitik Ziqmund Freydin "Yuxuların interpretasiyası" kitabında təsvir edilmiş arqumentdən götürür.[2] Belə ki, bu kitabda deşilmiş vəziyyətdə olan çaydanı geri qaytarmaqda günahlandırılan insandan bəhs edilir. Günahlandırılan insan özünü müdafiə etmək üçün aşağıdakı mülahizələri irəli sürür:

---

[1] Tutarlı arqument haqqında ətraflı oxumaq üçün baxın: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: "Parlaq İmzalar" Nəşriyyatı, 2021, s. 101-104.

[2] Sigmund Freud. *The Interpretation of Dreams.* New York: The McMillan Company, 1900, p.101.

$Mülahizə_1$. Mən çaydanı zədələnməmiş vəziyyətdə geri qaytarmışam.

$Mülahizə_2$. Çaydan əvvəlcədən deşilmiş vəziyyətdə idi.

$Mülahizə_3$. Mən heç kimdən çaydan götürməmişəm.

Beləliklə, o, özünü müdafiə etmək məqsədi ilə qurduğu arqumentdə bir-biri ilə ziddiyyət təşkil edən mülahizələrdən müqəddimə qismində istifadə etdiyindən əslində özünün arqumentini məntiqi cəhətdən zədələyir. Son nəticədə isə özünü müdafiə etmək üçün nə qədər çox cəhd edirsə, bir o qədər də özünün günahkar olma ehtimalını artırır.

Freyd çaydan məntiqi xətasına yol vermiş arqumentlərdən insanın yuxuda olarkən tez-tez istifadə etdiyinə inanırdı. Məhz bir-birinə zidd fikirlərin mövcud olması insanın yuxuda olmasına işarət edir. Məsələn, yuxuda tamamilə çılpaq olan insan bu vəziyyətindən utanaraq qaçmaq istəyir, amma bəzi səbəblərdən bunu edə bilmir. Qarşısında çılpaq olduğuna görə utandığından çıxılmaz vəziyyətə düşdüyü insanlar yad insanlardır və onların üzləri qeyri-müəyyəndir. Bu insanlar onun çılpaq olduğuna ümumiyyətlə, diqqət yetirmirlər. Bu qəbildən olan düşüncələr insanın yuxu aləminin “məntiqi” əsasında cərəyan edir. Bu yuxunu görən insan yuxuda olduğu müddət ərzində onun üçün bu düşüncələr bir-birinə zidd deyil, amma yuxudan ayılıb onları interpretasiya edərkən ziddiyyət üzə çıxır.

İlk baxışda bir-birinə zidd olan müqəddimələrdən təşkil edilmiş kimi görünən arqument interpretasiya edilərkən əslində çaydan məntiqi xətasına yol verməmiş arqument kimi də hesab edilə bilər. Məsələn, bir qədər əvvəl nəzərdən keçirdiyimiz nümunədə təklif edilən restorana getməkdən imtina edən insan “heç kim” deyərkən xüsusi insan qrupunu, məsələn, özünün yaxın dostlarını nəzərdə tuta bilər: restoranda həddindən artıq çox insan olduğuna görə onun yaxın dostlarından heç kim artıq ora getmir.

Freydin yuxu interpretasiyası kontekstində istifadə etdiyi nümunəni də digər istiqamətdə interpretasiya edərək orada ziddiyyətin olmadığını əsaslandırmaq mümkündür. Belə ki, yuxuda insan istənilən digər, hətta ona diqqət yetirməyən yad insanın da qarşısında çılpaq vəziyyətdə olmasında utana bilər. Çılpaq insan digər insanların özünü onun bu vəziyyətinə qarşı tamamilə etinasız göstərərək əslində daxilən ona güldüklərini düşünə bilər.

***Vacib qeyd:***

Eyni nəticənin çıxarılması üçün bir-biri ilə ziddiyyət təşkil edən müqəddimələrdən ibarət arqumentdən istifadə edilməsi hər zaman çaydan məntiqi xətasına yol açmır, çünki bəzi hallarda arqumentdə istifadə edilən zidd müqəddimələrin hamısının doğru olması iddia edilmir. Məsələn, aşağıdakı nümunəyə nəzər salaq:

**Nümunə 2**. *Məhkəmə prosesində ölüm cinayətində təqsirləndirilən müttəhimin vəkili onu belə müdafiə edir*: “Hüquqlalrını müdafiə etdiyim şəxs bu cinayəti törədə bilməz, çünki cinayətin baş verdiyi zaman o, universitetdə dərs deyirdi. Amma hətta cinayət yerində olsaydı belə o, cinayətin qurbanına uzaqdan dəqiq atəş açmaq üçün uzağı pis görür.”

Bütün bu qeyd edilənləri nəzərə alaraq irəli sürülmüş arqumentin çaydan məntiqi xətasına yol verib verməməsini təyin etmək üçün arqumenti irəli sürənin bu arqumentdə əks olunan zidd müqəddimələri doğru hesab edib etməməyinə diqqət yetirmək lazımdır. Arqument əgər və yalnız əgər orada əks olunan zidd müqəddimələr onu irəli sürən insan tərəfindən doğru hesab edilərsə çaydan məntiqi xətasına yol vermiş sayılır.

# Mövzu 31. Xətt çəkmə

Bəzən *xətt çəkmə xətası* digər qeyri-formal məntiqi xətanın (məsələn, *yalan dilemmanın*) və ya təyinedilməzliyin bir forması kimi nəzərdən keçirilir. Əgər arqumentdə əslində dəqiq xəttin çəkilməsi qeyri-zəruri olan halda müəyyən dəqiq nöqtədə belə xəttin çəkilməsi tələb edilərsə, onda bu arqument xətt çəkmə xətasına yol verər. Amma burada "qeyri-zəruri" anlayışının tətbiq edilə biləcəyi situasiyalar kontekstdən asılı olaraq dəyişə bildiyindən arqumentin xətt çəkmə xətasına yol verib verməmədiyinin təyin edilməsi də bəzən birmənalı deyildir. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə**. *Yol Hərəkəti Haqqında" qanunun tələblərini pozduğu üçün avtomobili saxlamış polis əməkdaşı ilə sürücü arasında aşağıdakı dialoq baş tutur*:
"*Polis əməkdaşı*: Siz avtomobili təhlükəli sürət həddində idarə etdiyinizə görə cərimə edilirsiniz.
*Sürücü*: Onda zəhmət olmasa, təhlükəsiz sürət həddinin nə olduğunu mənə izah edin! Bu avtomobilin 50 km/saat, 45 km/saat sürətlə idarə edilməsini nəzərdə tutur, yoxsa mən elə aşağı sürətlə hərəkət etməliyəm ki, yolda tıxacın yaranmasına səbəb olum?!"

Nəzərdən keçirdiyimiz bu nümunədə sürücü dolayı şəkildə avtomobilin spidometrində təhlükəsiz sürət həddini göstərən dəqiq ədəd olmadığından təhlükəli və təhlükəsiz sürət həddini fərqləndirmək mümkün deyildir nəticəsini çıxarmaqla xətt çəkmə xətasına yol verir. Bununla o, əslində həmişə filosofları düşündürən və bir çox hallarda çətin vəziyyətə salan problemlərdən birinə toxunur. Bu fəlsəfi problemin məzmunu düzgün analiz edilməzsə, onda absurd və ya paradoksal nəticəsinin çıxarılması təhlükəsi yaranar. Əgər sürücünün bir qədər əvvəlki nümunədə ünvanladığı sualı cavablandıra bilməsək, onda biz yanlış olaraq təhlükəli və təhlükəsiz sürət həddi arasında fərqin olmamasına dair nəticə çıxara bilərik. Bu qəbildən olan çətin situasiyalardan, eləcə də yanlış nəticə çıxara bilmə təhlükəsindən xilas olmaq üçün məntiq və fəlsəfə tarixində xətt çəkmə qeyri-formal məntiqi xətasının məzmunu analiz etməyə və izah etməyə çalışıblar. Bu məntiqi xətaya yol verən arqument aşağıdakı struktura malikdir:




Xətt çəkmə xətasının məzmununun analz və izah edilməsi əsas etibarilə məntiq və fəlsəfədə, eləcə də elmdə mövcud olan qeyri-məyyənlik fenomeni ilə bağlıdır. Belə ki, ikiqiymətli Bul (klassik) məntiqinə əsasən hər bir mülahizə ya *doğru (1),* ya da *yalan (0)* qiyməti alır. Amma real dünyanı yalnız doğru və yalan qiymətləri arasındakı kəskin fərq əsasında qavramaq və qiymətləndirmək mümkün deyil. Mülahizələr yalnız 1 və ya 0 qiyməti ala bilməz. Real dünya *qeyri-müəyyəndir*: mülahizələr adətən nə aydın şəklidə 1, nə də aydın şəkildə 0 qiyməti alır. Məsələn, əgər Nəzrin adlı bir insanın ömrünü şərti olaraq 100 il qəbul etsək, onda bu insan 100×365 = 36500 gün yaşamış olacaq. Əgər hər 4 ildən bir ilin 366 təqvim günü olaraq hesablandığını nəzərə alsaq, onda 36500 günün üzərində 100 ÷ 4 = 25 gündə əlavə etmək lazımdır: 36525 gün. Beləliklə, 100 il yaşayan Nəzrin adlı insan 36525 gün ömür sürmüş olur. Nəzrin

öz ömrünün 1-ci günü aydın şəkildə körpədir və 36525-ci günü aydın şəkildə qocadır. Beləliklə, “Nəzrin öz ömrünün 1-ci günündə körpədir” mülahizəsi ikiqiymətli Bul məntiqinə görə, doğrudur və “Nəzrin öz ömrünün 36525-ci günündə körpədir” mülahizəsi ikiqiymətli Bul məntiqinə görə isə yalandır. Əgər belədirsə, onda məhz hansı nöqtədə (hansı gündə) “Nəzrin körpədir” mülahizəsi doğrudan yalana *keçid* alır? Məsələn, məhz hansı nöqtədə (hansı gündə) “Nəzrin körpədir” mülahizəsi artıq yalandır və “Nəzrin uşaqdır” mülahizəsi doğrudur? Məhz hansı nöqtədə (hansı gündə) “Nəzrin uşaqdır” mülahizəsi artıq yalandır və “Nəzrin yeniyetmədir” mülahizəsi doğrudur? İnsan həyatını şərti olaraq aşağıdakı yaş mərhələlərinə bölmək mümkündür: məsələn, 2 yaşa qədər körpə, 2-11 yaş mərhələsi uşaqlıq, 11-18 yaş mərhələsi yeniyetməlik, 18-30 yaş mərhələsi gənclik və s. Amma şübhəsiz ki, məsələn, Nəzrinin bioloji və psixoloji sistemində hansı fundamental dəyişiklik baş verməlidir ki, 11 yaşının son günündə “Nəzrin uşaqdır” mülahizəsi doğru və 12 yaşının ilk günündə isə “Nəzrin uşaqdır” mülahizəsi yalan olsun? Nəzrinin bioloji və psixoloji sistemində baş verməli və onu uşaq deyil, yeniyetmə kimi qiymətləndirməyə imkan verməli olan bu fundamental dəyişiklik 1 gün, 24 saat, 1440 dəqiqə, 86400 saniyə aralığında necə müəyyən edilməlidir? Niyə zaman etibarilə 1 saat, 1 dəqiqə və ya 1 saniyə əvvəl “Nəzrin uşaqdır” mülahizəsi doğru və 1 saat, 1 dəqiqə və ya 1 saniyə sonra isə “Nəzrin uşaqdır” mülahizəsi yalandır? Bu qəbildən olan suallar fəlsəfədə *qeyri-*

*müəyyənlik* fenomeninə dair sualların yalnız bir hissəsini əhatə edir. Bu qəbildən olan sualların cavablandırılması əvvəlcə digər qəbildən olan sualların cavablandırılmasını tələb edir: Bivalent təxmin (mülahizənin yalnız doğru və ya yalan qiymət ala bilməsi təxmini) üzərində qurulmuş Bul məntiqi sistemindən başqa alternativ digər məntiqi qiymətləndirmə sistemi mövcud ola bilərmi? Bivalent təxmin ilə qeyri-müəyyənlik fenomenini izah etmək mümkündürmü? Bu qəbildən olan sualların cavabı həm ontoloji, həm də epistemoloji müstəvidə qeyri-səlis məntiq üzərində qurulmuş qeyri-səlis təfəkkürün qurulmağını tələb edir.

Qeyri-səlis məntiq üzərində formalaşan qeyri-səlis təfəkkür anlayışını nisbətən daha geniş auditoriyaya çatdırmağa çalışan ilk tədqiqatçılardan və yazıçılardan biri hesab olunan Bart Kosko özünün "Qeyri-səlis təfəkkür: yeni qeyri-səlis məntiq elmi" kitabında yazır: "Əlinizdə hər hansı bir alma tutun. Bu almadır? Sizin əlinizdə olan obyekt zaman və məkanda bizim alma çoxluğu adlandırdığımız müəyyən bir qrupa – indiyədək mövcud olmuş bütün almalara aiddir. İndi isə almadan bir dişlək alın, çeynəyin və udun. Sizin həzm sisteminiz tərəfindən onun almanı təşkil edən molekullara qədər parçalamasını gözləyin. Sizin əlinizdəki obyekt yenə də almadır? Bəli, yoxsa xeyr? Daha bir dişlək alın. Yeni obyekt yenə də almadır? O, tamamilə heçliyə

çevrilənə kimi dişlək almaqda davam edin".[1] İlkin nöqtədə alma həqiqətən almadır, amma siz almadan dişlək almaqda davam edərkən o, tədricən alma olma əlamətini itirir. Son nöqtədə siz almanı tamamilə yeyilib qurtararkən o, artıq alma sinfinə mənsub olan üzv deyildir. Qeyri-səlis məntiqin əsas ideyası hər bir obyektin xüsusi obyektlər sinfinə aid olmasını göstərən dərəcəni özündə ifadə edən ədəd ilə bağlıdır. İlkin nöqtədə, məsələn, nəzərdən keçirdiyimiz *alma fikir eksperimentində* olduğu kimi, bu ədəd 1-ə bərabərdir və ya 1-ə çox yaxın olan digər ədədə bərabərdir. Son nəqtədə isə bu ədəd 0-a bərabərdir, çünki nəzərdən keçirdiyimiz fikir eksperimentində olduğu kimi, alma tam şəkildə yeyildikdən sonra həmin obyekt alma sinfinin bir üzvü olaraq heçliyə çevrilir. Bu ədəd ilə həmin obyekt arasında assosiasiya yaradan funksiya *üzvlük funksiyası* adlanır. Klassik çoxluq nəzəriyyəsində bu ədəd ya 1-ə bərabərdir (obyekt çoxluğa aiddir), ya da 0-a bərabərdir (obyekt çoxluğa aid deyil). Məsələn, əgər siz almanın $\frac{2}{3}$ hissəsini artıq yemisinizsə, onda həmin obyektin alma sinfinə aid olmasını ifadə edən üzvlük funksiyasının qiyməti 0.3-ə bərabərdir.[2]

---

[1] Bart Kosko. *Fuzzy thinking: the new science of fuzzy logic.* Hyperion: 1992, p. 4.

[2] Bu mövzuda daha ətraflı oxumaq üçün baxın: Elmar Hussein. Fəlsəfə: qeyri-müəyyənlik fenomeni və qeyri-səlis məntiq / *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: "Parlaq İmzalar" Nəşriyyatı, 2021.

# Mövzu 32. Yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlama

Həm fəlsəfədə, həm də elmdə *yaxın səbəbiyyət*[1] anlayışı vasitəsilə müşahidə edilən nəticə ilə onun meydana çıxmasını şərtləndirən birbaşa səbəb arasında əlaqə bildirilir. Müxtəlif hadisələr arasındakı yaxın səbəbiyyət əlaqəsi adətən onlar arasındakı *uzaq səbəbiyyət* əlaqəsinə nəzərən müəyyən edilir. Məsələn, fərz edək ki, təhqiqat istintaq qrupu cinayət qurbanının hansı səbəbdən öldürülməyini araşdırır və əldə edilən nəticələrə əsasən qeyd etmək olar ki,

a) *Yaxın səbəb*: Cinayət qurbanı soyuq silah qismində istifadə edilən bərk əşya ilə baş nahiyəsindən endirilən güclü zərbənin təsirindən beyindaxili qan sızma ilə müşayiət olunan kəllə sümüyünün qırılması və baş beynin güclü zədələnməsi nəticəsində dünyasını dəyişmişdir.
b) *Uzaq səbəb:* Oğurluq məqsədilə evə daxil olan cinayətkar ilə cinayətin qurbanı olan ev sahibi arasında baş verən əlbəyaxa zamanı birinci soyuq silah qismində

[1] Yaxın səbəbiyyət məntiqdə və fəlsəfədə bəzən *sine qua non* səbəbiyyəti kimi də adlandırılır. *Condicio sine qua non* latıncadan tərcümədə "olmazsa olmaz şərti" kimi tərcümə edilir.

istifadə edilən bərk əşya ilə ikincinin baş nahiyəsinə güclü zərbə endirmişdir.

Yaxın və ya uzaq səbəbin təyin edilməsi adətən şərti xarakter daşıyır. Bir çox hallarda bir kontekstdə uzaq səbəb kimi təyin edilən faktor digər kontekstdə yaxın səbəb kimi şərh edilə bilər. Məsələn, fərz edək ki, təhqiqat istintaq qrupu həm də digər məsələni - oğurluq məqsədilə evə daxil olan cinayətkar ilə cinayətin qurbanı olan ev sahibi arasında baş verən əlbəyaxa zamanı birincinin soyuq silah qismində istifadə edilən bərk əşya ilə ikincinin baş nahiyəsinə güclü zərbə endirməyinin səbəbini araşdırır və əldə edilən nəticələrə əsasən qeyd etmək olar ki,

a) *Yaxın səbəb*: Oğurluq məqsədilə evə daxil olan cinayətkar ilə ev sahibi olan cinayətin qurbanı arasında baş verən əlbəyaxa zamanı birinci <u>fiziki cəhətdən daha güclü olan rəqibinə qalib gələ bilməyəcəyini anlayıb</u> soyuq silah qismində istifadə edilən bərk əşya ilə ikincinin baş nahiyəsinə güclü zərbə endirmişdir.
b) *Uzaq səbəb:* Oğurluq məqsədilə evə daxil olan cinayətkar ev sahibi olan cinayətin qurbanı ilə <u>gözlənilmədən</u> qarşılaşmışdır.

İndi isə fərz edək ki, təhqiqat istintaq qrupu həm də oğurluq məqsədilə evə daxil olan cinayətkar ilə cinayətin qurbanı olan ev sahibinin gözlənilmədən qarşılaşmasının səbəbini araşdırır və əldə edilən nəticələrə əsasən qeyd etmək olar ki,

a) *Yaxın səbəb*: Oğurluq məqsədilə evə daxil olan cinayətkara oğurluq üçün seçilən zamanda cinayətin qurbanı olan ev sahibinin evdə olmayacağına dair məlumat verilmişdir.
b) *Uzaq səbəb*: Oğurluq məqsədilə məhz bu evin seçilməsini məsləhət görən cinayətin digər iştirakçısı öz müşahidələrində yanıldığından oğurluq məqsədilə evə daxil olan cinayətkara oğurluq üçün seçilən zamanda cinayətin qurbanı olan ev sahibinin evdə olmayacağına dair yanlış məlumat vermişdir.

Bu nümunələrdə nəzərdən keçirdiyimiz hadisələr ardıcıllığını prinsipcə davam etdirə və növbəti kontekstdə məsələn, oğurluq məqsədilə məhz bu evin seçilməsini məsləhət görən cinayətin digər iştirakçısının niyə öz müşahidələrində yanılması faktının təhqiqat istintaq qrupu tərəfindən araşdırılması nəticəsində meydana çıxan yaxın səbəbi və uzaq səbəbi araşdıra bilərik. İstənilən halda bu, hadisələr arasında səbəbiyyət əlaqələrini analiz edərkən onun sadəcə olaraq A hadisəsinin B hadisəsinə səbəb olması (A hadisəsinin B hadisəsini doğurması) demək olmadığını nəzərdə tutur.

Səbəbiyyət zəncirində yaxın səbəbi və uzaq səbəbi fərqləndirən zaman təbii ki, *ikinci* səbəb mövcud olmazsa *birinci* səbəbin də mövcud olmaması nəzərdə tutulur, burada ikinci səbəb (ola bilsin ki, səbəbiyyət zəncirində yer alan *aralıq* səbəblər vasitəsilə) birinci səbəbin də səbəbi olaraq çıxış edir. Amma bu

nəticənin meydana çıxmasında yaxın səbəbin mühüm (və hətta zəruri) rol oynamaması demək deyildir. Əgər nəzərdən keçirilən faktorun yaxın səbəb funksiyasını icra etməsi səbəbindən onun nəticənin meydana çıxmasına gətirib çıxaran səbəbiyyət zəncirində cüzi əhəmiyyət daşıması və ya heç bir əhəmiyyət daşımaması güman edilirsə, onda burada *yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlama* məntiqi xətasına yol verilir. Bu qəbildən olan məntiqi xətaya yol verən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

| |
|---|
| **Nümunə 1**: *ABŞ Milli Atıcılıq Assosiasiyasının şüurarında belə yazılır:* "Silah insanları öldürmür; insanlar insanları öldürür." |

Nəzərdən keçirdiyimiz bu şüarda yazılanlardan çıxan nəticəyə görə silahlar vasitəsilə törədilmiş zorakılıq aktlarına görə silahları günahlandırmaq düzgün deyildir, çünki bütün belə xoşagəlməz hadisələrin ən son səbəbi silahlar deyil, insanlardır. Əgər insan silahdan istifadə etməsə, silah heç kimə zərər verə bilməz:




Qeyd edilən sonuncu fikrin doğru olması silahla törədilən onlarla zorakılıq aktlarında, məsələn, kütləvi insan qətlllərində bu silahların mühüm səbəb kimi çıxış *etməməsi* nəticəsini doğurmur. Bu fikirdən həmçinin silahdan istifadə qaydalarının nizamlanması, məsələn, məhdudlaşdırılması silahla törədilən kütləvi insan qətllərinin baş vermə tezliyinə heç bir təsir göstərməyəcək nəticəsi doğmur. Belə ki, kütləvi insan qətllərində silah yaxın səbəb funksiyasını icra etmiş olsa da, o,

potensial cinayətkarlar üçün qətl törətmə imkanlarını dəfələrlə artırır.

Nəzərdən keçirilən nümunədə yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlama xətasının meydana çıxdığını göstərmək üçün məsələn, analogiya əsasında daha bir arqument qura və burada silah əvəzinə öldürücülük imkanları qat-qat daha artıq olan "hərbi texnika" anlayışından istifadə edə bilərik:

**Nümunə 2.** *Hərbi Texnologiya Parkının qarşısındakı lövhədə belə yazılıb*: "Tank insanları öldürmür; insanlar insanları öldürür."

Şübhəsiz ki, bu lövhədə yazılan fikir də doğrudur, amma bu fikirdən tankın kütləvi dağıntıların baş verməsində mühüm səbəb funksiyasını icra etməməsi nəticəsi doğmur. Bu fikirdən həmçinin tankdan qeyri-hərbi şəraitdə şəhərdə nəqliyyat vasitəsi kimi istifadə edilməsinə qanunla icazənin verilməsi şəhərdə kütləvi dağıntıların ola bilmə ehtimalının artmasına heç bir təsir göstərməyəcək nəticəsi doğmur. Başqa sözlə, tankın kütləvi dağıntıların meydana çıxmasında yaxın səbəb rolunu oynamasına baxmayaraq, o, şəhərdə dağıntıların daha tez-tez baş verməsinə yol aça bilər, ona görə də tankdan qeyri-hərbi şəraitdə şəhərdə nəqliyyat vasitəsi kimi istifadə edilməsinin qanunla qadağan edilməsi belə dağıntıların miqyasını əhəmiyyətli dərəcədə məhdudlaşdırır.

Aydın məsələdir ki, ikinci nümunədə təsvir edilən situasiyanın reallaşa bilmə ehtimalı 0-a yaxındır, çünki tankdan qeyri-hərbi şəraitdə şəhərdə nəqliyyat vasitəsi kimi istifadə edilməsinə qanunla icazənin verilməsi xüsusi məntiqi analiz tələb etmədən absurd fikir kimi qiymətləndirilə bilər. Amma bu nümunədən analiz etdiyimiz yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlama xətasına yol vermiş arqumentlərin məzmununu daha yaxşı anlamaq üçün istifadə etmək olar. Beləliklə, analogiya əsasında aşağıdakıları qeyd edə bilərik: bir halda ki, tankın kütləvi dağıntıların meydana çıxmasında yaxın səbəb rolunu oynamasına baxmayaraq, o, şəhərdə dağıntıların daha tez-tez baş verməsinə yol aça bilər, onda silah da kütləvi insan qətllərində yaxın səbəb funksiyasını icra etməsinə baxmayaraq, o, potensial cinayətkarlar üçün qətl törətmə imkanlarını dəfələrlə artıra bilər.

Arqumentdə *yalnız* nəzərdən keçirilən faktorun yaxın səbəb funksiyasını icra etməsi səbəbindən onun nəticənin meydana çıxmasına gətirib çıxaran səbəbiyyət zəncirində *cüzi* əhəmiyyət daşımasının və ya heç bir əhəmiyyət daşımamasının güman edilməsi yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlamaq adlı məntiqi xətanın yaranmasına yol açmır. Belə ki, arqumentdə nəzərdən keçirilən faktorun yaxın səbəb funksiyasını icra etməsi səbəbindən onun nəticənin meydana çıxmasına gətirib çıxaran səbəbiyyət zəncirində rolunun həddindən artıq *şişirdilməsi* də

adı qeyd edilən məntiqi xətaya yol açır. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 3**. *Təyin etdiyi yanlış müalicə nəticəsində insan sağlamlığına ciddi zərər vurmaqda təqsirləndirilən həkim özünü belə müdafiə edir*: "Ürək-damar sistemində yaranan problemlər səbəbindən mənə müraciət edən xəstədə müraciətdən daha əvvəl də digər yanaşı xəstəliyin – ciddi psixatrik xəstəlik olan şizofreniyanın bəzi simptomları müşahidə edilirdi. Ürək-damar sisteminin müalicəsi üçün qəbul edilən dərmanlar sadəcə olaraq onun psixi vəziyyətini daha da ağırlaşdırmışdır."

Nəzərdən keçirilən bu nümunədə şübhəsiz ki, qəbul edilən dərmanlar xəstənin psixi vəziyyətinin ağırlaşmasının ən yaxın səbəbi kimi çıxış edir, amma yazdığı dərmanların psixi xəstəlikdən əziyyət çəkən insana göstərə biləcək yan təsirləri nəzərə almayan həkimin özü də xəstənin psixi durumunun ağırlaşmağına gətirib çıxaran səbəbiyyət zəncirində mühüm rol oynayır. Ona görə də bu qəbildən olan situasiyalarda dərmanın insan psixikasına göstərdiyi zərərli təsirin rolunu həddindən artıq şişirdərək həkimi heç olmazsa əxlaqi məsuliyyətdən azad etmək məntiqi cəhətdən yolverilməzdir.

Yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlama xətasına yol verən arqumentlərə gündəlik həyatda tez-tez rast gəlmək mümkündür. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

| |
|---|
| **Nümunə 4**. *İmtahanda zəif bal almış tələbə imtahanın nəticələrini yoxlamış müəllimdən belə şikayət edir*: "Mənim imtahandan aşağı bal almağımda mənim imtahan vərəqlərimi yoxlamış olan müəllim təqsirkardır, çünki o, mənim yazdıqlarımı aşağı bal ilə qiymətləndirib." |

Nəzərdən keçirdiyimiz bu nümunədə müəllimin imtahanın nəticəsini yoxlayıb onu aşağı balla qiymətləndirməyi tələbənin aşağı bal almasına aparıb çıxaran səbəbiyyət zəncirində yaxın səbəb kimi çıxış edir; bu səbəbiyyət zəncirinin uzaq və aralıq səbəbləri müvafiq olaraq tələbənin imtahana zəif hazırlaşması və imtahan suallarını əhatəli şəkildə düzgün cavablandıra bilməməsidir.

# Mövzu 33. Qapi dirəklərinin yerini dəyişdirmə

Analiz edəcəyimiz bu qeyri-formal məntiqi xəta öz adını qapı dirəklərinin də öz əksini tapdığı idman növlərindən götürür. Məsələn, belə idman növlərindən ən məşhuru olan futbolda mövcud olan qaydalara əsasən qapılar oyun meydanında qapı xəttinin üzərində tam ortada olmaqla qurulur. Qapı dirəkləri formaca dördkünc, dairəvi, ellipsvari ola bilər. Bu iki dirək arasındakı məsafə (qapı eni) 7 metr 32 santimetr (8 yard), üst dirəklə ot örtüyü arasındakı məsafə isə (qapı hündürlüyü) 2 metr 44 santimetr (8 fut) olmalıdır. Qapını təşkil edən bu dirəklərin hamısı olçü və formaca bir-biri ilə eynilik təşkil etməli və qalınlığı 12 santimetri (5 düym) keçməməlidir. Toru saxlamaq üçün qapı arxasında bərkidilmiş əlavə dirəklərin forması və ölçüləri, eləcə də digər parametrləri hər hansı konkret meyara tabe olmayaraq sərbəst şəkildə qurula bilər. Amma burada torun olması zəruridir və o, bütün tərəflərdən dirək, tir və zəmi səthinə elə bərkidilməlidir ki, qapıya daxil olan top hər hansı bir dəlikdən çıxa bilməsin. Əgər oyunun gedişində qapı dirəkləri sıradan çıxarsa, onlar bərpa edilənə, yaxud yenidən quraşdırılana kimi oyun saxlanılmalıdır. Əgər onların bərpa edilməsi mümkün deyilsə, oyun dayandırılmalıdır. Beləliklə, qapı dirəkləri ilə bağlı olan tələblər futbol oyunu zamanı ciddi şəkildə nəzərə alınır və bu tələblərdən hər hansı birinin ödənilməməsi oyun zamanı yolverilməzdir. Amma qapı

dirəklərinin adı ilə assosiasiya olunan məntiqi xətada prosesin və ya yarışın gedişatında onun qiymətləndirilməsi meyarının ("qapının") elə şəkildə dəyişdirilməsi nəzərdə tutulur ki, yeni meyar tərəflərdən biri üçün üstünlük və ya çətin vəziyyət vəd edir. Beləliklə, qapı dirəklərinin yerini dəyişdirmə xətasına yol verən arqument aşağıdakı struktura malikdir:

$A_1$. Nəzərdə tutulan nəticənin qiymətləndirilməsi üçün $A_2$-dən təyin edilmiş meyara əməl edilməsini tələb edir.

$A_2$. $A_1$ tərəfindən təyin edilmiş meyara əməl edir.

$A_1$. Nəzərdə tutulan nəticənin qiymətləndirilməsi zaman $A_2$-nin təyin edilmiş meyara əməl etməsini nəzərə almaq əvəzinə təyin edilmiş yeni meyar əsasında onun qarşısına yeni (onun rəqibi üçün üstünlük və ya onun üçün çətin vəziyyət vəd edən) şərtlər irəli sürür.




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

> **Nümunə**: *Təkamül nəzəriyyəsinin doğru olub olmaması ətrafında gedən mübahisə zamanı tərəflər arasında aşağıdakı dialoq meydana çıxır*:
> "$A_1$. Paleontoloqlar[1] sübut edir ki, X fosili A ilə B kladları[2] arasında aralıq növlərin (keçid formanın) olduğunu göstərir.
> $A_2$. Amma A ilə C, eləcə də C ilə B kladları arasında aralıq növlərin (keçid formanın) olduğunu göstərən kifayət qədər sübut(lar) mövcud deyil.

[1] Paleontologiya tapılmış bitki və heyvan qalıqları əsasında onların xarici görünüşünün bərpa olunması, bioloji xüsusiyyətlərini, qidalanma tərzini, çoxalmasını, bu məlumatlar əsasında bioloji təkamülün gedişatını və s. öyrənən elm sahəsidir.

[2] Klad təkamül biologiyasında ümumi əcdadı və birbaşa olaraq ondan törəyən nəsilləri özündə birləşdirən qrupdur.

$A_1$. Paleontoloqlar həm də sübut edirlər ki, Y fosili A ilə C, eləcə də Z fosili C ilə B kladları arasında aralıq növlərin (keçid formanın) olduğunu göstərir.
$A_2$. Amma A ilə D, eləcə də D ilə C kladları arasında aralıq növlərin (keçid formanın) olduğunu göstərən kifayət qədər sübut(lar) mövcud deyil. Eyni şəkildə C ilə D, eləcə də D ilə B kladları arasında aralıq növlərin (keçid formanın) olduğunu göstərən kifayət qədər sübut(lar) mövcud deyil."

Nəzərdən keçirilən nümunədə $A_2$-in arqumenti qəbul etmək üçün $A_1$ tərəfindən irəli sürülən bütün şərtləri ödəməsinə baxmayaraq, hər növbəti mərhələdə $A_2$ arqumenti qəbul etmək üçün irəli sürdüyü əvvəlki şərtləri dəyişərək yeni ($A_1$ üçün ödənilməsi daha çətin) şərtlər irəli sürür. Bu nümunədə diqqət yetirdiyimiz məqam təkamül biologiyası çərçivəsində irəli sürülən arqumentin düzgün və ya qeyri-düzgün olması deyil, arqumentasiya prosesinin gedişində onun düzgünlüyünü qiymətləndirmək üçün irəli sürülən şərtin (və ya təyin edilən meyarın) daimi olaraq əvəzlənməsinin, hər dəfə yeni şərtin irəli sürülməsinin (və ya yeni meyarın təyin edilməsinin) məntiqi cəhətdən yolverilməz olmasıdır.

# Mövzu 34. Sirli, ona görə də sehirli

*Sirli, ona görə də sehirli* məntiqi xətası nə zaman yaranır? Əgər arqumenti irəli sürən insan hər hansı hadisə və ya fenomeni təbii və ya rasional şəkildə izah edə bilmədiyindən onun sehirli və ya fantastik şəkildə izahına müraciət edirsə, o, arqumentdə sirli, ona görə də sehirli məntiqi xətasına yol verir. Beləliklə, bu qəbildən olan xətanı özündə ehtiva edən arqument aşağıdakı struktura malikdir:




Belə xətaya yol verən arqument açıq və ya gizli şəkildə "Bunu başqa şəkildə necə izah edə bilərsən ki?" ritorik sualı əsasında qurulur. Məsələn, insan izah edə bilmədiyi səsləri ruhlarla

əlaqələndirə bilər. Bəzi insanlar tərəfindən Misir ehramlarının necə tikilməsinə dair irəli sürülən arqumentləri də bu qəbildən olan arqumentlər kimi qiymətləndirmək mümkündür. Belə ki, məlum olan faktlara əsasən Misir ehramları hər biri 20 ton ağırlığında olan müxtəlif qaya parçalarından tikilmişdir ki, bu qaya parçalarının yonulduğu karxanalar ehramların yerləşdiyi ərazidən 200 km uzaqlıqda yerləşirdi. Misir ehramlarının tikintisi ilə bağlı olan bu faktı, eləcə də təəccüb doğuran bir sıra digər faktları rasional şəkildə izah etmək hələ ki, mümkün deyildir. Ona görə də bəzi insanlar onların yadplanetlilər tərəfindən tikilməsini əsaslandırmağa çalışırlar. Amma yalnız başqa şəkildə rasional izahının mümkün olmaması səbəbindən bu qəbildən olan arqumentlərin qurulması məntiqi cəhətdən adətən yolverilməz hesab edilir. Onlara daha bir nümunə qismində bəzi insanlar tərəfindən müşahidə edilən, amma hələ də rasional şəkildə izahı qeyri-mümkün hesab edilən naməlum uçan obyektlərin yadplanetlilərə məxsus hava gəmiləri ilə əlaqələndirilməsi çıxış edə bilər.

Sirli, ona görə də sehirli məntiq xətasına dini ictimai şüur formasında tez-tez rast gəlmək mümkündür. Məsələn, mövcud olan şeyin mövcud olma səbəbini və ya mexanizmini rasional şəkildə izah etmək qeyri-mümkün olarkən dini şüurda bu adətən Tanrının yaradılışı və ya müdaxiləsi ilə əlaqələndirilir. Məlumdur ki, əgər orta əsrlərdə yer üzündə kütləvi insan ölümünə səbəb olan pandemiyalar yayılardısa və onların nə

yaranma səbəbləri, nə də aradan qaldırılması yolları məlum olardısa, onda bu təbii hadisələr adətən edilən günahlara görə Tanrı tərəfindən insanlara göndərilən cəza kimi izah edilərdi. Amma qeyd etdiyimiz kimi, *yalnız başqa şəkildə rasional izahının qeyri-mümkün olması səbəbindən* bu qəbildən olan arqumentlərin qurulması məntiqi cəhətdən adətən yolverilməz hesab edilir.

Sirli, ona görə də sehirli adlı məntiqi xətanı özündə ehtiva edən arqumentlərdə müraciət edilən sehirli və ya fantastik izahatın özü də qeyri-müəyyəndir. Belə ki, bu izahatlardan hər biri faktiki olaraq yalnız nəzərdə tutulan kontekstdə "izahat" funksiyasını icra edə bilər. Məsələn, bir qədər əvvəl nəzərdən keçirdiyimiz nümunəyə uyğun olaraq, fərz edək ki, nisbətən uzaq gələcəkdə yer üzündə kovid-49 virusu sürətlə yayılaraq kütləvi insan ölümünə səbəb olur və onun nə yaranma, nə də aradan qaldırılması yolları məlumdur. Əgər təkcə bu qeyd edilənlərə əsaslanıb kovid-49-un edilən günahlara görə Tanrı tərəfindən insanlara göndərilən cəza olması nəticəsini çıxarmaq mümkün olarsa, onda eyni məntiqi əsasla konspriloji "ehtimallara" uyğun olaraq onun bir qrup insan tərəfindən xüsusi təşkil edilmiş laboratoriyada hazırlanaraq insanların sayını azaltmaq üçün məqsədli şəkildə yayılması nəticəsinə də gəlmək mümkündür. Eyni şəkildə, mümkün növbəti alternativ "izahat" kovid-49-un yadplanetlilər tərəfindən insanlalr arasında yayılmasıdır; bununla onlar müxtəlif siyasi-iqtisadi ziddiyyətlər arasında

çıxılmaz vəziyyətə düşmüş və bütün planeti məhv edə biləcək qlobal hərbi müharibəyə hazırlaşan insanların diqqətini özlərinə yönəltmək, bu yolla onların sağ qalmaq üçün bir-birləri ilə deyil, birləşərək amansız virusa qarşı birlikdə mübarizə aparmasına nail olmaq istəyirlər. Bu istiqamətdə rasional şəkildə izahı hələ ki, mümkün olmayan hadisənin eyni məntiqi əsasla daha bir neçə fantastik "izahatını" təklif etmək mümkündür.

Digər tərəfdən insanların gündəlik həyat təcrübəsi ilk baxışda hətta sehirli təsir bağışlayan bir sıra hadisələrin, məsələn, sehirbazların iştirakı ilə nümayiş etdirilən müxtəlif tamaşaların arxasında əslində heç bir sehirli fenomenin olmaması nəticəsini çıxarmağa imkan verir: bu qəbildən olan bütün hadisələrin rasional izahı prinsipcə mümkündür, amma sehirbazların məharətlə icra etdikləri gözbağlayıcı fəndlər bu hadisələrin real mexanizminin tamaşanı izləyən insanlar tərəfindən müşahidə edilməsinə mane olur. Nəticə etibarilə bu qəbildən olan hadisələr özündə sanki sirli olan hansısa fenomeni ehtiva etmiş kimi görünür. Amma bəzən sehirbazların özləri tərəfindən belə hadisələrin arxasında dayanan fəaliyyət mexanizminin izah edilməsi zamanı onların rasional yolla necə sadə şəkildə izah edilməsinin mümkünlüyü aydınlaşır. Ona görə də sehirbazların iştirakı ilə baş tutan müxtəlif tamaşalar zamanı bizim qazandığımız təcrübə ilk baxışda sanki sirli olan hansısa fenomeni ehtiva edirmiş kimi görünən başqa qəbildən olan "sehirli" hadisələrin də prinsipcə rasional yolla izahatının

mümkünlüyünü ehtimal etməyə imkan verir. Belə ki, onların rasional yolla izah edilməsinin hələ mümkün olmaması onların arxasında hər hansı bir sehirli fenomenin var olmasından daha çox bizim onların məzmunu barəsində məlumatsız olmağımız ilə bağlıdır.

Sirli, ona görə də sehirli xətası məzmun etibarilə "məlumatsızlığa müraciət" (*Argumentum ad İgnorantiam)* adlı qeyri-formal məntiqi xəta ilə oxşardır. Əgər irəli sürülən fikrin yalan olmasının sübut edilə bilinməməsi səbəbindən onun doğru və ya əksinə, doğru olmasının sübut edilə bilinməməsi səbəbindən onun yalan olmasına dair nəticə çıxarılarsa, onda arqument *məlumatsızlığa müraciət* məntiqi xətasına yol verər. *Sirli, ona görə də sehirli* xətasına yol verən arqumentdə isə rasional izahın var olmasına dair sübutun təqdim edilə bilinməməsi səbəbindən belə izahın ümumiyyətlə, mövcud olmamasına dair yanlış nəticə çıxarılır.

***Vacib qeyd:***

*Argumentum ad İgnorantiam* həmişə məntiq xəta yaratmır. Bəzi məntiqçilərin fikrincə, "neqativ sübut" adlanan hallarda ondan istifadə məntiqi xətaya yol açmır. Neqativ sübutda hər hansı bir şeyin mövcud olmasına dair sübutun və ya məlumatın olmaması onun inkar edilməsi üçün əsas yaradır. Bəs bu qeyd edilənləri sirli, ona görə də sehirli məntiq xətasına da aid edə bilərikmi?

Sirli, ona görə də sehirli məntiq xətası yalnız arqument "Bunu başqa şəkildə necə izah edə bilərsən ki?" ritorik sualı əsasında qurularkən meydana çıxır. Başqa sözlə, əgər hər hansı hadisənin və ya fenomenin izahında tanrı, yadplanetli, konsprilogiya və bu qəbildən olan digər anlayışlar ilə bağlı izahatlara yalnız başqa şəkildə rasional izahının qeyri-mümkün olması səbəbindən müraciət edilərsə, onda bu məntiqi cəhətdən yolverilməz sayılar. Amma bu kimi anlayışlar əsasında rasional şəkildə əsaslandırılmış alternativ izahatların təqdim edilməsi prinsipcə məntiqi cəhətdən mümkündür.

# Mövzu 35. Naturalist xəta

"Naturalist xəta" anlayışı ilk dəfə analitik fəlsəfənin əsasını qoyan filosoflardan biri hesab edilən ingilis filosofu Corc Edvard Mur (1873-1958) tərəfindən yazılmış "Etikanın prinsipləri" (1903) kitabında öz əksini tapmışdır. Onun fikrincə, yaxşı olan bütün obyektlər həm də hansısa *digər* xassəyə malikdir. Etika bütün yaxşı obyektlərin malik olduğu belə digər xassələri müəyyənləşdirməyə çalışır. Amma bir çox filosoflar belə hesab edir ki, obyektin digər xassələri nəzərdə tutulan zaman əslində onun yaxşı xassəsi təyin edilir. Başqa sözlə, bu xassələr əslində yaxşı xassəsindən fərqli olan "digər" xassə deyil; onlar mütləq və tam şəkildə yaxşılıq ilə eyniyyət təşkil edir. Bu isə *naturalist xətaya* yol açır. İnsan iki təbii (natural) obyektdən birini digəri ilə təyin edərək onları dəyişik salarkən bunu naturalsit xəta adlandırmaq üçün heç bir əsas mövcud deyildir. Amma əgər o, qeyd etdiyimiz kontekstdə təbii obyekt hesab edilməyən "yaxşı"nı hər hansı təbii obyekt ilə dəyişik salarsa, onda bunu naturalist xəta adlandırmaq üçün əsas mövcuddur.

C.Murun yuxarıda nəzərdən keçirdiyimiz fikirlərindən çıxan nəticəyə əsasən qeyd etmək olar ki, təbii xassələr (məsələn, həzz) məntiqi və/ və ya metafizik cəhətdən normativ və ya əxlaqi xassələrdən (məsələn, yaxşılıqdan) fərqlənir və beləliklə, təbii və normativ xassələrin eyniləşdirilməsi məntiqi cəhətdən

yolverilməzdir. Onun fikrincə, yaxşılıq sadə, hər hansı anlayış vasitəsilə tərif verilməsi qeyri-mümkün və qeyri-təbii xassədir. Amma yaxşılığın qeyri-təbii hesab edilməsi onun fövqəltəbii və ya ilahi mənşəli olması demək deyil. Bu o deməkdir ki, yaxşılıq ehtiyac, istək və ya həzz kimi təbii xassələrə müncər edilə bilməz. Bu həm də o deməkdir ki, "yaxşı" anlayışının ehtiva edildiyi mülahizəni bu anlayışın ehtiva edilmədiyi digər mülahizə vasitəsilə tam şəkildə izah etmək qeyri-mümkündür. Belə ki, mülahizədə "yaxşı" anlayışını ehtiyac, istək və ya həzzi bildirən digər anlayışla əvəzləmək olmaz. Bəzi xassələr, məsələn, "sərt", "dairəvi" və ya "rütubətli" təbii xassələr olduğundan onları real dünyada müşahidə etmək və qavramaq mümkündür. Amma bəzi xassələr, məsələn, "yaxşı" və ya "düzgün" qeyri-təbii xassələrdir. Məsələn, yaxşı məntiq kitabı yaxşı obyekt hesab edilir və burada "yaxşı" məntiq kitabının xassəsi kimi çıxış edir. Maddi cəhətdən ehtiyac içərisində yaşayan insana maddi cəhətdən yardım etmək ümumi kontekstdə düzgün hərəkət hesab edilir və burada "düzgün" insan hərəkətinin xassəsi olaraq çıxış edir. Lakin təbii xassələrdən fərqli olaraq qeyri-təbii xassələrin, məsələn, məntiq kitabının yaxşılığını və ya insan hərəkətinin düzgünlüyünü real dünyada müşahidə etməyin və ya ölçməyin necə mümkün olması qeyri-müəyyəndir. Əgər bu qeyd edilən fikirlərdən çıxış etsək, onda nəyin yaxşı, nəyin isə pis olduğunu necə təyin etmək olar? Ümumiyyətlə, yaxşını pisdən necə fərqləndirmək olar? C.Mur və onun fikrini davam etdirən digər

epistemoloqların fikrincə, insanda ona nəyin yaxşı, nəyin isə pis olduğunu və ya nəyin düzgün, nəyin isə yanlış olduğunu müəyyənləşdirməyə imkan verən əxlaqi intuisiya qabiliyyəti mövcuddur. Epistemologiya ilə əxlaqın kəsişmə sahəsində yerləşən əxlaqi epistemologiyada *etik intuisionalizm* adlanan bu yanaşmaya əsasən əgər biz doğru insan və ya düzgün hərəkət müşahidə edəriksə və bizim əxlaqi intuisiyamız kifayət qədər inkişaf etmiş və ya zədələnməmiş olarsa, onda biz sadəcə olaraq insanın doğru insan olduğunu və ya hərəkətin düzgün hərəkət olduğunu intuitiv olaraq dərk edirik (və ya sezirik). Əxlaqi intuisiyanın digər qabiliyyətlərdən, məsələn, hissi qavrayışdan fərqlənən psixi proses olduğu güman edilir və əxlaqi mühakimələr bu prosesin məntiqi nəticəsi olaraq meydana çıxır. Beləliklə, biz hansısa insanın doğru və ya hərəkətin düzgün olduğuna dair əxlaqi mühakimə irəli sürərkən əxlaqi intuisiya qabiliyyətimizdən istifadə etmiş oluruq. "Əxlaqi intuisiya" anlayışının məzmununu təxmini şəkildə ifadə edən digər anlayış isə "vicdan" anlayışıdır. Beləliklə, naturalist xəta kontekstinin də nəzərdən keçirildiyi *etik qeyri-naturalizm* adlandırılan meta-etikaya görə:

1. Etik cümlələr mülahizə ifadə edir.
2. Bəzi belə mülahizələr doğrudur.
3. Bu mülahizələrin doğru olması subyektiv insan rəyindən (qiymətləndirməsindən) asılı deyil və dünyanın obyektiv xassələri ilə təyin edilir.

4. Dünyanın bu əxlaqi xassələri hər hansı qeyri-əxlaqi xassələr çoxluğuna müncər edilə bilməz.

Naturalist xətaya yol verən arqumentlər aşağıdakı struktura malikdir:




***Vacib qeyd:***

Naturalist xəta ilə *təbiətə müraciət* xətasını qarışdırmaq olmaz. Sonuncu xətanın əsasında "Əgər hər hansı bir şey təbiidirsə, onda o, yaxşıdır" və ya "Əgər hər hansı bir şey qeyri-təbiidirsə, onda o, pisdir" fikri dayanır. Təbiətə müraciət məntiqi xətasına qida, geyim, alternativ müalicə vasitələri və bu qəbildən olan digər şeylərin reklamında tez-tez rast gəlmək mümkündür. Amma təklif edilən məhsulun təbii olmasından onun effektiv və

ya təhlükəsiz olması nəticəsi doğmur. Məsələn, insan həyatı və sağlamlığı üçün təhlükəli olan zəhərlərin bir çoxu təbiətdə rast gəlinən birləşmələrdən ibarətdir. Eyni şəkildə təklif edilən məhsulun qeyri-təbii olmasından onun qeyri-effektiv və ya təhlükəli olması nəticəsi doğmur. Məsələn, insan orqanizminin xüsusi infeksion xəstəliklərə qarşı immunitetini gücləndirən vaksinlər laboratoriyada hazırlansa da, bir neçə mərhələli sınaq müddətini uğurla keçərək beynəlxalq səhiyyə təşkilat(lar)ı tərəfindən təstiqlənəndən sonra nəzərdə tutulan xəstəliklərə qarşı effektiv və insan orqanizmi üçün təhlükəsiz hesab edilir.

# Mövzu 36. Su quyusunu zəhərləmə

*Su quyusunu zəhərləmə xətası* daha əvvəl analiz etdiyimiz şəxsin əleyhinə yönəlmə (A*rgumentum ad Hominem)* xətasının bir növü kimi də çıxış edə bilər. Qeyd etdiyimiz kimi, *Argumentum ad Hominem* xətasının meydana çıxdığı arqument həmişə iki insan arasında baş verir. Onlardan biri birbaşa və ya dolayı yolla hər hansı bir arqument irəli sürür və digər insan diqqətini birinci insan tərəfindən irəli sürülmüş arqumentə deyil, birinci insanın *özünə* yönəldərək cavab verir. Bu zaman ikinci insan *şəxsin əleyhinə yönəlmə* xətasına yol vermiş olur. Amma A*rgumentum ad Hominem* xətasının analiz etdiyimiz digər növlərindən fərqli olaraq *su quyusunu zəhərləmə* xətasında ikinci insan birinci insanın özünü və ya özünün nəzər nöqtəsini müdafiə etmək üçün arqument irəli sürməyə imkan tapmamış bu arqumentin yönələcəyi auditoriyanı onun əleyhinə yönəldən qabaqlayıcı əks informasiya ilə təmin edir. Bu zaman elə məkrli konseptual çərçivə yaranır ki, buna uyğun olaraq auditoriya, hətta bəzən arqumenti irəli sürməyə hazırlaşan birinci insanın özü də arqument vasitəsilə konseptual tələdə ehtiva edilən gümanları "tamamlayır" və ya "təstiq edir". "Su quyusunu zəhərləmə" anlayışı ilk dəfə ingilis teoloqu *Con Henri Nyumen* (1801-1890)

tərəfindən istifadə edilmişdir.[1] Nəzərdən keçirdiyimiz məntiqi xətanın öz adını qədim müharibə strategiyasından götürməsi ehtimal edilir: işğalçı ordu gəlməzdən əvvəl təmiz su mənbələri zəhərlənir, bununla işğalçı ordunun hərbi gücünü və döyüş qabiliyyətini zəiflətməyə çalışırdılar. Digər bir ehtimala əsasən isə bu ad orta əsrlərdə Avropada xristianların istifadə etdikləri su quyuları və digər təmiz su mənbələrinin yəhudilər tərəfindən gizlicə zəhərlənməsinə dair həmin dövrdə geniş yayılmış qorxunc mif ilə bağlıdır. Belə ki, əgər şəhərdə (doğru və ya yalan olmağından asılı olmayaraq) epidemiya və ya vəba xəstəliyi yayılırdısa, onda şəhər sakinləri arasında yəhudilərə qarşı daha az dözümlü və onların şəhərdən qovulmasında daha çox maraqlı olanlar orada yuxarıda qeyd edilən məzmunda şayiələr yaymağa başlayırdı. Belə absurd "arqumentlər" özü-özünü təstiqləyən, *post hoc*[2] "izahat" olaraq yəhudilərin əleyhinə yönələn, müxtəlif zoraıkılıq aktları ilə müşayiət edilən anti-semitizm təbliğatının əsaslandırılmasında istifadə edilirdi.

Su quyusunu zəhərləmə xətasına malik olan arqumentlər aşağıdakı struktura malikdir:

---

[1] John Henry Newman. *Apologia Pro Via Sua (A Defense of One's Life).* Dover Giant Thrift Editions, 2005.

[2] *Post hoc ergo propter hoc* latın dilindən tərcümədə "bundan sonra, ona görə bu səbəbdən" deməkdir. Qıısa məzmunu belədir: "Bir halda ki, Y hadisəsi X hadisəsindən sonra baş verib, deməli, Y hadisəsi X hadisəsi səbəbindən baş vermiş olmalıdır."

$M$. Nəzər-nöqtəsini irəli sürməyə (və ya müdafiə etməyə) hazırlaşan insan barəsində başqası tərəfindən onun əleyhinə yönəlmiş (doğru və ya yalan olmağından asılı olmayaraq) informasiya auditoriyaya təqdim edilir.

$N$. Bu insanın nəzər-nöqtəsi və ya onu müdafiə etmək üçün irəli sürdüyü mülahizələr yalandır.




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə**: *Avropa Şurasının "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Konvensiyasının qəbul edilməsinin zəruriliyini əsaslandırmağa hazırlaşan qadının opponenti onun çıxışından daha əvvəl auditoriyaya belə müraciət edir*:

| |
|---|
| “Mənim opponentimin qeyd edilən edilən konvensiyanı müdafiə edəcək fikirləri ilə tanış olmazdan əvvəl qısaca olaraq qeyd edim ki, o, üç dəfə rəsmi nikahda olub və indi də dördüncü insan ilə qeyri-rəsmi nikah münasibətləri qurmuşdur.” |

Nəzərdən keçirdiyimiz nümunədə Avropa Şurası tərəfindən 2011-ci ildə qəbul edilən və imzalandığı şəhərin adı ilə “İstanbul” Konvensiyası kimi tanınan "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Konvensiyasının əsas müddəalarının müzakirəsindən diqqəti yayındırmaq məqsədi ilə konvensiyaya qarşı olan ikinci insan  konvensiyanı müdafiə edəcək birinci insanın əleyhinə olan şəxsi məlumatları auditoriyaya çatdırır. Beləliklə, o, auditoriyanın qavrayışında konvensiyanı müdafiə edən insanın şəxsiyyətinə dair mənfi obraz formalaşdırmaqla onların məhz bu səbəbdən konvensiyanı qəbul etməməsinə çalışır ki, məntiqi cəhətdən bu, su quyusunu zəhərləmə xətasına yol açmaqla yolverilməz hesab edilir. Qadınlara qarşı şiddət əleyhinə mübarizə üçün hərtərəfli hüquqi baza və yanaşma yaradan ilk məcburi qanuni vasitə hesab edilən “İstanbul” Konvensiyasını hər insan qəbul və ya təkzib edə bilər, amma istənilən halda bu seçimin əsasında duran arqument onu müdafiə edən və ya onun əleyhinə çıxan insanın şəxsiyyəti ilə bilavasitə bağlı olmamalıdır.

# Mövzu 37. Həddindən artıq çox şeyi sübutetmə

*Həddindən artıq çox şeyi sübutetmə* xətası nə zaman yaranır? Əgər yalan və ya ziddiyyətli nəticənin də çıxarılması üçün arqumentdən istifadə edilə bilərsə, onda arqument özündə həddindən artıq çox şeyi sübutetmə xətasını ehtiva etmiş olar. Bu məntiqi xətaya yol verən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, din fəlsəfəsində məntiqi arqument vasitəsilə Tanrının mövcudluğunu sübut etmək üçün orta əsr xristian teoloqu və filosofu Anselm Kenterberili (1033-1109) tərəfindən “Tanrının

mövcudluğuna dair ontoloji arqument"in timsalında bu məntiqi xətanı nəzərdən keçirək[1]:

Anselm tərəfindən irəli sürülən bu arqumenti aşağıdakı şəkildə ifadə etmək mümkündür:

$M_1$. Tanrı idrakda mümkün olan ən böyük varlıqdır.

$M_2$. Həm reallıqda, həm də idrakda mövcud olmaq yalnız idrakda mövcud olmaq ilə müqayisədə daha böyükdür.

$M_3$. Əgər Tanrı yalnız idrakda mövcuddursa, onda Tanrıya nisbətən daha böyük – Tanrının bütün atributlarını özündə daşıyan, amma həm də reallıqda mövcud olan digər varlığı təsəvvür etmək mümkündür.

$M_4$. Amma mümkün olan ən böyük varlıqdan daha böyük digər varlığı təsəvvür etmək qeyri-mümkündür.

$M_5$. Tanrının yalnız idrakda mövcud olması qeyri-mümkündür.

$M_6$. Tanrı həm reallıqda, həm də idrakda mövcuddur.

$N$. Tanrı mövcuddur.

Bu arqument məzmun etibarilə nəyi ifadə edir? Bu suala cavab vermək üçün əvvəlcə aşağıdakı fəlsəfi problemə diqqət yetirək:

---

[1] Fəlsəfə tarixində Tanrının mövcudluğunu teologiyaya müraciət etmədən məntiqi yolla isbat etməyə cəhd edən bir sıra mühüm arqumentlər ilə tanış olmaq üçün baxın: Emin İmanlı. *Tanrı. Fəlsəfi arqumentlər.* Bakı: "Aqora" nəşriyyatı, 2022.

a) İdrakda mümkün olan ən böyük varlıq
b) Mövcudluq və qeyri-mövcudluq
c) Potensial genişlik

*(a) İdrakda mümkün olan ən böyük varlıq:*

İdrakda mümkün olan ən böyük varlıq yalnız Tanrı ola bilər, çünki biz Tanrını *hər şeyə qadir*, *hər şeyi bilən* və *ən xeyirxah varlıq* olaraq təsəvvür edirik. Məsələn, əgər insan Tanrıdan daha xeyirxah olan varlıq təsəvvür edə bilərsə, onda o, əslində Tanrını təsəvvür etməmişdir, çünki Tanrının yuxarıda qeyd edilən atributları arasında "ən xeyirxah" atributu mövcuddur və ən xeyirxahdan daha xeyirxah olmaq qeyri-mümkündür. Eyni şəkildə, əgər insan Tanrıdan daha güclü olan və daha yaxşı bilən varlıq təsəvvür edirsə, o, əslində Tanrını təsəvvür etməmişdir, çünki hər şeyə qadir olandan və hər şeyi biləndən daha güclü olmaq və daha yaxşı bilmək qeyri-mümkündür. Beləliklə, Tanrının "hər şeyə qadir", "hər şeyi bilən" və "ən xeyirxah" kimi atributları müvafiq kontekstlərdə maksimal hədləri bildirir.

*(b) Mövcudluq və qeyri-mövcudluq:*

Nəzərdən keçirdiyimiz kontekstdə varlıqları yerə bölmək olar: (1) *idrakda mövcud olan varlıqlar*, (2) *reallıqda mövcud olan varlıqlar*. Əgər birinci anlayışı A, ikinci anlayışı B ilə işarə etsək, onda bu anlayışlar arasındakı qarşılıqlı əlaqəni kəsişən Eyler diaqramları vasitəsilə aşağıdakı şəkildə göstərmək mümkündür:




Eyler diaqramları vasitəsilə A ilə B-nin həcm etibarilə müqayisəsi zamanı göründüyü kimi A ilə B arasında *kəsişmə* sahəsi mövcuddur. Bunu nəzərə alaraq, yalnız A-ya, yalnız B-yə, A ilə B-nin kəsişmə sahəsinə daxil olan aşağıdakı nümunələri qeyd edə bilərik:

1. B-dən kənarda yalnız A-ya daxil olanlar: məsələn, Şaxta baba, Təpəgöz, su pərisi, Məlikməmməd, Şerlok Holms və s. Bu varlıqların hamısı yalnız idrakda mövcuddur və reallıqda mövcud deyil.
2. A-dann kənarda yalnız B-yə daxil olanlar: məsələn, müşahidə edilməyən ulduzlar sistemi. Məlum olduğu kimi, kainatın məkan ölçüləri tam məlum olmasa da, kainatın diametrinin 23 trilyon işıq ilinə bərabər olduğu güman edilir. Amma müşahidə edilən kainatın diametri cəmi 93 milyard işıq ilinə bərabərdir. Ona görə də

kainatın bu gün müşahidə edilməsi mümkün olan hissəsindən kənarda müşahidə edilməsi qeyri-mümkün olan ulduzların olması heç bir şübhə doğurmur, lakin müşahidə edilmədiyindən və ya digər hər hansı bir vasitə ilə öyrənilməsi mümkün olmadığından onlar yalnız reallıqda mövcuddur və idrakda mövcud deyildir.

3. A ilə B-nin kəsişmə sahəsinə daxil olanlar: məsələn, "Qeyri-formal məntiq" kitabı, bu kitabının müəllifi, bu kitabın oxucuları və s. Bu varlıqların hamısı həm idrakda, həm də reallıqda mövcuddur.

*(c) Potensial genişlik:*

Əgər biz Təpəgöz obrazını xarakterizə etməli olsaq, onu qorxunc varlıq adlandırar və reallıqda heç bir zaman onunla qarşılaşmaq istəmədiyimizi qeyd edərik. Amma biz istənilən halda onun real olmadığını, türk mifologiyasında mifik təkgözlü nəhəng varlığı bildirdiyini bilirik və bu səbəbdən reallıqda belə varlıqla qarşılaşmaq qeyri-mümkündür. İndi gəlin fərz edək ki, Təpəgöz realdır və beləliklə, reallıqda onunla qarşılaşa bilmək ehtimalı mövcuddur. Bu səbəbdən həm reallıqda, həm də idrakda mövcud olan Təpəğözü xarakterizə etməli olsaydıq, onun çox qorxunc, gerçəkdən qorxunc olduğunu qeyd etmiş olardıq. Bütün bu qeyd edilənlər Şaxta baba obrazına nəzərən də doğrudur. Əgər biz Şaxta baba obrazını xarakterizə etməli olsaq, onu xeyirxah varlıq adlandırar və reallıqda hər zaman onunla qarşılaşmaq istədiyimizi qeyd edərik. Amma biz istənilən

halda onun real olmadığını, Yeni il bayramının əsas nağıl personajı olduğunu bilirik və bu səbəbdən reallıqda belə varlıqla qarşılaşmağın qeyri-mümkün olduğuna görə təəssüf edirik. İndi fərz edək ki, Şaxta baba realdır və beləliklə, Yeni il bayramı ərəfəsində onun bizə hədiyyə vermək ehtimalı mövcuddur. Bu səbəbdən həm reallıqda, həm də idrakda mövcud olan Şaxta babanı xarakterizə etməli olsaydıq, onun çox xeyirxah, gerçəkdən xeyirxah olduğunu qeyd etmiş olardıq.

İndi gəlin fərz edək ki, Tanrı yalnız idrakda mövcuddur və reallıqda mövcud deyildir, onda o, olduqca böyük varlıq olacaq, amma idrakda mümkün olan ən böyük varlıq, yəni hər şeyə qadir, hər şeyi bilən və ən xeyirxah varlıq olmayacaq. Tanrının idrakda mümkün olan ən böyük varlıq ola bilməsi üçün o, həm idrakda, həm də reallıqda mövcud olmalıdır. Başqa sözlə, Tanrı yalnız idrakda mövcud ola bilməz və o, həm də reallıqda mövcud olmalıdır. Əgər bunu yuxarıda qeyd etdiyimiz kəsişən Eyler diaqramları vasitəsilə ifadə etsək, onda Tanrının "idrakda mümkün olan ən böyük varlıq" anlayışını təyin edən diaqramı tam şəkildə əhatə etdiyini, ona görə də "reallıqda mövcud olan varlıq" anlayışını təyin edən diaqramı da kəsib keçərək onun tərkib hissəsi kimi çıxış etdiyini qeyd edə bilərik. Beləliklə, Tanrının idrakda mümkün olan ən böyük varlıq olmasından onun reallıqda mövcud olması fikri doğur.

İndi gəlin "Tanrının mövcudluğuna dair ontoloji arqument"in etibarlı olub olmadığını müəyyənləşdirək. Bunun üçün bir qədər

əvvəl nəzərdən keçirdiyimiz arqumenti rekonstruksiya edərək aşağıdakı şəkildə yenidən yaza bilərik:

$M_1$. Ya Tanrı yalnız idrakda mövcuddur, amma reallıqda mövcud deyildir, ya da Tanrı həm idrakda, həm də reallıqda mövcuddur.

$M_2$. Əgər Tanrı yalnız idrakda mövcuddursa, amma reallıqda mövcud deyilsə, onda biz Tanrıdan daha böyük varlıq təsəvvür edə bilərik.

$M_3$. Biz Tanrıdan daha böyük varlıq təsəvvür edə bilmərik.

$N$. Tanrı həm idrakda, həm də reallıqda mövcuddur.

Nəzərdən keçirdiyimiz bu arqumenti məntiqin simvolik dilinə belə tərcümə edə bilərik:

| |
|---|
| a = Tanrı yalnız idrakda mövcuddur, amma reallıqda mövcud deyildir.[1] |

[1] Biz burada daxili operatorlara diqqət yetirmirik, çünki onlar bütövlükdə arqumentin etibarlı olub olmamasının təyin edilməsinə təsir göstərmir. Amma əslində *"Tanrı yalnız idrakda mövcuddur, amma reallıqda mövcud deyildir*" mlüahizəsini konyunksiya şəklində nəzərdən keçirə bilərik. Burada "və" məntiqi operatoru vasitəsilə "*Tanrı yalnız idrakda mövcuddur"* ilə *"Tanrı reallıqda mövcud deyildir"* mülahizələri arasında məntiqi əlaqə qurulub. Yeri gəlmişkən qeyd edək ki, mülahizələr məntiqində *"Tanrı yalnız idrakda mövcuddur, amma reallıqda mövcud deyildir"* mülahizəsi məzmun etibarilə *"Tanrı yalnız idrakda mövcuddur və o, reallıqda mövcud deyildir"* mülahizəsi ilə eyniyyət təşkil edir və bu səbəbdən biz bir qədər əvvəl bu mülahizədə daxili operator olan "və" operatorunun adını qeyd etdik. Bütün

b = Tanrı həm idrakda, həm də reallıqda mövcuddur.
c = Biz Tanrıdan daha böyük varlıq təsəvvür edə bilərik.
~c = Biz Tanrıdan daha böyük varlıq təsəvvür edə bilmərik.

$M_1$. Ya Tanrı yalnız idrakda mövcuddur, amma reallıqda mövcud deyildir, ya da Tanrı həm idrakda, həm də reallıqda mövcuddur.
*Ya a-dır, ya da b-dir.*
a ∨ b

$M_2$. Əgər Tanrı yalnız idrakda mövcuddursa, amma reallıqda mövcud deyilsə, onda biz Tanrıdan daha böyük varlıq təsəvvür edə bilərik.
*Əgər a-dırsa, onda c-dir.*
a ⊃ c

$M_3$. Biz Tanrıdan daha böyük varlıq təsəvvür edə bilmərik.
*c deyil.*
~c

---

bu qeyd edilənlər *"Tanrı həm idrakda, həm də reallıqda mövcuddur"* mülahizəsi üçün də keçərlidir, çünki burada da əslində daxili operator vasitəsilə *"Tanrı idrakda mövcuddur"* ilə *"Tanrı reallıqda mövcuddur"* mülahizələri arasında məntiqi əlaqə qurularaq konyunksiya formalaşdırılıb.

| |
|---|
| $N$. Tanrı həm idrakda, həm də reallıqda mövcuddur.<br>*b-dir.*[1]<br>b |

Beləliklə, Anselm tərəfindən irəli sürülmüş "Tanrının mövcudluğuna dair ontoloji arqument" etibarlıdır. Amma bildiyimiz kimi, arqumentin etibarlı olmasından hələ onun həm də tutarlı olması nəticəsi çıxmır. Nəzərdən keçirdiyimiz bu arqumentin tutarlı olub olmadığını müəyyənləşdirmək üçün "Tanrı yalnız idrakda mövcuddur, amma reallıqda mövcud deyildir" mülahizəsinin məzmununa diqqət yetirmək lazımdır. Bu mülahizənin məzmununu belə şərh etmək mümkündür:

[1] Deduksiyada hipotetik sillogizmlərdən çıxarılan nəticəyə əsasən aşağıdakı aralıq mərhələləri də qeyd edə bilərik:

$M_4$. Əgər biz Tanrıdan daha böyük varlıq təsəvvür edə bilməriksə, onda doğru deyildir ki, Tanrı yalnız idrakda mövcuddur, amma reallıqda mövcud deyildir.

*Əgər c deyilsə, onda a deyil. (İmplikasiyada konsekventin yalan olmasından antesedentin də yalan olması nəticəsi doğur.)*

$\sim c \supset \sim a$

$M_5$. Doğru deyildir ki, Tanrı yalnız idrakda mövcuddur, amma reallıqda mövcud deyildir.

*a deyil (~a).*

$N$. Tanrı həm idrakda, həm də reallıqda mövcuddur.

*b-dir (b). (Dizyunksiyada dizyunktlardan birinin yalan olmasından digər dizyunktun doğru olması nəticəsi doğur.)*

Hipotetik sillogizmlər haqqında daha geniş oxumaq üçün baxın: Rauf İmranoğlu. *Məntiq*. Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2018, s. 217-225.

“Tanrı mövcuddur və o, idrakda mövcud olma atributuna malikdir, amma reallıqda mövcud olma atributuna malik deyildir.” Beləliklə, bunu nəzərə alaraq Anselmin arqumentini aşağıdakı şəkildə yenidən rekonstruksiya edə bilərik:

$M_1$. Tanrı mümkün olan ən böyük varlıqdır.

$M_2$. Hər hansı varlığın Tanrı olaraq təyin edilməsi üçün o, idrakda mümkün olan ən böyük varlıq olmalıdır.

$M_3$. Mümkün olan ən böyük varlıq onun ən böyük varlıq kimi təyin edilməsinə imkan verən mükəmməlliyə malik olmalıdır.

$M_4$. Mövcudluq varlığın mümkün olan ən böyük varlıq kimi təyin edilməsinə imkan verən mükəmməllik kimi qəbul edilməlidir.

$M_5$. Hər hansı bir varlığın Tanrı olaraq təyin edilməsi üçün o, mövcud olma atributuna malik olmalıdır.

$M_6$. Mövcud olma atributuna malik olan bütün varlıqlar mövcuddur.

$N$. Tanrı kimi təyin edilən varlıq mövcud olmalıdır.

Beləliklə, “yalnız idrakda mövcud olan, amma reallıqda mövcud olmayan Tanrı” ilə “həm idrakda, həm də reallıqda mövcud olan Tanrı” arasında yalnız bir fərq mövcuddur: birinci reallıqda mövcud olma atributuna malik deyil, amma ikinci bu atributa malikdir. Amma bəzi tanınmış qərb filosoflarının, məsələn,

İ.Kantın (1724-1804), B.Rasselin (1872-1970) fikrincə, mövcudluq heç bir varlığın atributu kimi çıxış edə bilməz. Belə ki, əgər varlıq hər hansı atributa malikdirsə, onda bu, həmin varlığın mövcud olması deməkdir və ya əksinə, əgər varlıq mövcuddursa, onda o, hər hansı atributa malikdir. Məsələn, "Tələbə əlaçıdır" o demək ki, "Tələbə mövcuddur" və ya əksinə, "Tələbə mövcuddur" o deməkdir ki, tələbəyə hər hansı atributa, indiki halda "əlaçı" atributuna malikdir. Buradan çıxış edərək nəzərdən keçirdiyimiz sonuncu arqumentdə $M_4$ -ün ("Mövcudluq varlığın mümkün olan ən böyük varlıq kimi təyin edilməsinə imkan verən mükəmməllik kimi qəbul edilməlidir" mülahizəsinin) doğru olmasını şübhə altına qoymaq mümkündür. Başqa sözlə, Tanrının bir qədər əvvəl nəzərdən keçirdiyimiz diaqramda B-dən kənarda yalnız A-ya daxil olması və A ilə B-nin kəsişmə sahəsinin yalnız mövcudluq atributunu bildirməsi qeyri-mümkündür. Beləliklə, bu yanaşmaya əsasən Anselm tərəfindən irəli sürülən arqumentin heç olmazsa bir müqəddiməsi doğru deyil və bu səbəbdən o, tutarlı, deməli, həm də düzgün arqument hesab oluna bilməz. Amma bu yanaşmanın özündə də müxtəlif suallar ehtiva edilir. Müəyyən atributa malik olan anlayış yalnız idrakda mövcud ola, amma reallıqda mövcud olmaya bilməzmi? Məsələn, "Şaxta baba" anlayışını götürsək, onun müəyyən atributlara malik olduğunu qeyd edə bilərik, amma bu onun reallıqda da mövcud olması demək deyildir. Beləliklə, reallıqda mövcud olmayan varlıqların da müəyyən atributlara malik olub olmaması fəlsəfədə hələ də

açıq qalan suallardan biri hesab oluna bilər. Amma Anselm tərəfindən irəli sürülmüş olan arqumentin həddindən artıq çox şeyi sübut etmə xətasına yol verib verməməsini təyin etmək üçün arqumentin növbəti analizinə keçid alırıq.

XI əsrdə Anselm tərəfindən "Tanrının mövcudluğuna dair ontoloji arqument"in irəli sürülməsindən az sonra onun düzgün arqument olması Anselmin müasir olan fransız rahib *Qaunilo* tərəfindən şübhə altına salınır. Qaunilonun fikrincə, bu arqumentin əsasında dayanan məntiq bizi bir çox şeyin, hətta aydın şəkildə mövcud olmayan şeylərin belə mövcud olmasına dair nəticə çıxarmağa vadar edər. Bu əslində arqumentin həddindən artıq çox şeyi sübut etmə xətasına yol vermiş olması deməkdir, çünki qeyd etdiyimiz kimi, bu xətaya yol vermiş arqumentdən yalan və ya ziddiyyətli nəticənin də çıxarılması üçün istifadə edilə bilər. Qaunilo tərəfindən bu məqsədlə irəli sürülmüş "*Mükəmməl ada*" arqumentini aşağıdakı şəkildə ifadə edə bilərik:

$M_1$. "Mükəmməl ada" adlı ada gerçəkdən mükəmməl adadır.

$M_2$. Mükəmməl ada onun mükəmməl ada kimi təyin edilməsinə imkan verən mükəmməlliyə malik olmalıdır.

$M_3$. Mövcudluq adanın mükəmməl ada kimi təyin edilməsinə imkan verən mükəmməllik kimi qəbul edilməlidir.

$M_4$. Hər hansı bir adanın mükəmməl ada olaraq təyin edilməsi üçün o, mövcud olma atributuna malik olmalıdır.

$M_5$. Mövcud olma atributuna malik olan bütün varlıqlar mövcuddur.

$N$. “Mükəmməl ada” mövcuddur.

Beləliklə, Qaunilonun fikrincə, Anselmin arqumentinin əsasında duran məntiq ilə idrakda mövcud olan mükəmməl hər bir şeyin, məsələn, mükəmməl adanın da reallıqda mövcud olmasına dair nəticə çıxarmaq olar. Başqa sözlə, Anselm tərəfindən irəli sürülən arqument hətta tutarlı olsa da, o, həddindən artıq çox şeyi sübut etmə xətasını özündə ehtiva edir.

# Mövzu 38. Psixoloqun xətası

İlk dəfə amerikan filosofu və psixoloqu Vilyam Ceyms (1842-1910) tərəfindən "Psixologiyanın prinsipləri" kitabında izah edilən *psixoloqun xətası* adlanan məntiqi xəta məzmun etibarilə *relyativist xəta* ilə oxşardır. Bəzən s*ubyektivist xəta* kimi də adlandırılan relyativist xətada nəzərdən keçirilən faktın obyektiv fakt olmasına baxmayaraq, onun bir qrup insanlar üçün doğru, digər qrup insanlar üçün isə yalan olmasının mümkünlüyü iddia edilir. Psixoloqun xətasının özünün də bu xətaya yol vermə dərəcəsindən asılı olaraq üç müxtəlif formasını fərqləndirmək mümkündür ki, onun üçüncü - ən ifrat formasını bəzən "*psixoloqizm*" kimi də adlandırırlar.

*Psixoloqun xətası* nə zaman meydana çıxır? Xarici mühitdə baş verən hər hansı hadisəni müşahidə edərkən bu hadisənin subyektiv interpretasiyasının onun obyektiv mahiyyətini əks etdirdiyi güman edilərsə, onda adı qeyd edilən xətanın yaranması üçün şərait yaranar. Məsələn, əgər psixoloq müayinə olunan insanın hansı səbəbdən bu və ya digər şəkildə davranmasına dair özünün interpretasiyasını bu davranışın gerçək səbəbləri ilə eyniləşdirərsə, onda psixoloqun xətası adlanan məntiqi xətaya yol vermiş olar. Bu məntiqi xətaya yol verən arqumentlər aşağıdakı struktura malikdir:




V.Ceymsin fikrincə, nəzərdən keçirdiyimiz bu xəta birinci şəxsin nəzər nöqtəsi ilə üçüncü şəxsin nəzər nöqtəsi qarışıq salınarkən meydana çıxır.[1] Amma nəzərə almaq lazımdır ki, təcrübə ilə onun təsviri bir-birindən fərqlənir; birinci şəxsin nöqteyi-nəzərinə görə insanın təcrübədən keçirdiyi şey bu zaman qazanılan təcrübə ilə eyniyyət təşkil edir. Ona görə təcrübəyə dair birinci şəxsin nəzər nöqtəsi özündə bu təcrübəyə dair həqiqəti ehtiva edir: bu nəzər nöqtəsi gerçəkdən qazanılan təcrübəyə dair baxışı özündə əks etdirir. Bu o demək deyildir ki, üçüncü şəxs tərəfindən təcrübənin təsvir edilməsi doğru ola bilməz. Burada sadəcə olaraq hadisənin təsviri ilə təsvir edilməsi nəzərdə tutulan hadisənin özünün bir-biri ilə qarışdırılmasının yolverilməz olması vurğulanır. Bu səbəbdən

[1] William James (1890), The Principles of Psychology. New York, NY: Henry Holt, p. 197

V.Ceymsin fikrincə, “bu səbəbdən biz psixoloqun nəzər nöqtəsindən çıxış edərək psixikanın vəziyyətini müzakirə edərkən çox diqqətli olmalıyıq.”[1] Beləliklə, psixoloqun xətasının birinci forması - burada sözü gedən məntiqi xətaya ən az dərəcədə yol verilir - qazanılmış təcrübəyə dair psixoloji təsvirin təcrübənin məzmununa aid edilməsini nəzərdə tutur, halbuki burada psixoloji təsvir üçüncü şəxsin nəzər nöqtəsində, qazanılmış təcrübə isə birinci şəxsin nəzər nöqtəsində ehtiva edilmiş olur. Psixoloji təsvir təcrübənin özünün tərkib hissəsi kimi nəzərdən keçirilən zaman isə artıq psixoloqun xətasının ikinci forması təzahür edir. Onun birinci forması ilə müqayisədə ikinci formada sözü gedən məntiqi xətaya daha artıq dərəcədə yol verilir.

Nəzərdən keçirdiyimiz bu məntiqi xətanın “psixoloqizm” adlanan ən ifrat formasında isə yanlış olaraq elə güman edilir ki, məntiqi və fəlsəfi həqiqətlər insan psixologiyasından asılı olmadan obyektiv şəkildə etibarlı olmasından daha çox psixoloji faktlardan, məsələn, insanların necə düşünməyindən, hiss etməyindən və ya mühakimə yürütməyindən asılıdır. Ümumi kontekstdə psixoloqizm müəyyən qeyri-psixoloji faktların, qanunların və varlıqların izahında müəyyən psixoloji faktların, qanunların və varlıqların həlledici rol oynadığını hesab edir. Məsələn, epistemologiyada psixoloqizm psixi proseslərin

[1] William James. *The Principles of Psychology*. New York: Henry Holt, 1890, p. 197-198.

inkişafının psixoloji cəhətdən öyrənilməsi vasitəsilə epistemoloji problemlərin qənaətbəxş həll ediləcəyini güman edir; riyaziyyatın fəlsəfəsində psixoloqizm riyazi anlayışların və həqiqətlərin psixoloji fakt və qanunlara əsaslandığını və onlardan yarandığını qəbul edir. Məsələn aşağıdakı nümunədə psixoloqizm xətasında yol verilmişdir: "İnsanlar adətən *inanır* ki, əgər A B-ni nəzərdə tutursa və A doğrudursa, onda B doğrudur. Ona görə də bu nəticəçıxarma məntiqi cəhətdən etibarlıdır." Bu nümunədə ona görə psixoloqizm xətası meydana çıxmışdır ki, o, məntiqi qaydanı əsaslandırmaq üçün psixoloji amildən (insanların nəyə inanmağından) istifadə edir, halbuki o, insanın inamından tamamilə müstəqil olmalıdır.

"Psixoloqizm" sözü ingilis dilinə almancadan "*Psychologismus*" sözünün tərcüməsi vasitəsilə daxil olub. "*Psychologismus*" ilk dəfə 1870-ci ildə Hegel fəlsəfi məktəbinə mənsub olan Cohan Eduard Erdman (1805-1892) tərəfindən Kant fəlsəfi məktəbinə mənsub olan Fridrix Eduard Benekanın (1798-1854) fəlsəfi mövqeyini tənqid edtmək üçün istifadə edilmişdir. 1890-1914-cü illərdə əsasən alman fəlsəfəsində məntiq ilə psixologiyanın qarşılıqlı əlaqəsi qızğın müzakirə predmetinə çevrilmişdir. Burada müzakirə edilən əsas məsələlərdən biri məntiqin (və epistemologiyanın) psixologiyanın tərkib hissəsi kimi çıxış edib etməməsi idi. Bu kontekstdə xüsusilə Qotlob Freqe (1848-1925) və Edmund Husserl (1859-1938) kimi məşhur alman filosoflarının adı qeyd edilməlidir. Alman fəlsəfəsindən kənarda

yuxarıda qeyd edilən məsələni diqqət mərkəzinə gətirən, eləcə də alman fəlsəfəsində sözü gedən müzakirələrə güclü təsir göstərən filosof Con Stüart Mill[1] (1806-1873) hesab olunur. Millin (deduktiv) məntiq və psixologiya arasındakı əlaqəyə dair mövqeyi birmənalı deyildir. Belə ki, o, bəzən məntiqin psixologiyadan asılı olduğunu iddia edir, bəzən isə belə asılılığı inkar edirdi. Onun fikrincə, məntiq iki hissədən ibarətdir: mühakimə elmi və bu elmin üzərində formalaşmış mühakimə sənəti. Mühakimə sənəti direktiv xarakter daşıyır: o, mühakimə yürüdülən zaman əsaslanmalı olduğumuz qaydaları təyin edir. Mühakimə elmi isə təsviri-izahedici psixoloji elm sahəsi olub psixi proseslərin analizi ilə məşğul olur. Millin bu bölgüsündə mühüm olan məsələ mühakimə sənətinin psixoloji elm sahəsi kimi qəbul edilən mühakimə elmindən olan asılılığının necə dərk edilməsidir. Mühakimə sənətinin direktiv xarakter daşıması hələ onun psixologiyadan asılı olmaması demək deyildir. Mühakimə sənəti ilə mühakimə elmi arasındakı qarşılıqlı əlaqəni izah etmək üçün mühakimə elminin mühakimə sənətinə olan təsirini analiz etmək lazımdır. Mill burada aşağıdakı üç yanaşmanı fərəqləndirir: 1) Direktiv mühakimə sənəti ilk baxışda mühakimə elmindən asılı deyil. Məsələn, psixologiya yalnız hər dəfə biz mühakimə yürüdərkən meydana

[1] John Stuart Mill. A System of Logic Ratiocinative and Inductive: Being a connected view of the Principles of Evidence and the Methods of Scientific Investigation. In *The Collected Works* of J. S.Mill, Volumes 7 (Books I–III), 8 (Books IV–VI), J.M. Robson (ed.) Toronto: Routledge (1843) 1973.

çıxan psixi prosesləri analiz edə bilər. Amma mühakimə sənəti düzgün mühakimə yürütmək üçün zəruri olan qaydaları təqdim etməlidir. 2) Nəzərdən keçirilən istənilən düşüncə prosesinin – mühakimənin yürüdülməsi də düşüncə prosesinə aiddir – düzgün təyin edilməsi bu prosesin psixoloji cəhətdən düzgün və hərtərəfli şəkildə dərk edilməsindən asılıdır. Göründüyü kimi, bu yanaşmada nəzərdən keçirdiyimiz psixoloqizmin əlamətləri tədricən meydana çıxır. 3) Məntiq elminin nəzəri əsasları özünün başlanğıcını tam şəkildə psixologiyadan götürür və mühakimə sənətinin qaydalarının əsaslandırılması üçün tələb olunan dərəcədə onu özündə ehtiva edir.[1] Beləliklə, psixologiya mühakimə qaydalarının əsaslandırılmasında vacib rol oynayır. Nəzərdən keçirdiyimiz ikinci yanaşma ilə müqayisədə burada Millin məntiqə psixoloqizm aspektindən yanaşması daha aydın şəkildə diqqəti cəlb edir.

Millin məntiqə olan yanaşmasında ilk baxışdan diqqəti cəlb edən bu ziddiyyətin necə aradan qaldırılmasına dair onun öz fikirlərinə rast gəlmək mümkün deyildir, amma məntiq və elm tarixində o, məntiq (və epistemologiya) ilə psixologiyanın qarşılıqlı əlaqəsinə dair yanaşmada daha çox psixoloqizm mövqeyindən çıxış edən filosof kimi qəbul edilir. Millin psixoloqizmi də daxil olmaqla alman fəlsəfəsində 1880-ci

---

[1] John Stuart Mill. An Examination of Sir William Hamilton's Philosophy. In *The Collected Works* of J.S. Mill, Volume 9, J.M. Robson (ed.), London: Routledge, (1865) 1979, p. 359

illərdən etibarən psixoloqizmin əsaslandırılması üçün aşağıdakı müxtəlif arqumentlərdən istifadə edilmişdir:

***Nümunə 1:***
$M_1$. Psixologiya *bütün* təfəkkür qanunlarını öyrənən elmdir.
$M_2$. Məntiq bütün təfəkkür qanunlarının altçoxluğunu tədqiq edir.
$N$. Məntiq psixologiyanın tərkib hissəsidir.

***Nümunə 2:***
$M_1$. Normativ-direktiv elm sahələri – bizim nə etməli olduğumuzu təyin edən elm sahələri – təsviri-izahedici elmlərə əsaslanmalıdır.
$M_2$. Məntiq insan düşüncəsinin öyrənilməsi ilə bağlı olan təsviri-izahedici elm sahəsidir.
$M_3$. Məntiqin təsviri-izahedici əsasını təşkil edən yalnız bir elm mövcuddur: empirik psixologiya.
$N$. Məntiq psixologiyaya əsaslanmalıdır.

***Nümunə 3:***
$M_1$. Məntiq mühakimələr, anlayışlar və məntiqi nəticələr haqqında nəzəriyyədir.
$M_2$. Mühakimələr, anlayışlar və məntiqi nəticələr insana məxsus psixi varlıqlardır.
$M_3$. İnsana məxsus olan bütün psixi varlıqlar psixologiyanın

| |
|---|
| tədqiqat predemetinə daxildir.<br>$N$. Məntiq psixologiyanın tərkib hissəsidir. |

Məntiq və fəlsəfə tarixində riyaziyyatın və məntiqin psixologiyanın tərkib hissəsi olmadığını hesab edən cərəyan *antipsixoloqizm* adlanır. Məsələn, analitik fəlsəfə məktəbinin görkəmli nümayəndəsi olan Qotlob Freqe (1848-1925) antipsixoloqizm cərəyanının əsas nümayəndələrindən biri hesab edilir. Onun fikrincə, riyaziyyatın və məntiqin tədqiqat obyektləri və qanunları psixoloji müşahidə və tədqiqatların nəticəsindən asılı olaraq təyin və izah edilmir. Riyaziyyat bütün elmlər arasında ən dəqiq elm olduğu halda psixologiya qeyri-dəqiq və qeyri-müəyyəndir, ona görə də riyaziyyatın psixologiyadan asılı və ya onun tərkib hissəsi ola biləcəyini güman etmək qeyri-mümkündür. Freqenin fikrincə, riyazi həqiqətlər empirik həqiqətlər deyildir və ədədlər obyektlər məcmusunun xassəsi kimi çıxş edə bilməzlər. O, riyazi müddəaların faktlarla bağlı olmasına dair fikirlərini təkzib edir: məsələn, hesablamağı öyrənən insan bununla heç bir empirik bilik qazanmır. Freqe riyaziyyatı öyrənmək üçün bəzi emipirik biliklərin zəruri ola biləcəyinə dair Millin fikirləri ilə razılaşsa da, riyazi həqiqətlərin empirik biliklər tərəfindən əsaslandırılmasını qeyri-mümkün hesab edirdi.[1]

---

[1] Ətraflı məlumat almaq üçün baxın: Hans Sluga. *Gottlob Frege*. London: Routledge, 1980.

# Mövzu 39. Hitlerə müraciət (Reductio ad Hitlerum)

*Hitlerə müraciət xətası* zaman yaranır? Əgər irəli sürülən fikir bu fikrin Adolf Hitler və ya Nasist partiyası tərəfindən də irəli sürülmüş olmasına görə təkzib edilirsə, onda bu zaman qurulan arqument Hitlerə müraciət xətasına yol verir. Belə məntiqi xətaya yol verən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

| |
|---|
| $M_1$. X siqaret çəkməyin əleyhinədir. |
| $M_2$. Hitler də siqaret çəkməyin əleyhinə idi. |

| |
|---|
| $N$. X nasist ideyalarının daşıyıcısıdır. |

*Reductio ad Hitlerum* termini ilk dəfə 1953-cü ildə alman-amerikan filosofu Leo Ştraus (1899-1973) tərəfindən işlədilmişdir və bu ad digər məntiqi xəta olan absurdizmə müraciət (*Reductio ad absurdum*) xətasının adından yaranıb.[1] Amma *Reductio ad Hitlerium* həm də nəzərdən keçirdiyimiz şəxsin əleyhinə yönəlmə (*Argumentum ad Hominem*) qeyri-formal məntiqi xətanın bir növü kimi nəzərdən keçirilir. Sonunci məntiqi xətanın məzmununu analiz edərkən qeyd etdiyimiz kimi, hər hansı fikir onu irəli sürən X-ın şəxsiyyətinə dair yaranan ictimai rəy və ya bu fikrin Y tərəfindən də irəli sürülmüş olması səbəbindən təkzib edilə bilməz. Məsələn, ABŞ İstiqlal Bəyannaməsinin əsas müəliifi və ABŞ-ın 3-cü prezidenti olmuş Tomas Ceffersonun (1743-1826) quldar olması, özünə məxsus olan plantasiyalarda qul əməyindən istifadə etməsi onun tərəfindən irəli sürülmüş olan bütün fikirlərin yalan olmasına dair məntiqi nəticə çıxarmağa əsas vermir.

Fəlsəfə tarixində *Reductio ad Hitlerum* xətasına yol verən arqumentlərə əsasən bəzi fəlsəfi sistemlərin inkar edilməsi cəhdlərində rast gəlmək mümkündür. Bu kontektsdə diqqəti cəlb edən əsas nümunələrdən biri görkəmli alman filosofu

[1] Leo Strauss. *Natural Right and History.* Chicago: The University of Chicago Press, 1951.

Martin Haydeqqerin (1889-1976) fəlsəfi irsinin onun nasizm partiyasının üzvü və tərəfdarı[1] olması səbəbindən tənqid edilməsidir. Məlum olduğu kimi, M. Haydeqqer 1933-cü ildən bu partiyaya üzv olmuş və İkinci Dünya Müharibəsinin sonunda bu partiya ləğv edilənə kimi onu tərk etməmişdir. Bu səbəbdən müharibədən sonra çalışdığı Frayburq Universitetindən xaric edilmiş və onun müəllimlik fəaliyyətinə qadağa qoyulmuşdur. Bu qadağa 1951-ci ilə kimi davam etmişdir. Amma Haydeqqerin nasist partiyasının üzvü olmasını, eləcə də 1945-ci ildən sonrakı yazılarında Holokost hadisəsinə (yəhudi soyqırımına) qarşı demək olar ki, səssiz qalmasını əsas gətirərək bəzi filosof və mütəfəkkirlər onun fəlsəfi sisteminin məzmun etibarilə qüsurlu olması nəticəsini çıxarmışlar. Amma məntiqi cəhətdən belə nəticənin çıxarılmasının özü qüsurludur, çünki irəli sürülən fikrin nə dərəcədə doğru olması əksər hallarda bu fikri irəli sürən insanın şəxsiyyəti ətrafında yaranmış olan ictimai rəydən asılı deyildir. Amma bəzi sosial və siyasi kontekstlərdə bu asılılıq mövcud ola bilər. Məsələn, əgər hər hansı siyasətçi insanlar qarşısında gələcəyə dair vədlər verirsə, amma onun müxtəlif şər əməllərin müəllifi və ya etibarsız insan olmasına dair ictimai rəy formalaşıbsa, onda onun tərəfindən irəli sürülən fikirlərin, yəni gələcəyə dair vədlərin yalan olmasını ehtimal etmək məntiqi cəhətdən mümkündür.

[1] Bu mövzuda ətraflı oxumaq üçün baxın: Ingo Farin & Jeff Malpas. *Reading Heidegger's Black Notebooks 1931-1941.* Cambridge: The MIT Press, 2016.

# Mövzu 40. Təkrarçılıq vasitəsilə qurulan arqument

*Təkrarçılıq vasitəsilə qurulan arqument xətası* yaranır? Əgər arqumentdə opponenti inandırmaq məqsədilə eyni söz, fraza və ya əhvalat dəfələrlə təkrar edilirsə, onda burada təkrarçılıq vasitəsilə qurulan arqument xətasına yol verilir. Məntiq və fəlsəfə tarixində bu xəta bəzən *ad nauseam* və ya *ad infinitum* adlanır. *Ad nauseam* latın termini olub qarşı tərəfdə "ürək bulanma" vəziyyəti yaradana kimi davam edən arqumenti və ya müzakirəni bildirir. Onun vasitəsilə irəli sürülmüş arqumentin və ya müzakirənin özündə sonsuz təkrarçılığı əks etdirməsi səbəbindən opponenti bezdirməsi, onda ikrah doğurması ifadə edilir. Təkrarçılığın nisbi sonsuzluğa kimi davam etməsi amili isə digər – *ad infinitum* termininin məzmununda öz əksini tapır. Bu qəbildən olan arqumentlərin strukturunu aşağıdakı kimi ifadə etmək olar:




Təkrarçılıq vasitəsilə qurulan arqument xətasına təbliğat məqsədilə qurulan çıxışlar zamanı tez-tez rast gəlmək mümkündür. Belə ki, təbliğatçı hər hansı bir ideyanı dəfələrlə təkrarlamaq üçün hər dəfə müxtəlif sözlərdən istifadə etsə də, onların hamısı məzmun etibarilə eyni şeyi ifadə edə bilər. O, bu yolla bir şeyin tez-tez təkrarlandığı təqdirdə insanların son nəticədə ona inanacağını güman edir. Amma qeyd etdiyimiz kimi, təkrarçılıq əslində insanları bezdirə, onlarda müzakirə edilən predmetə dair ikrah yarada bilər. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1**. *Corc Vaşinqtonun anım günündə təbliğatçı amerikan cəmiyyəti qarşısında belə çıxış edir*: “Bu gün bizim ölkəmiz öz uğurlarına və çiçəklənməsinə görə ilk növbədə C.

Vaşinqtona borcludur. Bizim ölkəmizin tarixində bir çox görkəmli siyasi xadimlər olub, amma C.Vaşinqton onların heç birinə bənzəmir. Əgər onun misilsiz xidmətləri olmasaydı, bu gün tarix səhnəsində çox güman ki, ABŞ adlı dövlət olmazdı. Biz ölkəmizin müstəqilliyi uğrunda aparılan müharibənin bütün iştirakçılarının xidmətini yüksək qiymətləndiririk, amma burada həlledici rol onlara rəhbərlik etmiş ali baş komandan C.Vaşinqtona məxsus olub. Məhz onun siyasi uzaqgörənliyi, hərbi səriştəsi və sarsılmaz qətiyyəti sayəsində biz müstəqillik qazanmış və ölkəmizdə ilk dəfə prezidentlik institutunu təsis etmişik."

**Nümunə 2.** *Təbii dillərin mənşəyinə dair aparılan debatda zamanı aşağıdakı fikir mübadiləsi baş verir:*

"$A_1$. Bir zamanlar bütün insanlar eyni dildə danışırmış. Amma insanlar Tanrıya çatmaq üçün hündür Babil qülləsini tikməyi planlaşdırarkən Tanrı onlara qəzəblənmiş və insanların bu planını pozmaq üçün onları müxtəlif dillərdə danışmağa vadar etmişdir. Bu səbəbdən insanlar bir-birlərini başa düşməmiş və tikintisi yarımçıq qalan qüllə onlar tərəfindən tərk edilmişdir. Beləliklə, bu gün mövcud olan müxtəlif dillərin hamısı və ya heç olmazsa onların bir hissəsi meydana çıxmışdır.

$A_2$. Mən universitetdə dilçilik ixtisası üzrə təhsil almışam. Sizi əmin edirəm ki, tarixdə belə hadisə baş verməmişdir. Əgər bu

barədə İncildə yazılan əhvalatı nəzərə almasaq, bu hipotezi təstiq etmək üçün digər sübutlar mövcuddur?
$A_1$. Biz buna əminik, çünki bu barədə İncildə yazılıb ki, Tanrı Babil qülləsinin tikintisi səbəbindən insanlara qəzəblənib və insanların bir-birini başa düşməməsi üçün bu gün mövcud olan dillərin hamısını və ya heç olmazsa onların bir hissəsini yaradıb.
$A_2$. Siz bütün bunları artıq dediniz. Sizin irəli sürülən bu fikri təstiqləmək üçün digər sübutunuz var?
$A_1$. İncildə yazılıb ki, bir zamanlar bütün insanlar eyni dildə danışırmış. Amma Babil qülləsini tikməyi planlaşdırarkən Tanrı insanlara qəzəblənmiş və onların bu planını pozmaq üçün bu gün mövcud olan dillərin hamısını və ya heç olmazsa onların bir hissəsini yaratmışdır.
.....
($A_1$ - bu şəkildə təkrarçılığa yol verməsi son nəticədə $A_2$-ni bezdirərək onda müzakirənin davam etməsindən doğan "ürək bulanma" vəziyyəti yaradır.)

Nəzərdən keçirdiyimiz birinci nümunədə C.Vaşinqtonun niyə görkəmli siyasi xadim olması, onun siyasi uzaqgörənliyinin və hərbi səriştəsinin nədən ibarət olmasına dair fikirlər öz əksini tapmır. Halbuki məntiqi cəhətdən düzgün olan arqumentdə onun qeyd edilən bu kimi şəxsi keyfiyyətlərə malik olması fikri konkret nümunələr, digər ictimai-siyasi xadimlər ilə edilən

müqayisələr və s. əsasında sübut edilməli idi. Bizim burada müşahidə etdiyimiz isə yalnız təbliğat məqsədilə məzmun baxımından eyni olan fikirlərin bir neçə dəfə təkrarlanmasıdır. İkinci nümunədə isə təkrarçılığın opponentin müzakirənin gedişindən bezməsinə kimi davam etməsi səbəbindən onu arqumentdən daha çox söz “oyunu” kimi qiymətləndirmək olar.

## Mövzu 41. Xüsusi tərəfkeşlik

*Xüsusi tərəfkeşlik məntiqi xətası* nə zaman meydana çıxır? Əgər arqumenti irəli sürən insan ümumi prinsipdən kənara çıxaraq istisna halı özündə ehtiva edən faktı və ya mövqeni irəli sürürsə, amma bu istisna halı əsaslandırmırsa, onda xüsusi tərəfkeşlik adlanan məntiqi xətaya yol verir. Belə məntiqi xətaya yol verən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə.** *Sərxoş vəziyyətdə avtomobil qəzası törətməkdə ittiham edilən oğlunun məhkəməsində atası onu belə müdafiə edir:* "Bəli, möhtərəm hakim, mən də sərxoş vəziyyətdə qəza törətmiş sürücülərin həbs edilməli olduğunu

düzgün hesab edirəm, amma o, mənim oğlumdur. O, sadəcə olaraq səhv etmiş olan yaxşı insandır!”

Bu məntiqi xətanı eyni zamanda hüquqi, siyasi, sosial sferada qarşılaşdığımız ikili standartların tətbiq sahəsi olaraq nəzərdən keçirmək mümkündür. İkili standatlar adı altında prinsipcə eyni olan situasiyalara müxtəlif psinsiplərin və qiymətləndirmə meyarlarının tətbiq edilməsi nəzərdə tutulur. Bu isə öz növbəsində xalqlara, dövlətlərə, dini qruplara, irqlərə və digər böyük sosial qruplara, eləcə də indiviudal insanlara eyni gözlə baxmamağa, onların həyat tərzini, adətlərini, davranışını fərqli meyarlar əsasında qiymətləndirməyə, onlara qarşı tərəfkeşlik etməyə, “düzgünlük”, “ədalət” kimi etik kateqoriyaların praktik həyata tətbiqi zamanı bu anlayışların məzmununu bəzi sosial qrupların xeyrinə və digər sosial qrupların zərərinə şərh etmə cəhdlərinin yaranmasına və s. gətirib çıxarır. Bəzən eyni qəbildən olan tarixi hadisələri qiymətləndirən zaman təbii dildə mövcud olan müxtəlif anlayışların seçimi də mahiyyət etibarilə xüsusi tərəfkeşlik xətasının yaranmasına gətirib çıxarır. Məsələn, orta əsrlər tarixində mövcud olan dövlətlərarası aramsız müharibələr zamanı hərbi cəhətdən daha zəif olan dövlətə məxsus olan şəhərlərin, ərazi vahidlərinin daha güclü dövlətin tərkibinə keçməsini müşahidə etmək mümkündür. Amma bu qəbildən olan tarixi hadisələri qiymətləndirən zaman tez-tez ikili standartlara yol açan müxtəlif anlayışlardan istifadə

edilir. Məsələn, tarixi hadisənin subyekti qismində bəzi orta əsr dövlətləri, etnik qrupları və s. nəzərdə tutularkən “X şəhəri A tərəfindən *işğal* olundu” mülahizəsindən istifadə edilir, amma digərlərinə nəzərən “X şəhəri B tərəfindən *fəth* olundu” mülahizəsinə üstünlük verilir. Oxşar ikili standartlar əsasında həyata keçirilən tarixi qiymətləndirmələr zamanı məsələn, 18-19-cu əsrlərdə müxtəlif imperiyalar daxilində baş verən eyni qəbildən olan tarixi hadisələr onların subyektindən asılı olaraq bəzən “separatizm”, bəzən isə “milli-azadlıq hərəkatı” olaraq adlandırılır. Halbuki əgər bütün subyektlər və fərdlər arasında mühüm keyfiyyət fərqi mövcud omazsa, onların davranışı eyni standartlar əsasında qiymətləndirilməlidir. Məsələn, fərz edək ki, universitetin kafedrasına gənc müəllimlərin cəlb edilməsi strategiyasına uyğun olaraq iki qocaman professordan birinin təqaüdə göndərilməsi zərurəti yaranıb. Hər iki professorun əmək fəaliyyəti çərçivəsində nümayiş etdirdikləri göstəricilər demək olar ki, eynidir: hər ikisi qocaman təcrübəli pedaqoqdur, tələbələrin sevimlisidir, eyni fənləri tədris edirlər və s. Amma onlardan biri digəri ilə müqayisədə son illər elmi cəhətdən daha məhsuldar çalışıb: daha çox kitab yazıb, mötəbər xarici elmi jurnallarda daha çox məqalə nəşr etdirib və s. Məhz bu axırıncı amil hər iki professorun qiymətləndirilməsində fərqin yaranmasını zəruri edir. Ona görə də onlar arasında seçim aparılarkən əgər son illər daha az məhsuldar elmi fəaliyyətlə məşğul olan professor təqaüdə göndərilərsə, onda ədalət prinsipi qorunmuş olar. Bələliklə, arqumentdə xüsusi tərəfkeşlik

xətasına yol verməmək üçün irəli sürülən fikir və mövqelərin müqayisəsi zamanı onlar eyni standartlara görə öz qiymətini almalı və buna müvafiq olaraq nəticə çıxarılmalıdır.

# Mövzu 42. Batmış xərc

İqtisadiyyatda batmış xərc geri qaytarılması mümkün olmayan investisiyanı (kapital qoyuluşunu) ifadə edir.[1] Burada batmış xərc qismində adətən tədqiqat, inkişaf və ya reklam üçün xərclənmiş pul nəzərdə tutulsa da, qeyd edilən məqsədlər üçün sərf edilmiş zaman, enerji və hətta emosional durum da bu kateqoriyaya aid edilə bilər. Batmış xərc artıq gələcəyə dair qərarlara dəxli olmayan və keçmişdə sərf edilmiş olan resursu nəzərdə tutur. Nəzərdən keçirdiyimiz xəta meydana çıxarkən geri qaytarılması mümkün olmayan xərclər investisiyaya dair sizin indiki və ya gələcək qərarlarınıza elə təsir göstərir ki, batmış xərc investisiyanın yaxşı və ya pis olmasından asılı olmayaraq onun qoyuluşunu əsaslandırır (qanuniləşdirir). Burada artıq keçmiş zamana məxsus olan və geri qaytarılması mümkün olmayan xərclər ilə indiki (və ya gələcək) zamanda investisiyanın qoyulması arasında heç bir məntiqi əlaqə mövcud deyildir. Batmış xərc xətasını özündə ehtiva edən arqument vasitəsilə insan sadəcə olaraq özü-özünü aldadır və ya rasional qiymətləndirmə müstəvisində investisiyanın qoyulması qərarının əslində qeyri-məqbul olduğu vəziyyətdə bunun əksinə qərar qəbul edərkən niyə belə etdiyinin arxasında dayanan

---

[1] Gregory N. Mankiw. *Principles of Microeconomics* (5th ed.). Mason: Cengage Learning, 2009, pp. 296–297.

“məntiqi” özü-özünə izah edir. Beləliklə, nəzərdən keçirilən bu xəta edilən seçimin arxasında dayanan rasional səbəblərin zəif əsaslandırılması nəticəsində meydana çıxır. Burada insan artıq etmiş olduğu investisiyanı itirmək qorxusu altında əlverişsiz şərtlər altında yeni investisiya qoymaqda davam edir. Beləliklə, batmış xərc xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1.** *Opera üçün geri qaytarılması qeyri-mümkün olan bilet alan, amma tamaşa günü operaya getmək üçün qətiyyən həvəsi olmayan insan son nəticədə operaya getmək qərarını özü üçün belə əsaslandırır*: “Mən bu bileti onsuz da almışam və ona pul xərcləmişəm. Əgər mən bu gün tamaşaya getməsəm, onda pulu havayı yerə xərcləmiş olacam.”

**Nümunə 2**. *Uzun illər universitetdə çalışmış, amma bu akademik mühitdə özünü xoşbəxt hiss etməyən müəllim hər şeyə rağmən universitetdən ayrılmamaq qərarını özü üçün belə əsaslandırır*: "Mən universitet üçün bu qədər zaman və enerji sərf etmişəm. Əgər indi mən universitetdən ayrılsam, bunların hamısı mənasız yerə sərf edilmiş zaman və enerji itgisi olacaq."

**Nümunə 3**. *Ağır maliyyə və insan itgilərinə baxmayaraq ordunun ali baş komandanı qələbə çalmaq ehtimalının az olduğu müharibəni davam etdirmək qərarını belə əsaslandırır*: "Biz bu qədər qan tökmüşük, əziyyət çəkmişik, qəhrəman oğullarımız vətən uğrunda canları qurban verib. Əgər indi biz məğlubiyyət ilə barışsaq, onda bütün bu etmiş olduqlarımız hədər olacaq."

Batmış xərc xətasından qaçmaq üçün elə etmək lazımdır ki, artıq sərf edilmiş olan investisiyanı itirmək qorxusu indiki və ya gələcək investisiyaya dair rasional, obyektiv qərarlara təsir göstərməsin.

# Fəsil 3. Zəif induksiya xətaları

Nəzərdən keçirdiyimiz bütün növ uyğunluq xətaları kimi, *zəif induksiya xətalarının* da müşahidə edildiyi bütün arqumentlər arqumentin nəticəsinə *məntiqi* cəhətdən uyğun olmayan müqəddimələrə malikdir. Beləliklə, uyğunluq xətalarına yol verən arqumentlərdə olduğu kimi, zəif induksiya xətalarını ehtiva edən arqumentdə də müqəddimələr ilə nəticə arasında məntiqi deyil, emosional əlaqə mövcuddur. Qeyri-formal məntiqi xətaların öyrənilməsi zamanı bəzən "zəif induksiya xətaları" anlayışından ümumiyyətlə, istifadə edilmir və bizim nəzərdən keçirəcəyimiz bu qəbildən olan xətalar sadəcə olaraq bütövlükdə uyğunluq xətalarının növləri kimi izah edilir. Bunu nəzərə alaraq zəif induksiya xətalarının bir hissəsini bu şəkildə uyğunluq xətalarının altçoxluğu kimi də nəzərdən keçirmək mümkündür. Amma burada xüsusi diqqət yetirməli olduğumuz məqam zəif induksiya xətalarının adından da göründüyü kimi *induktiv arqument* ilə bağlı olmasıdır. Məlum olduğu kimi, formal məntiqdə arqumentin iki növü fərqləndirilir: deduktuv arqument və induktiv arqument. Deduktiv arqumentdə müqəddimələr ilə nəticə arasındakı məntiqi əlaqə elədir ki, müqəddimlərin doğru və nəticənin yalan olması *qeyri-*

*mümkündür*. Bu növ arqumentlərdə nəticə *zəruri* şəkildə müqəddimələrdən doğur. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 1.**
$M_1$. Bütün riyazi məntiq sistemləri mürəkkəbdir.
$M_2$. Qeyri-səlis məntiq riyazi məntiq sistemidir.
$N$. Qeyri-səlis məntiq mürəkkəbdir.

İnduktiv arqumentdə nəticə ilə müqəddimələr arasındakı məntiqi elə elədir ki, müqəddimlərin doğru və nəticənin yalan olması *ehtimalı azdır*. Bu növ arqumentlərdə nəticə *ehtimala əsaslanmış* şəkildə müqəddimələrdən doğur. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 2.**
$M_1$. İndiyə kimi formalaşdırılan bütün məntiq sistemləri mürəkkəbdir.
$N$. Güman ki, formalaşdırılacaq növbəti məntiq sistemi də mürəkkəb olacaq.

Həm deduktiv arqumentin, həm də induktiv arqumentin bir neçə forması mövcuddur:

***Deduktiv arqument formaları:***

1. riyaziyyata əsaslanan arqument

2. tərifdən doğan arqument
3. qəti sillogizm
4. hipotetik sillogizm
5. dizyunktiv sillogizm

***İnduktiv arqument formaları:***

1. prediktiv induksiya
2. analogiyadan doğan arqument
3. induktiv ümumiləşdirmə
4. statistik sillogizm
5. səbəbiyyət nəticəçıxarması və s.

Bu kitabın mövzusu və yazılma məqsədi birbaşa olaraq deduktiv və induktiv arqument formalarının müqayisəli analizi ilə bağlı olmadığından bu formaların izah edilməsinə diqqət ayırmırıq. Sadəcə olaraq diqqət mərkəzinə gətirmək istədiyimiz məqam odur ki, zəif induksiya xətaları induktiv arqument formalarından hər hansı biri ilə bağlıdır. Biz isə induktiv arqument formalarının deyil, onlarla əlaqəsi olan qeyri-formal məntiqi xətaların məzmununu izah edəcəyik.

# Mövzu 43. Avtoritetə istinad (*Argumentum ad Verecundiam*[1])

*Avtoritetə istinad məntiqi xətası* nə zaman yaranır? Əgər irəli sürülən fikrin sübut edilməsi məqsədilə saxta avtoritetə (mütəxəsisə) müraciət edilərsə, arqument avtoritetə istinad xətasına yol verər. Bu kontekstdə "saxta avtoritet" anlayışı müzakirə edilən mövzuya dair məlumatı olmayan və ya zəif məlumatlı olan insanı bildirir. *Argumentum ad Verecundiam* xətasına reklamlarda və sosial problemlərin müzakirəsi üçün nəzərdə tutulmuş müxtəlif TV proyektlərdə tez-tez rast gəlmək mümkündür. Belə ki, reklam edilən məhsul və ya müzakirə edilən mövzu ilə bağlı dərin biliyə malik olmayan məşhurlar, aktyorlar və ya idmançılar bu məhsul və ya mövzu üzrə ekspert qismində auditoriyaya təqdim edilir. Məsələn, əgər aktyor dərman brendinin reklamı və ya müğənni siyasətçinin təbliğatı ilə məşğul olarsa, onda çox böyük ehtimalla bu zaman onlar tərəfindən irəli sürülən arqument özündə *Argumentum ad Verecundiam* xətasını ehtiva edəcək.

*Argumentum ad Verecundiam* xətasına yol verən arqumentdə əslində avtoritet (mütəxəsis) qismində müzakirə edilən mövzu

[1] *Argumentum ad Verecundiam* latın dilindən tərcümədə "təvazökarlığa istinad" mənasını bildirir.

ilə bağlı dərin biliyə və təcrübəyə malik olan insan(lar) çıxış etməlidir. Məsələn, əgər həkim müəyyən dərman preparatının zəruri olduğunu qeyd edirsə, onda xəstə onun məsləhətini ciddi qəbul edərək nəzərə ala bilər. Eyni şəkildə, əgər riyaziyyat professoru mürəkkəb riyazi məsələnin həllində müəyyən üsuldan istifadəni məqbul hesab edirsə, onda tələbə onun fikirlərini diqqətlə dinləməlidir. Amma həkim fəlsəfi sualların müzakirəsində və ya riyaziyyat professoru beynəlxalq siyasi konfliktlərin necə həll olunmasına dair müzakirələrdə avtoritet qismində iştirak edə bilməz və ya onların qeyd edilən bu sahələr üzrə mütəxəsis ola bilmə ehtimalı azdır. Beləliklə, avtoritetə istinad xətasına yol verən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1.** *Ali təhsil almaq üçün Bakı Dövlət Universitetinə sənədlərini təqdim etmək fikrində olan gəncə dostu belə məsləhət verir*: "Dünən taksi sürücüsü ilə Bakı Dövlət Universitetində tədrisin keyfiyyəti barəsində söhbət edirdik. Onun fikrincə, ora ali təhsil almaq üçün heç də münasib yer deyil. Məncə, sən orada təhsil almaq fikrindən daşınmalısan."

**Nümunə 2**. *Məktəbdən evə gələn məktəbli gün ərzində məktəbdə qazandığı təəssüratları valideynləri ilə paylaşır*: "Bu gün ədəbiyyat müəllimimiz İran ilə bizim aramızda yaranan siyasi gərginlikdən, bu gərginliyin artaraq müharibə vəziyyətinə keçə biləcəyindən bəhs edirdi. Məncə, biz gözlənilən müharibə vəziyyətinə hazır olmalıyıq."

Nəzərdən keçirdiyimiz bu nümunələrin hər ikisində müzakirə edilən edilən mövzu üzrə saxta avtoritetlərin fikirlərindən nəticə çıxarmaq üçün sübut qismində istifadə edilmişdir, ona görə də onlar özündə avtoritetə istinad xətasını ehtiva edirlər. Aşağıdakı vacib məqamı daim nəzərə almaq lazımdır: məntiqi cəhətdən düzgün qurulmuş arqumentdə sübut qismində mövzu haqqında dərin biliyə və ya təcrübəyə malik avtoritetlərin fikirlərinə istinad etmək olar, amma hər bir halda hətta onlar da öz fikirlərində yanıla bilər.

# Mövzu 44. Zəif analogiya

Bəzən güclü arqument qurmaq üçün analogiyaya müraciət edilir. Bu qəbildən olan arqumentlər bir qayda olaraq aşağıdakı struktura malik olur:

| |
|---|
| $M_1$. X nümunəsi müvafiq olaraq Y nümunəsi ilə oxşardır. |
| $M_2$. X-dən P yaranır. |
| $N$. Y-dən P yaranır. |

Analogiyanın güclü olması arqumentin birinci müqəddiməsinin doğru olmasından asılıdır. Başqa sözlə, X ilə Y arasında kifayət qədər müvafiq oxşarlıq olmalıdır ki, *"X-dan P yaranır"* mülahizəsindən *"Y-dən P yaranır"* nəticəsini çıxara biləк. Beləliklə, əsas diqqət P-nin X-dan yaranmasının *səbəbləri* və bu səbəbləri Y kontekstinə də aid etməyin mümkün olub olmaması üzərində cəmləşir. Əgər arqumentin qurulması zamanı zəif analogiyadan (və ya oxşarlıqdan) istifadə edilərsə, onda *zəif analogiya xətası* meydana çıxar. Başqa sözlə, əgər "*X-dan P yaranır*" mülahizəsindən *"Y-dən P yaranır"* nəticəsini çıxara bilmək üçün X ilə Y arasında yetərli oxşarlıq mövcud olmasa, onda burada sözü gedən məntiqi xəta əks olunacaq. Beləliklə, zəif analogiya xətasına yol verən arqument aşağıdakı struktura malikdir:




Həddindən artıq çox şeyi sübut etmə xətasının məzmununu izah edərkən din fəlsəfəsində Anselm Kenterberili tərəfindən irəli sürülmüş “Tanrının mövcudluğuna dair ontoloji arqument”i nəzərdən keçirmişik. Zəif analogiya xətasının məzmununu izah etmək məqsədilə din fəlsəfəsində məntiqi arqument vasitəsilə Tanrının mövcudluğunu sübut etmək üçün irəli sürülmüş digər - “Tanrının mövcudluğuna dair dizayn arqument”i analiz edə bilərik. Bu arqument bir sıra orta əsr xristian filosofları, xüsusilə Akvinalı Foma (1225-1274) tərəfindən irəli sürülmüş, sonralar ingilis filosof və teoloqları Samuel Klark (1675-1729) və Uilyam Peyli (1743-1805) tərəfindən təkmilləşdirilmişdir. Bu arqumenti aşağıdakı şəkildə ifadə etmək mümkündür:

$M_1$. Hər hansı X atributu mövcuddur, X mühüm atributdur və bəzi təbii obyektlər (məsələn, canlı orqanizmlər) ilə bir çox artefaktlar (məsələn, saatlar) X atributuna malikdir.

$M_2$. X atributuna malik artefaktların bu atributa malik olması onların dizayn edilməsindən irəli gəlir.

$M_3$. Oxşar şeylər ümumi olaraq oxşar səbəblərə malikdirlər və ya oxşar şəkildə izah edilirlər.

$N$. X atributuna malik təbii obyektlərin bu atributa malik olması onların dizayn edilməsindən irəli gəlir.

Nəzərdən keçirdiyimiz bu arqument etibarlı arqumentdir, amma onun məzmununu tam şəkildə anlamaq üçün həm təbii obyektlərin, həm də artefaktların malik olduğu mühüm atribut X-ın hansı atribut olduğunu izah etmək lazımdır. U.Peyli bunu belə izah edir:

Fərz edək ki, səyyah səhrada təkbaşına səyahət edir və ətrafda heç kim mövcud deyil. O, təsadüfən saat tapır. Fərz edək ki, səyyah hər şeylə maraqlanan, hər şeyi bilmək istəyən insandır. İndiki halda o, saatın niyə və necə işləməsini bilmək istəyir və bu məqsədlə onu tərkib hissələrinə ayıraraq öyrənməyə başlayır. Bu zaman o, bu hissələrin son dərəcədə mürəkkəb və incə olduğunu müşahidə edir. O, eyni zamanda müəyyən edir ki, saatın işləməsinin “məqsədi” zamanı göstərməkdir və onun hər bir tərkib hissəsi bu məqsədin reallaşmasına töhfə vermək üçün

digər hissələr ilə mükəmməl uyğunluq təşkil edir. Belə ki, əgər saatın hər hansı tərkib hissəsi cüzi böyük və ya qalın olsaydı, onda saat işləməzdi; əgər saatın hər hansı tərkib hissəsi cüzi kiçik və ya nazik olsaydı, onda saat yenə də işləməzdi. Bütün bu mürəkkəbliyi və incəliyi müşahidə edərək səyyah saatın necə yaranmasına dair hansı məntiqi nəticəyə gələ bilər?"

U.Peylinin fikrincə, səyyah bu saatın hansısa subyekt tərəfindən belə mükəmməl və incə şəkildə dizayn edildiyini düşünəcək. Canlı orqanizmlərlə bağlı da oxşar kontekstdə oxşar nəticənin çıxarılması mümkündür. Belə ki, əgər hər bir bioloji orqanizmin son məqsədinin həyatda sağ qalmaq olduğunu düşünsək, onda bu orqanizmin hər bir tərkib hissəsinin (məsələn, bioloji orqanların və onların tərkib hissələrinin, hüceyrələrin və onların tərkib hissələrinin və s.) bu məqsədin reallaşmasına töhfə vermək üçün digər hissələr ilə mükəmməl uyğunluq təşkil etdiyini müşahidə edə bilərik. Başqa sözlə, əgər bioloji orqanizmin hər hansı tərkib hissəsi cüzi olaraq fərqli olsaydı, onda bioloji orqanizmin həyatda sağ qalması mümkün olmazdı. (Bu sonuncu mülahizənin nə dərəcədə doğru olmasını müasir elmi biliklərdən çıxış edərək mübahisə predmetinə çevirmək olar, amma U.Peylinin yaşadığı 18-ci əsrdə elmi biliklərin nisbətən zəif inkişafı fonunda o, məqbul hesab edilə bilərdi.) Bütün bu mürəkkəbliyi və incəliyi müşahidə edərək bioloji orqanizmlərin necə yaranmasına dair hansı məntiqi nəticəyə gələ bilərik? U.Peylinin fikrincə, bioloji orqanizmlərlə

artefaktların strukturunda və onların tərkib hissələrinin quruluşunda oxşar şəkildə mövcud olan mürəkkəbliyi və incəliyi müşahidə edərək biz bioloji orqanizmlərin də hansısa subyekt tərəfindən belə mükəmməl və incə şəkildə dizayn edildiyini düşünməliyik. Təbii ki, əgər artefaktları dizayn edən subyekt qismində insan çıxış edirsə, bioloji orqanizmləri dizayn edən subyekt qismində də Tanrı iştirak etməlidir. Beləliklə, U.Peylinin fikrincə, artefaktlarla bioloji orqanizmlər arasındakı kifayətedici mühüm oxşarlıqdan çıxış edərək analogiya əsasında Tanrının mövcudluğunu məntiqi arqument vasitəsilə sübut etmək mümkündür.

Məntiq və fəlsəfə tarixində U.Peyli tərəfindən irəli sürülən bu arqument onun zəif analogiya xətasını özündə ehtiva etməsi səbəbindən bir çoxları tərəfindən tənqid edilmişdir. Belə ki, artefaktlar və bioloji orqanizmlər arasında yuxarıda nəzərdən keçirdiyimiz oxşarlıq düzgün nəticə çıxarmaq üçün kifayət deyil, ona görə də onlar arasında aşağıdakı disanalogiyaları[1] aparmaq mümkündür:

**Disanalogiya 1:**
Biz saatların və bu qəbildən olan digər artefaktların insanlar tərəfindən dizayn edildiyini əvvəlcədən bilirik, ona görə də

[1] Məntiqdə disanalogiyadan analogiya əsasında çıxarılan nəticəni təkzib etmək üçün istifadə edilir. Əgər analogiyada iki və ya daha artıq obyekt arasında olan *oxşarlıqlara* diqqət yetirilirsə, disanalogiyada bunun əksi baş verir: iki və ya daha artıq obyektlər arasında olan *fərqlərə* diqqət yetirilir.

saatın hansısa subyekt tərəfindən dizayn edilməsi nəticəsini çıxararkən bu nəticəni yalnız arqumentdə ehtiva edilmiş fakt əsasında deyil, həm də bilavasitə daha əvvəl qazandığımız şəxsi təcrübəyə əsasən çıxarırıq. Lakin şəxsi təcrübə əsasında canlı orqanizmlərə nəzərən oxşar - onların hansısa subyekt tərəfindən dizayn edilməsi nəticəsinin çıxarılması qeyri-mümkündür.

**Disanalogiya 2:**
Saat və bu qəbildən olan digər artefaktların mövcud olması insanlar üçün praktik cəhətdən faydalıdır. Məhz praktik cəhətdən faydalı olmasına görə onlar hansısa subyekt (indiki halda insan) tərəfindən dizayn edilmiş olmalıdır. Amma praktik cəhətdən faydalı olmasına görə canlı orqanizmlərə nəzərən oxşar - onların hansısa subyekt tərəfindən dizayn edilməsi nəticəsinin çıxarılması qeyri-mümkündür.

**Disanalogiya 3:**
Biz şəxsi təcrübəmizdə canlı orqanizmlərin meydana çıxmasında bioloji qanunauyğunluq müşahidə edirik. Belə ki, hər bir canlı orqanizm daha əvvəlki canlı orqanizmlərdən yaranır, yəni hər bir canlı orqanizm mövcud olmaq üçün zəruri olan genetik informasiyanı daha əvvəl mövcud olan müvafiq bioloji orqanizmlərdən əxz edir. Amma saat və bu qəbildən olan digər artefaktlarla bağlı oxşar qanunauyğunluq

əsasında hər bir artefaktın özündən əvvəlki artefaktdan yarandığını qeyd edə bilmərik. Bu səbəbdən biz artefaktların hansısa subyekt tərəfindən dizayn edilmiş olması nəticəsini çıxarmağa meylliyik.

Əgər nəzərdən keçirdiyimiz disanalogiyalar doğrudursa, onda "Tanrının mövcudluğuna dair dizayn arqument" məntiqi cəhətdən düzgün arqument hesab edilə bilməz, çünki o, zəif analogiya xətasına yol vermiş hesab ediləcək. Belə ki, bu disanalogiyalar əsasında bir-biri ilə müqayisə edilən artefakt çoxluğu ilə canlı orqanizm çoxluğu arasında daha az *oxşarlığın* və daha çox *fərqin* olması müəyyən ediləcək.

Analogiya əsasında qurulmuş arqumentlərdə müqayisə edilən obyekt və hadisələrin *eyniyyət* təşkil etməsi nəzərdə tutulmur. Əgər iki obyekt və ya hadisə onlar arasında analogiya aparmaq məqsədilə müqayisə edilirsə, onda onlar arasında müəyyən fərqlərin müşahidə edilməsi qaçınılmazdır. Bu səbəbdən hətta güclü analogiyada da müqayisə edilən obyekt və hadisələr arasında müəyyən fərqlər mövcuddur. Zəif analogiya xətasına yol verən arqumentlərin məntiqi cəhətdən yanlış olmasının birbaşa səbəbi orada müqayisə edilən obyekt və hadisələr arasındakı müəyyən fərqlərin olması deyil, orada müqayisə edilən obyekt və hadisələr arasında güclü analogiya aparmaq üçün zəruri olan oxşarlıqların yetərsiz olmasıdır. Burada müqayisə edilən obyekt və hadisələr arasındakı fərqlərin onlar

arasında analogiyanın aparılmasına imkan verəcək dərəcədən daha çox olması dolayı şəkildə nəzərdən keçirilən kontekstdə onlar arasında güclü analogiya qurmaq üçün zəruri olan oxşarlıqların yetərsiz olmasını şərtləndirir. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə**: *ABŞ-da mülki vətəndaşlar tərəfindən odlu silahdan istifadənin məhdudlaşdırılmasına həsr edilmiş müzakirədə bu məhdudlaşdırılmaya qarşı çıxış edən insan öz fikrini belə əsaslandırır:* "Odlu silah məsələn, baltaya bənzəyir – onların hər ikisi metal hissələrdən ibarət alət olub insanı öldürmək üçün istifadə oluna bilər. Aydındır ki, baltadan istifadənin məhdudlaşdırılması qərarı gülünc təsir bağışlayardı. Deməli, odlu silahdan istifadənin də məhdudlaşdırılması eyni dərəcədə gülünc təsir bağışlayacaq."

Nəzərdən keçirdiyimiz nümunədə odlu silah ilə balta arasında mövcud olan oxşarlıqlar (metal hissələrdən ibarət olması, alət olması və potensial olaraq zorakılıq üçün yararlı ola bilməsi) onlar arasında güclü analogiya aparmaq üçün yetərli deyil. Məsələn, odlu silahdan istifadə edərək müəyyən məsafədən çoxlu sayda insanı asanlıqla öldürmək mümkündür, amma baltadan isitifadə edərək bunu həyata keçirmək qeyri-mümkündür. Bu kontekstdə odlu silah ilə balta arasında güclü analogiyanın qurulmasına imkan verməyən əsas fərqlərdən biri məsələn, odlu silah ilə kütləvi qətllərin törədilə bilməsidir,

amma balta ilə bunun həyata keçirilməsinin demək olar ki, qeyri-mümkün olmasıdır. Bunu nəzərə alaraq analiz etdiyimiz bu arqumenti zəif analogiya xətasına yol verən yanlış arqument kimi qiymətləndirmək olar.

Zəif analogiya xətasını özündə əks etdirən arqumentlərdən siyasi məzmunlu spekulyativ fikirlərdə tez-tez istifadə edilir. Məsələn, Volodimir Zelenski Ukraynada 2019-cu il prezident seçikilərinin qalibi olduqdan sonra siyasi səhnədə onun bəzi opponentləri prezident seçilməzdən əvvəl onun aktyorluq fəaliyyətini nəzərdə tutaraq "Aktyordan prezident ola bilərmi?" sualını səsləndirirlər. Hər hansı bir şəxsin prezidentliyə namizədliyinin irəli sürülməsinə imkan verən və konstitusiya ilə tənzimlənən müvafiq qanunlar pozulmadığı təqdirdə bu sualın neqativ cavablandırılmasına əsas verəcək heç bir sübut mövcud deyildir. Amma bu sualın altmənası əslində "Aktyor yaxşı prezident ola bilərmi?" və ya "Yaxşı prezident olmaq üçün mühüm olan xüsusiyyətlər aktyorda ola bilərmi?" sualından ibarətdir. Bu qəbildən olan sualların pozitiv cavablandırılması üçün bəzən aşağıdakı induktiv arqumentdən istifadə edilir:

$M_1$. Ronald Reyqan prezident olmazdan əvvəl aktyor olub.

$M_2$. Ronald Reyqan yaxşı prezident olub.

$N$. (Heç olmazsa) bəzi aktyorlar yaxşı prezident ola bilər.

Bu arqumentdə $M_1$ şübhəsiz ki, doğrudur, çünki 1981-89-cu illərdə ABŞı-n 40-cı prezidenti olmuş Ronald Reyqan (1911-2004) gənclik illərində aktyor olaraq bir neçə filmə çəkilmişdir. Fərz edək ki, $M_2$-də doğrudur, çünki ikiqiymətli məntiqi qiymətləndirmə üzrə onun pis prezident olmasını təstiqləyən sübutlar mövcud deyildir. Amma əvəzində yenə də ikiqiymətli məntiqi qiymətləndirmə üzrə onun yaxşı prezident olmasını təstiqləyən sübutlar təqdim etmək mümkündür: məsələn, onun iki dəfə prezidentliyi dövründə ABŞ-da inflyasiya 12.5%-dən 4.4%-ə enmişdir, real ÜDM-də illik 3.6% artım müşahidə edilmişdir və s. Burada məqsədimiz təbii ki, R.Reyqanın daxili və xarici siyasətini analiz etmək deyildir. Diqqət yetirmək istədiyimiz məqam ondan ibarətdir ki, nəzərdən keçirdiyimiz bu arqumentin müqəddimələrinin hər ikisi hətta doğru olsa belə bu arqument düzgün qurulmuş induktiv arqument hesab edilməyəcək, çünki o, c*onverse accident* adlı qeyri-formal məntiqi xətanı özündə ehtiva edir. Qısaca desək, bu məntiqi xətaya görə spesifik, istisna hallar üçün doğru olan yanlış olaraq bütün hallara tətbiq edilir. Amma burada əsas məqsədimiz diqqəti V.Zelenskinin prezident seçilməzdən əvvəl aktyorluq ilə məşğul olmasına görə onu siyasi cəhətdən təcrübəsizlikdə və ya qeyri-peşəkarlıqda ittiham edən fikirləri təkzib edərkən istifadə edilən digər arqumentə yönəltməkdir:

$M_1$. Həm R.Reyqan, həm də V.Zelenski aktyor olub.

$M_2$. R.Reyqan yaxşı prezident olub.

$N$. Güman ki, V.Zelenski də yaxşı prezident olacaq.

Əgər Reyqan yaxşı prezident olubsa və həm Reyqan, həm də Zelenski aktyor olubsa, onda Zelenski də yaxşı prezident ola bilər nəticəsinin doğru ola bilmə ehtimalı çoxdurmu? Reyqan ilə Zelenski arasında olan oxşarlıq onlar arasında analogiyanın aparılması üçün kifayət edirmi? Bu kontekstdə Reyqanın hansı mühüm xassələrə malik olduğunu təyin etmək üçün onun bioqrafiyasına nəzər salaq. Məlum olduğu kimi, Reyqan aktyor fəaliyyəti ilə yanaşı 1947-1952-ci və 1959-1960-cı illərdə ABŞ Kinoaktyorlar Gildiyası adlı keçmiş həmkarlar ittifaqının prezidenti olub. 1950-ci illərdə televiziya aparıcısı qismində ölkə üzrə müxtəlif yerlərdə özünün yazdığı motivasiya xarakterli çıxışlar edib. Bu çıxışların formal olaraq siyasi cəhətdən neytral hesab edilməsinə baxmayaraq, onlar məzmun etibarilə müasir amerikan konservatizminin, azad bazar iqtisadiyyatı siyasətinin, antikommunizmin və s. təsirlərini özündə əks etdirib.[1] 1967-1975-ci illərdə Kaliforniya ştatının qubernatoru olub. Zelenski isə seçilməzdən öncə əsasən aktyorluq fəaliyyəti ilə məşğul olub. Beləliklə, Reyqan aşağıdakı atributlara malik olmuşdur: aktyor, həmkarlar ittifaqının prezidenti, televiziya aparıcısı, qubernator; Zelenski isə bu atributlardan yalnız birinə malik olmuşdur. Beləliklə, analiz edilən kontekstdə onların atributları

[1] Thomas W. Evans. *The Education of Ronald Reagan: The General Electric Years and the Untold Story of His Conversion to Conservatism.* New York: Columbia University Press, 2008.

arasındakı fərqin daha çox olması həm də onların arasında analogiya aparmaq üçün oxşarlıqların kifayətedici olmamasını şərtləndirir. Bu isə öz növbəsində əgər Reyqan yaxşı prezident olubsa və həm Reyqan, həm də Zelenski aktyor olubsa, onda Zelenski də yaxşı prezident ola bilər nəticəsinin doğru ola bilmə ehtimalını azaldır. Bu şəkildə qeyri-düzgün şəkildə qurulmuş induktiv arqument özündə zəif analogiya xətasını ehtiva edir.

# Mövzu 45. Məlumatsızlığa istinad (*Argumentum ad İgnorantiam)*

Məlumatsızlığa istinad xətası nə zaman yaranır? Əgər irəli sürülən fikrin yalan olmasının sübut edilməməsi səbəbindən onun doğru və ya doğru olmasının sübut edilə bilməməsi səbəbindən onun yalan olmasına dair nəticə çıxarılırsa, onda məlumatsızlığa istinad xətası meydana çıxır. *Argumentum ad İgnorantiam* xətasına yol verən arqumentlər adətən aşağıdakı strukturdan birinə malik olur:

***Birinci struktur:***

$M$. M-in yalan olması sübut edilməmişdir.

$N$. M doğrudur.

***İkinci struktur:***

$M$. M-in doğru olması sübut edilməmişdir.

$N$. M yalandır.




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə**: *Yalan danışmaqda ittiham olunan insanın yalan danışmağı belə əsaslandırılır*: "Bizim əlimizdə onun doğru danışdığını təstiq edən heç bir sübut olmadığından biz belə hesab edirik ki, o, yalan danışır."

Beləliklə, *Argumentum ad İgnorantiam* xətasını özündə əks etdirən arqumentlərdə irəli sürülən fikrin təstiqi (və ya inkarı) onun əksini qəbul etmək üçün məlumatın (faktın) olmaması səbəbindən həyata keçirilmiş hesab edilir. Ona görə də belə xətaya yol verən arqumentlərin strukturunu müvafiq olaraq aşağıdakı şəkildə də ifadə etmək mümkündür:

***Birinci struktur:***

$M$. M-in yalan olmasına dair məlumat mövcud deyildir.

$N$. M doğrudur.

***İkinci struktur:***

$M$. M-in doğru olmasına dair məlumat mövcud deyildir.

$N$. M yalandır.

Əgər *Argumentum ad İgnorantiam* xətasını özündə ehtiva edən arqumentləri daha geniş epistemoloji müstəvidə analiz etsək, onda "sübut" anlayışının məzmununu "əsaslandırılmış doğru inam" kimi təyin edərək onu "bilik" anlayışı ilə əvəzləmək mümkündür. Beləliklə, belə xətaya yol vermiş arqumentlərin strukturunu müvafiq olaraq aşağıdakı kimi də göstərmək olar:

***Birinci struktur:***

$M$. M-in yalan olmasına dair bilik mövcud deyildir.

$N$. M doğrudur.

***İkinci struktur:***

$M$. M-in doğru olmasına dair bilik mövcud deyildir.

$N$. M yalandır.

*Argumentum ad İgnorantiam* ritorik sual formasında da tətbiq edilə bilər ki, bu zaman arqumentdə M-in doğru (və ya yalan)

olmasına dair sübutun, məlumatın və ya biliyin nə mövcud olması, nə də mövcud olmaması aydın şəkildə ifadə edilmir. Amma arqumentdə istifadə edilən ritorik sual bu kontekstdə məlumatsızlığı nəzərdə tutur. Beləliklə,

***Birinci struktur:***

$M$. M doğru olmaya bilər ki?

$N$. M doğrudur.

***İkinci struktur:***

$M$ . M yalan olmaya bilər ki?

$N$ . M yalandır.

*Argumentum ad İgnorantiam* sualı sualla cavablandırmaq formasında da istifadə edilə bilər:

$A_1$. M doğrudur.

$A_2$. M niyə doğrudur?

$A_1$. M niyə yalandır?

Beləliklə, $A_1$ sonuncu sual vasitəsilə $A_2$-nin sualının cavabı kimi nəzərdə tutulması mümkün olan inkarı özü inkar edərək ilkin olaraq irəli sürdüyü fikri təstiq etmiş olduğunu hesab edir.

***Vacib qeyd 1:***

*Argumentum ad İgnorantiam* hər zaman məntiq xətası yaradırmı? Bəzi məntiqçilərin fikrincə, "neqativ sübut" adlanan hallarda ondan istifadə məntiqi xətaya yol açmır[1]. Neqativ sübutda hər hansı bir şeyin mövcud olmasına dair sübutun və ya məlumatın olmaması onun inkar edilməsi üçün əsas yaradır. Məsələn, *ex silentio*[2] adlanan və tarix elmində istifadə edilən arqumentlərin əsasında aşağıdakı prinsip dayanır: əgər M baş vermiş olsaydı, onda onun haqqında bizim sübutumuz (və ya məlumatımız) olardı. Bu prinsip əsasında tarix elmi mühüm hadisə, şəxsiyyət və s. haqqında tarixi mənbələrdə məlumatın olmasını güman edir. Bu məlumatın olmaması isə onun yalan olmasının heç olmazsa *prima facie*[3] sübutu kimi çıxış edə bilər. Neqativ sübut zamanı arqumentin özündə məlumatsızlığa istinad xətasını əks etdirib etdirməməyi qeyd edilən prinsipin məqbul hesab edilməsindən asılıdır. Belə ki, əgər bu prinsip məqbul hesab edilməsə, onda *ex silentio* məlumatsızlığa istinad xətasının yaranmasını şərtləndirir. Amma əgər bu prinsip məqbul hesab edilərsə, onda o, yalnız hipotetik-qəti sillogizmin "*modus tollens*" modelinə əsaslanmış sayılaraq məntiqi cəhətdən qüsurlu qiymətləndirilmir:

---

[1] Douglas Walton. *Arguments from Ignorance.* Pennsylvania State University Press, 1995, pp. 15-17.

[2] "*Silentio"* latın dilindən tərcümədə "sükut", "sakitlik" mənasını verir.

[3] "*Prima facie"* latın dilindən tərcümədə "ilk baxışda", "ilk görünüşdə" deməkdir.

$M_1$. Əgər A-dırsa, onda adətən B-dir.

$M_2$. B deyil.

$N$. A deyil (və ya A-nın olmaması həqiqətə uyğundur).

Beləliklə, yuxarıda qeyd edilən prinsip məqbul hesab edilərkən, *argumentum ad İgnorantiam* birbaşa olaraq etibarlı *modus tollens*-ə keçid alır.

***Vacib qeyd 2:***

*Argumentum ad İgnorantiam* hər zaman məntiq xətası yaradırmı sualının cavablandırılması ümumi elm fəlsəfəsi müstəvisində də bəzi mübahisəli məqamları özündə ehtiva edə bilər. Belə ki, elm fəlsəfəsində irəli sürülən elmi hipotezdən nəzəriyyəyə keçid üçün hipotezin testlər vasitəsilə yoxlanılması zəruridir. Burada induktivizm konsepsiyası *verifikasiyadan* çıxış edərək hipotezin testlər vasitəsilə əldə edilən məlumatlara *uyğunluğunun* təstiq edilməsini vacib hesab edir: əgər testlər vasitəsilə hipotezin doğru olmasını təstiqləyən sübutlara rast *gəlinərsə*, onda hipotez *doğru* qiymətləndirilir və qəbul edilir; əgər testlər vasitəsilə hipotezin doğru olmasını təstiqləyən sübutlara rast *gəlinməzsə*, onda hipotez *yalan* qiymətləndirilir və təkzib edilir. Sonuncu fikir isə forma etibarilə məlumatsızlığa istinadın yuxarıda analiz etdiyimiz ikinci strukturuna uyğundur: *hipotezin doğru olması sübut edilməmişdir, deməli, hipotez yalandır.* Elm fəlsəfəsində deduktivizm konsepsiyası isə

*falsifikasiyadan* çıxış edərək hipotezin testlər vasitəsilə əldə edilən məlumatlara *əks-uyğunluğunun* təstiq edilməsini vacib hesab edir: əgər testlər vasitəsilə hipotezin yalan olmasını təstiqləyən sübutlara rast *gəlinərsə*, onda hipotez *yalan* qiymətləndirilir və təkzib edilir; əgər testlər vasitəsilə hipotezin yalan olmasını təstiqləyən sübutlara rast *gəlinməzsə*, onda hipotez *doğru* qiymətləndirilir və qəbul edilir. Sonuncu fikir isə forma etibarilə məlumatsızlığa istinadın yuxarıda analiz etdiyimiz birinci strukturuna uyğundur: *hipotezin yalan olması sübut edilməmişdir, deməli hipotez doğrudur.*

# Mövzu 46. Tələsik ümumiləşdirmə (Converse Accident[1])

Tələsik ümumiləşdirmə induktiv ümumiləşdirməyə təsir göstərən məntiqi xətadır. İnduktiv ümumiləşdirmə seçilmiş nümunə haqqında olan bilikdən bütöv qrupa dair nəticənin çıxarılmasını nəzərdə tutur. Bu yolla seçilmiş nümunəyə daxil olan üzvlərin müəyyən xassəyə malik olması əsasında qrupun bütün üzvlərinin də eyni xassəyə malik olması əsaslandırılır. Məsələn, boşqabdan seçilmiş 3 almanın dadlı olması əsasında boşqabda olan bütün almaların dadlı olması nəticəsi çıxarıla bilər. İnduktiv ümumiləşdirmədən bəhs edən digər nümunə qismində məsələn, prezident seçkiləri ərəfəsində seçicilər arasında keçirilən rəy sorğusunda rəyi soruşulanların 70%-nin X namizədinə səs verəcəyini bildirməsi əsasında X namizədinin seçki günü seçicilərin 70%-nin səsini toplayacağına dair nəticənin çıxarılması ola bilər. Bu nümunələr həmçinin induktiv arqumentdə statistik ümumiləşdirmələrdən istifadəni özündə

[1] Tələsik ümumiləşdirmə xətasına yol verən arqumentdə irəli sürülən fikrin davam etdirilməsi istiqaməti daha əvvəl nəzərdən keçirdiyimiz digər qeyri-formal məntiqi xəta olan təsadüf (*accident/ secundum quid*) xətasını özündə ehtiva edən arqumentdəki müvafiq istiqamət ilə əkslik təşkil etdiyindən həm də əks təsadüf (*convese accident)* adlanır. Birinci xətaya yol verən arqumentlərdə fikir ümumi olandan xüsusi olana, ikinci xətanı ehtiva edən arqumentlərdə isə əksinə, xüsusi olandan ümumi olana doğru hərəkət edir.

əks etdirir. Hər bir halda qeyd etdiyimiz kimi, bütün növ induktiv arqumentlərdə, o cümlədən induktiv ümumiləşdirmədə nəticə müqəddimələrdən *ehtimala əsaslanmış* şəkildə doğur. Amma bu, hər bir halda ehtimala əsaslanmış şəkildə olsa da induktiv ümumiləşdirmənin həyata keçirilə biləcəyi demək deyildir. Əgər seçilmiş nümunənin bütöv qrupu təmsil etməməsinə dair güclü ehtimal yaranarsa, onda bu nümunəyə dair bilikdən çıxış edərək bütöv qrupa nəzərən ümumiləşdirmənin aparılması tələsik ümumiləşdirmə xətasına yol açır. Bəs nə zaman seçilmiş nümunənin bütöv qrupu təmsil etməməsinə dair güclü ehtimallar yaranır? Əgər bu nümunə bütöv qrupun tərkibində kiçik həcmi əhatə edərsə və ya o, qrupun tərkibindən təsadüfən seçilərsə, onda onun bütöv qrupu təmsil etməməsinə dair güclü ehtimallar meydana çıxır. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1**. *"Lenovo" şirkətinin istehsal etdiyi təzə komputeri alan müştəri bir neçə gündən sonra komputeri xarab olarkən bu şirkət tərəfindən istehsal edilən bütün komputerlər haqqında aşağıdakı nəticəni çıxarır*: "Aydın məsələdir ki, "Lenovo" şirkəti tərəfindən bu günlərdə istehsal olunan bütün komputerlər müştəriyə komputer adı altında satılan zir-zibildən başqa bir şey deyil."

**Nümunə 2.** *Nyu York şəhərində altı müsəlman tərəfindən ticarət mərkəzinə edilən terror hücumunu əsas gətirərək bəzi*

*kütləvi informasiya vasitələri baş vermiş bu hadisə ilə bağlı ictimai rəyi aşağıdakı şəkildə formalaşdırır*: "Müsəlmanlar kimdir? Bu terror hücumu bir daha təstiq edir ki, onların hamısı zorakılığa meylli fanatiklərdir."

Nəzərdən keçirdiyimiz bu nümunələrin hər ikisində bütöv qrupun tərkibinə daxil olan cəmi bir və ya bir neçə üzvün malik olduğu xassə əsasındna bütöv qrupun da bu xassəyə malik olmasına dair tələsik ümumiləşdirmə aparılır. Halbuki, bütöv qrupun tərkibində belə cüzi həcmə malik olması səbəbindən seçilmiş nümunə kimi qəbul edilən bu üzv(lər) əsasında bütöv qrupa nəzərən induktiv ümumələşdirmənin aparılması üçün məntiqi əsas mövcud deyildir. Sonuncu nümunədə özünə yer alan tələsik ümumiləşdirmə hətta dini diskriminasiyaya yol açır. Tələsik ümumiləşdirmə xətasına yol verən arqument aşağıdakı struktura malikdir:



***Vacib qeyd:***

Seçilmiş nümunənin bütöv qrupun tərkibində kiçik həcmi əhatə etməsi onun zəruri şəkildə bütöv qrupu təmsil edə bilməməsi demək deyildir və əksinə, seçilmiş nümunənin bütöv qrupun tərkibində böyük həcmi əhatə etməsi onun zəruri şəkildə bütöv qrupu təmsil edə bilməsi demək deyildir. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 3**. *Laboratoriya şəraitində siçanlar üzərində aparılan elmi eksperimentin nəticəsi belə olmuşdur*: "Dörd siçanın qidasına 10 milliqram Z substansiyası əlavə edilmişdir və iki dəqiqə müddətində onların hamısı iflic olub ölmüşdür. Bu miqdarda Z substansiyasının ortalama qəbul edilmiş siçan üçün ölümcül təhlükəli olması ehtimalı mövcuddur."

Nəzərdən keçirdiyimiz bu induktiv arqumentdə *converse accident* xətasına yol verilməyib, çünki burada seçilmiş nümunənin bütöv qrupu təmsil etməməsinə dair güclü ehtimal mövcud deyildir.

**Nümunə 4**. *Qadınlara qarşı məişət zorakılığının əleyhinə keçirilən aksiyadan sonra orada iştirak etmiş olan qadınlar arasında keçirilən rəy sorğusunun nəticəsi belə olmuşdur*: "Biz təşkil edilən aksiyadan sonra oradakı qadınlar arasında məişət zorakılığı zəminində törədilən qətllərin siyasi xarakter daşıyıb daşımadığına dair rəy sorğusu keçirmişik. Rəyi

soruşulanların 75%-i bu qətllərin siyasi olduğunu hesab edir. Aydın məsələdir ki, qadınların əksəriyyəti məişət zorakılığı zəminində törədilən qətllərin siyasi xarakter daşıdığını düşünür."

Nəzərdən keçirdiyimiz bu induktiv arqumentdə isə seçilmiş nümunənin bütöv qrupun tərkibində daha böyük həcmi əhatə etməsinə baxmayaraq burada *converse accident* xətasına yol verilib. Bunun səbəbini belə izah etmək olar: qadınlara qarşı məişət zorakılığının əleyhinə keçirilən aksiyalarda əsas etibarilə feministlər çıxış edir və məişət zorakılığı zəminində törədilən qətllərinin siyasi xarakter daşıması fikri müasir feminizm ideologiyasında öz əksini tapır. Bu fikrə əsasən məişət zorakılığı cəmiyyətdə mövcud olan patriarxal quruluşun mahiyyətindən irəli gəlir. Müasir dövrdə bu quruluşun hələ də mövcudluğunu qoruyub saxlaması onun ilk növbədə siyasi hakimiyyətlər tərəfindən müxtəlif vasitələrlə dəstəklənməsi nəticəsində mümkündür. Beləliklə, məişət zorakılığı zəminində baş verən qadın qətllərinin dolayı və ən son səbəbi olaraq cəmiyyətdə bərqərar olmuş siyasi hakimiyyətlər çıxış edir. Amma feminist qadınların əksəriyyətinin bu fikri dəstəkləməsi digər qadınların bu barədə nə düşünməsinin məntiqi göstəricisi kimi çıxış edə bilməz.

# Mövzu 47. Yalan səbəb[1]

Yalan səbəb xətası nə zaman yaranır? Əgər arqumentin müqəddimələri ilə nəticəsi arasındakı əlaqə yəqin ki, mövcud olmayan hər hansı xəyali səbəbiyyət əlaqəsindən asılı olarsa, onda bu arqument özündə yalan səbəb xətasını ehtiva etmiş olar. Başqa sözlə, belə xataya yol verən arqumentlərdə çıxarılan nəticə "X Y-ə səbəb olur" gümanından asılı olur, amma əslində "X yəqin ki, Y-ə səbəb olmur".

Yalan səbəb xətasının dörd növü fəqləndirilir: (1*) post hoc ergo propter hoc*; (2) *non causa pro causa;* (3) həddindən artıq sadələşdirilmiş səbəb; (4) ümumi səbəbin inkar edilməsi.

***(1) Post Hoc Ergo Propter Hoc***

Yalan səbəb xətasının bu növünün adı latın dilindən *"bundan sonra, ona görə də bu səbəbdən*" kimi tərcümə edilir. Burada yalnız bir hadisənin digər hadisədən daha əvvəl baş verməsi faktından çıxış edərək birinci hadisənin ikinci hadisənin səbəbi olduğu güman edilir. Amma hadisələr arasında sadəcə olaraq müvəqqəti ardıcıllığın olması səbəbiyyət əlaqəsinin yaranması üçün yetərli deyildir. *Post Hoc* xətasına yol verən arqumentlər aşağıdakı struktura malikdir:

---

[1] Bəzən "*yalan səbəb*" və "*sürüşkən yamac*", "*nəticələrə istinad*" adlı digər qeyri-formal məntiqi xətalar "səbəbiyyət xətaları" adı altında qruplaşdırılır.




Əslində bir çox xurafat formalarının arxasında məhz belə *Post Hoc* xətasını ehtiva edən arqumentasiya prosesi dayanır. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1.** *İmtahandan kəsilən tələbə öz uğursuzluğunu belə izah edir*: "Mən imtahana gedərkən qabağımdan qara pişik keçdi. İmtahanda isə bəxtim heç gətirmədi. Belə ki, imtahan biletindəki suallar məhz hazırlaşmadığım mövzuları əhatə edirdi. Qabağımdan qara pişiyin keçməyi mənə uğursuzluq gətirmiş olmalıdır."

**Nümunə 2**. *İnformasiya cəmiyyətində yeniyetmələrin əxlaqi davranışı mövzusunda keçirilən debatda aşağıdakı arqument*

*irəli sürülür:* "İnternet yaranandan cəmiyyətdə yeniyetmələr arasında rast gəlinən cinsi münasibətlərin miqyası artmağa doğru gedib. Aydın məsələdir ki, internet yeniyetmələrin əxlaqını pozur."

### *(2) Non Causa Pro Causa/ Cum Hoc Ergo Propter Hoc*

Yalan səbəb xətasının bu növünün adı latın dilindən *"səbəb üçün səbəb deyil"* kimi tərcümə edilir. *Non Causa Pro Causa* xətasına yol verən arqumentlərdə nəyinsə səbəbi kimi qəbul edilən şey ümumiyyətlə, əslində səbəb funksiyasını icra etmir və sadəcə hadisələrin təsadüfən üst-üstə düşməsindən başqa bir şey deyildir. Bu qəbildən olan məntiqi xətalara yol verən arqumentlər aşağıdakı struktura malikdir:



Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 3**. *Cəmiyyətdə cinayətkarlığın səviyyəsinin artmasına təsir göstərən səbəblərin müzakirəsinə həsr edilmiş debatda aşağıdakı arqument irəli sürülür*: "Bu gün qanun məcəllələrində keçmiş ilə müqayisədə daha çox qanun vardır. Bəs əvəzində cəmiyyətdə nə baş verir? Cinayətkarlığın səviyyəsi durmadan artmağa davam edir. Ona görə də mən belə hesab edirəm ki, baş verən cinayətlərin qarşısını almaq üçün qanun məcəllərində mövcud olan qanunların sayını azaltmaq lazımdır."

Nəzərdən keçirilən bu nümunədə cinayətkarlığın səviyyəsinin atması ilə qanun məcəllələrində qanunların sayının çoxalması üst-üstə düşür. Amma bir hadisənin digər hadisə ilə üst-üstə düşməsi bir hadisənin digər hadisəyə səbəb olması üçün yetərli deyil.

Yalan səbəb xətasının ikinci növü kimi bəzən *Cum Hoc Ergo Propter Hoc* kimi də adlanır. Bu ad latın dilindən *"birlikdə, ona görə də bu səbəbdən"* kimi tərcümə edilir. *Cum Hoc Ergo Propter Hoc* xətasını ehtiva edən arqumentlərdə iki hadisənin eyni zamanda baş verməsindən onlar arasında səbəbiyyət əlaqəsinin olması nəticəsi çıxarılır. Amma iki hadisənin eyni

zamanda baş verməsi onlar arasında səbəbiyyət əlaqəsinin yaranması üçün yetərli deyildir.

*Cum Hoc Ergo Propter Hoc* məzmun etibarilə *Non Causa Pro Causa*-ya yaxındır, bu səbəbdən sonuncunu izah edərkən istifadə etdiyimiz üçüncü nümunədən burada da istifadə edə bilərik. *Non Causa Pro Causa*-da diqqət mərkəzinə gətirilən məqam hadisənin səbəbinin düzgün təyin edilməməsidir. Məsələn, nəzərdən keçirdiyimiz sonuncu nümunənin üzərinə qayıdaraq qeyd edə bilərik ki, cinayətkarlığın səviyyəsinin artmasının müxtəlif səbəbləri (iqtisadi tənəzzül, təhsil səviyyəsinin aşağı düşməsi və s.) ola bilər, amma qanun məcəllələrində qanunların sayının artırılması onun səbəbi kimi çıxış etmir. Amma *Cum Hoc Ergo Propter Hoc*-da diqqət mərkəzinə gətirilən məqam ondan ibarətdir ki, iki hadisə arasında korrelyasiyasının olması onlar arasında səbəbiyyət əlaqəsinin olması üçün yetərli deyildir. Məsələn, nəzərdən keçirdiyimiz sonuncu nümunənin üzərində qayıdaraq qeyd edə bilərik ki, qanun məcəllələrində qanunların sayının artırılması ilə cinayətkarlığın səviyyəsinin artması arasındakı korrelyasiya birinci hadisə ilə ikinci hadisə arasında səbəbiyyət əlaqəsinin olması üçün yetərli deyildir.

***Vacib qeyd:***

İki hadisə arasında davamlı korrelyasiyanın mövcud olması heç bir zaman onlar arasında səbəbiyyət əlaqəsinin mövcud

olmasının göstərici ola bilməz fikri yanlışdır. Belə ki, bəzən belə korrelyasiya səbəbiyyət əlaqəsinin göstərici ola bilər. Məsələn, 20-ci əsrin birinci yarısında tütün məmulatlarından iistifadənin genişlənməsi ilə ağciyər xərçəngi xəstəliyinin artması arasında korrelyasiya müşahidə edilsə də, tütün istehsalçıları tütündən istifadənin birbaşa olaraq bu xəstəliyin yaranmasına səbəb olduğunu qəti şəkildə inkar edirdilər. Amma 1950-ci illərdə aparılmış elmi tədqiqatlar burada qeyd edilən iki hadisə arasında mövcud olan korrelyasiyanın həmin hadisələr arasında səbəbiyyət əlaqəsinin göstəricisi olmasını təstiq etdi. Bunu nəzərə alaraq qeyd edə bilərik ki, *Cum Hoc Ergo Propter Hoc* xətasından qaçmaq üçün sadəcə olaraq iki hadisə arasında davamlı olaraq müşahidə edilən korrelyasiya daha ətraflı və dərindən analiz edilməlidir. Yalnız bu şəkildə davamlı korrelyasiyanın səbəbiyyət əlaqəsinin göstərici olub olmadığını müəyyənləşdirmək mümkündür.

***(3) Həddindən artıq sadələşdirilmiş səbəb***

Yalan səbəb xətasının bu növü digərlərinə nisbətən daha tez-tez müşahidə edilir. *Həddindən artıq sadələşdirilmiş səbəb xətası* nə zaman yaranır? Əgər çoxlu səbəblərin hər hansı bir nəticəni yaratmasına baxmayaraq, bu səbəblərdən yalnız biri seçilib həmin nəticənin yeganə səbəbi kimi arqumentdə öz əksini taparsa, onda bu arqument həddindən artıq sadələşdirilmiş səbəb xətasına yol vermiş olar. Bu qəbildən olan məntiqi xətalara yol verən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 4**. *Təhsilin keyfiyyətinin hər il niyə daha da aşağı düşməsi sualına cavab axtarılarkən aşağıdakı arqument irəli sürülür:* “Təəssüflə qeyd etməliyik ki, ölkəmizdə həm ali, həm də orta ümumtəhsil məktəblərində təhsilin keyfiyyəti daha da aşağı düşür. Aydın məsələdir ki, bizim müəllimlər hər il daha keyfiyyətsiz dərs keçirlər.”

**Nümunə 5**. *Ticarət mərkəzində baş vermiş olan terror hadisəsini işıqlandıran jurnalist belə qeyd edir:* “Bizim ölkəmizdə bu terror hadisəsi niyə baş verib? Səbəb aydındır: bu terror hadisəsi ona görə baş verib ki, terrorçular bizim ölkəmizə və bizə nifrət edir.”

Nəzərdən keçirilən dördüncü nümunədə təhsilin keyfiyyətinin aşağı düşməsinin adətən bir deyil, bir neçə səbəbi mövcuddur: ailədə nizamın pozulması, valideynlərin təhsil prosesindən kənarda qalması, televiziya və internetdən asılılığın yaranması, təhsil alanlar tərəfindən narkotikdən istifadə hallarının çoxalması, rüşvət və şəxsi tanışlıq əsasında oxumadan da tədris proqramını tamamlamaq imkanlarının mövcud olması və s. Müəllimlərin keyfiyyətsiz dərs keçməsi bu hadisənin baş verməsini şərtləndirən səbəblərdən yalnız biridir və digər səbəblər ilə müqayisədə ola bilər ki, daha az təsir imkanlarına malikdir.

Nəzərdən keçirilən beşinci nümunədə də baş verən hadisəsinin çoxsaylı səbəbləri arasından yalnız birinin seçilib hadisəsinin yeganə səbəbi olaraq göstərilməsi həddindən artıq sadələşdirilmiş səbəb xətasına yol açmışdır. Aydın məsələdir ki, terror hadisəsinin baş verməsini şərtlərndirən yalnız bir səbəb – nifrət hissi ola bilməz; bu faktor terror hadisəsinin törədilməsini şərtləndirən çoxsaylı səbəblərdən - qlobal geopolitik səbəblərdən tutmuş terroristin mənəvi-ruhi vəziyyətini təyin edən səbəblərə kimi - yalnız biri kimi çıxış edə bilər.

Həddindən artıq sadələşdirilmiş səbəb xətasını baş vermiş olan müxtəlif tarixi hadisələrin ideoloji-siyasi analizi zamanı tez-tez müşahidə etmək mümkündür. Məsələn, 2022-ci il Rusiya-Ukrayna müharibəsi başlayandan etibarən diqqət mərkəzinə gələn mühüm suallardan biri bu müharibənin səbəblərinin

aydınlaşdırılması idi. Bu kontekstdə aparılan analizlər zamanı məntiqi müstəvidə diqqəti cəlb edən əsas məntiqi xətalardan biri məhz həddindən artıq sadələşdirilmiş səbəb xətası idi. Belə ki, hər hansı səbəbi bu müharibənin yeganə səbəbi olaraq göstərilməsi məntiqi cəhətdən yol verilməzdir. Burada çoxsaylı səbəblər çoxluğu - ənənəvi Rusiya-Qərb ziddiyyətlərindən və NATO-nun son məqsədinin Rusiya dövlətini parçalamaq istəyi ətrafında Rusiyada formalaşmış qorxudan tutmuş Leonid Kuçmanın prezidentliyi dövründə (1994-2005) Ukraynanın xarici siyasətində izlənilən Rusiya ilə Qərb arasında balanslaşdırma siyasətinin daha sonrakı prezidentlərin siyasi hakimiyyəti dövründə tədricən Qərbin xeyrinə dəyişməsinə qədər - müxtəlif səbəblər nəzərə alınmalıdır. Bu qəbildən olan analizlər adətən həm də daha əvvəl nəzərdən keçirdiyimiz digər məntiqi xətaya - *yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlama xətasına* yol açır. Qeyd etdiyimiz kimi, fəlsəfədə və elmdə yaxın səbəbiyyət deyilərkən müşahidə edilən nəticə ilə onun meydana çıxmasına təsir göstərən bilavasitə səbəb arasındakı əlaqə nəzərdə tutulur. Müxtəlif hadisələr arasında mövcud olan yaxın səbəbiyyət adətən onlar arasında mövcud olan uzaq səbəbiyyət ilə müqayisə əsasında təyin edilir. Rusiya-Ukrayna müharibəsi kontekstində məsələn, əgər ənənəvi Rusiya-Qərb ziddiyyətləri və NATO-nun son məqsədinin Rusiya dövlətini parçalamaq istəyi ətrafında Rusiyada formalaşmış olan qorxu bu müharibənin uzaq səbəbi kimi çıxış edirsə, Leonid Kuçmanın prezidentliyi dövründə (1994-2005) Ukraynanın xarici

siyasətində izlənilən Rusiya ilə Qərb arasında balanslaşdırma siyasətinin daha sonrakı prezidentlərin siyasi hakimiyyəti dövründə tədricən Qərbin xeyrinə dəyişməsi bu müharibənin yaxın səbəbi kimi çıxış edir. Qeyd etdiyimiz kimi, yaxın və ya uzaq səbəbiyyətin təyin edilməsi adətən şərti xarakter daşıyır. Bir çox hallarda bir kontekstdə uzaq səbəb kimi təyin edilən səbəb digər kontekstdə yaxın səbəb kimi şərh edilə bilər. Əgər bunu nəzərə alaraq konteksti dəyişsək, onda qeyd etdiyimiz sonuncu yaxın səbəb yeni kontekstdə uzaq səbəb, məsələn, 2019-cu ildə Ukraynanın prezidenti seçilən və prezidentlik müddəti həm də müharibə dövrünə təsadüf edən Volodimir Zelenskinin siyasi hakimiyyətinin malik olduğu xassələr bu müharibənin yaxın səbəb kimi çıxış edə bilər. Əgər növbəti kontekstdə "miqyası" bir az da böyütsək, onda sonuncu qeyd edilən yaxın səbəbi uzaq səbəb, məsələn, müharibənin başlanmasına saatlar qalmış müharibə tərəflərindən hər hansı biri tərəfindən atılmış təxribat xarakterli addımları yaxın səbəb kimi nəzərdən keçirərək məntiqi analizi davam etdirə bilərik. İstənilən halda bir vacib məqamı bir daha vurğulamaq lazımdır: səbəbiyyət zəncirində uzaq səbəbi və yaxın səbəbi fərqləndirən zaman təbii ki, birinci səbəb mövcud olmazsa ikinci səbəbin də mövcud olmaması nəzərdə tutulur, ona görə də birinci səbəb (ola bilsin ki, səbəbiyyət zəncirində yer alan aralıq səbəblər vasitəsilə) ikinci səbəbin səbəbi olaraq çıxış edir. Amma bu nəticənin meydana çıxmasında yaxın səbəbin qeyri-mühüm (və hətta qeyri-zəruri) rol oynaması demək deyildir. Əgər nəzərdən

keçirilən faktorun yaxın səbəb funksiyasını icra etməsinə görə onun nəticənin meydana çıxmasına gətirib çıxaran səbəbiyyət zəncirində cüzi əhəmiyyət daşıması və ya heç əhəmiyyət daşımaması güman edilərsə, yaxın səbəbiyyətin uyğunluğunu yanlış anlama məntiqi xətası meydana çıxar.

### *(4) Ümumi səbəbin inkar edilməsi*

*Ümumi səbəbin inkar edilməsi xətası* nə zaman yaranır? Arqumentdə X ilə Y arasında davamlı korrelyasiyanın olmasını əsas gətirərək X-ın Y-ə səbəb olması (və ya əksinə) nəticəsi çıxarılırsa və bu zaman həm X, həm də Y-in səbəbi kimi çıxış edərək onlar arasında korrelasiya yaradan üçüncü dəyişən – Z inkar edilirsə, onda ümumi səbəbin inkar edilməsi xətasına yol verilir. Bu qəbildən olan məntiqi xətalara yol verən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

| |
|---|
| **Nümunə 6.** *Marixuanadan istifadənin leqallaşdırılması mövzusunda keçirilən debatda ondan istifadənin əleyhinə aşağıdakı arqument irəli sürülür*: "Marixuanadan istifadənin leqalaşdırılmasına heç bir halda yol vermək olmaz, çünki ondan istifadə edənlər daha sonra adətən heroin və ya kokaindən istifadə etməyə başlayır. Beləliklə, insan həm öz sağlamlığını itirir, həm də cəmiyyət üçün təhlükə yaradır." |

Bəzən marixuanadan istifadənin Alzheimer, artrit, epilepsiya, Parkinson və s. xəstəliklərin müalicəsində və ya onların öncədən qarşısının alınmasında güman edilən faydalarını əsas gətirərək

ondan istifadənin leqallaşdırılmasını təklif edirlər. Nəzərdən keçirilən bu nümunədə isə marixuanadan istifadə edənlərin sayında müşahidə edilən artım ilə heroin və ya kokain kimi daha təhlükəli narkotik vasitələrdən istifadə edilənlərin sayında müşahidə edilən artım arasında korrelyasiyanın olmasını əsas gətirərək marixuanadan istifadənin heroin və ya kokaindən istifadəyə səbəb olmasına dair nəticə çıxarılır. Marixuana istifadə edənlər adətən bir müddət sonra heroin və ya kokainə də müraciət edir fikri doğru ola bilər, amma burada həm marixuanadan, həm də heroin və ya kokaindən istifadəni doğuran ümumi səbəbin, məsələn, müəyyən sosial-iqtisadi və ya psixoloji faktorlara reaksiyanın, yaxud sadəcə olaraq narkotik vasitələrdən istifadənin təsirini bilavasitə öz üzərində təcrübədən keçirməyə olan marağın var ola bilməsi ehtimalı da mövcuddur. Məhz belə ümumi səbəbin ola bilməsi ehtimalı marixuanadan istifadə sonaralar daha təhlükəli narkotik vasitələrdən istifadəyə səbəb olur nəticəsinin təkzib edilməsinə imkan verir.

# Mövzu 48. Sürüşkən yamac

*Sürüşkən yamac xətası* da yalan səbəb xətasının bir növü kimi qəbul edilə bilər. Bu xəta nə zaman yaranır? Əgər arqumentin nəticəsi güman edilən zəncirvari əlaqələrə əsaslanırsa, amma belə əlaqələrin əslində mövcudluğuna dair etibarlı sübut(lar) yoxdursa, onda arqument sürüşkən yamac xətasına yol verir. Bu qəbildən olan məntiqi xətaya yol verən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 1**. *Pornoqrafik materialların yayımının qanunla qadağan edilməsi belə əsaslandırılır*: "Pornoqrafik materialların yayımı dərhal və qəti şəkildə qanunla qadağan olunmalıdır, çünki pornoqrafiya birmənalı şəkildə cəmiyyətdə zorlama kimi seksual xarakterli cinayətlərin, eləcə də insest kimi ikrah doğuran hadisələrin artmasına təsir göstərəcək. Bütün bunlar isə öz növbəsində cəmiyyətin əxlaqi bünövrəsini ciddi surətdə zədələyəcək, ona görə də digər növ cinayətlərin geniş yayılmasına təkan verəcək. Son nəticədə cəmiyyətdə nizamsızlıq və xaos yaranacaq, ümumbəşər sivilizasiyası məhvə doğru gedəcək."

Pornoqrafiyanı etik meyarlar çərçivəsində tənqid etmək və qanunla qadağan olunmasının zəruriliyini əsaslandırmağa cəhd etmək olar, amma aydın məsələdir ki, pornoqrafiyanın qanunla qadağan olunmamasının bu nümunədə qeyd olunan nəticələrə gətirib çıxarmasını düşünmək üçün etibarlı sübutlar mövcud deyil. Bu səbəbdən bu arqument özündə sürüşkən yamac xətasını ehtiva edir. Amma bu arqumentdə öz əksini tapan fikirlərə əks olan fikirlər əsasında qurulmuş arqumentdə də eyni xəta öz əksini tapa bilər:

**Nümunə 2.** *Pornoqrafik materialların yayımının qanunla qadağan olunmasına yol vermək olmaz fikri belə əsaslandırılır*: "Pornoqrafik materialların yayımı heç bir halda qanunla qadağan edilə bilməz, çünki bu insanın təbii

hüquqlarının pozulması üçün şərait yaradır. Belə ki, əgər pornoqrafiya qanunla qadağan edilərsə, qısa müddət sonra bütün qəzet və jurnallar ciddi senzura altına düşəcək. Bu isə öz növbəsində universitetlərdə oxunan mühazirələrin və tələbələrin istifadə etdiyi dərsliklərin, eləcə də siyasi xarakterli niqtlərin məzmun etibarilə ciddi senzuradan keçməsini şərtləndirəcək. Biz son nəticədə mərkəzi hökumət tərəfindən cəmiyyətdə azad fikrin boğulmasının və ictimai şüurun total nəzarət altında olmasının şahidi olacağıq."

Pornoqrafiyanın qadağan edilməməsinin zəruriliyini insan hüquqları çərçivəsində əsaslandırmağa cəhd etmək olar, amma pornoqrafiyanın qanunla qadağan olunmasının bu nümunədə qeyd edilən nəticələrə gətirib çıxarmasını düşünmək üçün də etibarlı sübutlar mövcud deyildir. Bu səbəbdən bu arqument də özündə sürüşkən yamac xətasını ehtiva edir.

Sürüşkən yamac xətası adətən qorxu ilə müşayiət olunan emosional vəziyyətdən doğur:

**Nümunə 3**. *Ali təhsil almaq üçün fəlsəfə ixtisasının seçilməsi niyə məqbul deyil fikri belə əsaslandırılır*: "Ali təhsil almaq üçün fəlsəfə ixtisası üzərində seçim etmək düzgün qərar deyil, çünki bu ixtisas üzrə təhsil alaraq cəmiyyətdə yüksək gəlir və ya yüksək sosial status vəd edən iş tapmaq çətindir. Bu isə növbəsində insanın sosial çevrəsinin məhdud olmasına

və heç kimin onunla ailə qurmaq istəməməsinə gətirib çıxaracaq. Beləliklə, əgər siz fəlsəfə ixtisası üzrə təhsil alsanız, onda kasıb və tənha həyat keçirməli olacaqsınız."

Nəzərdən keçirilən bu nümunədə də müşahidə etdiyimiz kimi, arqumentdən çıxarılan nəticənin orada sadalanan hadisələr arasındakı dəqiq səbəbiyyət əlaqəsinə əsaslandığı iddia edilir və bu hadisələr adətən *neqativ* sonluq ilə yekunlaşır. Amma bəzən bu məntiqi xətanı özündə əks etdirən arqumentlərdə çıxarılan nəticənin *pozitiv* sonluq ilə yekunlaşan zəruri səbəbiyyət əlaqəsinə əsaslandığı da iddia edilə bilər:

**Nümunə 4.** *X çayının reklamında belə qeyd edilir*: "Siz ağır çəkidən əziyyət çəkirsiniz? Onda X çayından istifadə etməyə tələsin. Siz hər gün bu çayı içməklə vücudunuzda yığılıb qalmış artıq piyləri əridə, artıq çəkidən xilas ola və nəhayət öz həyatınıza tam nəzarət edə bilərsiniz. X çayından için, sağlam, güclü və cazibədar olun, həyatınızdakı bütün problemlərə son deyin!"

Müəyyən təbii müalicə vasitələrindən istifadə edərək artıq çəkidən xilas olmağın və bu yolla daha sağlam həyat tərzinə keçid almağın mümkün olmasını tibbi nöqteyi-nəzərdən əsaslandırmağa cəhd etmək olar, amma aydın məsələdir ki, bu müalicə vasitələrinin hər hansı birindən istifadə etməklə

nümunədə qeyd olunan bütün nəticələrin əldə edilməsini düşünmək üçün etibarlı sübutlar mövcud deyildir.

Sürüşkən yamac xətasına yol verən arqumentlərdə iddia edilən səbəbiyyət zəncirinə daxil olan bütün hadisələr bəzən orada qeyd olunmur: arqumentdə bura daxil olan yalnız birinci və sonuncu hadisələr göstərilə bilər. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 5**. *Valideyn tərəfindən yeniyetmə övladının sosial şəbəkə hesablarına nəzarət edilməsinə qarşı aşağıdakı arqument irəli sürülür*: "Əgər valideyn tərəfindən yeniyetmə övladının sosial şəbəkə hesablarına nəzarət edilərsə, onda o, özünün azad seçim imkanından tamamilə məhrum olacaq."

Nəzərdən keçirdiyimiz bu nümunənin bir qədər fərqli formaya malik olmasına baxmayaraq, o, əslində sürüşkən yamac xətasını özündə əks etdirir, çünki burada heç bir məntiqi əsas olmadan valideyn tərəfindən yeniyetmə övladının sosial şəbəkə hesablarına nəzarət edilməsi hadisəsindən (birinci hadisədən) övladın azad seçim imkanından tamamilə məhrum olması hadisəsinə (ikinci hadisəyə) kimi davam edən səbəbiyyət zənciri nəzərdə tutulmuşdur.

## Mövzu 49. Nəticələrə müraciət

*Nəticələrə müraciət* də yalan səbəb xətasının bir növü olub fikrin doğru olub olmamasının onun pozitiv və ya neqativ nəticələr doğurması ilə təyin olunduğunu nəzərdə tutur. Başqa sözlə, belə xətaya yol verən arqumentdə irəli sürülən fikrin yaxşı və ya pis olaraq qavranılmasından asılı olaraq onun doğru və ya yalan olması zərurətinin yaranması iddia edilir. Bu qəbildən olan məntiqi xətaya yol verən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəyə nəzər salaq:

**Nümunə 1**. *Tanrının mövcud olub olmadığına dair müzakirə zamanı aşağıdakı arqument irəli sürülür*:

“$A_1$. Mən bilirəm ki, Tanrı mövcud deyildir.
$A_2$. Bu fikri əsaslandırmaq üçün hansı sübutu təqdim edə bilərsən?
$A_1$. Bu fikri əsaslandırmaq üçün Tanrının adından çıxış edərək törədilən cinayətlərə nəzər salmaq kifayətdir.”

Nəzərdən keçirilən bu nümunədə Tanrının mövcud olmamasına dair tutarlı arqument qurulmamışdır, eləcə də irəli sürülən fikri əsaslandıran etibarlı sübut təqdim edilməmişdir. Burada sadəcə olaraq Tanrının mövcud olmaması fikrinin Tanrıya olan inancın müəyyən neqativ nəticələr doğurması haqqında olan digər fikir vasitəsilə əsaslandırılmasına cəhd edilmişdir. Amma Tanrının adından çıxış edərək müəyyən cinayətlərin törədilməsinə dair məlumatlar vasitəsilə Tanrının mövcud olmaması fikrini məntiqi cəhətdən əsaslandırmaq mümkün deyil. Eyni şəkildə, müxtəlif dini institutların və ya dini təşkilatların xeyriyyəçilik fəaliyyəti vasitəsilə onların dini inanclarının doğru olmasını məntiqi cəhətdən əsaslandırmaq mümkün deyil.

Nəticələrə müraciət xətasını ehtiva edən arqumentlər vasitəsilə bəzən elmi nəzəriyyə və konsepsiyaların doğru olub olmamasını əsaslandırmağa cəhd edirlər:

**Nümunə 2**. *Təkamül nəzəriyyəsinin doğru olub olmadığına dair elmi müzakirə zamanı aşağıdakı arqument irəli sürülür*:
“$A_1$. Mən bilirəm ki, təkamül nəzəriyyəsi doğrudur.

$A_2$. Bu fikri əsaslandırmaq üçün hansı sübutu təqdim edə bilərsən?
$A_1$. Ali təhsil alan insanların arasında təkamül nəzəriyyəsini qəbul edənlərin sayı onun qəbul etməyənlər ilə müqayisədə daha çoxdur. Bu təkamül nəzəriyyəsinin doğru olduğunu əsaslandırmaq üçün kifayətdir."

Mümkün nəticələrin qəbul edilməsi insan psixologiyası üçün diskomfort yaradarkən bəzən nəticələrə müraciət xətasına yol verilir:

**Nümunə 3**. *ABŞ-ın İraq və Əfqanıstanda həyata keçirdiyi hərbi əməliyyatlar zamanı baş verməsi ehtimal edilən müharibə cinayətləri belə təkzib edilir*: "Mən inanmıram ki, ABŞ-a məxsus hərbi qüvvələr İraq və Əfqanıstanda çoxlu sayda günahsız mülki insanları qətlə yetirib. Bu fikrin doğru ola biləcəyini hətta düşünmək belə elə dəhşətlidir ki! Ona görə də o, yəqin ki, doğru ola bilməz."

# Fəsil 4. Prezumpsiya xətaları

Terminoloji baxımdan prezumpsiya latınca *praesumptio* sözündən yaranıb ki, hərfi mənada "ehtimal", "güman" kimi tərcümə edilir. Ümumi mənada o, gümana əsaslanmış şəkildə doğru qəbul edilmiş ideya kimi nəzərdən keçirilə bilər. Məsələn, hüquqda təqsirsizlik prezumpsiyası cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxsin, əgər onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılmasını nəzərdə tutan prinsipi ifadə edir. Amma burada cinayətin törədilməsində təqsirləndirilən şəxsin günahsız olması dəqiq deyil, ona görə də o, gümana əsaslanmış şəkildə doğru qəbul edilən fikirdir. Əgər təqsirləndirən şəxsə qarşı qaldırılan iddia məhkəmədə sübut edilərsə, onda bu güman özünü doğrultmayacaq, yəni təqsirləndirilən şəxs *günahkar* hesab ediləcək. Əgər təqsirləndirən şəxsə qarşı qaldırılan iddia məhkəmədə sübut edilməzsə, onda bu güman özünü doğruldacaq, yəni təqsirləndirilən şəxs *günahsız* hesab ediləcək. Hər bir halda cinayətin törədilməsində təqsirləndirilən şəxsin günahının məhkəmədə sübut edilməsi yalnız onu cinayətin törədilməsində təqsirləndirən şəxsin borcudur. Başqa

sözlə, cinayətin törədilməsində təqsirləndirilən şəxsin öz günahsızlığını məhkəmədə sübut etmək zərurəti yoxdur.

Qeyri-formal məntiqdə prezumpsiya xətalarına gəldikdə isə qeyd etmək olar ki, onların yaranmasının səbəbi arqumentin müqəddimələrinin məntiqi cəhətdən arqumentin nəticəsinə uyğun gəlməməsi deyil, arqument tərəfindən isbat edilməli olan fikrin artıq onun müqəddimələrində *fərz* edilməsidir. Məsələn, prezumpsiya xətasının bir növü olan *petitio principii* (“"başlanğıc nöqtəsinin fərz edilməsi”) elə məntiqi xətadır ki, burada arqumentin müqəddiməsində onun nəticəsinin doğru olması əvvəlcədən güman edilir. Oxşar vəziyyəti məsələn, bu qəbildən olan digər - *mürəkkəb sual* xətasında da müşahidə etmək mümkündür: burada əslində dəqiq və hərtərəfli cavabın verilməsini tələb edən suala sadəcə olaraq “bəli”, “xeyr” və ya bu şəkildə digər qısa cavabın verilə biləcəyi güman edilir.

## Mövzu 50. Başlanğıc nöqtəsinin fərz edilməsi (*Petitio Principii*)[1]

*Başlanğıc nöqtəsinin fərz edilməsi* xətası nə zaman yaranır? Əgər arqumentin müqəddiməsində onun nəticəsinin doğru olması əvvəlcədən güman edilərsə və ya arqumentin əsas müqəddiməsi buraxılarsa, onda bu arqument sözü gedən xətaya yol verər. Əvvəlcə arqumentin nəticəsini əsaslandırmalı olan müqəddimədə bu nəticənin doğru olmasının öncədən güman edilməsinin məntiqi xətaya necə yol açdığını izah edək. Məlum olduğu kimi, düzgün qurulmuş arqumentdə yalnız müqəddimələrin doğru olması şərti mövcuddur; nəticənin doğru olması isə məhz müqəddimələrin doğru olmasından və

[1] Azərbaycan dilində bu məntiqi xəta bəzən onun məzmununa müvafiq şəkildə "qapalı dairə" kimi adlandırılır. Amma (*peto* sözündən yaranan) *petitio* latın dilindən tərcümədə "fərz etmə" və ya "postulat olaraq qəbul etmə" kimi tərcümə edilir. Amma bu məntiqi xətanın adının latın dilindən tərcümə edilərək ingilis dilinə keçdiyi 16-cı əsrdən daha əvvəlki dövrlərə mənsub qədim latın mətnlərində *petitio* özündə "ərizə", "xahiş" və ya "yalvarma" kimi mənaları daşıyır. *Principium* sözünün yiyəlik halı olan *principii* sözü isə latıncadan "başlanğıc", "təməl" və ya "müqəddimə" kimi tərcümə edilir. Beləliklə, *petitio principii* latın dilindən tərcümədə "müqəddiməni fərz etmə" və ya "başlanğıc nöqtəni fərz etmə" kimi tərcümə edilir. Ətraflı məlumat üçün baxın: Norman Kretzmann & Eleonore Stump. *Logic and the Philosophy of Language. The Cambridge Translations of Medieval Philosophical Texts.* Vol. 1. Cambridge University Press, 1988, p. 374.

bu müqəddimələr arasında düzgün məntiqi əlaqənin necə qurulmasından asılıdır. Başqa sözlə, məntiqi cəhətdən düzgün qurulmuş arqument irəli tanış olmazdan əvvəl dinləyici və ya oxucu müqəddimələrin doğru olmasını qəbul edir və onlardan çıxan nəticənin doğruluğu arqumentasiyanın sonunda məlum olur. Amma əgər arqumentin nəticəsinin doğruluğu onun müqəddiməsində öncədən fərz edilərsə, onda burada əslində heç bir arqumentasiya reallaşmır, mühakimədə isə qapalı dairə adlanan məntiqi xəta yaranır. Bu qəbildən olan məntiqi xətalara yol verən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1**. *Tanrının mövcud olması fikrini belə əsaslandırmağa çalışırlar*: "Tanrı mövcuddur, çünki Quranda yazılan hər şey doğrudur. Quranda isə Tanrının mövcud

olması aydın şəkildə yazılıb."

**Nümunə 2**. *Fikirlərin maddi dünyanın tərkib hissəsi olmaması fikrini belə əsaslandırmağa çalışırlar*: "Şüur maddi dünyanın tərkib hissəsi deyil, çünki şüur mahiyyət etibarilə qeyri-maddidir."

**Nümunə 3**. *Təqdim etdiyi elmi məqalənin hansı səbəbdən elmi jurnalda nəşr edilməməsi ilə maraqlanan müəllifin bu sualı aşağıdakı kimi cavablandırılır*: "Sizin təqdim etdiyiniz məqalə jurnalda nəşr edilməyib, çünki jurnalın redaksiya heyəti tərəfindən bu məqalənin nəşr edilməsinin qeyri-məqbul olmasına dair qərar qəbul edilib."

Nəzərdən keçirdiyimiz birinci nümunədə istifadə edilən arqumentin nəticəsi ("*Tanrı mövcuddur*") bu arqumentin müqəddiməsi qismində iştirak edən mülahizə *("Quranda yazılan hər şey doğrudur*") vasitəsilə əsaslandırıla bilməz, çünki müqəddimədə ifadə edilən fikir artıq əvvəlcədən nəticədə ifadə edilən fikrin özünü nəzərdə tutur. Belə ki, Tanrı mövcud olmalıdır ki, Quranda yazılan hər şey doğru olsun, çünki islama görə onun müqəddəs dini kitabı olan Quran peyğəmbərin və ya digər insanın sözlərini deyil, Tanrının iradəsini özündə əks etdirir. Bu kontekstdə peyğəmbər müqəddəs kitabın müəllifi

deyil, Tanrının iradəsini insanlara çatdıran vasitəçi olaraq çıxış edir. Bu səbəbdən “Quranda yazılan hər şey doğrudur” fikri ilə “Tanrı mövcuddur” fikrini məntiqi cəhətdən əsaslandırmaq qeyri-mümkündür, əks halda mühakimə qapalı dairəyə yol açaraq *petitio principii* xətasının yaranmasına səbəb olacaq. Bütün bu qeyd edilənlər nəzərdən keçirdiyimiz digər nümunələrdə iştirak edən arqumentlərə də aiddir.

İkinci nümunədə *“Şüur maddi dünyanın tərkib hissəsi deyildir*” fikri “*Şüur mahiyyət etibarilə qeyri-maddidir*” fikrini nəzərdə tutur və əksinə, ikinci fikir birinci fikri nəzərdə tutur. Beləliklə, biz yenidən mühakimədə qapalı dairə ilə qarşılaşırıq.

Üçüncü nümunədə də eyni şəkildə *“Sizin təqdim etdiyiniz məqalə jurnalda nəşr edilməyib*” fikri *“Jurnalın redaksiya heyəti tərəfindən bu (sizin təqdim etdiyiniz) məqalənin nəşr edilməsinin qeyri-məqbul olmasına dair qərar qəbul edilib*” fikrini nəzərdə tutur və əksinə, ikinci fikir birinci fikri nəzərdə tutur. Beləliklə, yenə də mühakimədə qapalı dairə yaranır.

Bəzən mühakimədə qapalı dairə indiyə kimi nəzərdən keçirilən nümunələrdə olduğu kimi, arqumentin nəticəsi qismində çıxış edən mülahizənin onun müqəddiməsində bir az fərqli şəkildə artıq istifadə edilmiş olması formasında deyil, nəticəçıxarma zənciri vasitəsilə baş verə bilər:

**Nümunə 4**. *ABŞ universitetlərinin dünyada ən yaxşı universitet olması fikrini belə əsaslandırmağa çalışırlar*: “ABŞ

universitetləri şübhəsiz ki, dünyada ən yaxşı universitetlərdir, çünki biz dünyada ən savadlı tələbələrin burada təhsil aldığını bilirik. Bu doğrudur, çünki onlar dünyanın ən savadlı və təcrübəli müəllimlərinə daha yüksək əmək haqqı verərək onların burada çalışmağına nail ola bilir. Aydın məsələdir ki, ABŞ universitetləri ona görə dünyanın ən savadlı və təcrübəli müəllimlərinə daha yüksək əmək haqqı verərək onları bura cəlb edə bilir ki, bu universitetlərin fəaliyyətinə müxtəlif fondlar tərəfindən daha çox maddi yardım ayrılır. Müxtəlif fondlar həqiqətən ABŞ universitetlərinin fəaliyyətinə daha çox maddi yardım ayırır, çünki onlar gerçəkdən dünyanın ən yaxşı universitetləridir."

Bu qəbildən olan arqumentlər ilə qarşılaşan dinləyicilərdə və ya oxucularda arqumentin başlanğıcının (birinci müqəddiməsinin) təyin edilməsi ilə bağlı suallar yarana bilər. Amma mühakimədə yaranan qapalı dairə səbəbindən belə arqumentlərin başlanğıcı əslində mövcud olmur, ona görə də onlar nəticə etibarilə heç bir şeyi əsaslandıra bilmir.

Beləliklə, hər hansı arqumentin nəticəsini əsaslandırmalı olan müqəddimədə bu nəticənin doğruluğunun öncədən güman edilməsinin *petitio principii* xətasına necə yol açdığını artıq izah etdik. İndi isə arqumentin əsas müqəddiməsinin buraxılmasının *petitio principii* xətasına necə yol açdığının izahına keçid alaq. Belə ki, bəzən qurulan arqumentdə əsas müqəddimə buraxılır,

amma bu zaman arqumentdə nəticənin çıxarılması üçün sanki daha heç bir şeyə ehtiyacın olmaması illuziyası yaradılır. Amma bu, öz növbəsində arqumentin nəticəsinin doğruluğunu əsaslandıran real mənbənin aydın olmamasına və arqumentin çıxış etdiyi başlanğıc fikrə dair oxucuda və ya dinləyicidə sualın yaranmasına gətirib çıxarır. Bu qəbildən olan məntiqi xətalara yol verən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 5**. *Abortun əxlaqi cəhətdən yolverilməz olması belə əsaslandırılır*: "İnsanı qətlə yetirmək əxlaqi cəhətdən yanlış hərəkətdir. Bunu nəzərə alsaq, əlbəttə ki, abort etdirmək də əxlaqi cəhətdən yanlış hərəkətdir."

**Nümunə 6**. *İnsanların və meymunların ortaq əcdadlardan təkamül etməsi belə əsaslandırılır*: "Şübhəsiz ki, insanlar və meymunlar ortaq əcdadlardan təkamül etmişdir. Siz onların necə oxşar olmasına baxın."

Nəzərdən keçirilən beşinci nümunədə arqumentin çıxış etdiyi başlanğıc fikrə dair aşağıdakı sual meydana çıxır: "Siz haradan bilirsiniz ki, abort qətlin bir formasıdır?" Altıncı nümunədə isə oxucuda və ya dinləyicidə aşağıdakı sual meydana çıxa bilər: "İnsanların və meymunların oxşar olması faktı mütləq şəkildə onların ortaq əcdadlardan təkamül etməsini nəzərdə tuturmu?" Belə sualların meydana çıxması arqumentin mühüm müqəddiməsinin buraxılmasının göstəricisidir. Belə ki, beşinci nümunədəki arqumentin aşağıdakı müqəddiməsi buraxılmışdır: "Abort qətlin bir formasıdır." Altıncı nümunədəki arqumentin aşağıdakı müqəddiməsi buraxılmışdır: "İnsanların və meymunların oxşar olması faktı onların ortaq əcdadlardan təkamül etməsini nəzərdə tutur." Bu müqəddimələrin doğru olması arqumentin tutarlı olmasının təyin edilməsində həlledici rol oynayır. Əgər onlar doğru olmazsa, onda arqument tutarlı arqument və deməli, həm də düzgün qurulmuş arqument hesab edilməyəcək. *Petitio principii* xətasına yol verən arqumentlərin bu müqəddimələri bir qayda olaraq yalan (və ya mübahisəli) olduğundan onlar açıq şəkildə ifadə edilmir, çünki əks halda arqumentin tutarlı və deməli, həm də düzgün

qurulmuş olmaması dərhal diqqəti cəlb edər. Diqqəti açıq ifadə edilməmiş yalan müqəddimədən yayındırmaq üçün burada adətən “əlbəttə ki”, “şübhəsiz ki”, “aydındır ki”, “həqiqətən” və bu qəbildən olan digər ritorik frazeoloji birləşmələrdən istifadə edilir. Beləliklə, arqumenti irəli sürən insan belə frazeoloji birləşmələr vasitəsilə açıq şəkildə ifadə edilən müqəddimənin arqumentdən çıxan nəticəni əsaslandırması illuziyasını yarada biləcəyinə ümid edir.

***Vacib qeyd:***

Başlanğıc nöqtəsinin fərz edilməsi xətasına yol verən bütün arqumentlərdə məntiqi cəhətdən uyğunsuz müqəddimələrin nəticəni məntiqi cəhətdən dəstəkləməsinə dair illuziya formalaşdırmaq üçün bir sıra linqvistik vasitələrdən, məsələn, qeyd etdiyimiz kimi, müxtəlif ritorik frazeoloji birləşmələrdən istifadə edilir. Əgər arqumentdə belə illuziya *yaradılmırsa*, onda orada *petitio principii* xətası yaranmır. Məsələn, aşağıdakı nümunələrdəki arqumentlərdə belə xəta ehtiva edilmir:

**Nümunə 7.**
$M$. Heç bir insan meymun deyildir.
$N$. Heç bir insan meymun deyildir.

**Nümunə 8.**
$M$. Bakı Azərbaycanın paytaxtıdır və Ankara Türkiyənin paytaxtıdır.

$N$. Bakı Azərbaycanın paytaxtıdır və Ankara Türkiyənin paytaxtıdır.

Nəzərdən keçirdiyimiz sonuncu hər iki nümunədə müqəddimə qismində olan mülahizə nəticə qismində işlədilən mülahizənin təkrarıdır, amma müqəddimə məntiqi cəhətdən uyğun şəkildə nəticəni dəstəklədiyindən burada başlanğıc nöqtəsinin fərz edilməsi xətasına yol verilməyib. Hər iki nümunədəki arqument tutarlı arqumentdir, çünki onlar etibarlı arqumentdir və doğru müqəddimələrə malikdirlər. Müqayisə etmək üçün növbəti arqumenti nəzərdən keçirək:

**Nümunə 9.**
$M$. Bakı Türkiyənin paytaxtıdır.
$N$. Bakı Türkiyənin paytaxtıdır.

Bu nümunədəki arqument etibarlıdır, amma tutarlı deyil, çünki arqumentin müqəddiməsi yalandır. Amma bu arqumentdə də *petitio principii* xətası öz əksini tapmamışdır: müqəddimənin yalan olması səbəbindən nəticə də yalan olduğundan qeyd edə bilərik ki, əgər müqəddimə doğru olsaydı, nəticə də doğru olardı. İstənilən halda burada da diqqəti yalan müqəddimədən yayındırmaq üçün arqumentin qurulmasında heç bir illuziya effektindən istifadə edilməmişdir.

# Mövzu 51. Mürəkkəb sual

*Mürəkkəb sual xətası* nə zaman meydana çıxır? Əgər tərkibində əslində iki və daha artıq sualı birləşdirən yalnız bir sual soruşularsa və burada ehtiva edilmiş olan bütün suallara yalnız bir cavab verilərsə, onda mürəkkəb sual xətası yaranar. Hər bir mürəkkəb sual müəyyən şərtin mövcud olmasını güman edir. Bu sualın cavablandırılması zamanı həmin şərti formalaşdıran arqumentin özü təzahür edir. Beləliklə, mürəkkəb sual özündə gizli şəkildə qurulmuş arqumenti əks etdirir ki, o da sualı cavablandıran insanın başqa hallarda ola bilsin ki, etiraf etmək istəmədiyi şeyi ona etiraf etdirmək üçün onu tələyə salmaq məqsədini daşıyır. Mürəkkəb sual xətasını özündə əks etdirən arqument aşağıdakı struktura malikdir:



Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

| |
|---|
| **Nümunə 1**. "İndi çalışdığın müəssisədə artıq rüşvət alırsan?" |

| |
|---|
| **Nümunə 2**. "Vaksinasiyaya dair saxta sertifikatı haradan almısan?" |

Gəlin fərz edək ki, sualın ünvanlandığı şəxs birinci nümunədəki sualı "xeyr", ikinci nümunədəki sualı isə "X saylı poliklinikadan" deyərək cavablandırır. Bu zaman müvafiq şəkildə aşağıdakı arqumentlər meydana çıxır:

| |
|---|
| "Səndən çalışdığın müəssisədə artıq rüşvət alıb almadığın soruşulur. Sən sualı "xeyr" deyərək cavablandırırsan. Deməli, sən keçmişdə çalışdığın müəssisədə rüşvət alırdın." |

| |
|---|
| "Səndən vaksinasyaya dair saxta sertifikatı haradan aldığın soruşulur. Sən suala "X saylı poliklinikadan" deyərək cavab verirsən. Deməli, sən vaksinasiyaya dair sertifikatı əslində saxta yolla almısan." |

İndi isə gəlin fərz edək ki, sualın ünvanlandığı şəxs birinci nümunədəki sualı "bəli", ikinci nümunədəki sualı isə "heç bir yerdən" deyərək cavablandırır. Bu zaman müvafiq şəkildə aşağıdakı arqumentlər meydana çıxır:

“Səndən çalışdığın müəssisədə artıq rüşvət alıb almadığın soruşulur. Sən sualı “bəli” deyərək cavablandırırsan. Deməli, sən indi də rüşvət alırsan (və ya rüşvət almaqda davam edirsən).”

“Səndən vaksinasyaya dair saxta sertifikatı haradan aldığın soruşulur. Sən suala “heç bir yerdən” deyərək cavab verirsən. Deməli, sən vaksinasiyaya dair sertifikatı əslində saxta yolla aldığını bizdən gizlədirsən.”

Beləliklə, bu nümunələrdəki sualların hər biri özündə iki sualı ehtiva edir:

“Sən keçmişdə çalışdığın müəssisədə rüşvət alırdın? Əgər sən keçmişdə çalışdığın müəssisədə rüşvət alırdınsa, onda indi çalışdığın müəssisədə də rüşvət alırsan (və ya rüşvət almaqda davam edirsən)?”

“Sən vaksinasiyaya dair sertifikatı saxta yolla almısan? Əgər sən vaksinasiyaya dair sertifikatı saxta yolla almısansa, onu haradan almısan?”

Əgər sualın ünvanlandığı şəxs əslində onun mürəkkəb sual olduğunu müəyyənləşdirməyi bacarmasa, onda onu kifayət

qədər etinasız şəkildə cavablandıra və beləliklə, hələlik heç bir sübut ilə əsaslandırılmayan nəticənin meydana gətirdiyi tələyə düşə bilər. Bu zaman həmin şəxs aldanaraq həmin nəticəni əsaslandıran sübutu qeyri-iradi şəkildə özü də təqdim edə bilər. Mürəkkəb suala düzgün cavab vermək üçün onu əvvəlcə tərkib hissələrinə ayırmaq və onun tərkib hissəsi kimi çıxış edən hər bir sualı ayrılıqda cavablandırmaq lazımdır.

Mürəkkəb sual xətasını hüquqda məlum olan *istiqamətləndirici sualdan* fərqləndirmək lazımdır. İstiqamətləndirici sualda sualın cavabı onun özündə hansısa şəkildə təklif edilir. Bu mənada məhkəmə prosesində hadisə şahidinin dindirilməsi zamanı ona ünvanlanan sualın istiqamətləndirici olub olmaması mühüm əhəmiyyət daşıyır. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 3.**
Məhkəmə prosesində hadisə şahidinin dindirilməsi zamanı ona ünvanlanan *istiqamətləndirici* sual:
"Bizə deyin, siz 19 aprel 2018-ci il tarixində müttəhimin mərhuma soyuq silahla zərbə endirdiyini görmüsünüzmü?"

Məhkəmə prosesində hadisə şahidinin dindirilməsi zamanı ona ünvanlanan *birbaşa* sual:
"Bizə deyin, siz 19 aprel 2018-ci il tarixində nə görmüsünüz?"

İstiqamətləndirici sualın mürəkkəb sualdan fərqi ondadır ki, o, bəzən özündə heç bir məntiqi xətanı əks etdirmir. Başqa sözlə, istiqamətləndirici sual mürəkkəb sualdan fərqli olaraq bəzən sualın ünvanlandığı şəxsin qəbul etmək istəmədiyi şeyi qəbul etməsi üçün onu aldatmağa çalışmır. Amma bəzən ünvanlanan sual həm mürəkkəb sual, həm də istiqamətləndirici sual kimi nəzərdən keçirilə bilər:

**Nümunə 4**. *Məhkəmə prosesində prokuror müttəhimdən soruşur*: "Siz qətldə isitifadə edilən silahı harada gizlətmisiniz?"

Bu nümunədə ünvanlanan sual müttəhimin qətldə istifadə edilən silahın harada olduğunu bildiyini əvvəlcədən güman edir. Əgər müttəhim ona ünvanlanmış sualı cavablandırarkən silahı gizlətmədiyini deyərsə, onda məhkəmə onun silahı özündə saxlamış olduğunu güman edə bilər.

***Vacib qeyd:***

Ünvanlanan sualın özündə mürəkkəb sual xətasını ehtiva edib etməməsini təyin etmək üçün onun ünvanlandığı kontekstə də diqqət ayırmaq lazımdır. Gündəlik adi dialoq zamanı insan qarşı tərəfdən sualda nəzərdə tutulan fikirləri artıq formalaşmış olan ümumi bilik əsasında qəbul etdiyini güman edə bilər. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 5.** *Gündəlik adi dialoq zamanı bir azərbaycanlı digərindən soruşur:* “Bizim prezident harada ali təhsil alıb?”

Bu nümunədə sualı ünvanlayan şəxs qarşı tərəfin formalaşmış olan ümumi bilik əsasında heç olmazsa aşağıdakı fikirləri qəbul etdiyini güman edir:

(1) Azərbaycanın prezidenti mövcuddur.
(2) Prezident ali təhsilli olmalıdır.[1]

Sualı ünvanlayan şəxs bu gümandan çıxş edərək bu fikirlərin hər birini təkrarlamağa və bununla nitqi ağırlaşdırmağa ehtiyac hiss etmir. Ona görə də ümumi biliklər əsasındna qəbul edilmiş fikirlər kontekstində nitqin rəvanlığını qoruyub saxlamaq üçün bu qəbildən olan suallardan isitifadə etmək olar.

[1] Azərbaycan Respublikasının Konstitusiyasının 6-cı fəsil, 100-cü maddəsində Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər arasında onun ali təhsilli olması tələbi də öz əksini tapır.

# Mövzu 52. Yalan dixotomiya[1]

Yalan dixotomiya xətası bəzən *yalan bifurqasiya* (latın dilindən tərcümədə *bifurcus* "ikiləşmə" deməkdir) və "*ya-ya da*" xətası kimi də adlanır. "Dixotomiya" sözü yunancadan tərcümədə "iki hissəyə bölmə" mənasını verir, beləliklə, tamamilə əks və bir-birindən fərqli olan iki qrup və ya çoxluq arasında mövcud olan ayrrılmanı bildirir. Dixotomiyada bölünmə üzvləri bir-birini tamamlamalıdır və hər şey ya onlardan birinə, ya da digərinə aid olmalıdır. Məsələn, əgər hər hansı A çoxluğunu B və qeyri-B altçoxluqlarına ayırsaq, bu altçoxluqlar bir-birini tamamlayaraq birlikdə həcm etibarilə yenidən A çoxluğuna bərabər olmalıdır; A çoxluğuna mənsub olan hər şey hər şey ya B, ya da qeyri-B altçoxluğuna aid olmalıdır. Məsələn, əgər canlıları məməlilərə və qeyri-məməlilərə ayırsaq, məməlilər və qeyri-məməlilər bir-birini tamamlayaraq birlikdə həcm etibarilə canlılara bərabər olacaq. Eyni zamanda hər bir canlı ya məməlilərə, ya da qeyri-məməlilərə aid olacaq. Dixotomiyada bölünmə üzvləri həm də qarşılıqlı olaraq bir-birini istisna etməlidir və heç bir şey eyni zamanda onların hər ikisinə aid ola bilməz. Əgər A çoxluğunu B və qeyri-B altçoxluqlarına ayırsaq, bu altçoxluqlar qarşılıqlı olaraq bir-birini istisna etməlidir. Məsələn, əgər canlıları

[1] Yalan dixotomiya xətası qeyri-formal məntiqi xətalara dair kitablarda bəzən "hər şey və ya heç bir şey" kimi də adlandırılır.

məməlilərə və qeyri-məməlilərə ayırsaq, onda heç bir canlı eyni zamanda həm məməlilərə, həm də qeyri-məməlilərə aid ola bilməz.

*Yalan dixotomiya xətası* nə zaman yaranır? Əgər arqumentin hər hansı bir müqəddiməsi özündə iki alternativi əks etdirən dizyunksiyadan ("ya-ya da" məntiqi operatoru vasitəsilə formalaşan mürəkkəb mülahizədən) ibarətdirsə və bu alternativlər bir-birini tamamlamırsa (üçüncü alternativ də var ola bilərsə), onda arqument özündə yalan dixotomiya xətasını ehtiva edir. Halbuki bu xətaya yol verən arqumentlərdə bir qayda olaraq, "ya-ya da" mülahizəsində öz əksini tapan iki alternativin bir-birini tamamlaması, beləliklə, orada üçüncü alternativin olmasının qeyri-mümkünlüyü görüntüsü yaradılır. Eyni zamanda arqumentin müəllifi bu alternativlərdən yalnız birinə üstünlük verir. Arqumentasiya prosesində arzuedilməz olan alternativ arqumentin müəllifi tərəfindən aradan qaldırılır və beləliklə, arzuedilən alternativ arqumentin nəticəsində öz əksini tapır. Bu qəbildən olan arqumentlər bir qayda olaraq etibarlı arqumentdir, amma müqəddimələrdən heç olmazsa biri (adətən dizyunksiyanın iştirak etdiyi müqəddimə) yalan olduğundan arqument demək olar ki, heç bir zaman tutarlı arqument deyildir. Burada yalan dixotomiya xətasına yol açan amil qeyd etdiyimiz kimi, dizyunksiyada dizyunksiya üzvlərinin bir-birini tamamlayaraq yalnız iki alternativ təşkil etməsi, alternativlərdən birinin inkar edilməsi ilə digərinin doğru olması

zərurətinin meydana çıxması görüntüsünü yaratmaq cəhdidir. Bu qəbildən olan məntiqi xətanı özündə əks etdirən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1.** *Məktəbli yoldaşları ilə birlikdə bayram tədbirində iştirak etmək istəyən yeniyetmə valideynlərini razı salmaq üçün belə deyir:* "Ya siz mənə bayram tədbirində iştirak etmək üçün icazə verəcəksiniz, ya da mən həyatımın sonuna kimi əzab çəkəcəm. Mən bilirəm ki, siz mənim həyatımın sonuna kimi əzab çəkməyimi istəmərsiniz. Deməli, siz mənə bayram tədbirində iştirak etmək üçün icazə verəcəksiniz."

**Nümunə 2**. *Avtoritar siyasi rejimdə xarici mətbuata istinadən məlumatın əldə edilməsinə belə reaksiya verilir*: "Ya siz yalnız yerli mətbuata istinad etməlisiniz, ya da siz xarici mətbuatın dediklərinə inanaraq bizim ölkəmizin düşməninə çevrilirsiniz. Dünən siz xarici mətbuata istinad etmisiniz. Bu səbəbdən aydın məsələdir ki, siz bizim ölkəmizin düşmənisiniz."

Nəzərdən keçirdiyimiz nümunələrin heç birində düzyunktiv müqəddimə bir-birini tamamlayan alternativləri özündə əks etdirmir, amma arqumenti irəli sürən insan sanki bunun əks olunmasına dair görüntü yaratmağa çalışır. Birinci nümunədə arqumentin müəllifi elə bir illuziya yaratmağa çalışır ki, burada sanki yalnız iki alternativ mövcuddur: ya o, bayram tədbirində iştirak edəcək, ya da o, həyatının sonuna kimi əzab çəkəcək və digər alternativlər mövcud deyildir. Aydın məsələdir ki, bu, belə deyildir. Eyni şəkildə ikinci nümunədə arqumentin müəllifi elə bir illuziya yaratmağa çalışır ki, burada sanki yalnız iki alternativ mövcuddur: ya siz yalnız yerli mətbuata istinad edirsiniz, ya da siz xarici mətbuatın dediklərinə inanaraq ölkənin düşməninə çevrilirsiniz və degər alternativlər mövcud deyildir. Aydın məsələdir ki, bu yanaşma da məntiqi cəhətdən düzgün deyildir.

Yalan dixotomiya xətasını özündə əks etdirən arqumentin tutarlı ola bilməsi dizyunktiv müqəddimənin doğru olmasından asılıdır. Bu müqəddimədə isə yalnız iki alternativin olması fərz edilir, amma nəzərdən keçirdiyimiz kimi, burada yalnız iki

alternativin olması və digər alternativlərin olmaması mümkün deyil. Beləliklə, arqumentin dizyunktiv müqəddiməsi yalandır və bu səbəbdən arqument tutarlı deyil.

Yalan dixotomiya xətasına yol verən arqumentlər əksər hallarda tam şəkildə qurulmuş arqumentlər kimi təqdim edilmir. Belə ki, yalnız dizyunktiv müqəddimə təqdim edilir və qarşı tərəfdən arqumentin çatışmayan hissələrinin tamamlanması gözlənilir. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 3**. *Kişi onun spirtli içki qəbul etməsinə etiraz edən həyat yoldaşına belə cavab verir*: "Ya mən spirtli içki qəbul edəcəm, ya da mən bütün günü əsəbi olaraq səni döyəcəm."

Burada arqumentin çatışmayan müqəddiməsini və nəticəsini asanlıqla tamamlamaq mümkündür.

# Mövzu 53. Qarşısı alınmış sübut

*Qarşısı alınmış sübut xətası* nə zaman yaranır? Müzakirə edilən mövqeyi əsaslandırmaq üçün arqument təqdim edilərkən onun nəticənin yalan olduğunu, yaxud arqumentin qeyri-düzgün olduğunu göstərə biləcək müvafiq sübut buraxılarsa və ya onun üzə çıxmasının qarşısı alınarsa, bu arqument qarşısı alınmış sübut xətasına yol verər. Amma nəzərə almaq lazımdır ki, sübutun üzə çıxmasının qarşısının alınması hər zaman məntiqi xəta yaratmır. Əgər hər hansı informasiya ilə arqumentdən çıxan nəticə arasında uyğunluq mövcud deyilsə, onda ola bilsin ki, onun buraxılması qəbul ediləndir. Amma ola bilsin ki, bu informasiya ilə arqumentdən çıxan nəticə arasındna uyğunluq mövcuddur, amma onun təqdim edilməsi müzakirə edilən mövzudan diqqətin yayınmasına gətirib çıxara bilər. Bu zaman da onun təqdim edilməsi çox güman ki, məqbul deyil. Amma əgər qurulan arqumentin düzgün olmadığını, yaxud onun nəticəsinin yalan olduğunu gizlətmək üçün sübut bilərəkdən buraxılırsa, onda qarşısı alınmış sübut xətası meydana çıxır.

Bəzən müzakirə edilən mövzu, eləcə də bu kontekstdə qurulan arqumentin nəticəsi ilə birbaşa bağlı olan sübutun təqdim edilməsinin qarşısı bilərəkdən alınır, amma bu məntiqi xəta sayılmır. Məsələn, ABŞ hüquq sistemində *“sübutun qarşısını alma”* anlayışı məhkəməyə təqdim edilməsi nəzərdə tutulan

sübutun ora təqdim edilməsinin qarşısının alınması aktını nəzərdə tutur və bu akt hər zaman qanunsuz xarakter daşımır. Məsələn, əgər hakim bu sübutun qeyri-leqal yolla əldə edildiyini hesab edərsə, onda onun məhkəməyə təqdim edilməsinin qarşısını ala bilər. Bəzi mühüm hallar istisna olmaqla axtarış aparmaq və sübut toplamaq üçün etibarlı axtarış və ya həbs orderi, eləcə də cinayətin törədilməsinə dair ehtimal edilən səbəb olmalıdır. Həmçinin ABŞ hüquq sistemində *Miranda Hüquqları* (və ya *Miranda Xəbərdarlığı*) adlanan xüsusi tələb mövcuddur ki, bu tələbin pozulması ilə toplanan sübutların da məhkəməyə təqdim edilməsinin qarşısı hakim tərəfindən alına bilər. Bu tələbə əsasən polis cinayətdə şübhəli bilinən şəxsi saxlayarkən onu sorğu-sual etməzdən əvvəl onun suallara cavab verməmək hüququnun olduğunu, verəcəyi cavabların məhkəmədə sübut kimi istifadə oluna biləcəyini və onun vəkil ilə təmin olunmaq hüququnun olduğunu ona xatırlatmalıdır. Əgər şübhəli şəxs polis tərəfindən saxlanıldıqdan sonra onun sadalanan bu hüquqlara maik olması haqqında onun özünə birbaşa olaraq məlumat verilməzsə, onda onun həbsdən sonra etdiyi etiraflar və bildirdiyi fikirlər məhkəmə tərəfindən qəbul edilməyə bilər. Miranda hüquqları 1966-cı ildə Amerika Birləşmiş Ştatlarının Ali Məhkəməsinin qadın oğurluğunda və zorlamada şübhəli bilinən Ernesto Artur Miranda (1941-1976) adlı ABŞ vətəndaşının sözü gedən cinayət işləri üzrə çıxardığı tarixi əhəmiyyətli qərarı ilə bağlıdır. Belə ki, 1963-cü ildə E.A.Miranda polis tərəfindən sözü gedən cinayətlərdə şübhəli

şəxs qismində saxlanıldıqdan sonra qısa müddətlik sorğu-sualdan sonra ona qarşı sürülən cinayət ittihamlarını qəbul edir. Məhkəmə prosesində isə cinayət qurbanlarının ifadələri ilə birlikdə onun cinayəti törətdiyinə dair etirafları da sübut qismində məhkəməyə təqdim edilir. Nəticədə E. Miranda insan oğurluğuna və cinsi zorakılığa görə 30 il həbs cəzası alır. Amma bu məhkəmə qərarından Amerika Birləşmiş Ştatlarının Ali Məhkəməsinə apellyasiya şikayəti verilərkən onun vəkili diqqəti həbs zamanı onun suallara cavab verməmək hüququnun olmasının və verəcəyi cavabların məhkəmədə sübut qismində istifadə edilə biləcəyininin polis tərəfindən ona xatırladılmaması, eləcə də polis tərəfindən sorğu-sual zamanı onun vəkil ilə təmin edilməməsi kimi faktlara yönəldir. Nəticədə 1966-cı ildə Amerika Birləşmiş Ştatlarının federal məhkəmə sistemində ən yüksək məhkəmə instansiyası qeyd edilən faktları əsas götürərək onun tərəfindən edilmiş etirafların məhkəmədə sübut kimi istifadəsinin yolverilməz olmasına dair qərar qəbul edir. Beləliklə, bu hadisə ABŞ cinayət hüquq sistemində əsaslı dəyişiklik hesab edilərək Miranda Hüquqları (və ya Miranda Xəbərdarlığı) adı ilə tarixə düşür.

İndi isə sübutun üzə çıxmasının qarşısının alınmasının məntiqi xəta yaratdığı vəziyyətin izahına keçid alaq. Bunun aydın şəkildə izahı həm də induktiv arqumentin məzmunun heç olmazsa qısa şəkildə izahını tələb edir. Ona görə də öncə induktiv arqumentin məzmununu qısıa şəkildə izahın edək. Zəif induksiya xətalarının

məzmununu analiz edərkən qeyd etdiyimiz kimi, induktiv arqumentdə nəticə ilə müqəddimələr arasında məntiqi elədir ki, müqəddimələrin doğru və nəticənin yalan olması ehtimalı azdır. Burada nəticə müqəddimələrdən ehtimala əsaslanmış şəkildə doğur. Bunu nəzərə alaraq, İnduktiv arqumentləri də şərti olaraq iki yerə ayırmaq mümkündür: **güclü induktiv arqument** və **zəif induktiv arqument**. Bir qədər əvvəl induktiv arqumentdə müqəddimələr ilə nəticə arasındakı məntiqi əlaqədən bəhs edərkən qeyd edilənlər əslində güclü induktiv arqumenti xarakterizə edir. Zəif induktiv arqument isə elə arqumentdir ki, burada hətta iddia edilməsinə baxmayaraq, müqəddimələrdən ehtimala əsaslanmış şəkildə nəticə doğmur və ya müqəddimələrin doğru və nəticənin yalan olması ehtimalı çoxdur. Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1.**
$M$. İndiyə kimi tapılmış bütün dinozavr sümüklərinin yaşı ən azı 50 milyon ildir.
$N$. Tapılacaq növbəti dinozavr sümüyünün də yaşı güman ki, 50 milyon il olacaq.

Nəzərdən keçirilən bu arqument güclü induktiv arqumentdir, çünki onun nəticəsi ilə müqəddiməsi arasındakı məntiqi əlaqə elədir ki, müqəddimənin doğru və nəticənin yalan olması ehtimalı azdır. İndiyədək aparılan müvafiq elmi tədqiqatlar müqəddimənin doğru olduğunu təstiqləyir, yəni doğurdan da

indiyə kimi tapılmış bütün dinozavr sümüklərinin yaşı ən azı 50 milyon ildir. Məsələn, indiyədək tapılmış ən gənc dinozavr sümüyü Meksikanın Yukatan yarımadasında aşkarlanıb və tarixi 65 milyon il hesablanır.[1] Bunu nəzərə alaraq qeyd edə bilərik ki, tapılacaq növbəti dinozavr sümüyünün də yaşının güman ki, 50 milyon il olacağından arqumentin müqəddiməsinin doğru və nəticəsinin yalan olması ehtimalı azdır.

**Nümunə 2.**
$M$.İndiyə kimi tapılmış bütün meteoritlərin tərkibi qızıl ilə zəngindir.
$N$. Tapılacaq növbəti meteoritin də tərkibi güman ki, qızıl ilə zəngin olacaq.

Nəzərdən keçirdiyimiz bu arqumentin müqəddiməsi yalandır, çünki indiyə kimi tapılmış heç də bütün meteoritlərin tərkibi qızıl ilə zəngin deyil. Məsələn, Ağır Metallar Proqramı üzrə ABŞ Geoloji Təhlil qurumunun apardığı tədqiqatlar yalnız tərkibi dəmirlə zəngin olan meteoritlərin tərkibində həm də daha çox qızılın ola biləcəyini aşkarlayıb və əksinə, tərkibi dəmirlə zəngin olmayan meteoritlərin tərkibində daha az qızılın olduğunu müəyyənləşdirib.[2] Bunu nəzərə alaraq qeyd edə bilərik ki, bu arqumentin nəticəsinin yalan olma ehtimalı məsələn, daha

[1] Lyson R. Tyler, Antoine Bercovici, Stephen G. B. Chester, Eric J. Sargis, Dean Pearson & Walter G. Joyce. Dinosaur extinction: closing the ‘3 m gap’. B*iology Letters.* Vol. 8, No 1, 2011.

əvvəl nəzərdən keçirdiyimiz arqumentin nəticəsinin yalan olma ehtimalı ilə müqayisədə daha çoxdur, yəni tapılacaq növbəti meteoritin tərkibinin qızıl ilə zəngin *olmama* ehtimalı nisbətdə daha çoxdur. Bəs bu arqument güclü induktiv arqumentdirmi? Bəli. Ona görə ki, əgər müqəddimənin doğru olduğunu fərz etsəydik və bu fərziyyədən çıxış etsəydik, onda bu arqumentin də nəticəsinin yalan olması ehtimal az olardı. Başqa sözlə, bu arqumentin də nəticəsi ilə müqəddiməsi arasındakı məntiqi elə elədir ki, müqəddimənin doğru və nəticənin yalan olması ehtimalı azdır. Bu kontekstdə güclü induktiv arqument ilə etibarlı deduktiv arqument[1] arasında paralellər aparmaq mümkündür.

**Nümunə 3.**
$M_1$. Yanan kibrit yavaş-yavaş suya batırılarkən alov su tərəfindən söndürülür.
$M_2$. Benzin su kimi mayedir.
$N$. Yanan kibrit yavaş-yavaş benzinə batırılarkən alov benzin tərəfindən söndürüləcək.

---

[2] Robert S. Jones. Gold in Meteorites and in the Earth's Crust. *Geological Survey Circular* 603, 1974.

[1] Etibarlı deduktiv arqument haqqında oxumaq üçün baxın: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq.* Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2021, s. 81-87.

Bu arqumentin hər iki müqəddiməsi doğrudur, amma nəticəsi çox böyük ehtimal ki, yalandır. Beləliklə, bu arqumentin nəticəsi ilə onun müqəddiməsi arasındakı məntiqi əlaqə elədir ki, müqəddimənin doğru və nəticənin yalan olması ehtimalı azdır demək mümkün deyil. Ona görə də o, zəif induktiv arqument hesab edilir.

**Nümunə 4.**
$M$. Son 50 ildə müşahidə edilən inflyasiya amerikan dollarının dəyərini azaldıb.
$N$. Növbəti illərdə ABŞ-da güman ki, daha çox iqtisadi artım olacaq.

Bu arqumentin həm müqəddiməsi, həm də nəticəsi doğrudur, amma nəticə ilə müqəddimə arasında məntiqi əlaqə mövcud deyildir. Belə ki, iqtisadçıların apardıqları hesablamalara əsasən amerikan dolları son 50 ildə təqribən 6 dəfə ucuzlaşıb. Əgər bu müddət ərzində amerikan dollarında müşahidə edilən inflyasiyanı nəzərə alsaq, onda 1971-ci ilin 1 dollarının dəyəri 2021-ci ilin 0.15 dollarının dəyəri ilə bərabərlik təşkil edir. Digər tərəfdən isə 2019-cu ilin sonlarından etibarən bütün dünyaya yayılmağa başlayan Covid-19 pandemiyasına qarşı kütləvi vaksinasiya zamanı digər ölkələrə vaksin satışından, eləcə də 2022-ci ildə qanlı müharibə mərhələsinə qədəm qoyan Rusiya-Ukrayna konflikti zamanı silah satışından əldə edilən gəlirin kəskin artması növbəti illərdə ABŞ-da daha çox iqtisadi artımın

ola biləcəyini ehtimal etməyə əsas verir. Əgər Rusiya-Ukrayna hərbi konfliktinin uzunmüddətli olması, hətta genişlənərək Üçüncü Dünya Müharibəsinə çevrilməsi nəticəsində ABŞ silah sənayesinə olan tələbatın kəskin artması və bu müharibənin gedişində qlobal iqtisadiyyatda ABŞ-ın əsas rəqiblərinin məğlub olması ehtimallarını da bura əlavə edəriksə, onda yuxarıda nəzərdən keçirdiyimiz arqumentin nəticəsinin doğru olması ehtimalı daha da artırmış olar. İnflyasiyanın iqtisadiyyata olan təsirinə gəldikdə isə bunu birmənalı qiymətləndirmək mümkün deyil. Belə ki, inflyasiya bəzən iqtisadiyyata müsbət, bəzən isə mənfi təsir göstərə bilər. Belə ki, güclü inflyasiya iqtisadiyyata mənfi təsir göstərmiş olduğu halda zəif inflyasiya, xüsusilə əgər o, nəzarət altında saxlanılarsa, iqtisadiyyata müsbət təsir göstərə bilər. Burada təbii ki, məqsədimiz qətiyyən inflyasiya ilə iqtisadi artım arasındakı əlaqənin araşdırılması deyil. Nəzərdən keçirdiyimiz sonuncu müqəddimənin güclü, yoxsa zəif induktiv arqument olduğunu müəyyənləşdirmək üçün fərz edək ki, arqumentin həm müqəddiməsi, həm də nəticəsi doğrudur, amma istənilən halda nəticə ilə müqəddimə arasında məntiqi əlaqə mövcud deyildir, çünki inflyasiyanın iqtisadi artımı şərtləndirməsi fikri mübahisəlidir. Başqa sözlə, arqumentin nəticəsi ehtimala əsaslanmış şəkildə müqəddimədən doğmur və nəticə müqəddimədən asılı olmayaraq güman ki, doğrudur. Ona görə də bu arqument zəif induktiv arqumentdir.

Deduktiv arqumentin etibarlı arqument olması onun düzgün qurulmuş arqument olmasını təyin etmək üçün kifayət etmədiyi kimi induktiv arqumentin güclü arqument olması onun düzgün qurulmuş arqument olmasını təyin etməyə imkan vermir. Düzgün qurulmuş deduktiv arqument etibarlı arqument olmaqdan əlavə həm də tutarlı arqument olmalıdır. Oxşar şəkildə qeyd edə bilərik ki, düzgün qurulmuş induktiv arqument güclü arqument olmaqdan əlavə həm də inandırıcı arqument olmalıdır. Bəs inandırıcı arqument nədir? ***İnandırıcı*** arqument elə induktiv arqumentdir ki, həm o, güclü arqumentdir, həm də onun bütün müqəddimələri doğrudur. Əgər bu şərtlərdən hər hansı biri ödənilməmiş olarsa, onda arqument inandırıcı olmayan arqument olacaq. Beləliklə, inandırıcı olmayan arqument elə induktiv arqumentdir ki, o, ya zəif arqumentdir, ya onun müqəddimələrindən heç olmazsa biri yalandır, ya da o, həm zəif arqumentdir, həm də onun müqəddimələrindən heç olmazsa biri yalandır.

Bir halda ki, inandırıcı arqumentin nəticəsi ilə müqəddiməsi arasındakı məntiqi əlaqə elədir ki, müqəddimənin doğru və nəticənin yalan olması ehtimalı azdır, həmçinin onun bütün müqəddimələri doğrudur, deməli, hər bir inandırıcı arqumentin nəticəsi güman ki, doğrudur. Amma inandırıcı arqumentin qurulması zamanı mühüm bir şərt mövcuddur və onun təmin edilməməsi *qarşısı alınmış sübut xətasının* yaranmasına yol açır. Belə ki, inandırıcı arqumentin məntiqi qiymət etibarilə doğru

olan müqəddimələrini formalaşdırarkən orada təqdim edilən digər sübutlara nəzərən arqumentin nəticəsinin çıxarılmasına daha çox təsir göstərən hər hansı bir sübutu nəzərdən qaçırmaq olmaz, çünki bu amil nəticənin çıxarılmasına həlledici təsir göstərərək onun yalan olmasını, deməli, həm də arqumentin qeyri-düzgün qurulmasını şərtləndirir. Beləliklə, əgər induktiv arqumentin qurulması zamanı belə mühüm sübut nəzərdən qaçırsa, onda arqument qarşısı alınmış sübut xətasına yol verər. Bu qəbildən olan məntiqi xətanı özündə əks etdirən arqument aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 5.** *İnsan küçədə təsadüfən rastlaşdığı köpək haqqında belə düşünür:* "Əksər köpəklər insanlara qarşı mehribandır və onları oxşamaq istəyən insan üçün heç bir

təhlükə yaratmırlar. Ona görə də bizə yaxınlaşan kiçik köpəyi oxşamağın heç bir qorxusu yoxdur."

Amma bu nümunədə əgər insan məsələn, köpəyin qəzəbli olması, yaxud ağızında köpüyün əmələ gəlməsi (bu, quduzluğun əlamətidir) faktını diqqətdən kənarda qoyarsa, onda arqument qarşısı alınmış sübut xətasına yol vermiş olar. Ona görə ki, bu arqumentin qurulması zamanı bütün müqəddimələrin doğru və tam olduğu güman edilir, amma əslində nəticənin çıxarılmasına daha çox təsir göstərən sübut nəzərdən qaçmış olur. Beləliklə, düzgün induktiv arqument qurmaq üçün zəruri olan bütün şərtlər ödənilmir.

Qarşısı alınmış sübut xətasını özündə ehtiva edən arqumentdən reklamlarda tez-tez istifadə edilir. Demək olar ki, bütün reklamlar reklam edilən məhsulun müəyyən neqativ xassələrini diqqətdən kənarda qoyur. Bu səbəbdən reklam ilə tanış olan insan orada qeyd edilənlər əsasında məntiqi nəticə çıxararkən qarşısı alınmış sübut xətasına yol verə bilər. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 6**. *Elektrotexnika avadanlıqlarının reklamında qeyd edilir:* "İndi siz sadəcə cüzi məbləğ ödəməklə mağazamızdan istənilən elektrotexnika avadanlığını əldə edə bilərsiniz."

Məxsusi olaraq tam və birdəfəlik ödəniş edərək elektrotexnika avadanlığını almaqda çətinlik çəkən sosial cəhətdən aztəminatlı və ya qismən orta təminatlı insanların diqqətini cəlb etmək, onlara öz məhsullarını təqdim etmək üçün ilk baxışda iqtisadi cəhətdən əlverişli görünən belə reklamlarda alınan hər hansı məhsula görə hər ay edilən ödəniş müddəti uzandıqca həmin məhsulun tam və birdəfəlik satış qiymətinin üzərinə daha çox faizin gəlməsi faktı diqqətdən kənarda qalır. Əgər potensial alıcı bu faktı nəzərə almadan həmin məhsulun alınmasının məqbul olmasına dair nəticə çıxarırsa, onda onun qarşısı alınmış sübut xətasına yol vermiş olduğu hesab edilir.

Qarşısı alınmış sübut xətasının yarandığı növbəti situasiya aradan keçən zaman müddətində induktiv arqumentdən çıxan nəticənin doğru olması ehtimalını azaldan mühüm hadisələrin baş verməsi faktının nəzərə alınmaması ilə bağlıdır. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

**Nümunə 7**. *27 sentyabr-10 noyabr 2020-ci il Azərbaycan-Ermənistan müharibəsindən öncə Ermənistan cəmiyyətinin ictimai şüurunda belə fikir dərin kök salmışdır*: "1988-1994-cü illərdə baş vermiş olan müharibədə biz qalib gəlmişik. Bu səbəbdən əgər növbəti dəfə müharibə baş verərsə, güman ki, biz yenə qalib gələcəyik."

Ermənistan cəmiyyətinin ictimai şüurunda dərin kök salımış bu arqument birinci müharibənin sona çatmasından sonra aradan keçən 26 il ərzində Ermənistan ilə müqayisədə Azərbaycanın müharibədə qələbə çalmaq üçün zəruri olan iqtisadi və hərbi potensialının dəfələrlə artması, xüsusilə beynəlxalq hərb sənayesinin əhəmiyyətli dərəcədə müasir silah və texnikalarının ona öz rəqibi üzərində həlledici üstünlük qazanmağa imkan verəcək dərəcədə onun hərbi arsenalına daxil edilməsi faktını nəzərə almırdı. Əgər rəqibinin xeyrinə dəyişən qlobal və lokal geosiyasi maraqların təsir imkanlarını da nəzərə almış olsaydı, onda müharibədən öncə Ermənistan növbəti müharibədə onun yenidən qələbə çalması nəticəsinin doğru ola bilmə ehtimalının nə qədər az olduğunu hesablaya bilərdi.

Qarşısı alınmış sübut xətası müqəddəs dini kitablardan (Quran, İncil, Tövrat və s.), konstitusiyadan və ya sadəcə hansısa müəllif kitabından ayrı-ayrı fikirlərin seçilməsi, onların yazıldığı kontekstdən uzaqlaşdırılması və yekunda onlardan arqumentin nəticəsini sübut etmək üçün istifadə edilməsi zamanı tez-tez meydana çıxır. Halbuki bu arqumentlərdə belə kitabların (və ya onun bir hissəsinin) sübut qismində istifadə edilməsi məntiqi cəhətdən yolverilməzdir, çünki ümumi kontekstdən baxarkən onların məzmunu arqumentdən çıxarılan nəticəni dəstəkləmir. Məsələn, ermənilərə qarşı "ideoloji" mübarizənin tərkib hissəsi olaraq düşünülərək bəziləri tərəfindən F.Engelsə istinadən tez-tez təkrar edilən belə bir fikir mövcuddur ki, "Korinfdə[1] və hətta

[1] Korinf qədim yunan şəhər-dövləti olub.

Hindistan məbədlərində qulluq edən ilk rəqqasə və fahişələr erməni kənizləri olmuşlar”. Amma əslində əsərin orijinalında Engels belə qeyd edir: “Ermənistanda Anaitis[1], Yunanıstanda Afrodita[2] ierodulları[3], eləcə də Hindistanda məbədlərdə çıxış edən bayaderka (bailadeira – rəqqasə portuqal sözünün təhrif edilmiş şəkli) adlı dini rəqqasələr ilk fahişələr olmuşdur.”[4] Hətta Engelsə istinadən istifadə edilən bu fikrin tərcüməsindəki təhrifi nəzərə almasaq belə məhz “Tarixdə ilk fahişələr erməni kənizləri olmuşdur” nəticəsini çıxarmaq üçün Yunanıstanda və Hindistanda yerləşən məbədlərdə qulluq edən və qeyri-erməni olan kənizlərin, dini rəqqasələrin də tarixdə ilk fahişələr olması fikri arqumentdə nəzərə alınmadığından orada qarşısı alınmış sübut xətasına yol verilir. Mətnin ümumi konteksinə nəzər salarkən isə onun ümumiyyətlə, “fahişə” anlayının etik müstəvidə mövcud olan mənəvi deqradasiya məzmununu əsas

---

[1] Qədim yunan-roma tarixçilərinin Anaitis adlandırdıqları ilahə Anaitis Avestada su, sağlamlıq, bərəkət və müdriklik ilahəsi Anahita (tam şəkildə Aredvi Sura Anahita) adından götürülüb.

[2] Afrodita qədim Yunanıstanda gözəllik, sevgi, ehtiras və həzz ilahəsinin adıdır.

[3] İerodul qədim yunan söz olub iki sözün – “müqəddəs” və “qul” sözlərinin birləşməsindən yaranıb. İerodullar qədim yunan məbədlərində ya könüllü, ya da məcburən xidmət edir və adətən məbəd fahişəliyi ilə məşğul olan qadınları nəzərdə tuturdu.

[4] Фридрих Энгельс. Происхождение семьи, частной собственности и государства. \\ *Карл Маркс и Фридрих Энгельс. Соч., т. 21.* Москва: 1961, с. 69.

götürərək tarixdə ilk fahişələrin hər hansı etnik qrupa mənsub olması nəticəsinin çıxarılması ilə məntiqi əlaqəsinin olmadığını analiz etmək mümkündür. Belə ki, burada ümumi kontekst tarixdə bəşəriyyətin sivilizasiyaya qədərki və sivilizasiyaya keçid mərhələlərində nikah və ailə münasibətlərinin məruz qaldığı məzmun və forma dəyişikliyinin, məsələn, qrup nikah formasından monoqamiyaya (təknikahlılığa) keçidin analizi ilə bağlıdır və fahişəlik də bəşəriyyətin erkən inkişaf mərhələsində mövcud olmuş *hetaerizm*[1] və onun davamı qismində dini aktın icrası zamanı maddi vəsait qarşılığında cinsi əlaqəyə girmə kimi izah edilir. Müasir erməni tarixşünaslığında tarixi mənbələrin öz xeyirlərinə ciddi şəkildə saxtalaşdırılmasını əsas gətirərək bu arqumentdə qarşısı alınmış sübut xətasını, eləcə də mətnin orijinalında yazılan müvafiq fikirlərin təhrif olunmasını müdafiə etmək cəhdləri özündə həmçinin digər – daha əvvəl nəzərdən keçirdiyimiz *iki yanlış olan bir düzgün olanı doğurur* məntiqi xətasını ehtiva edir. Belə ki, sonuncu məntiqi xətanın analizi zamanı qeyd etdiyimiz kimi, əgər arqumentdə qeyri-etik davranışın icra edilmiş olması səbəbindən eyni davranışın təkrarən icra edilərək əvvəlki qeyri-etik davranışın düzəldilməsi nəzərdə tutulursa, onda bu arqument sözü gedən məntiqi

[1] Hetaerizm adı altında 19-cu əsrdə antropoloqlar bəşəriyyətin inkişafının erkən mərhələsində elə birgə yaşayış formasını nəzərdə tuturdular ki, orada qadınlar tayfanın ümumi mülkiyyəti hesab edilirdi və dünyaya gələn uşaqların ataları heç bir zaman məlum olmurdu.

xətaya yol verir. Unutmaq olmaz ki, yanlış davranışın təkrar edilməsi onu düzgün davranış nümunəsinə çevirməz.

Qarşısı alınmış sübut xətası ilə daha əvvəl nəzərdən keçirdiyimiz *başlanğıc nöqtəsinin fərz edilməsi* xətası arasında oxşarlıq var, çünki hər ikisində arqumentin mühüm müqəddiməsi nəzərdən qaçırılır. Onlar arasındakı fərq isə ondan ibarətdir ki, qarşısı alınmış sübut xətasına yol verən arqumentdə *fərqli* nəticənin çıxarılmasını tələb edən müqəddimə nəzərdən qaçırılır, amma başlanğıc nöqtəsinin fərz edilməsi xətasını özündə əks etdirən arqumentdə *çıxarılan* nəticənin dəstəklənməsi üçün zəruri olan müqəddimə diqqətdən kənarda qalır.

# Mövzu 54. Yalan dilemma

Yalan dilemma xətası nə zaman yaranır? Əgər arqumentdə mürəkkəb məsələ həddindən artıq sadə anlayışlara müncər edilərsə və ya bilərəkdən anlaşılmaz alternativlər irəli sürülərsə, onda bu arqument yalan dilemma xətasına yol verər. Yalan dilemma xətası ilə daha əvvəl nəzərdən keçirdiyimiz *yalan dixotomiya* xətası arasında oxşarlıq var. Əslində sonuncu xəta əvvəlinci xətanın bir növü kimi çıxış edir. Onlar arasındakı fərq ondan ibarətdir ki, yalan dixotomiya seçimlərin sayını ikiyə qədər məhdudlaşdırır, amma yalan dilemmada bu say üç və daha artıq saya qədər məhdudlaşdırıla bilər. Halbuki reallıqda yalan dixotomiya və ya yalan dilemmada nəzərə alınmayan alternativ seçimlər mövcuddur. Yalan dixotomiyanı artıq izah etdiyimizdən diqqətimizi yalan dilemmaya yönəldək. Öncə yalan dillemma xətasına yol verən arqumentlərin strukturunu nəzərdən keçirək:




Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1**. *Restoranın menyusunda belə yazılır:* "Bizim restoranda hamı – həm vegeterianlar, həm veqanlar, həm də ət yeyənlər - öz qida rejiminə uyğun yeməklər sifariş edə bilər."

Bu nümunədə seçimlərin sayı üçə qədər məhdudlaşdırılıb, amma əslində müxtəlif kateqoriyadan olan insanlar tərəfindən istifadə edilən qida rejimlərinin sayı daha çoxdur. Məsələn, bəzi insanlar ət yeyəndir, amma donuz əti yemirlər, bəzi insanlar yalnız orqanik tərkibli qidalar qəbul edirlər və s.

**Nümunə 2**. *İctimai rəy sorğusunda iştirak edənlərdən "Xristianlığın yaradıcısı hesab olunan Nazaretli İsa kim olub?"*

*sualını cavablandırmaq üçün aşağıdakı alternativlərdən birini seçmək təklif edilmişdir*: "İsa ya Tanrının oğlu, ya insanları aldatmağa çalışan yalançı, ya da psixi pozuntudan əziyyət çəkən ruhi xəstə olmuşdur."

Oxşar şəkildə, burada da seçim etmək üçün alternativlərin sayı məhdudlaşdırılmışdır. Halbuki burada nəzərə alınmayan digər alternativlərin də olması mümkündür. Məsələn, islamda qəbul edildiyi kimi, Nazaretli İsanın Tanrının oğlu deyil, yalnız Tanrı tərəfindən göndərilmiş peyğəmbər olması və ya onun tarixdə ümumiyyətlə, mövcud olmaması və yalnız xristianlığın daha sonrakı inkişaf mərhələlərində xristian ilahiyyatçıları tərəfindən uydurulmuş yalançı tarixi fiqur olması nümunədə qeyd olunan sualın cavablandırılması üçün təklif edilən digər alternativlər kimi çıxış edə bilərdi.

# Mövzu 55. Antropomorfizm

Antropomorfizm sözü iki yunan sözünün birləşməsindən yaranıb: *anthropos* (insan) və *morphe* (forma). Antropomorfizm xətası necə meydana çıxır? Əgər insan üçün səciyyəvi olan xüsusiyyətlər, xüsusilə psixi xassələr onlara malik olmayan şeylərə aid edilərsə, onda adı qeyd edilən bu xəta yaranar. Antropomorfizm məntiqi xətası adətən insana məxsus emosiya və davranış tərzlərinin bəzi qeyri-insani varlıqların üzərinə köçürülməsi zamanı meydana çıxır. Bu qəbildən olan məntiqi xətanı özündə əks etdirən arqumentlər aşağıdakı struktura malikdir:




Məsələn, aşağıdakı nümunələri nəzərdən keçirək:

**Nümunə 1.** *Ekoloji böhranların səbəblərinə həsr edilmiş konfransda ekspert bu səbəblərə dair aşağıdakı arqumenti irəli sürür:* "Bizim təbiətə qarşı olan etinasızlığımız və diqqətsizliyimiz təbiəti qəzəbləndirmişdir. Bəşəriyyətin ekoloji fəlakətin bir addımlığına gəlib çatması belə davranışlarımıza görə ana təbiətin bizdən alıdğı intiqamın nəticəsidir."

**Nümunə 2.** *Azərbaycanın əməkdar jurnalisti və və Azərbaycan Yazıçılar İttifaqının üzvü Aqil Abbas "Cıdır düzü niyə müqəddisdir?" adlı yazısında belə yazır*: "Torpaq cadar-cadar olub və bu torpaq da bizlərin həsrətini çəkib. Tanrı bu xalqı elə Şuşa torpağından yaradıb. Ona görə də torpaq da öz övladları üçün darıxıb. Onların ayaq izlərinə, səslərinə, gülüşlərinə 29 il həsrət qaldığından bağrı yarılıb."[1]

**Nümunə 3.** *Gamofobiya*[2] *yaşayan kişi qadınlar ilə qurulan hər cür uzun müddətli münasibətlərdən qaçmağının səbəbini belə izah edir*: "Mən komputerimi qadınlardan daha çox sevirəm. O, məni daha yaxşı anlayır, mənim istəklərimi daha

---

[1] https://www.adalet.az/az/writers/detail/aqil-abbasnbspcidir-duzu-niye-muqeddesdir-2021-09-28-094025

[2] Gamofobiya sözü iki yunan sözünün birləşməsindən yaranıb: *gamos* (nigah) və *phóbos* (qorxu). Psixologiyada bu söz vasitəsilə evlənməkdən və ya uzun müddətli romantik münasibətlər qurmaqdan yaranan qorxunu ifadə edirlər.

tez yerinə yetirir və mənə daha sadiqdir – mənim icazəm olmadan heç kim ilə ünsiyyət qurmur.”

Bu nümunələrin hamısında insana xas olan emosiyalar və ya xassələr qeyri-insani varlıqlarına şamil edilir. Ola bilsin ki, antropomorfizm insan emosiyalarının daha dərindən ifadə tərzi olaraq – məsələn, xüsusilə ikinci nümunəni biz bu kontekstdə nəzədən keçirə bilərik – bədii ədəbiyyatda və ya ezoterik fəlsəfi təlimlərdə öz əksini tapa bilər. Amma bu yanaşma məntiqi cəhətdən yolverilməzdir və özündə qeyri-formal məntiqi xətanı ehtiva edir.

Antropomorfizm müxtəlif dinlərin yaranma səsəblərinin analiz edilməsi kontekstində də maraqlıdır. Məsələn, sivilizasiyaya qədərki və ya sivilizasiyanın erkən tarixi inkişaf mərhələsində bir sıra təbiət hadisələrinin, məsələn, ildırım çaxmasının, tufan yaranmasının və ya daşqın baş verməsinin real səbəbləri insanlar üçün naməlum olduğundan insan təxəyyülündə onları idarə edən fövqəltəbii subyekt qismində müxtəlif tanrı obrazları formalaşırdı. Qədim yunan dinindəki Olimp tanrılarının obrazı buna nümunə ola bilər. Məlum olduğu ki, qədim yunan inancına görə Olimp tanrıları Olimp dağında yaşayırlar və onlar digər ölməz fövqəltəbii varlıqlar olan Titanlarla onillik amansız mübarizədən sonra hakimiyyəti ələ almışlar. Bu inanca görə Olimp tanrılları Olimp dağında məskunlaşan birinci nəsil hesab edilsə də, özləri üçüncü və dördüncü nəsil fövqəltəbii varlıqlar

sayılırdı. Belə ki, qədim yunanlar tanrıların və digər fövqəltəbii varlıqların öz aralarında nikah qurmasına, onların bu qəbildən olan əlaqələrindən (bəzən hətta insanlarla olan seksual əlaqələrindən) övladların doğulmasına inanırdılar. Məsələn, Olimp dağının ilk sakinləri olan on iki Olimp tanrısı yunan dinində adını qeyd etdiyimiz Titanların birinci nəslinə mənsub olan Kron ilə tanrıça Reyanın nəslidir. Baş Olimp tanrısı və ildırım tanrısı olan Zevsin digər Olimp tanrısı - öz bacısı olan tanrıça Hera ilə nikahından müharibə və cəsarət tanrısı Ares, gənclik tanrıçası Heba və b. dünyaya gəlmişlər. Zevsin qədim Yunanıstanda Tirinf şəhər-dövlətinin kralı Amfitrionun cildinə girərək gizlincə onun qadını Alkmena ilə olan seksual münasibətlərindən isə yarı-insan, yarı-tanrı Herakl anadan olmuşdur. Zevsin xəyanətindən xəbər tutan tanrıça Hera qisas almaq məqsədilə gənclik yaşlarında Heraklın ağlını əlindən almış və nəticədə onun öz qadınını və övladlarını öldürməsinə səbəb olmuşdur. Sağaldıqdan sonra Herakldan etdiyi cinayətin cəzasının qarşılığı olaraq, eləcə də bəzi qədim yunan rəvayətlərinə görə isə ölməz olmaq və Olimp dağında yaşamaq hüququ əldə etmək üçün Zevsin istəyi ilə on iki təhlükəli və riskli qəhrəmanlıq göstərmək tələb edilmişdir və s.

Hətta insan sivilizasiyasının daha sonrakı inkişaf mərhələlərində meydana çıxan monoteist dinlərdə də bu qəbildən olan antropomorfizm əlamətlərini müşahidə etmək mümkündür. Məsələn, yəhudiliyin müqəddəs yazılar toplusu hesab edilən

Tanaxda belə qeyd edilir: “Rəbbin gözü salehlərə, qulaqları isə onların fəryadına yönəlib.” (Psalm 34:15). İslamda da bu qəbildən olan antropomorfik fikirlərə rast gəlmək mümkündür: məsələn, “Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur.” (7:54) Bəzi interpretasiyalara əsasən “ərş” sözünün birbaşa mənası “tavanı olan tikili” deməkdir. Bu kontekstdə bu söz məsələn, padşahların taxtı mənasını da verə bilər. Məsələn, bu ayənin ingilis dilində olan tərcüməsində “ərş” sözünün tərcüməsi kimi “throne” (taxt-tac) sözündən istifadə edilir.[1] “Allahın taxt-tacda əyləşməsi” fikrinin interpretasiyası orta əsr islam fəlsəfəsində xeyli mübahisə və müzakirələrə səbəb olmuşdur. Məsələn, ərəb müsəlman teoloqu və hüquqşünası Malik ibn Anas (711-795) insan təxəyyülündə Allahın “əli” və ya “gözü” kimi canlanan Allahın xüsusiyyətlərini insanın eyni qəbildən olan xüsusiyyətləri ilə müqayisə etməyin absurd olduğunu qeyd edirdi.[2] Onun fikrincə, “əyləşmək məlumdur, amma onun modallığ[3]ı naməlumdur. Ona olan inam məcburiyyətdir və onun haqqında suallar

---

[1] https://quran.com/7; https://www.clearquran.com/007.html; https://al-quran.info/#7

[2] Gibril F. Haddad. *The Four Imams and Their Schools*. London: Muslim Academic Trust, 2007. p. 170

[3] Modallıq hər hansı bir şeyin mövcud olması, təcrübədən keçirilməsi və ifadə edilməsi vasitəsidir.

soruşmaq bidətdir."[1] Amma orta əsr islam tarixində mövcud olan digər filosof və teoloqlar qrupundan ibarət Mötəzililər məkbəbinin nümayəndələri belə hesab edirdi ki, Allahın qeyri-maddiliyini və transsendentallığını mühafizə etmək üçün Quranda mövcud olan antropomorfik hissələrin alleqorik interpretasiyası zəruridir.[2]

Təbii ki, burada məqsədimiz müxtəlif dini inanc formalarının məqbul olub olmamasını araşdırmaq deyildir. Sadəcə olaraq bir daha vurğulamaq istəyirik ki, yalnız insana xas olan psixi xassələrin, davranış nümunələrinin və bu qəbildən olan digər şeylərin qeyri-insani varlıqlara şamil edilməsi məntiqi müstəvidə yolverilməzdir. Bu yanaşma yalnız müxtəlif dini inanc formalarına deyil, eləcə də elmə, xüsusilə sosial və humanitar elmlərə yanaşmada da məqbul hesab edilə bilər. Məsələn, K.Marksın (1818-1883) tarix fəlsəfəsindən aşağıdakı fikirləri nəzərdən keçirək: "Tarix ayrı-ayrı nəsillərin bir-birini ardıcıl surətdə əvəz etməsindən başqa bir şey deyildir, bu nəsillərdən hər biri əvvəlki bütün nəsillərin qoyub getdiyi materialdan, kapital və məhsuldar qüvvələrdən istifadə edir; ... Lakin təhrif edilmiş spekulyativ təsvirdə işə elə bir şkil verilir ki, guya sonrakı tarix əvvəlki tarixin məqsədi imiş, məsələn, Amerikanın kəşf edilməsinin əsas məqsədi guya Fransa inqilabının baş

[1] Fakhry Majid. *A History of İslamic Philosophy*. New York: Columbia University Press, 2004, p. xix.
[2] Yenə də orada, s. xx

verməsinə kömək etmək imiş. Bunun nəticəsində tarix özü üçün xüsusi məqsədlər əldə edir və "digər şəxsiyyətlər" ilə yanaşı dönüb bir növ "şəxsiyyət" olur."[1] K.Marks tərəfindən tənqid edilən bu yanaşma əslində individual insana xas olan xassələrin bütövlükdə tarixə və ya qlobal tarixi proseslərə şamil edilməsi ilə bağlıdır ki, məntiqi müstəvidə o, antropomorfizm xətasının meydana çıxması ilə nəticələnir. Tarix fəlsəfəsində bu qəbildən olan məntiqi xətalar insana xas olan xassələrin yalnız qlobal tarixi proseslərə deyil, bəzən böyük sosial qruplara, məsələn, sosial siniflərə, etnik qruplara və s. şamil edilməsi nəticəsində meydana çıxır. Məsələn, Rusiya tarix fəlsəfəsi məktəbinin nümayəndəsi olan N.A. Berdyayev (1874-1948) insana xas olan xassələri tarixi proseslərin müstəqil subyekti kimi qəbul etdiyi xalqlara aid edir: "Xalq tarixi zamanın bu və ya digər hissəsinin empirik təzahürü deyil. Xalq mistik orqanizmdir, mistik şəxsiyyətdir.... Xalq toplanan deyil, o, tarixi prosesin hansısa ilkin və əbədi canlı subyektidir. "[2] Tarix fəlsəfəsində İnsana xas olan xassələrin qeyri-insani varlıqlara şamil edilməsi və ya qeyri-insani varlıqların tarixi proseslərin müstəqil subyekti olaraq qəbul edilməsi məntiqi cəhətdən yolverilməzdir. Ona görə də Rusiya tarix fəlsəfəsi məktəbinin digər nümayəndəsi olan

---

[1] Karl Marks & Fridrix Engels. Feyerbax. Materialist baxışı ilə idealist baxışın əksliyi ("Alman ideologiyasının" 1-ci fəsli). \\ *Karl Marks & Fridrix Engels. Seçilmiş əsərləri*, Cild 1, Bakı: Azərnəşr., 1978, s. 30-31.

[2] Кузнецов В.Г., Кузнецова И.Д., Миронов В.В., Момджян К.Х. *Философия*. Москва: «Наука», 1999, с. 321.

S.L.Frankın (1877-1950) sözləri ilə desək, ”əgər biz cəmiyyətin dərk edilməsində hər hansı dumanlı mistika və ya mifologiyada batıb qalmaq istəmiriksə, onda ümumiyyətlə, orada məhz birgə həyat yaşayan və öz aralarında qarşılıqlı əlaqədə olan ayrıca insanların cəmindən başqa digər nə isə görə bilərikmi? Tam kimi götürülmüş cəmiyyətə məsələn, "ictimai iradə" və ya "xalqın ruh"una dair bütün danışıqlar mahiyyətcə mənasız və qeyri-müəyyən, ən yaxşı halda yalnız hər hansı məcazi, metaforik mənaya malik olan ifadələrdir. Fərdidən başqa heç bir digər "ruh" və ya "şüur"  təcrübədə bizə verilməyib və elm bununla hesablaşmaya bilməz; ictimai həyat son nəticədə fikir və istəklərdən irəli gələn fəaliyyət cəmindən başqa digər şey deyildir, yalnız individual insanlar fəaliyyət göstərə, arzu edə və düşünə bilərlər."[1]

[1] Кузнецов В.Г., Кузнецова И.Д., Миронов В.В., Момджян К.Х. *Философия*. Москва: «Наука», 1999, с. 321.

# Mövzu 56. Xronoloji snobizm

Snobizm ilə bağlı olan qeyri-formal məntiqi xətanı *Argumentum ad Populum* xətasının növlərini analiz edərkən artıq nəzərdən keçirmişik. Qeyd etdiyimiz kimi, *snob* sözü aristokrat olmayıb onu yamsılayan və sosial cəhətdən aşağı təbəqəyə xor baxan adamı bildirir. *Argumentum ad Populum* xətasının növlərindən biri olan snobizmə müraciət arqumentində arqumentin müəllifi qarşı tərəfin başqaları tərəfindən sevilmək, qiymətləndirilmək və daim onların diqqət mərkəzində olmaq istəyi üzərində qurulmuş taktikanı özündə ehtiva edən mövqeyini təqdim edir. Bu arqumentdən çıxan yanlış nəticəyə görə əgər qarşı tərəf başqaları tərəfindən sevilmək, qiymətləndirilmək və daim onların diqqət mərkəzində olmaq istəyirsə, o, arqumentdə irəli sürülmüş mövqeni qəbul edilməlidir. Amma indi nəzərdən keçirdiyimiz *xronoloji snobizm xətasının* məzmunu bir qədər fərqlidir. İlk dəfə keçən əsrin 20-ci illərində filosof və yazıçı Ouen Barfild (1898-1997) tərəfindən izah edilən[1] və sonralar yazıçı Klayv Steyplz Lyuis (1898-1963) tərəfindən elmi-kütləvi ədəbiyyatda populyarlaşdırılan[2] xronoloji snobizm bəşəriyyətin tarixi inkişafının daha sonrakı mərhələlərinə aid olan mədəni,

---

[1] Ətraflı məlumat üçün baxın: Owen Barfield. *History in English Words.* Grand Rapids, 1967.

[2] Ətraflı məlumat üçün baxın: Clive S. Lewis. *Surprised by Joy: The Shape of My Early Life.* New York: Harcourt, Brace & World, 1955.

fəlsəfi və ya elmi ideyaların zəruri olaraq bu inkişafın daha erkən mərhələlərinə aid olan və eyni qəbildən olan ideyalardan daha üstün olduğunu nəzərdə tutur. Bu qəbildən olan məntiqi xətanı özündə əks etdirən arqumentlər aşağıdakı struktura malikdir:




17-18-ci əsrlər Avropa maarifçilik fəlsəfəsində mövcud olan "proqres" anlayışının məzmunundan çıxış edən xronoloji snobizm xətası yanlış olaraq belə hesab edir ki, müvafiq elmi və texnoloji tərəqqi nəticəsində cəmiyyətdə davamlı olaraq artan bilik kütləsi təbii və davamlı şəkildə bütün köhnəlmiş və təkzib edilmiş ideyaları yeni və daha yaxşı əsaslandırılmış ideyalarla əvəz etdiyindən köhnə ideyalar yalnız onların köhnə olması səbəbindən indi artıq düzgün və uyğun deyil. Burada mədəni, fəlsəfi və ya elmi təkamül nəticəsindən bəşəriyyətin erkən tarixi inkişaf mərhələlərində geniş yayılmış və doğru hesab edilmiş bir

çox ideyaların, məsələn, kosmoloji geosentrizm, irqi və ya cinsi diskriminasiya nəzəriyyələrinin sonrakı inkişaf mərhələlərində təkzib edilərək yalan qiymətləndirilməsi fikri doğrudur. Amma məntiqi xətanın yaranmasına yol açan səbəb hər hansı ideyanın məhz onun yaranma və ya geniş yayılma tarixinin uzaq və ya nisbətən uzaq keçmişə gedib çıxması səbəbindən yalan hesab edilməsidir. Belə ki, hər hansı ideyanın təkzib edilərək yalan qiymətləndirilməsi üçün yalnız onun yaranma və ya geniş yayılma tarixi məntiqi cəhətdən sübut olaraq göstərilə bilməz. Burada təkzib etmənin əsaslandırılması üçün həmin faktdan başqa digər sübutların da olması məntiqi cəhətdən zəruridir. Başqa sözlə, ideyanın yaşı onun düzgün olmamasının yeganə sübutu kimi çıxış edə bilməz. Məsələn, kosmoloji geosentrizm, irqi və ya cinsi diskriminasiya nəzəriyyələrinin yalan olması onların yaşı ilə deyil, onların təkzib edilməsinə imkan verən digər sübutların vasitəsilə əsaslandırılmışdır. Məsələn, Yerin Kainatın mərkəzində yerləşdiyini, Günəşin, Ayın, ulduzların və digər bütün kosmik obyektlərin isə Yerin ətrafında dövr etdiyini hesab edən geosentrik model ilk dəfə 1543-cü ildə polyak astronomu və riyaziyyatçısı Nikolay Kopernik (1473-1543) tərəfindən "Göy cisimlərinin fırlanması haqqında" əsərinin yazılması ilə ciddi şübhə altına düşmüşdür. Belə ki, burada Yerin və digər kosmik obyektlərin Günəşin ətrafında dövr etməsi iddia edilir və geosentrik modellə ziddiyyət təşkil edirdi. Halbuki bizim eranın 2-ci əsrində Ptolemey geosentrik modeli riyazi cəhətdən hesablamış və özünün "Böyük düzülüş" kitabında

şərh etmişdir.[1] Amma alman astronomu və riyaziyyatçısı İohann Kepler (1571-1630) tərəfindən aparılan tədqiqatlar, xüsusilə onun tərəfindən irəli sürülmüş və onun adı ilə adlandırılmış Kepler qanunları (planetlərin hərəkət qanunları) N.Kopernik tərəfindən irəli sürülmüş heliosentrik modelin doğru olduğunu və geosentrik modelin isə yalan olduğunu əsaslandırmaq üçün növbəti sübutlar qismində nəzərə alınmışdır. Beləliklə, Kepler qanunlarına görə:

1. Bütün planetlər Günəş ətrafında fokuslarının birində Günəş yerləşən elliptik orbitlər boyunca dövr edirlər;

2. Planetlərin radius-vektorları bərabər zaman fasiləsində bərabər sahələr cızır;

3. Planetlərin Günəş ətrafında siderik dolanma dövrlərinin kvadratı onların böyük yarımoxlarının kubları ilə mütənasibdir.[2]

Oxşar şəkildə, irqi və ya cinsi diskriminasiya nəzəriyyələrinin də yalan olması onların yaşı ilə deyil, onların təkzib edilməsinə imkan verən bir sıra sübutların vasitəsilə əsaslandırılmışdır. Məsələn, 19-cu əsrdə "elmi irqçilik" nəzəriyyəsi ilə irqçiliyi əsaslandırmağa çalışan, bəşəriyyət tarixində ali irq kimi yalnız Ariya (*Aryan*) irqini qəbul edən Artur de Qobino (1816-1882)

---

[1] Cəfər Quluzadə. *Klassik astronomiya.* Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007, s. 99.

[2] Cəfər Quluzadə. *Klassik astronomiya.* Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007, s. 105-109

adlı fransız filosofun fikirləri həmin dövrdə olduqca populyarlıq qazanaraq bir sıra irqçi hərəkatlarının formalaşmasına səbəb olmuşdur. Onun fikrincə, cəmiyyətin sosial təbəqələri arasında üstünlük aristokratlara məxsusdur, çünki onlar aşağı irqdən olan insanlarla daha az qarışdığından ali Ariya irqinə məxsus xüsusiyyətləri daha çox qoruyub saxlaya biliblər. Sivilizasiyada mədəniyyətin yaranmasının səbəbi məhz irqi amilidir. Əsas irqlər hesab olunan "*qara*", "*ağ*" və "*sarı*" irq arasında keçilməz təbii səddlər mövcuddur, ona görə də irqlərin bir-birinə qarışması həmin sədləri aradan qaldıraraq sivilizasiyanı məhv edir, onu xaosa doğru aparır. Bu üç irq arasında "qara" irqə mənsub olanlar fiziki cəhətdən çox güclüdürlər, amma intellektual düşüncəyə sahib deyillər. Qobinonun asiyalılar adlandırdığı "sarı" irqin insanları fiziki və intellektual cəhətdən orta göstəriciyə sahibdirlər, amma çox güclü materialist hədəflərə malik olduqlarından müəyyən məqsədlərə nail olurlar. "Ağ" irqə mənsub olanlar isə yüksək intellektual düşüncəyə sahib olan, fiziki cəhətdən ən gözəl insanlardır, bu səbəbdən "ağ" irq ali irq hesab olunur.[1] Qobino eyni zamanda qara və sarı irqə mənsub olan insanların ağ irqin insanları ilə ümumi əcdadlara sahib olmasını və eyni insan ailəsinə aid olmasını şübhə altına qoyur. Onun fikrincə, Avropa sivilizasiyası qədim sivilizasiyalardan miras qalan ən yaxşı xüsusiyyətləri

[1] Gregory Blue. "Gobineau on China: Race Theory, the "Yellow Peril" and the Critique of Modernity"". *Journal of World History.* 10 (1), 1999, p.100.

özündə cəmləşdirib. İstedadlı qara və ya asiyalı fərdlərin olması onun həmin irqləri aşağı irq hesab edən tezisini təkzib edə bilməz. Beləliklə, Qobinonun fikirlərinin əsasında duran bioloji determinizm intellektual tarixdə tədricən elmi irqçiliyin (*irqçi biologiyanın*) inkişafına təkan verməyə başlayır və irqi diskriminasiyanı əsaslandırmağa cəhd edir. Yalnız ikinci dünya müharibəsindən sonra formal olaraq UNESCO-nun "İrq məsələsinə dair" (1950) adlı qətnaməsindən sonra nəzəri və praktik baxımdan elmi irqçilik düşüncəsi qadağan edilir, mədəni mühitin təsirindən başqa heç bir səbəbin "irqlər" arasında intellektual və xarakter fərqi yarada bilməyəcəyi ideyası qəbul edilir. Belə ki, insanlar arasında bərabərlik və qarşılıqlı hörmət prinsiplərinin pozulması, onların insanlar və irqlər arasında qeyri-bərabərlik kimi cəfəngiyyatlarla əvəzlənməsi son nəticədə bəşəriyyəti İkinci Dünya Müharibəsi kimi dəhşətli fəlakətlər ilə üz-üzə qoyub. Belə ki, irqçilik nəzəriyyəsi faşizm ideologiyasının əsas nəzəri istinad sahələrindən biri olaraq onun müxtəlif insan qruplarının, məsələn, yəhudilərin, qaraçıların, əqli və ya fiziki qüsuru olan insanların kütləvi şəkildə fiziki məhvinə yönəlmiş ideoloji təbliğatının əsasını təşkil etmişdir. Məhz belə dərin antihumanizm və insanlığa qarşı olduqca amansız cinayətlərin törədilməsinə təkan verməsi tarixdə iqri diskriminasiya nəzəriyyələrinin təkzib və beynəlxalq qanunvericilikdə nəzərdə tutulmuş müvafiq qanunlar ilə qadağan edilməsinin sübutu kimi çıxış etmişdir.

Xronoloji snobizm xətası meydana çıxarkən məntiqi mühakimə əsasında arqumentin müqəddiməsini təkzib etməkdən daha çox burada öz əksini tapan ideyanın və ya bu ideyanı təqdim edən insanın bir çox absurd ideyaların və ya davranış tərzlərinin hakim olduğu keçmiş inkişaf mərhələsinə aid olduğunu əsas gətirərək burada məntiqi cəhətdən heç bir bir təkzib etməyə zərurətin olmaması hesab edilir. K.S. Lyuis buna klassik nümunə kimi "orta əsrlər" anlayışı ilə "geridə qalmış" anlayışlarının bir çox hallarda eyniyyət anlayışları kimi qəbul edilməsini göstərir.[1] Bu kontekstdə məsələn, orta əsrlərdə Tanrının mövcudluğunu sübut etmək üçün irəli sürülmüş olan arqumentlərin məntiqi cəhətdən təkzib edilməsi əvəzinə onların məhz orta əsr filosofları tərəfindən təqdim edilməsi səbəbindən cəfəng hesab edilməsi məntiqi olaraq yolverilməzdir.

[1] Clive S. Lewis. *Surprised by Joy: The Shape of My Early Life.* New York: Harcourt, Brace & World, 1955, p.206.

## Mövzu 57. Təstiqləməyə meyl

Təstiqləməyə meyl adlı məntiqi xəta insanın yalnız inanmaq istədiyi, yaxud doğru hesab etdiyi nöqteyi-nəzəri təstiqləyən sübutları axtarıb tapma istəyini özündə ehtiva edir. İnsanlar adətən nəyinsə doğru olduğuna dair özlərinin nöqteyi-nəzərini təkzib edə bilən sübutları axtarıb tapmağa həvəs göstərmirlər. Onlar nəinki həmişə özlərinin nəzər nöqtəsini sübut etməyə və onu təkzib etməməyə çalışır, həm də onunla ziddiyyət təşkil edən hər hansı sübut ilə qarşılaşarkən onu adətən diqqətdən kənardan qoyur və ya hər vəchlə inkar etməyə çalışır. Psixolololoji müstəvidə bu məntiqi xətanın yaranmasının səbəbi insanın təbiətində özünü aldatmağa olan güclü meylin gizlənməsi ilə izah edilə bilər. Beləliklə, təstiqləməyə meyl xətasını özündə əks etdirən arqumentlər aşağıdakı struktura malikdir:




Təstiqləməyə meyl insanın həqiqəti əldə etməsinə mane olan əsas səbəblərdən biri kimi qiymətləndirilə bilər, çünki prinsipcə insanın doğru hesab etdiyi demək olar ki, bütün fikirlər onun üçün məntiqi cəhətdən sanki əsaslandırılmış kimi görünə bilər. Məsələn, fərz edək ki, hər hansı insan "Şaxta Baba mövcuddur" fikrini doğru sayaraq onu məntiqi cəhətdən əsaslandırmaq istəyir. Aydın məsələdir ki, dünyanın hər yerində milyonlarla insan Şaxta Babanın mövcud olduğuna inana bilər, hər il Yeni il ərəfəsində milyonlarla hədiyyə Şaxta Babanın adından təqdim edilə bilər. Bütün bu faktlar sanki "Şaxta Baba mövcuddur" fikrinin doğru olmasını təstiq edən sübutlar kimi çıxış edə bilər. Amma rasional cəhətdən bu fikrin absurd olduğunun, məntiqi müstəvidə "Şaxta Baba" anlayışının həcminə heç bir real obyekt daxil olmayan heçlik (boşluq) anlayış olduğunun xüsusi izahına çox güman ki, ehtiyac yoxdur.

Təstiqləməyə meyl xətası kontekstində insanın özünün inandığı fikri təstiq edən sübutları nəzərə almasının məntiqi cəhətdən yolverilməz olması deyil, onun kifayət etməməsi xüsusilə vurğulanır. Bu zaman insan inanıb sübut etməyə çalışdığı fikrin təkzib edilməsinə yönəlmiş əks arqumentlər ilə tanış olmayana kimi asanlıqla özünü sübut etmək istədiyi fikrin doğru olduğuna inandıraraq təstiqləmə xətasına yol verə bilər. Məsələn, bu məntiqi xətanı tez-tez aralarında mübahisəli tarixi ərazi iddiaları mövcud olan cəmiyyətlərin ictimai şüurunda müşahidə etmək mümkündür. Mübahisəli ərazinin tarixən yalnız ona məxsus olduğunu hesab edən tərəflər onların bu iddiası ilə ziddiyyət təşkil edən hər hansı tarixi fakt ilə qarşılarkən ya onu diqqətdən kənarda qoyur, ya onun məzmununu təhrif edərək bu iddianı təstiqləyən sübut kimi təqdim edir, ya da onu hər vəchlə inkar etməyə çalışır.

Praktiki olaraq təstiqləməyə meyl xətasını sosial həyatın demək olar ki, bütün sahələrində müşahidə etmək mümkündür. İnsanların daha çox təstiq edilmiş olduğuna inandığı məlumatları toplamağa üstünlük verməsi onlarda psixoloji cəhətdən rahatlıq yaradır, ona görə də onlar əks arqumentlərlə içox az hallarda tanış olurlar. Bu mənada məsələn, dindarların yalnız öz müqəddəs dini mətnlərini və ateistlərin yalnız ateist müəlliflərin kitablarını oxumağı onların hər zaman təstiqləməyə meyl xətasına yol verə bilmə ehtimalını yaradır. Əgər müxtəlif dini müqəddəs mətnlər arasında müəyyən fikir ayrılıqlarının

olduğunu nəzərə alsaq, onda məsələn, müsəlmanların yalnız Quran, xristianların yalnız İncil, hinduistlərin yalnız Veda ədəbiyyatı və s. ilə kifayətlənməsi məntiqi cəhətdən arzuedilməzdir. Eyni yanaşma məsələn, müxtəlif siyasi partiyalara mənsub olan insanlar üçün də keçərlidir. Belə ki, iqtidar partiyasına mənsub olan insanların yalnız iqtidaryönümlü mətbuatı, müxalifət partiyasına mənsub olan insanların yalnız müxalifətyönümlü mətbuatı izləməsi onların hər zaman təstiqləməyə meyl xətasına yol verə bilmə ehtimalını yaradır. Bu ehtimalı artıran mühüm səbəblərdən biri insanın nəticə çıxararkən yalnız onunla həmfikir olan insanların fikirlərinə əsaslanmasıdır. Məsələn, prezident seçkisində məğlub olan müxalifət partiyası nümayəndələri yalnız onlarla həmfikir olan insanların seçimini nəzərdə tutaraq “Mən tanıdığım hər kəs bizim partiyanın namizədinə səs verib, deməli, iqtidar partiyasının namizədi seçicilərin səsini oğurlayaraq saxta yolla seçkilərin qalibi olub” arqumentini irəli sürə bilər. Oxşar şəkildə prezident seçkisində qalib olan iqtidar partiyası nümayəndələri yalnız onlarla həmfikir olan insanların seçimini nəzərə alaraq “Mənim tanıdığım hər kəs bizim partiyanın namizədini dəstəkləyir, deməli, onun xalq arasında dəstəyinin zəif olmasına dair müxalifətin iddiaları əsassızdır” arqumentini irəli sürə bilər. Həm müxalifət, həm də iqtidar tərəfindən irəli sürülən bu qəbildən olan arqumentlər hər iki tərəfin yalnız onlarla həmfikir olan insanların fikirlərinə əsaslandığından özündə təstiqləməyə meyl xətasını ehtiva edir.

# Mövzu 58. Konyunksiya xətası

Konyunksiyada iki mülahizə arasında "*və*" məntiqi operatoru vasitəsilə məntiqi əlaqə yaradılaraq daha geniş mürəkkəb mülahizə formalaşdırılır. Konyunksiya vasitəsilə biz irəli sürdüyümüz *hər iki* mülahizənin eyni zamanda doğru olduğunu iddia edirik. Məsələn, "Hər bir insanın alternativ seçim etmək imkanı mövcuddur **və** heç bir xarici təsir bu imkanı məhdudlaşdırmır". Bu konyunksiyada iki sadə mülahizə mövcuddur və "və" məntiqi operatoru vasitəsilə onlar arasında məntiqi əlaqə yaradılmışdır:

1. Hər bir insanın alternativ seçim etmək imkanı mövcuddur. (*p)*
2. Heç bir xarici təsir bu imkanı məhdudlaşdırmır. *(q)*

Beləliklə, hər bir insanın alternativ seçim etmək imkanı mövcuddur və heç bir xarici təsir bu imkanı məhdudlaşdırmır. *($p \wedge q$)*

Beləliklə, p və q mülahizələrindən ibarət olan konyunksiyanı simvolik olaraq ($p \wedge q$) şəklində ifadə edə bilərik. Burada p və q dəyişənləri ($p \wedge q$) konyunksiyasının konyunktları adlanır.[1]

---

[1] Ətraflı məlumat üçün baxın: Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq*. Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2021, s. 20-23.

*Konyunksiya xətası* adından göründüyü kimi konyunksiya ilə bağlı olsa da, məzmun etibarilə o, bir qədər fərqli mənanı ifadə edir. Bu qeyri-formal məntiqi xətanı izah etmək üçün adətən riyazi-koqnitiv psixoloq Amos Tverski (1937-1996) və psixoloq-iqtiadçı Deniel Kaneman (1934) adlı yəhudi mənşəli iki mütəfəkkir tərəfindən irəli sürülmüş "Linda" adlı eksperimentə müraciət edilir[1]:

> *"Linda" problemi*: "Lindanın 31 yaşı var, o, subaydır, açıq sözlüdür və çox parlaq zəkaya malikdir. O, fəlsəfə ixtisası üzrə təhsil alıb. Tələbə olarkən diskriminasiya və sosial ədalət problemləri ilə dərindən maraqlanıb, eləcə də nüvə əleyhinə olan nümayişlərdə iştirak edib. Bütün bu qeyd edilənləri nəzərə alaraq aşağıdakı seçimlərdən hansının doğru ola bilmə ehtimalının yüksək olduğunu müəyyənləşdirin:
>
> 1. Linda bank işçisidir.
> 2. Linda bank işçisidir və feministdir."

Bu eksperimentdə verilən iki seçimdən birini seçmək üçün rəyi soruşulan insanların əksəriyyəti 2-ci seçimi edirlər. Başqa sözlə rəyi soruşulan insanların əksəriyyəti belə hesab edir ki, verilmiş

[1] Amos Tversky & Daniel Kahneman. "Extension versus intuitive reasoning: The conjunction fallacy in probability judgment". *Psychological Review,* 90 (4), 1983, pp. 293–315.

şərtlər çərçivəsində Lindanın həm bank işçisi, həm də feminist olması ehtimalı onun yalnız bak işçisi ola bilmə ehtimalından yüksəkdir. Bu səbəbdən bu eksperimentdə rəyi soruşulan insanların əksəriyyəti *konyunksiya xətasına* yol verir. Belə ki, hər hansı iki hadisənin birlikdə baş vermə ehtimalı həmişə onlardan birinin ayrılıqda baş vermə ehtimalından aşağıdır və ya ona bərabərdir. Məsələn, yuxarıda nəzərdən keçirdiyimiz "Linda" eksperimentində fərz edək ki, "Linda bank işçisidir" hadisəsinin baş vermə ehtimalı çox aşağıdır:

P (*Linda bank işçisidir*) = 0.05.

Amma fərz edək ki, "Linda feministdir" hadisəsinin baş vermə ehtimalı çox yüksəkdir:

P (*Linda feministdir*) = 0.95.

Əgər burada bir hadisənin baş verməsinin digər hadisənin baş vermə ehtimalına təsir etmədiyini nəzərə alsaq, onda

P (*Linda bank işçisidir və feministdir*) = 0.05 × 0.95 = 0.0475

ona görə ki, ehtimal nəzəriyyəsində birgə ehtimal düsturuna görə hər hansı A və B çoxluqlarına nəzərən

P (A ∧ B) = P (A) * P (B)

Beləliklə, "Linda bank işçisidir" hadisəsinin baş vermə ehtimalı "Linda bank işçisidir və feministdir" hadisəsinin baş vermə ehtimalından daha çoxdur:

P (Linda bank işçisidir) > P (Linda bank işçisidir və feministdir), çünki 0.05 > 0.0475.

Bütün bu qeyd edilənləri ümumiləşdirərək konyunksiya xətasının aşağıdakı formulların tələblərini nəzərə almadığını deyə bilərik:

1. P (A $\wedge$ B) $\leq$ P (A)

2. P (A $\wedge$ B) $\leq$ P (B)

Beləliklə, konyunksiya xətasını özündə əks etdirən arqumentlər aşağıdakı struktura malikdir:




Linda problemini aşağıdakı kəsişən Eyler diaqramları vasitəsilə də ifadə etmək mümkündür:




Eyler diaqramları vasitəsilə A ilə C-nin həcm etibarilə müqayisəsi zamanı göründüyü kimi A ilə C arasında kəsişmə sahəsi olan B mövcuddur. Bunu nəzərə alaraq, əgər həcm etibarilə “bank işçiləri”, “feministlər” və “feminist bank işçiləri” anlayışlarını müqayisə edərək onu Eyler diaqramları vasitəsilə ifadə etmək istəsək, onda aşağıdakı konfiqurasiya alınacaq:




Bu konfiqurasiyaya əsasən aşağıdakı insanlar çoxluğunu fərqləndirmək mümkündür:

(1) C-dən kənarda yalnız A-ya daxil olan insanlar çoxluğu – *feminist olmayan bank işçiləri*;

(2) A-dann kənarda yalnız C-yə daxil olan insanlar çoxluğu – *bank işçisi olmayan feministlər*;

(3) A ilə C-nin kəsişmə sahəsi olan B-yə daxil olan insanlar çoxluğu – *feminist bank işçiləri*.

Linda problemində 1-ci seçim ("Linda bank işçisidir") Lindanı A diaqramına daxil edir. Amma burada Linda *yalnız* bank işçiləri (feminist olmayan bank işçiləri) çoxluğuna deyil, *bütövlükdə* bank işçiləri çoxluğuna aiddir. Amma Linda problemində 2-ci seçim ("Linda bank işçisidir və feministdir") Lindanı A ilə C

diaqramlarının kəsişmə sahəsinə olan B-yə daxil edir. Beləliklə, burada Linda *bütövlükdə* bank işçiləri çoxluğuna deyil, *yalnız* feminist bank işçiləri çoxluğuna aiddir. Kəsişən Eyler diaqramları konfiqurasiyasından göründüyü kimi, “bank işçiləri” çoxluğu həcm etibarilə “feminist bank işçiləri” çoxluğundan daha böyükdür, çünki hər bir feminist bank işçisi bank işçisidir, amma hər bir bank işçisi feminist bank işçisi deyildir. Bu səbəbdən Lindanın bütövlükdə bank işçiləri çoxluğuna aid olması ehtimalı onun yalnız feminist bank işçiləri çoxluğuna aid olması ehtimalından daha yüksəkdir. Başqa sözlə, Lindanın bank işçisi olması ehtimalı onun həm bank işçisi, həm də feminist olması ehtimalından daha yüksəkdir.

Müxtəlif ssenarilərin reallaşma ehtimalını müqayisə edərkən konyunksiya xətasına yol verməmək üçün onlardan hər hansı birinin digərinin altçoxluğunu ifadə edib etməməsinə diqqət yetirmək lazımdır, çünki altçoxluqla bağlı ssenarinin reallaşma ehtimalının üstçoxluq ilə bağlı ssenarinin reallaşma ehtimalından daha az olmasına və ya ona bərabər olmasına dair məntiqi nəticə çıxarmaq mümkündür. Belə ki, xüsusi hadisənin baş verməsi ehtimalı bu hadisəni də özündə ehtiva edən ümumi hadisənin baş verməsi ehtimalından yüksək ola bilməz. Məsələn, aşağıdakı nümunəni nəzərdən keçirək:

İndi 2025-ci ildir. 2028-ci ildə Los Angeles şəhərində keçirilməsi nəzərdə tutulan 34-cü Yay Olimpiya Oyunlarında aşağıdakı seçimlərdən hansının doğru ola bilmə ehtimalının

yüksək olduğunu müəyyənləşdirin:

1. Azərbaycan güləşçiləri mükafat qazanacaq.
2. Azərbaycan idmançıları mükafat qazanacaq.

Ilk baxışda təklif edilən birinci diqqəti daha çox cəlb edən seçim ola bilər, çünki Azərbaycanın ilk dəfə müstəqil ölkə qismində iştirak etdiyi 1996-cı il Atlanta Olimpiyadasından başlayaraq indiyədək təşkil edilən bütün yay olimpiyadalarında onun güləşçilərdən ibarət yığma komandasının üzvləri 4 qızıl, 8 gümüş, 14 bürünc medal olmaqla ümumilikdə 26 dəfə mükafat qazanıblar və heç bir olimpiyadan mükafatsız qayıtmayıblar. Ona görə də Azərbaycan güləşçilərinin növbəti olimpiyada da mükafat qazanması ehtimalı yüksəkdir. Amma istənilən halda bu ehtimal Azərbaycan idmançılarının növbəti olimpiyadada mükafat qazanması ehtimalından yüksək ola bilməz, çünki “Azərbaycan güləşçiləri” çoxluğu “Azərbaycan idmançıları” çoxluğunun altçoxluğu kimi çıxış edir. Beləliklə, yuxarıda təqdim edilən birinci hadisənin reallaşma ehtimalı hər nə qədər yüksək olsa da, ikincinin deyil, məhz birincinin seçilməsi konyunksiya xətasına yol açar.

Konyunksiya xətasının məzmununu izah edərkən bu xətaya yol verən insanlar adətən məntiqi cəhətdən düzgün olmayan

nəticə çıxardıqlarını asanlıqla anlayırlar. Amma bununla belə Linda problemində müşahidə etdiyimiz kimi əksər insanların məntiqi mühakimələrində bu qeyri-formal məntiqi xətaya tez-tez rast gəlinir. Başqa sözlə, məsələn, güman ki, rəyi soruşulan əksər insanlar 2028-cü il Los Angeles Olimpiyadasında Azərbaycan idmançılarının deyil, Azərbaycan güləşçilərinin mükafat qazanma ehtimalının yüksək olduğunu hesab edəcəklər. Bəs insanların məntiqi mühakiməsində müşahidə edilən bu xətanın yaranma səbəbi nədir? Bunun əsas səbəbi ümumi hadisə ilə müqayisədə xüsusi hadisədə hadisənin özünün daha ətraflı şəkildə təsvir edilməsidir. Belə ki, formal məntiqdə anlayışın həcmi ilə onun məzmunu arasında əks əlaqə adlanan qanun mövcuddur: anlayışın həcmi artdıqca onun məzmunu azalır və əksinə, anlayışın həcmi azaldıqca onun məzmunu artır. Başqa sözlə, anlayışın məzmununu artırsaq (ona daha çox xüsusiyyət əlavə etsək), o zaman bu anlayışa aid olan obyektlərin sayı azalacaq, yəni həcmi kiçiləcək; anlayışın həcmini böyütsək (daha çox obyekt daxil etsək), o zaman onları ümumi bir anlayış altında birləşdirmək üçün məcburən daha az sayda ortaq xüsusiyyətlə kifayətlənəcəyik, yəni məzmunda azalma olacaq. Məsələn, "Azərbaycan güləşçiləri" (B) həcmcə "Azərbaycan idmançıları" (A) anlayışından kiçikdir. Onların müqayisəsini Eyler diaqramları vasitəsilə aşağıdakı kimi ifadə etmək mümkündür:




Amma məzmun etibarilə bu anlayışlar arasındakı münasibətlər tam əksdir, yəni "Azərbaycan güləşçiləri" (B) məzmun etibarilə "Azərbaycan idmançıları" (A) anlayışından daha genişdir. Belə ki, B anlayışının məzmunu daha çox xassə və ya keyfiyyət göstəricilərindən ibarətdir. Anlayışın həcmi genişləndikcə onun məzmunu daraldığından A anlayışının məzmunu daha az xassə və ya keyfiyyət göstəricilərindən ibarətdir. Bunu nəzərə alaraq qeyd etmək olar ki, xüsusi hadisənin təsviri üçün isitifadə edilən sözün[1] *məzmun* etibarilə ifadə etdiyi məna bu sözün simvolizə

[1] Formal məntiqdə söz adətən simvol kimi nəzərdən keçirilir ki, onun da simvolizə etdiyi varlıq *məna* adlanır. Söz və ya söz birləşmələrindən ibarət olan anlayış da simvoldur, amma onlar yalnız iki növ mənanı – məzmun və həcmi simvolizə edir. Anlayışın məzmun etibarilə mənası onun ifadə etdiyi xassə və ya keyfiyyət göstəricilərindən ibarətdir. Anlayışın həcm etibarilə mənası onun işarə etdiyi sinfin üzvlərindən ibarətdir. Məsələn, "pişik" anlayışının məzmun etibarilə manası tüklü olma, dörd ayağa malik olma,

etdiyi xassə və ya keyfiyyət göstəriciləri ilə daha çox zəngin olduğundan o, bu hadisəni daha ətraflı şəkildə təsvir edə bilir. Əksinə, ümumi hadisənin təsviri üçün isitifadə edilən sözün *məzmun* etibarilə ifadə etdiyi məna daha az zəngin olduğundan o, bu hadisəni o qədər də ətraflı şəkildə təsvir edə bilmir. Hadisənin daha ətraflı şəkildə təsvir edilməsi isə onun doğru ola bilmə ehtimalını sanki yüksəltmiş olur. Məsələn, A.Tverski və D.Kaneman tərəfindən keçirilmiş növbəti eksperiment[1] rəyi soruşulanların fikrinə əsasən aşağıdakı seçimlərdən hansının doğru ola bilmə ehtimalının yüksək olduğunu müəyyənləşdirir:

A) Şimali Amerikada tezliklə 1000 nəfərdən çox insan həyatına son qoyan güclü daşqın baş verəcək.

B) Kaliforniyada tezliklə 1000 nəfərdən çox insan həyatına son qoyan daşqını yaradan güclü zəlzələ baş verəcək.

Beləliklə, eksperimentdə iştirak etmək üçün iki qrup seçilir: 1-ci qrup A hadisəsinin, 2-ci qrup isə B hadisəsinin yaxın gələcəkdə baş verə bilmə ehtimalını qiymətləndirir. Maraqlıdır ki, 2-ci qrupun fikrincə, B hadisəsinin yaxın gələcəkdə baş verə bilmə ehtimalı 1-ci qrupun fikrincə, A hadisəsinin yaxın gələcəkdə baş

---

müəyyən şəkildə hərəkət etmə, müəyyən səslər çıxarma və s. xassələrindən ibarətdir. Bu anlayışın həcm etibarilə mənası yer üzündə mövcud olan bütün pişiklərin özlərindən ibarətdir.

[1] Amos Tversky & Daniel Kahneman. "Extension versus intuitive reasoning: The conjunction fallacy in probability judgment". *Psychological Review,* 90 (4), 1983, pp. 293–315.

verə bilmə ehtimalından daha çoxdur. Eksperimentin sonunda əldə edilən nəticə belədir ki, insanlar individual və ya xüsusi hadisələrin baş vermə ehtimalını yüksək qiymətləndirməyə psixoloji cəhətdən meyllidir. Bu eksperimentdən çıxan nəticəni gündəlik sosial həyata tətbiq etsək, insanların individual və ya xüsusi hadisə ilə bağlı spesifik təsvirlərə əsaslanan yalanlara inanma ehtimalının onların ümumi hadisə ilə bağlı anlaşılmaz, qeyri-müəyyən yalanlara inanma ehtimalından daha yüksək olduğunu qeyd edə bilərik.

# Mövzu 59. Qavrayışın konstruktiv təbiəti

Avropada Maarifçilik dövrünün ən görkəmli mütəfəkkirlərindən biri olan ingilis filosofu Con Lokk (1632-1704) tərəfindən irəli sürülən və empirik epistemologiyanın əsasında dayanan *tabula rasa* nəzəriyyəsinə görə insan zehnində onun zehni fəaliyyətinin başlanğıc nöqtəsi kimi çıxış edə biləcək heç bir anadangəlmə ideyalar mövcud deyildir, insan zehni yalnız təcrübə vasitəsilə bilik əldə edir və özünü formalaşdırır. Bu o deməkdir ki, insanlar anadan olarkən onların zehni "boş vərəq"ə bənzəyir, başqa sözlə, insan zehni anadangəlmə heç bir məzmuna malik olmur. *Tabula rasa* sözünün özü də latın dilindən adətən "boş lövhə" kimi tərcümə edilir. Ona görə də insan zehni yalnız ətraf aləmin hissi qavrayışı, eləcə də qazanılan təcrübə vasitəsilə bilik əldə edib özünü formalaşdırır.

Empirisizm cərəyanının mərkəzində dayanan *tabula rasa* öz ideya kökləri etibarilə hələ qədim yunan fəlsəfəsinə, məsələn, Aristotel fəlsəfəsinə gedib çıxsa da, o, digər fəlsəfi cərəyan - rasionalizm ilə əkslik təşkil edir. Məsələn, sonuncu sistemin ən görkəmli nümayəndələrindən biri olan Rene Dekart (1596-1650) belə hesab edirdi ki, insan zehnində riyazi prinsiplər və ya Tanrı kimi anadangəlmə ideyalar mövcuddur. Empirik elmlər (fizika, kimya, biologiya, psixologiya və s.) psevdo-bilikdən fərqli olaraq gerçək biliyi yalnız ətraf dünya ilə qarşılıqlı əlaqə zamanı

formalaşan hissi qavrayış və qazanılan təcrübə vasitəsilə əldə etməyin mümkünlüyünü hesab edir. Bu qarşılıqlı əlaqə zamanı ətraf dünyanın insan zehnində düzgün obrazı formalaşırsa, dünyanın dərk edilməsi ilə bağlı problem yaranmır. Amma məlum olduğu kimi, insanın hissləri onu yanılda bilər və bu bizim adətən düşündüyümüzdən də tez-tez hallarda baş verə bilər. Bunu elmi cəhətdən müxtəlif səbəblər ilə izah etmək olar ki, bu səbəblərdən biri insan qavrayışının konstruktiv olmasıdır.

İnsan qavrayışının konstruktiv olması nə deməkdir? Fikirlərmizi izah etmək üçün məsələn, görmə prosesini nümunə olaraq götürək. Məlum olduğu kimi, insanın gözləri sadəcə olaraq ərtaf dünyanın rəsmini çəkərək onu insana olduğu şəkildə təqdim etmir. Görmə prosesi əslində mürəkkəb nevroloji prosesdir. Bu prosesi çox sadə və ümumi şəkildə aşağıdakı kimi təsvir edə bilərik:

(1) gözlər ətraf dünya haqqında informasiya qəbul edir;

(2) bu informasiya beyinə ötürülür;

(3) beyin informasiyanı müəyyən meyarlar əsasında müvafiq yollarla interpretasiya edir;

(4) beyin hansı informasiyanın uyğun olmasına dair qərar qəbul edir;

(5) beyin uyğun hesab etmədiyi informasiyaya diqqət yetirmir;

(6) son nəticədə beyin informasiyanı bizə necə təqdim edilməli olduğunu müəyyənləşdirir.

Bir çox hallarda qeyd edilən təqdimat qeyri-dəqiqdir. Belə ki, insan beyni maddi dünyanı passiv şəkildə qeydə alan “cihaz” deyil; əksinə, o, insanın zehnində dünyanın obrazını qurur, bir növ onun “konstruksiyasını” hazırlayır. İnsanın şüurlu şəkildə təcrübədən keçirmiş saydığı hər şey əslində beyinə ötürülmüş informasiyaların olduqca dəqiqlə süzgəcdən keçirilib seçilməsi əsasında dünyanın qismən dəyişdirilmiş və yenidən qurulmuş hekayəsidir. Bu amil insanın ətraf mühitə uyğunlaşması və yaşamağa davam etməsi üçün olduqca vacibdir, amma beyin bunu reallaşdırarkən qəbul etdiyi informasiyanın təqdimatının dəqiq olmasından daha çox onun arasıkəsilməz olmasına, eləcə də məzmun cəhətdən əvvəlkilər ilə uzlaşmasına çalışdığından o, ciddi şəkildə səhvlər ilə müşayiət edilə bilər. Ona görə ki, beyin informasiyanın təminatı və təqdimatı zamanı yaranan bütün boşluqları doldurur və nəticə etibarilə insanın ətraf dünyaya dair qavrayışının məzmununu dəyişdirir.[1] Beləliklə, *qavrayışın konstruktiv təbiəti* adlı xətanı özündə əks etdirən arqumentlər aşağıdakı struktura malikdir:

---

[1] Steven Novella. *The Skeptics Guide to the Universe: How to Know What’s Really Real in a World Increasingly Full of Fake.* Grand Central Publishing, 2018.




Konstruktiv qavrayış üçün ən sadə nümunələrdən biri dünyada bütün maddi cisimlərin, o cümlədən insan vücudunun əsasən boş məkandan ibarət olmasına baxmayaraq, onların insan tərəfindən bərk cisimlər kimi qavranılmasıdır. Belə ki, bütün cisimləri təşkil edən elementar hissəciklərin - atomların daxili quruluşunu analiz etsək, onların əsasən boş məkandan ibarət olmasını qeyd etmək mümkündür. Məlum olduğu kimi, hər bir atomun daxili strukturu onun mərkəzində proton(lar) və neytron(lar)dan ibarət nüvədən və nüvənin ətrafında hərəkət edən elektron(lar)dan ibarətdir. Atomun nüvəsinin atomun özündən 100000 dəfə kiçik olduğunu və atom kütləsinin böyük faiz hesabı ilə nüvədə mərkəzləşdiyini nəzərə alsaq, atomun yerdə qalan hissəsinin boş məkandan ibarət olduğunu hesab etmək mümkündür. Şübhəsiz ki, elmi cəhətdən atomun daxili quruluşunun bu şəkildə təsviri o qədər də adekvat deyildir,

çünki atomun nüvəsi ilə onun ətrafında hərəkət edən elektron(lar) arasındakı məkanı xalis boş məkan olaraq xarakterizə etmək mümkün deyildir. Belə ki, hətta məkanın müəyyən hissəsində bütün şeyləri, o cümlədən elementar hissəcikləri aradan qaldırmaq mümkün olsa belə burada aşağıdakı üç şeyi aradan qaldırmaq mümkün deyildir: (1) vakuum enerjisi, (2) Hiqqs sahəsi, (3) məkan-zaman əyriliyi. Fizika və astrofizikada mühüm tədqiqat sahələrinin əsasında dayanan bu anlayışların məzmununun ətraflı izahına keçmədən – bu izahatlar fizika və riyaziyyat sahəsində dərin analiz və mürəkkəb riyazi hesablamalar tələb edir – qısa şəkildə qeyd etmək mümkündür ki, vakuum enerjisi (həmçinin vakuum dalğalanmaları və ya sıfır nöqtəli enerji də adlanır və ya bu anlayışlar ilə assosiasiya edilir) qısa müddət ərzində görünüb yox olan hissəciklər və antihissəciklər dənizidir. Bunu nəzərə alaraq kvant sahə nəzəriyyəsinə görə elementar hissəciyin əslində sabit və dəqiq təyin edilmiş varlıq deyil, daha çox kvant sahəsinin həyəcanlanmış vəziyyəti kimi xarakterizə oluna biləcəyini ehtimal etmək mümkündür. Belə ki, kvant fizikasında sistemin, məsələn, molekulun, atomun və ya atomun tərkib hissəsinin həyəcanlanmış vəziyyəti sistemin elə kvant vəziyyətidir ki, burada mütləq minimum enerji ilə müqayisədə daha çox enerji mövcuddur. Həyəcanlanma enerji səviyyəsinin seçilmiş başlanğıc nöqtədən, mütləq minimum və ya artıq mövcud olan vəziyyətdən artmasını ifadə edir ki, bu zaman enerji səviyyəsinin artması kvant sahəsində dalğalanma yaradır.

Kvant sahəsində bir nöqtədə qısa müddət ərzində dalğa qabaran zaman elementar hissəcik təzahür edir, həmin nöqtədə dalğa enən zaman isə elementar hissəcik orada yox olur. Başlanğıc nöqtədən enerji səviyyəsinin artması dalğalanmanı bütöv kvant sahəsinin səthinə payladığından bu sahənin müxtəlif nöqtələrində qısa zaman müddətində dalğanın qabarması və enməsi ilə elmentar hissəciklər də görünüb yox olur. Bunu nəzərə alaraq qeyd etmək mümkündür ki, hətta məkanın müəyyən hissəsində bütün şeyləri, o cümlədən elementar hissəcikləri aradan qaldırmaq mümkün olsa belə mütləq boşluq əldə etmək mümkün olmayacaq, çünki məkanın bir nöqtəsində enerjinin miqdarında müvəqqəti nizamsız dəyişiklik – vakuum dalğalanması davam edəcək. Şübhəsiz ki, hətta bütün bunlar belə elementar hissəciklər səviyyəsində fiziki reallığın tam dolğun və adekvat təsviri deyildir, çünki bu bir qədər əvvəl qeyd etdiyimiz kimi bu, fizika və riyaziyyat sahəsində dərin analiz və mürəkkəb riyazi hesablamalar tələb edir. Həmçinin nəzərə almaq lazımdır ki, kvant fizikası, eləcə də kvant sahəsi nəzəriyyəsinin özünün elm çərçivəsində interpretasiyasında xeyli dərəcədə müxtəlif fikir ayrılıqları ilə müşahidə edilir. Amma hər bir halda bu interpretasiyaların insanlar tərəfindən fiziki dünyann intuitiv qavrayışının məzmunu ilə əkslik təşkil təşkil etməsi aydındır. Bu mənada fiziki dünyanın insan zehnində formalaşan obrazının qavrayışın konstruktiv təbiəti nəticəsində yarandığını hesab etmək olar.

Konstruktiv qavrayış üçün digər nümunə olaraq qeyd etmək olar ki, reallıqda obyeklər heç bir rəngə malik deyildir, amma insan onları müəyyən rənglərə malik olan varlıqlar kimi qavrayır. Obyektlər sadəcə olaraq müxtəlif dalğa uzunluğunda olan işığı əks etdirirlər və məhz bu müxtəliflik insanın onları fərqli rənglərdə görməsinə səbəb olur. Amma əslində insan zehnindən kənarda mövcud olan yalnız obyektlər və işıqdır, rəng fenomeni isə beyindaxili neyrodinamik aktivliyin yaratdığı konstruktiv qavrayış nəticəsində meydana çıxır. Bu faktı nəzərə almayan insanlar yanlış olaraq obyektin konkret hansısa rəngə malik olmasına dair obyektiv faktın mövcudluğunu qəbul edirlər və bu səbəbdən hər hansı obyektin onların gördüyü rəngdən fərqli rəngə malik olduğunu hesab edən fikirləri təkzib etməyə çalışırlar. Əslində isə obyekt heç bir rəngə malik olmadığından onun bütün insanlar tərəfindən eyni rəngdə qavranılması zərurəti mövcud deyildir.

İnsan beyni insanın güman, əvvəlcədən formalaşmış fikir, istək, bir sözlə, "dünyagörüşün"dən asılı olaraq hansı informasiyanı necə şərh etməsinə dair qərar qəbul edir. Bunu ən ifrat formada məsələn, beyninin müəyyən hissəsi zədələnmiş olan və ya müəyyən nevroloji xəstəliklərdən əziyyət çəkən insanların davranışında müşahidə etmək mümkündür. Məsələn, hind-amerikan nevroloqu və psixoloqu, Amerikanın San-Diyeqo Kaliforniya Universitetinin professoru V.S. Ramaçandran tərəfindən aparılan bir sıra eksperimentlər zamanı beyninin sağ

yarımkürəsində insult keçirmiş, nəticədə beyin qan dövranının kəskin pozulması nəticəsində baş beyində ocaqlı zədələnmənin yaranması ilə xarakterizə olunan bəzi xəstələrdə maraqlı davranış müşahidə edilir. Belə ki, məlum olduğu kimi, əgər baş beyinin sağ yarımkürəsi zədələnirsə, insan vücudunun sol hissəsi iflic olur, sol aşağı və yuxarı ətrafları hərəkətsiz qalır. Əgər baş beyinin sol yarımkürəsi zədələnirsə, insan vücudunun sağ hissəsi iflic olur, sağ aşağı və yuxarı ətrafları hərəkətsiz qalır. Beləliklə, əgər eksperimentdə iştirak edən xəstənin beyinin sağ yarımkürəsi keçirdiyi beyin insultu nəticəsində zədələnibsə, o, məsələn, heç bir zaman sol əlini qaldıra bilməz. Amma qeyd edilən bu xəstəlikdən əziyyət çəkən bəzi xəstələr israrla bu halı inkar edirlər. Başqa sözlə, onlar beyinin sağ yarımkürəsinin zədəli olmasına rəğmən israrla sol əllərini qaldıra bildiklərini iddia edirlər. Bu halı eksperimental yolla təstiq etmək üçün Ramaçandran belə eksperimentə cəlb olunmuş xəstələrdən əl çalmağı xahiş edərkən, onlar yalnız sağ əli yarıya kimi qaldıra bilir, amma əvəzində sol əli də qaldırdıqlarını iddia edir, hətta sol əlin necə hərəkət etdiyini gördüklərini bildirirlər.[1] Ramaçandranın fikrincə, bu insult nəticəsində beyinin insanın dünyagörüşü ilə ziddiyyət təşkil edən müvafiq informasiyanı ayırd edə bilməməsi və bu səbəbdən dünyagörüş sistemini

---

[1] Ətraflı məlumat üçün baxın: Vilayanur S. Ramachandran. Phantoms in the Brain: Probing the Mysteries of the Human Mind. New York: Harper Collins, 1999.

yeniləyə bilməməsi nəticəsində baş verir. İnsult keçirməzdən əvvəl bu dünyagörüş sistemində insanın vücudunun sol tərəfinin hərəkətli olmasına dair informasiya öz əksini tapırdı və insult keçirdikdən sonra burada mövcud olan informasiya yenilənmədiyindən insan yenə də sistemin əvvəlki – artıq köhnəlmiş olan, ona görə də adekvat olmayan məzmunundan çıxış edir. Bir halda ki, insanın dünyagörüş sistemi onun dünyanı necə qavramağını əhəmiyyətli dərəcədə şərtləndirir, onda insan hətta vücudunun sol tərəfi iflic olarkən belə sol əlini hərəkətli vəziyyətdə qavramış olur.

Qavrayışın konstruktiv təbiəti yalnız beyin xəstəliklərindən əziyyət çəkən insanlarda deyil, ümumiyyətlə, beynində heç bir zədələnmə aşkar edilməmiş “normal” insanlarda da müşahidə edilir. Amerikan nevroloqu və neyropsixoloqu Oliver Saks (1933-2015) özünün “Halusinasiyalar” (2012) kitabında hətta normal insanların da niyə və necə halusinasiyalardan əziyyət çəkdiyini ətraflı izah edir. Onun fikrincə, hər bir insan şəxsi təcrübəsində bu qəbildən olan hadisələrlə qarşılaşa bilər: məsələn, duş qəbul edərkən telefonun zəng çaldığını eşitmiş ola bilərsən, amma əslində telefon zəng çalmayıb; telefonun cibdə vibrasiya etdiyini hiss etmiş ola bilərsən, amma əslində telefon vibrasiya etməyib və s. Bütün bunları konstruktiv qavrayışda ehtiva edilən gözləntilər ilə izah etmək olar. İnsanların nəyin baş verəcəyi barəsində olan gözləntilərinə nəzarət etməklə onların işığın parlayıb sönməyinə, elektrik şoku, istilik, müəyyən qoxu

hiss etməyinə nail olmaq mümkündür.[1] Halbuki bütün bunların heç biri real deyildir.

İnsan beyninin qəbul etdiyi informasiyanın insan tərəfindən necə interpretasiya edilməsinə dair digər ehtimal belədir ki, insan qavrayışında obyektlərin ölçüsü, rəngi və ya forması sabitdir. Bu hətta obyektlərin necə dəyişilməsinin müşahidə edilməsinə baxmayaraq, insan tərəfindən onların eyni şəkildə qavranılmasına imkan verir. Hətta obyektin ətraf mühitdə işıqlandırılması, yaxud insanla obyekt arasında məsafə dəyişsə də, həmin obyektin insan tərəfindən qavranılması eyni şəkildə həyata keçirilir: məsələn, avtobus hətta uzaqda olsa belə o, insan tərəfindən böyük obyekt kimi qavranılır. Digər tərəfdən bütün dəyişikliklərə rəğmən obyektin insan qavrayışındakı nisbi sabit obrazı onun qavrayışda var olan eyniyyətinin qorunub saxlanılmasını təmin edir. Bu qavrayış sabitliyi dünyanın insan tərəfindən nisbi xəta ilə olsa da, düzgün şəkildə qavranılmasına kömək edir, çünki nisbi zaman kəsiyində obyektlər adətən ölçülərini, rəngini və ya formasını dəyişmir. Amma məhz bu amil insan qavrayışında məsələn, vizual illuziyalar qismində yanılmaların yaranmasını da şərtləndirə bilər. Belə illuziyalarda işıq və kölgə vizual informasiyanın insan beyni tərəfindən necə interpretasiya edilməsinə təsir göstərdiyindən məsələn, 1995-ci ildə Massaçusets Texnologiya İnstitutunun professoru Edvard

[1] Theodore Schick and Lewis Vaughn. *How to Think About Weird Things: Critical Thinking for a New Age*. New York: McGraw-Hill, 2014, p. 101.

Adelson tərəfindən yaradılmış *"Dama taxtasında kölgə illuziyası"* adlı məşhur optik illuziyada olduğu kimi əslində eyni rəngə malik olan iki kvadrat müxtəlif rəngə malik olan iki kvadrat kimi qavranıla bilər.

# Mövzu 60. Ekzistensional[1] xəta

Ekzistensional xəta nə zaman yaranır? Əgər səhvən hər hansı sinfin və ya qrupun üzvlərə malik olması nəzərdə tutularsa, bu zaman eksiztensional xəta meydana çıxar. Başqa sözlə, hətta sinif və ya qrupun heç bir üzvü olmasa belə həmin sinif və ya qrup haqqında irəli sürülən mülahizə doğru ola bilər. Məsələn, təkbuynuzlardan[2] ibarət sinfi analiz edək. Biz təkbuynuzların bir buynuzunun olmasının doğru olduğunu qeyd edə bilərik, amma bu zaman individual təkbuynuzların (təkbuynuz sinfinin üzvlərinin) mövcud olmasını düşünməyə ehtiyacımız yoxdur və əslində heç bunu düşünməməliyik.

Sillogistik arqumentasiya müstəvisində sözü gedən məntiqi xəta müqəddimələrin uiversal, nəticənin isə xüsusi mülahizə ilə ifadə edilməsi zamanı meydana çıxır. Belə ki, arqumentin müqəddiməsində "bütün" və ya "heç bir" kvantorları[3] əks edilmiş doğru universal mülahizədən istifadə edilə bilər. Amma

---

[1] Ekzistensional sözü etimoloji cəhətdən latınca "*exsistere*" sözü ilə bağlıdır ki, sonuncu ingiliscə "*existence*" sözünün formalaşmasına başlanğıc vermişdir; "existence" Azərbaycan dilinə "mövcudluq" kimi tərcümə edildiyindən "ekzistensional xəta" əvəzinə "mövcuqluq xətası" sözündən də istifadə etmək olar.

[2] Təkbuynuz gözlərinin arasından tək buynuz çıxan və ata oxşar mifoloji məxluqdur.

[3] Klassik məntiqdə sadə mülahizələr kəmiyyət və keyfiyyət göstəricilərinə görə 4 qrupa ayrılır:

müqəddimənin doğru olması onun "bəzi" kvantoru ilə ifadə edilən məzmununun da doğru olmasını şərtləndirmir, çünki bu məzmun ümumiyyətlə, mövcud olmaya bilər. Məsələn, aşağıdakı mülahizə doğrudur: "Bütün insanlar rasionaldır"[1]. Beləliklə, buradan çıxan məntiqi nəticəyə əsasən "Bəzi insanlar rasionaldır". Başqa sözlə, bu nümunədə ikiqiymətli məntiqi qiymətləndirmə əsasında birinci mülahizənin doğru, amma ikinci mülahizənin yalan olması qeyri-mümkündür. Oxşar şəkildə qeyd etmək olar ki, əgər "Bütün təkbuynuzlar birbuynuzludur" mülahizəsi doğrudursa, "Bəzi təkbuynuzlar

1. Universal təstiqedici mülahizələr: "Bütün S-lər P-dir", məsələn, "Bütün komputerlər hesablayıcı maşınlardır";
2. Xüsusi təstiqedici mülahizələr: "Bəzi S-lər P-dir", məsələn, "Bəzi komputerlər neyrokomputerlərdir";
3. Universal inkaredici mülahizələr: "Heç bir S P deyildir", məsələn, "Heç bir komputer özünüdərk edən varlıq deyildir";
4. Xüsusi inkaredici mülahizələr: "Bəzi S-lər P deyildir", məsələn, "Bəzi komputerlər V nəsil komputerlər deyildir".

[1] Aristotel bütün insanları rasional canlılar olaraq təyin etsə də, 1970-ci illərdə Amerikada həyata keçirilən psixoloji tədqiqatlar əslində insanların qərar qəbul edərkən, mühakimə yürüdərkən, problem həll edərkən bir sıra məntiq xətalarına yol verdiyini, əsaslandırılmamış koqnitiv önyarğılardan çıxış etdiyini sübut etmişdir. Ona görə də insan davranışını öyrənən bəzi tədqiqatçıların fikrincə, insanlar əslində irrasional canlılardır. Amma elmdən fərqli olaraq məntiqin vəzifəsi empirik məlumatların doğru, yoxsa yalan olduğunu yoxlamaq deyildir. O, yalnız müqəddimə(lər) qismində çıxış edən bir və ya bir neçə mülahizədən düzgün şəkildə nəticənin necə çıxarıla biləcəyini öyrənir. Ona görə də məntiqi cəhətdən biz qeyd edə bilərik ki, əgər "Bütün insanlar rasionaldır" mülahizəsi doğrudursa, onda "Bəzi insanlar rasionaldır" mülahizəsi də doğrudur.

birbuynuzludur" mülahizəsi də doğrudur. Amma onların məzmununun müasir simvolik məntiqin bir sahəsi olan *predikatlar məntiqində* analizi fərqlidir. Belə ki, "Bütün insanlar rasionaldır" mülahizəsini adı qeyd edilən məntiqdə belə ifadə edə bilərik:

$(\forall x)(İx \rightarrow Rx)$

Burada $\forall$ simvolu "bütün" kvantorunu, İ dəyişəni "insan" anlayışını, R dəyişəni isə "rasional" anlayışını bildirir. Predikatlar məntiqində bu, aşağıdakı məzmunu ifadə edir: "Bütün x-lara nəzərən qeyd edə bilərik ki, əgər x insandırsa, onda x rasionaldır". Başqa sözlə, verilmiş domendə x həm "insan", həm də "rasional" kateqoriyasına daxildir.

Biz "Bəzi insanlar rasionaldır" mülahizəsini də predikatlar məntiqinin simvolik dilinə çevirə bilərik, amma burada "bütün" deyil, "bəzi" kvantoru iştirak etdiyindən simvolik ifadə fərqli struktura malik olmalıdır:

$(\exists x)(İx \wedge Rx)$

ifadəsində $\exists$ simvolu "bəzi" kvantorunu, İ və R dəyişənləri əvvəlki kimi müvafiq olaraq "insan" və "rasional" anlayışlarını bildirir və aşağıdakı məzmunu ifadə edir: "Həm insan, həm də rasional olan heç olmazsa bir x *mövcuddur*". Başqa sözlə, verilmiş domendə həm "insan", həm də "rasional" kateqoriyasına daxil olan heç olmazsa bir x mövcuddur. Məhz

buna görə predikatlar məntiqində ∃ simvolu ekzistensional kvantoru bildirir. İkiqiymətli məntiq qiymətləndirilməsində (∃x)(İx ∧ Rx) 1 (doğru) qiymətini alır, çünki həm "insan", həm də "rasional" kateqoriyasına daxil olan heç olmazsa bir x mövcuddur.

"Bütün təkbuynuzlar birbuynuzludur" mülahizəsini predikatlar məntiqində belə ifadə edə bilərik:

( ∀x)(Tx → Bx).

Burada ∀ simvolu "bütün" kvantorunu, T dəyişəni "təkbuynuz" anlayışını, B dəyişəni isə "birbuynuzlu" anlayışını bildirir. Predikatlar məntiqində nəzərdən keçirilən bu mülahizə aşağıdakı məzmunu ifadə edir: "Bütün x-lara nəzərən qeyd edə bilərik ki, əgər x təkbuynuzdursa, onda x birbuynuzludur". Başqa sözlə, verilmiş domendə x həm "təkbuynuz", həm də "birbuynuzlu" kateqoriyasına daxildir.

"Bəzi təkbuynuzlar birbuynuzludur" mülahizəsini də predikatlar məntiqinin simvolik dilinə çevirə bilərik, amma burada "bütün" deyil, "bəzi" kvantoru iştirak etdiyindən simvolik ifadə fərqli struktura malik olmalıdır:

(∃x)(Tx Λ Bx)

ifadəsində ∃ simvolu "bəzi" kvantorunu, T və B dəyişənləri əvvəlki kimi müvafiq olaraq "təkbuynuz" və "birbuynuzlu" anlayışlarını bildirir və aşağıdakı məzmunu ifadə edir: "Həm

təkbuynuz, həm də birbuynuzlu olan heç olmazsa bir x mövcuddur". Başqa sözlə, verilmiş domendə həm "təkbuynuz", həm də "birbuynuzlu" kateqoriyasına daxil olan heç olmazsa bir x mövcuddur.

Amma (∃x)(İx ∧ Rx) ifadəsindən fərqli olaraq (∃x)(Tx ∧ Bx) ifadəsi ikiqiymətli məntiq qiymətləndirilməsində 1 (doğru) qiyməti ala bilməz, çünki həm "təkbuynuz", həm də "birbuynuzlu" kateqoriyasına daxil olan heç olmazsa bir x mövcud deyildir.

Beləliklə, bəzi universal mülahizələrdə mövcudluq artibutu ehtiva edilməsə də, onlar doğru qiymətləndirilə bilər. Məsələn, hətta heç bir qanun pozan olmasa belə "Bütün qanun pozanlar məsuliyyətə cəlb edilir" mülahizəsi doğru ola bilər. Amma biz verilmiş hər bir sinif və ya qrupun üzvlərə malik olduğunu (onlara mənsub üzvlərin mövcud olduğunu) güman etsək, onda mövcudluq atributunu onlara aid etməklə məntiqi xətaya yol verə bilərik. Universal mülahizələrdə bu qəbildən olan xətalardan yayınmaq mümkündür, çünki nəzərdən keçirdiyimiz kimi, predikatlar məntiqində o, prinsipcə özündə *hipotetik* situasiyanı ehtiva edir: "Bütün x-lara nəzərən qeyd edə bilərik ki, əgər x birinci kateqoriyaya daxildirsə, onda x ikinci kateqoriyaya da daxildir"[1]. Biz burada x-ın birinci kateqoriyaya

[1] Predikatlar məntiqində bu mülahizə bəzən aşağıdakı kimi də ifadə edilir: "Bütün x-lara nəzərən qeyd edə bilərik ki, əgər x birinci rolu icra edirsə, onda x ikinci rolu da icra edir".

daxil olduğunu, yuxarıdakı nümunələrə nəzərən məsələn, x-ın insan və ya təkbuynuz olduğunu qəti şəkildə iddia etmirik. Amma universal mülahizələrdən fərqli olaraq xüsusi mülahizələr prinsipcə özündə *qəti* situasiyanı ehtiva etdiyindən belə iddia mövcuddur: "Həm birinci, həm də ikinci kateqoriyaya daxil olan heç olmazsa bir x mövcuddur". Ona görə də universal mülahizələrdən fərqli olaraq xüsusi mülahizələrdə *ekzistensional xətalardan* yayınmaq qeyri-mümkündür, çünki qeyd etdiyimiz kimi, məsələn, yuxarıdakı ikinci nümunədə həm "təkbuynuz", həm də "birbuynuzlu" kateqoriyasına daxil olan heç olmazsa bir x mövcud deyildir.

Universal mülahizələrdə ekzistensional məntiq xətalarından yayınmaq mümkündür olsa da, bu qəbildən olan mülahizələrin ekzistensional müstəviyə etibarlı şəkildə keçid etmədiyini hər zaman xatırlamaq lazımdır. Başqa sözlə, bəzi universal mülahizələr ekzistensional müstəvidə mövcud olmasa da, onlar doğru qiymətləndirilə bilər. Məsələn, hətta cinayətkar mövcud olmasa da, "Bütün cinayətkarlar cəzalandırılır" mülahizəsi doğrudur: əgər x cinayətkardırsa, onda o, cəzalandırılır, amma məntiqi cəhətdən bu, hər zaman "Cinayətkar mövcuddur" nəticəsini doğurmur. Digər nümunəyə nəzər salaq: "Bütün Fransa kralları Fransada məskunlaşmalıdır. Ona görə də Fransa kralı Fransada yaşayır." Formal məntiq nöqteyi-nəzərindən bu nümunədəki arqument düzgün qiymətləndirilə bilər, amma onun nəticəsi "Fransa kralı mövcuddur" mülahizəsini nəzərdə

tutduğundan o, qeyri-formal məntiq baxımından ekzistensional xətaya yol vermişdir. Belə ki, məlum olduğu kimi, Fransada monarxiya idarəetmə sistemi yalnız orta əsrlərdə və erkən müasir dövrdə mövcud olmuş, daha sonra isə respublika sistemi ilə əvəzlənmişdir. Ona görə də müasir dövrdə Fransa krallığı mövcud olmadığından Fransa kralı da mövcud deyildir.

Məntiq tarixində ekzistensional xətanın məzmunu *dictum de omni* adlanan prinsip ilə bağlıdır. Aristotel məntiqində (və ya sillogistik məntiqdə) əks edilən bu prinsipə görə hər hansı sinifə nəzərən təstiq və ya inkar edməsi mümkün olan istənilən şey bu sinfin hər bir üzvü (elementi) tərəfindən də təstiq və ya inkar edilə bilər. Məsələn,

$M_1$. Bütün məməlilər sinir sisteminə malikdir.

$M_2$. Bütün şimpanzelər məməlidir.

$N$. Bütün şimpanzelər sinir sisteminə malikdir.

Burada $M_1$ məməlilər sinfinin konkret atributa malik olmasını təstiq edir; $M_2$ şimpanzenin məməlilər sinfinin üzvü olmasını ifadə edir; $N$ məməlilər sinfinə nəzərən doğru olanın bu sinfin üzvü qismində şimpanzeyə nəzərən doğru olduğunu bildirir. Amma bu prinsip əsasında digər arqument nümunələrində mövcudluq iddasının əsaslandırılması qeyri-müəyyənliyə yol aça bilər. Bu qeyri-müəyyənlikdən qaçmaq üçün predikatlar məntiqində mövcudluq iddiası aydın şəkildə ifadə edirlir. Bu

məqsədlə burada Aristotel məntiqindəki “bütün” və ya “heç bir” kvantorları “hər bir” ilə əvəzlənir, həmçinin universal mülahizələr sanki şərti mülahizələr kimi nəzərdən keçirilir. Beləliklə, Aristotel məntiqindəki “Bütün S-lər P-dir” mülahizəsi predikatlar məntiqində “Hər bir x-a nəzərən, əgər x S-dirsə, onda x P-dir” formasında ifadə edilir:

$(\forall x)\ (Sx \rightarrow Px)$

Bu o deməkdir ki, əgər reallıqda verilmiş olan domenə aid olan hər bir x element S rolunu icra edirsə, onda o, P-dir. Amma burada S-in mövcudluğu qəti şəkildə irəli sürülmür.

# İstifadə edilmiş ədəbiyyat

## *Azərbaycan dilində:*


1. Cəfər Quluzadə. *Klassik astronomiya.* Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007.
2. Elmar Hussein. *Mülahizələr məntiqi. Fəlsəfə və qeyri-səlis məntiq*. Bakı: "Parlaq İmzalar" nəşriyyatı, 2021.
3. Elmar Hussein. *Tarix fəlsəfəsi. Universal tarixi şüurun inkişaf dinamikası.* Bakı: "Füyuzat" nəşriyyatı, 2022.
4. Elmar Hussein. Tarix fəlsəfəsi II kitab. *Universal tarixi proposeslərə dair formasiya və sivilizasiya konsepsiya-larının müqayisəli analizi.* Bakı: "Füyuzat" nəşriyyatı, 2023.
5. Elmar Hussein. *Elm fəlsəfəsi. Əxlaqi məsuliyyət və alternativ imkanlar. Frankfurta cavab*. Bakı: "Füyuzat" nəşriyyatı, 2024.
6. Emin İmanlı. *Tanrı. Fəlsəfi arqumentlər.* Bakı: "Aqora" nəşriyyatı, 2022.
7. Əlövsət Allahverdiyev. *Belnəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər.* Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2017, s. 14-15.
8. Karl Marks & Fridrix Engels. Feyerbax. Materialist baxışı ilə idealist baxışın əksliyi ("Alman ideologiyasının" 1-ci fəsli). \\ *Karl Marks & Fridrix Engels. Seçilmiş əsərləri*, Cild 1, Bakı: Azərnəşr., 1978.

9. Rauf İmranoğlu. *Məntiq*. Bakı: “Parlaq İmzalar” nəşriyyatı, 2018.

## *İngilis dilində:*

1. Amos Tversky & Daniel Kahneman. "Extension versus intuitive reasoning: The conjunction fallacy in probability judgment". *Psychological Review,* 90 (4), 1983.
2. Bart Kosko. *Fuzzy thinking: the new science of fuzzy logic.* Hyperion: 1992.
3. Christopher J. Martin. “William’s Machine”. *Journal of Philosophy* 83, 1986, pp. 564 – 572.
4. Clive S. Lewis. *Surprised by Joy: The Shape of My Early Life.* New York: Harcourt, Brace & World, 1955.
5. Daniel M. Wegner. Who is the Controller of Controlled Processes? In the *New Unconscious*, ed. by Ran R. Hassin, James S. Uleman, John A. Bargh. Oxford: Oxford University Press: 2011.
6. Douglas Walton. *Arguments from Ignorance.* Pennsylvania State University Press, 1995.
7. Douglas Walton. *Informal Logic. A Pragmatic Approach. Cambridge University Press,* 2008.
8. Elmar Hussein. *Logic*. Baku: “Ecoprint” Publishing House, 2020.

9. Fakhry Majid. *A History of İslamic Philosophy*. New York: Columbia University Press, 2004.
10. George J. Klir & Bo Yuan. *Fuzzy Sets and Fuzzy Logic: Theory and Applications.* New York: Pearson College, 1995.
11. Gibril F. Haddad. *The Four Imams and Their Schools*. London: Muslim Academic Trust, 2007.
12. Graham Priest. What's so bad about contradictions? In *The Law of Non-Contradiction* by Graham Priest, JC. Beall & Bradley Armour-Garb. Oxford: Clarendon Press, 2011.
13. Gregory Blue. "Gobineau on China: Race Theory, the "Yellow Peril" and the Critique of Modernity"". *Journal of World History.* 10 (1), 1999.
14. Gregory N. Mankiw. *Principles of Microeconomics* (5th ed.). Mason: Cengage Learning, 2009.
15. Hans Sluga. *Gottlob Frege*. London: Routledge, 1980.
16. Ingo Farin & Jeff Malpas. *Reading Heidegger's Black Notebooks 1931-1941.* Cambridge: The MIT Press, 2016.
17. Jacob E. Van Vleet. *Informal Logical Fallacies. A Brief Guide*. University Press of America, 2011.
18. John Stuart Mill. *Ultimate Collection: Works on Philosophy, Politics and Economy*. Randolph: "Madison and Adams" Press, 2017.
19. John Stuart Mill. A System of Logic Ratiocinative and Inductive: Being a connected view of the Principles of

Evidence and the Methods of Scientific Investigation. In *The Collected Works* of J.S.Mill, Volumes 7 (Books I–III), 8 (Books IV–VI), J.M. Robson (ed.) Toronto: Routledge (1843) 1973.

20. John Stuart Mill. An Examination of Sir William Hamilton's Philosophy. In *The Collected Works* of J.S. Mill, Volume 9, J.M. Robson (ed.), London: Routledge, (1865) 1979.
21. John Henry Newman. *Apologia Pro Via Sua (A Defense of One's Life).* Dover Giant Thrift Editions, 2005.
22. John Dewey. "The Reflex Arc Concept in Psychology". *Psychological Review* 3, 1896, pp. 357–370.
23. Leo Strauss. *Natural Right and History.* Chicago: The University of Chicago Press, 1951.
24. Lyson R. Tyler, Antoine Bercovici, Stephen G. B. Chester, Eric J. Sargis, Dean Pearson & Walter G. Joyce. Dinosaur extinction: closing the '3 m gap'. B*iology Letters.* Vol. 8, No 1, 2011.
25. Norman Kretzmann & Eleonore Stump. *Logic and the Philosophy of Language. The Cambridge Translations of Medieval Philosophical Texts.* Vol. 1. Cambridge University Press, 1988.
26. Owen Barfield. *History in English Words.* Grand Rapids, 1967.
27. Philip Dick. *The Minority Report and Other Classic Stories.* New York: "Kensington" Publishing, 1987.

28. Robert Arp, Steven Barbone & Michael Bruce. *Bad Arguments. 100 of the most important Fallacies in Western Philosophy*. Wiley Blackwell: 2019.
29. Robert Kane. Introduction: The Contours of Contemporary Free Will Debates (Part 2). In The *Oxford Handbook of Free Will*, edited by Roberd Kane. Oxford: Oxford University Press, 2011.
30. Robert S. Jones. Gold in Meteorites and in the Earth's Crust. *Geological Survey Circular* 603, 1974.
31. Sigmund Freud. *The Interpretation of Dreams.* New York: The McMillan Company, 1900.
32. Steven Novella. *The Skeptics Guide to the Universe: How to Know What's Really Real in a World Increasingly Full of Fake.* Grand Central Publishing, 2018.
33. Theodore Schick and Lewis Vaughn. *How to Think About Weird Things: Critical Thinking for a New Age*. New York: McGraw-Hill, 2014.
34. Thomas Gilovich, Robert Vallone & Amos Tversky. "The Hot Hand in Basketball: On the Misperception of Random Sequences". *Cognitive Psychology 17*, 1985, pp. 295-314.
35. Thomas W. Evans. *The Education of Ronald Reagan: The General Electric Years and the Untold Story of His Conversion to Conservatism.* New York: Columbia University Press, 2008.

36. Vilayanur S. Ramachandran. *Phantoms in the Brain: Probing the Mysteries of the Human Mind.* New York: Harper Collins, 1999.
37. William James. *The Principles of Psychology*. New York: Henry Holt, 1890.

## *Rus dilində:*

1. Фридрих Энгельс. Происхождение семьи, частной собственности и государства. \\ *Карл Маркс и Фридрих Энгельс. Соч., т. 21.* Москва: 1961, с. 69.
2. Кузнецов В.Г., Кузнецова И.Д., Миронов В.В., Момджян К.Х. *Философия*. Москва: «Наука», 1999.